
ZƏLİMXAN YAQUB

ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ



"Şərq-Qərb"
Bakı – 2013



Hakimsiz, dinamiksiz düzeli mi olan,
Tatlarsın sevdiğin bu yer üzünde.
Tüzün içinde dirliğin olan
Yegane mutluluk bu yer üzünde.

Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, IX cild.
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 352 səh.

Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

Xalq şairi Zəlimxan Yaqubun 13 cildlik əsərləri külliyyatının 9-cu cildinə müxtəlif mövzularda yazdığı poemaları daxil edilmişdir.

ISBN 978-9952-34-982-5

Şərq Qərb East West
1986-cı ildən since 1986

www.eastwest.az
www.fb.com/eastwest.az

© Zəlimxan Yaqub, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

GÖYÇƏDƏN GƏLƏN SƏSLƏR

TƏBİƏTİN NƏFƏSİ

Şeh düşdü göy çəmənə,
Göz vurdu göy çəmənə,
Ələsgəri çağırdım,
Səs verdi Göyçə mənə!

Açılıb Göyçənin gülü-çiçəyi,
Həmdəmi nəğmədi, sirdaşı sazdı.
Öpür duyğuları bahar küləyi,
Gələn yaz fəslidi, gedən ayazdı.

Bu yer həqiqətdi, yoxsa bir nağıl?
Hara boylanırsan yaşıl xalıdır.
Görən göz istəyir, götürən ağıl,
Güllər ləçək-ləçək oxunmalıdır.

Gözəllik fikrimi min yerə çəkdi,
Duyulan heç nədir, duyan olmasa.
Bülbülün cəh-cəhi kimə gərəkdi,
Səsinə səs verən, həyan olmasa!

Vaxt olub, çapılıb, vaxt olub, çapıb,
Qeyrətə heykəldi burda qayalar.
Ucalıb göylərə, ölməzlik tapıb,
Çimib ömrü boyu nurda qayalar!

Oxuyan bülbüllər, ötən qumrular,
İlkin ozanıdır bu təbiətin.

Havacat üstündə çağlayır sular,
Kökü torpaqdadır şeirin, hikmətin.

Nəğmələr yaşadıb bulaq səsində,
Eşidən – ilahi şeiriyyət tapıb.
Şeh ilə yarpağın öpüşməsində
Hər duyan bir məna, bir hikmət tapıb.

Yoxdur bulanmağı nə payız, nə qış,
Varlığı heç zaman götürməz ləkə.
Saflığa çağırış, xeyrə çağırış,
Bulağın gözündən başlanır bəlkə?!

Yağışın damlası, buludun nəmi,
Hər gün varlığına hopur adamın.
Günəş dolansa da bütün aləmi,
Yurdunu qəlbində tapır adamın.

Dərələr boyunca coşur, çağlayır,
Sellər deyişməyə adam axtarır.
Təbiət insanla ülfət bağlayır,
Sirrini açmağa məqam axtarır!

Küləyin ahəngi, mehin dalğası,
Ruha layla çalır bizdən xəbərsiz.
Hislərin təmizi, sözlərin xası,
Axır ürəklərə gözdən xəbərsiz.

Duyğunu, ilhamı mayalandırır,
Torpaq sünbül kimi, sünbül dən kimi.
Ümid çırağını həyat yandırır,
Göyərir arzular göy çəmən kimi.

Bu qoca dağlarla əyləş diz-dizə,
Gör nələr danışır, insana nələr.

Zili də, bəmi də tanıdır bizə,
Asta pıçıltılar, dəli nərələr!

Ətrini qoxladım, barını dərdim,
Həmişə ömrümə qol-qanad olub.
Bu dağlar olmasa elə bilərdim,
Nə Kərəm yaşayıb, nə Fərhad olub.

Bu beşik dərələr, bələk cığırlar,
Anatək qol açır, hər doğulana.
Təbiət hər dəfə yetirəndə bar,
Keçib təravəti iliyə, qana.

Şəlalə qoşmalar, çay bayatılar,
Dinəndə daşa da dil verə bilir.
Bahar nəfəsində Tanrı hökmü var,
Qayalar köksündə gül verə bilir.

İlhama güvənir hər təmiz dilək,
İlhamdan doğulur könüllərdə nur.
Enir bəxtimizə dövlət quşutək,
Ruhu olanların çiyninə qonur.

Vergi dediyimiz müqəddəs payı,
Yerə də, göyə də təbiət verir.
Tikilir, sökülür ömrün sarayı,
Zaman hər əmələ bir qiymət verir.

Düşüb təbiətin ən xoş vaxtına,
Verəndə Göyçəyə eşqi, ilhamı.
Yerin qismətinə, göyün baxtına,
Doluymuş ürəyi, doluymuş camı.

Bu torpaq beləydi, oturan, duran,
Şeirin əsiriydi, sözün acıydı.

Sözdə sehrləyən, səsdə xal vuran,
Gözün işığıydı, başın tacıydı.

Onun məclisləri sözlü, havalı,
Duyğular sellərtək aşıb-daşardı.
Toylar keçirəndə Göyçə mahalı
Kənd-kəndlə, el-ellə qucaqlaşardı!

Ölməzlər yetirən bir mahala bax,
Eşqi sinələrdə çatdı gur ocaq.
Bu qüdrət hardandı, ey ana torpaq?
Önündə həmişə can heyrətdədir!

Az olur həyatda nəğməyə dönən,
Ellərin diliylə danışan, dinən.
Kimlərdi ucalan, kimlərdi enən,
Hökmü də, sirri də təbiətdədir!

İnsandır dilinin ən şirin sözü,
İnsandır ürəyi, insandır gözü,
Təpədən-dırnağa təbiət özü,
Qəlbin yaşatdığı məhəbbətdədir!

Görüşdü bir axşam bəxt ulduzları,
Almәmməd qovuşdu Pərizadına!
Ulu bir sevginin meyvəsi, barı,
Ucalıq gətirdi eşqin adına.

Nələrə qadirmiş dünyada insan,
Tarixə dönərmiş ünvanı, adı.
Bu iki ulduzun qovuşmağından
Bir sənət işığı yandı, parladı!

Kişilər içində aqil bir kişi,
Həyatda bir oğul boy atmalıydı!

Görüb gələcəyi, duyub keçmişi,
Yatan duyğuları oyatmalıydı!

Baxıb nəsillərin ehtiyacına,
Zaman bu kəsiri bitirməliydi.
Şeirini bənzədib bar ağacına,
Bir Aşıq Ələsgər yetirməliydi!

EHTİYAC

Dirsəyi dizində, əli üzündə,
Yenə fikirlidir Alməmməd kişi.
Arzular açılır, solur gözündə,
Tutqundu, sirlidir Alməmməd kişi.

Unluğun unu yox, dənliyin dəni,
Fikri gah dağdadır, gah da aranda.
Enir gözlərinə payızın çəni,
Çörək tükənəndə, duz qurtaranda.

Dərdin alovunda qovrulur sinə,
Özü təkbaşına, külfəti ağır.
Bərəkət yerinə, nur əvəzinə
Hər yandan üstünə ehtiyac yağır.

Geriyə çəkilmək deyil ki, asan,
Elin adəti var, toyu, yası var.
Gərək baş çıxardıb, üz ağardasan,
Hər kəsin bir cürə təmənnası var.

Götür-qoy edərdi əvvəli, sonu,
Qalmazdı heç kəsin xeyir-şərindən.
Yoxsulluq sınağa çəksə də onu,
Əli soyumazdı öz işlərindən.

Gün döydü, zirvənin əridi qarı,
Neçə payız gəldi, neçə yaz oldu.
Ancaq ehtiyacın nəs ayaqları
Onun qapısından qayıtmaz oldu.

Arabir sazıydı başını qatan,
Beş gün qəm çəkəndə bir gün şad oldu.
Dar gündə hay verib dadına çatan,
Ömür-gün yoldaşı Pərizad oldu.

Qəlbini sıxmadı olsa da qadın,
Ürək-dirək verdi hərdən ərinə.
Sınmadı içində qohumun, yadın,
Güvəndi gücünə, biləklərinə.

Baxmadı zülmünə dövrün, zamanın,
Döşündən süd verdi balalarına.
Dedi yeri deyil ahın, amanın,
Dözdü qara günün bəlalarına.

Laylasını bol elədi,
Ələsgəri doğan ana!
Söhbətini bal elədi,
Ələsgəri doğan ana!

Heç qoymadı bala sına,
Bir qucaqda qala, sına.
Ömür verdi balasına
Ələsgəri doğan ana!

Bir öyrətdi, yüz öyrətdi,
Doğru dedi, düz öyrətdi.
Kəlmə kəsdi, söz öyrətdi
Ələsgəri doğan ana!

Sözümüzün binasıdır,
Ocaq olub yanasıdır.
Şairlərin anasıdır
Ələsgəri doğan ana!

Pərizad gördü ki, neçə gün olar,
Açılmır ərinin qaşı-qabağı.
Dedi öz-özünə: burda bir iş var,
Yoxsa niyə damsın üzündən ağı?

Ehtiyac! Bu sözün sərt olur üzü,
Ürəyi üşüdür, dili göynədir.
Çəkir imtahana gecə-gündüzü,
Ocağı söndürür, külü göynədir.

Ömürlə vuruşur, günlə döyüşür,
Üzür ürəyi də, sıxır canı da.
Vurğunun kəlamı yadıma düşür:
“Ehtiyac qul eylər qəhrəmanı da!”

Düzün ortasında təntidər, yıxar,
Qurudar bədəni bir qaxac eylər.
Hər addım başında qarşıya çıxar,
İnsana neyləsə ehtiyac eylər!

Ömür yoldaşına söz açа bilmir,
Boğur öz-özünə yaş Alməmmədi.
Gözünün önündən duman çəkilmir,
Elə bil dondurub qış Alməmmədi!

Övladı ayrılıb oğul-uşaqdan,
Közəmi tapşırsın, odamı versin?
Gözü görə-görə baxsın uzaqdan,
İndi doğmasını yadamı versin?

Sıxlaşır başında saçının dəni,
Bu dərdi çiynindən götürə bilmir.
Yüz dəfə qəlbindən gəlib keçəni
Bir dəfə dilinə gətirə bilmir!

Nökər! Bu kəlməni düşünən kimi,
Sanki top atılır qulaqlarında!
Qırılır qəlbinin incə bir simi,
Qəzəbi oxunur dodaqlarında!

Düşünür, nolaydı ata söhbəti,
Oğul ürəyinə toxunmayaydı.
Duyanda ən acı bir həqiqəti,
Üzündən yetimlik oxunmayaydı!

Tərpənə bilmədi durduğu yerdən,
Boylandı eşiyə o, ağır-ağır.
Fikirli-fikirli tərpəndi birdən,
Arvad, Ələsgəri yanıma çağır.

Ata buyruğunu eşidən kimi,
Ələsgər quş olub qondu içəri.
– Oğul, bir sözüm var, dinlə fikrimi,
Söz deşir sinəmi nə vaxtdan bəri.

Gəl səni tapşırım Kəblə Qurbana,
Mayalı bir işin qulpundan yapış.
Ehtiyac əlindən gəlmişik cana,
Üzdü ömrümüzü, üzdü payız, qış.

Bir az ehtiyatla dindi, danışdı,
Alməmməd çəkmədi nökər adını.
Bu sözün zərbəsi ona tanışdı,
Qorxdu ki, küsdürər öz övladını!

Söz, mətləb bir oldu, ikilənmədi,
Ələsgər baş əydi, ata, mən hazır!
Xeyir-duanızı siz verin dedi,
Görək alnımıza tale nə yazır.

Göyçənin gülləri mayalamışdı
Körpə Ələsgərin əmdiyi südü.
Bu maya qolundan elə yapışdı,
Ələsgər dağ kimi qalxdı, böyüdü!

İllərlə dad verər gətirdiyi bar,
Hünəri başqadır kökün, şirənin.
Bilin ki, zatında od var, alov var,
Gəlişi dünyaya nur gətirənin!

Ata buyruğuna olsa da razı,
Oğul ürəyindən qara qan gedir.
Taledən narazı, vaxtdan narazı,
Ağa qapısına nigaran gedir!

ZİYARƏT

Beş-altı ay keçir gələndən bəri,
Ələsgər nökərdi Kəblə Qurbana.
Axıb süzüldükcə alnının təri,
Qəmli duyğuları od salır cana.

Ağanın nökəri olsa nə vardı,
Gözəlin quluydu burda Ələsgər!
Baxışlar ağlını alıb apardı,
Bağlandı düşdüyü yurda Ələsgər!

Kərəmin, Qəribin keçdiyi yollar,
Onu da yetirib haqladı burda.

Düşdüyü xəyallar, seçdiyi yollar
Tutdu yaxasını, saxladı burda.

Ancaq nə Kərəmtək zirvələr aşdı,
Nə də Qərib kimi düşdü qürbətə.
Bir elin içində qaynadı, daşdı,
Saz tutdu, söz qoşdu bu məhəbbətə!

Ümidsiz Məcnuna döndü az qala,
Hərdən güc gələndə eşqin ataşı.
Nə kəndə sığışdı, nə də mahala,
Tufanlı ürəyi, sevdalı başı!

Buta verilmədi ona yuxuda,
Kiminsə əlindən badə içmədi.
Yollarda dərd yeyib, qəm uda-uda
Ölkədən ölkəyə gəlib-keçmədi.

Gözəllik həyatda qəlbi, canıydı,
Haqlıydı hədəfi seçən Ələsgər!
Badəni dolduran Səhnəbanıydı,
Başına qaldırıb içən, Ələsgər!

Fürsət axtardılar, məqam gəzdilər,
Bir kəlmə söz üçün, ya söhbət üçün.
Olsaydı, utanıb çəkinməzdilər,
Dünya xəlq olunub məhəbbət üçün.

Elə ki, yetişdi görüş anları,
Dumanlı fikirlər durular orda.
Başlanar ürəyin həyəcanları,
Xəyaldan saraylar qurular orda.

Arzular quş olub gəzsə aləmi,
Ayrılıq, intizar, dərd düşməz yada.

Gözləməz həsrəti, gözləməz qəmi,
Sevinci gözləyər hər kəs dünyada.

Bəxti sel aparar, sevdanı külək,
Gözləri duymasa göz məqamında.
Nə bir iş yaranar, nə də bir dilək,
Əgər deyilməsə söz məqamında.

Heç səbir çatarmı həftəyə, aya,
Anı, dəqiqəni sayan var, Allah!
Dözümü dağa ver, səbri dəryaya,
Qəlbini nisgillər oyan var, Allah!

Danışan Qurbandı, səs gəlir evdən:
Ay arvad, gəl gedək dost məclisinə.
Çoxdandı bir toyda oynamıram mən,
Gərək gözüm doya, könlüm isinə.

Dostumdu, oğluna çaldırır toyu,
Gedir bəy evinə kənd adamları.
Biz ki, toy görmədik ömrümüz boyu,
Özgə toylarında görünək barı.

Tapşırıq verildi, tədbir görüldü,
Çıxdı evlərindən ər ilə arvad.
Cavan Ələsgərin gözləri güldü,
Belə təsadüfə kim olmazdı şad!

– Salam, Səhnəbanı, xoş gördük səni, –
Həvəslə, ürəklə dindi Ələsgər.
Süzdü ağ sinəni, bəyaz gərdəni,
Nökər yox, ağaydı indi Ələsgər!

Atan toy evindən gələni kimi,
Bizim imkanımız, fürsətimiz var.

– Yox, yox, ay Ələsgər, ölənə kimi,
Bizim sözümüz var, söhbətimiz var!

Bu söz qanad verdi qul Ələsgərə,
Sözü sinəsindən süzüldü gəldi.
Nə kitaba sığdı, nə də dəftərə,
Muncuqtək saplara düzüldü gəldi.

Gözü bayırdadır, qulağı səsdə,
Vüsal alışdırdı qəlbin közünü.
Ələsgər "Kərəmi" havası üstə
Görək necə dedi ürək sözünü.

ƏLƏSGƏR

Sinəmdə ürəyim daşa dönməyə,
Ey mənim könlümün maralı, qoyma.
Sənsiz xəzəl düşər ömür bağçama,
Eşqimin yolunu qar aldı, qoyma!

Belinə od düşsə başı yandırar,
Üzümü gözümün yaşı yandırar.
Həsrətim alışar, daşı yandırar,
Ürəyi ürəkdən aralı qoyma!

Təbibsən, əlacım yalnız səndədi,
Sənsiz onu bil ki, can kəfəndədi.
Məhəbbət əhlidi, sevən bəndədi,
Yaşat aşiqini, yaralı qoyma!

SƏHNƏBANI

Sirrinə, sözünə qurban, Ələsgər,
Yadlar fikrimizi bilə, qoymaram.
Göz-gözdən yayına, əl-əldən çıxa,
Dodaq həsrət qala dilə, qoymaram!

Yaşadım həyalı, gəzdim pərdəli,
Qoymadım yaxamdan tuta dərd əli.
Dəyə əllərimə bir naməd əli,
Döndərə eşqimi külə, qoymaram!

Sənsiz heçə dönsün qədrim, qiymətim,
Yem olsun quşlara, yem olsun ətim.
Öldümsə torpaqdı payım, qismətim,
Qaldımsa, vüsalı ilə qoymaram!

Yerin qulağı var, göyün gözləri,
Eşqi günəş duydu, torpaq eşitdi.
Dayanma arxayın, a nazlı pəri,
Sirrini su yaydı, bulaq eşitdi.

Fürsəti əlindən heç verərdimi,
Daşlar da qəlbinə yazdı bu səsi.
Yaşadı ölməyən bir əsər kimi,
İlk eşqin ilk anı, ilk mənzərəsi.

Daşdan üz elədi, qayanı yardı,
Fərəhdən suların köksü qabardı.
Bulaqlar çaylara xəbər apardı,
Ürəklə dilləndi – sevir Ələsgər!

Açdı bol əlini bağların barı,
Güllərə muştuluq payladı arı.
Zirvədə durmadı zirvənin qarı,
Əridi, selləndi – sevir Ələsgər!

Sevinən sevilib gəlmədi saya,
Eşidən istədi aləmə yaya.
Toz, mamır içində itən bir qaya
Gül açıb gülləndi – sevir Ələsgər!

Şər, böhtan girməsin gündə bir dona,
Xeyir qoy xeyirlə yetişsin sona.
Bir Göyçə gözəli bağlanıb ona,
Ürəklər telləndi – sevir Ələsgər!

Küləklər çöllərə xəbər apardı,
Bir oğlan vuruldu bir qıza burda.
Məhəbbət arxası, sevgi köməyi,
Bir könül bənd oldu bir naza burda.

Duydu işarəni, gördü him-cimi,
Qırdı qapıları, açdı tilsimi.
Bağlandı pərdəsi, çəkildi simi,
Bu gün dil verildi bir saza burda.

Görə sevənlərin könlünü dəmli,
Dolanmaya tutqun, gəzməyə qəmli.
“Bir mirzə lazımdı əli qələmli”
Açа dəftərini bir yaza burda.

Yaza ki, bu gündən Səhnəbanıya
Bir göz əyri baxıb əl toxunmasın.
Taylı öz tayını gərək tanıya,
Yersiz bir söz olub dil toxunmasın.

Gedib qayıdanda bulaq üstünə,
Daşlar ayağını əzməsin onun.
Şirin məhəbbətin durub qəsdinə,
Üzündə yad baxış gəzməsin onun.

Küləkdən dağılsa qara saçları,
Ələsgər əlini daraq eyləsin.
Fikirdən çatılsa qara qaşları,
Ələsgər qəlbini ocaq eyləsin.

Ələsgər neyləsin, çəkilir dara,
Günah nə mirzədə, nə qələmdədir.
Güvənə bilərmi xoş arzulara,
Taleyi dolaşıq bir aləmdədir.

Heyif ki, arzudu, xəyaldı bunlar,
Haqqa arxalanan həqiqət deyil.
Həyatın əzazil qanunları var,
Sevgi hamı üçün səadət deyil.

SOLAN ÇİÇƏK

Ürəkdən baş əyirdi onun dərin eşqinə,
Səhnəbanı uçurdu Ələsgərin eşqinə.
Bağbanı şair olan bir bağçanın barıydı.
Dodağında görünən,
Yanağına bürünən,
İçəridən baş verən eşqin alovlarıydı!
Güllərə deyirdi ki, ən istəkli gül mənəm,
Sevənlərə deyirdi ən odlu könül mənəm!
Bulaqlara baxanda sulardan saf olurdu,
Elə gözəlləşirdi
Təbiəti görəndə,
Təpədən-dırnağacan ağıl, insaf olurdu.
Özünü bu dünyanın bəxtəvəri sayırdı.
Hayana baxırdısa
Onu səadət öpür, sevinc qucaqlayırdı.
...Yenə şirin xəyalda qapanıb dünyasına,
Bürünüb duyğuların təmizinə, xasına,
O, öz dünyasındadır, yox dünyadan xəbəri,

Hələ bilmir ömrünə,
Hələ bilmir eşqinə
Kim endirib xəncəri!
Onun qız ürəyində
Min bir diləklə bağlı,
Xoş gələcəklə bağlı
Neçə aləm birləşir.
Ağ günləri düşünür,
Toy haqda fikirləşir!
Nədir fikrindən keçən?
– Əvəzəm bu dünyada atamın var-yoxuna,
O qıyarmı heç mənim ürəyimə toxuna.
Yurdunda çıraq tutan din-imanı tək mənəm,
Onun gözlərindəki işıq, gələcək mənəm!
Söndürmək istəyərmi gözündəki işığı,
O heç rəva bilərmi
Eldə küskün dolana evinin yaraşığı!
Yox, yox, dünya dağıla, mənim könlümü qırmaz,
Sevgimə çəpər olub,
O, mənim ürəyimi Ələsgərdən ayırmaz.
Məndən çox əzizləyir Ələsgərin xətrini,
Öz doğma oğlu kimi ondan alır ətrini.
Ələsgər də atamı seçmir öz atasından,
Sevincinə sevinir, kədərlənir yasından,
O, burda hər addımı Kəbə, ziyarət bilir.
Atam "oğul" deyəndə,
Bu kəlməni özünə ən böyük hörmət bilir.
Demək, dünya mənimdir,
Ələsgərin sevgisi
Gülümdür, gülşənimdir!
Ən şirin arzularla açılır xoş səhəri,
Atası nə gündədir,
Əmisi nə kefdədir, yox dünyadan xəbəri.
Səhəngini götürüb gedir bulağa sarı,
Baxır Səhnəbanıya,
"Yazıq qız", – deyə-deyə baxır kənd adamları.

Səhnəbanı çatanda gül bulağın başına,
Baxışları sataşdı Zöhrənin göz yaşına.
Nəsə qəlbinə damdı,
Düşündü öz-özünə:
Bəla mənim bəlamdı.
– Danış, ay Zöhrə, danış, gözündəki yaş nədir?
Söylə bu təlaş nədir?
Sən ki elə həmişə danışansan, gülənsən,
Sevincini hamıya çatdıransan, bölənsən.
Kimdi səni ağladan,
O ürəyi daş insan?
– Səhnəbanı, o sənsən,
Sənsən məni ağladan,
O ürəyi daş insan!
Bu xəbəri biləndən
Gözümdə heçdir cahan.
Səni səndən xəbərsiz
Alıb Pullu Məhərrəm!
Həyatını, eşqini,
Zəhərli ilan olub,
Çalıb Pullu Məhərrəm!
Öz daşımı qoymağa
Öz divarım var deyib.
Sənin kimi gözələ
Heyif, min dəfə heyif!
Səhnəbanı eşitdi bu ağrını, dəhşəti,
Ayaq üstə durmağa gücü çatmadı qəti.
Dirsəkləndi bulağın hündür, qara daşına,
Elə bil ki, göylərin qarı yağdı başına.
Bədən dondu buz kimi,
Ələsgərin bəxtinə
Doğmuşdu Günəş kimi,
Batırdı ulduz kimi!
Onun dolu səhəngi qaldı, bulaqda qaldı,
Daha bulaq başında
Demək, gülmək, ağlamaq qaldı, uzaqda qaldı.

Səhnəbanı of deyib dərindən bir ah çəkir:
– Bu nə dağdı görəsən, sinəmə Allah çəkir.
Daha bu gündən belə dünya qızıl olsa da,
Mən daş-qaşı neylərəm!
Yoxsa iştaham mənim,
Yağlı aşı neylərəm!
Mən arzu bəsləmişdim qanadlanıb uçmağa,
Uzanmışdı qollarım yar boynunu qucmağa,
Nəfəsimi dərməmiş hələ sinəmdolusu,
Döydü çiçək ömrümü təbiətin dolusu.
Ələsgərin önündə mən özümü dünyanın
Günahkarı sayıram.
Yaşamaq istəyirdim
Yüz il yarımla qoşa,
Bu günsə mən özümə
Ölüm arzulayıram!
Mən arzu bəsləmədim bir dünyalıq qəm üçün,
Mən ömür istəmədim göz yaşına yem üçün.
Mən arzu bəslədim ki,
Səpələnsin sevincim həftələrə, aylara,
Eşqim meydan oxusun coşqun axan çaylara.
Mən arzu bəslədim ki, Göyçə gölündən duru,
Göz yaşları içində sönür gözümün nuru.

Dərəyə çiskin çöküb, dağ başında duman var,
Dünyanı qarışdıran qarışıq bir zaman var.
Zalım cəllad əlində qəlbinə qan daman var,
Göyçə gəlin köçürür Məhərrəmin evinə!

Eşitməsin qulaqlar belə söhbət, belə saz,
Heç gözlülər görməsin belə qəmzə, belə naz.
“Girdim yar bağçasına, ağlayan çox, gülən az”
Göyçə gəlin köçürür Məhərrəmin evinə!

Onun şüşə ürəyi sınıb tökülüb gedir,
Ömrümün sarayında divar sökülüb gedir.

Qaməti yumaq olub, qəddi bükülüb gedir,
Göyçə gəlin köçürür Məhərrəmin evinə!

Bəxtindən, taleyindən üzüb əli, ağlama,
Dərdin, qəmin əlində olub dəli, ağlama,
Ağlama, ay Göyçənin şux gözəli, ağlama,
Arzu at oynatmasın, meydan o meydan deyil!

Ağıllısı, dəlisi, qocası var, gənci var,
Ağsaqqalı, gədəsi, şuluğu var, dinci var.
Hələ çox dəryalarda batıb gedən inci var,
Üzə çıxarmaq üçün insan o insan deyil!

Hələ qalır dünyada "Əsli Kərəm" dünyası,
Hələ sürür hökmünü həsrət, vərəm dünyası.
Qəm üstündə köklənib, zildədi qəm dünyası,
Sevincə çatmaq üçün dövran o dövran deyil!

SƏHNƏBANI HƏSRƏTİ

Dili yar deməkdən qabar bağlayan,
Könlü qəm əlindən qubar bağlayan.
Gəmisi sularda batan Ələsgər,
Dərd ilə oynayıb yatan Ələsgər.

Dadıb acısını ilk məhəbbətin,
Üzür dəryasında, üzür həsrətin.
Gətirib yanına sərvinazını,
Çalır qəmli-qəmli, çalır sazını.

Barmaqlar vurduqca xal üstdən xalı,
Eşidir bu səsi Göyçə mahalı!
Daha əldən çıxıb Tanrısı, dini,
Danışır ellərə hekayətini:

–Şirin sevincimi, təmiz sevgimi,
Qara yellər gəldi, sellər apardı.
Ayaz şillə çəkdi yanaqlarıma,
Qazdı torpağımı, bellər apardı!

Olsam da dünyanın sərti, mətini,
Nə bilim hardadı işin çətini.
Bizim ömrümüzün səadətini
Fitnələr yaladı, fellər apardı.

Bilmədim çoxunu, azını eşqin,
Çəkdim ömrüm boyu nazını eşqin.
O qədər çaldım ki, sazını eşqin,
Əlimi sim yedi, tellər apardı!

Toyda xatırlanır, yasda söylənir,
Yada söz açılır, dosta söylənir.
Yolçu da öyrənir, qonaq da bilir,
Yaxın da eşidir, uzaq da bilir.
Pullu Məhərrəmin varı, dövləti
Yaradıb dözülməz bir xəyanəti.
Gətirib başına olmaz oyunu,
Cavan Ələsgərin tutub toyunu.
Təbiət lal olub, ağlar sükutda,
Dərələr sükutda, dağlar sükutda.
Buna dağ neyləsin, dərə neyləsin,
Xeyrin gücü çatmır şərə, neyləsin.
Ölübdür bəlkə də xeyrin Allahı,
Şər insan oğluna çəkdirir ahı!
Bir evin söhbəti bir elə sığmır,
Bir saza yerləşib, üç telə sığmır!
Sevgisi, sevinci gedir güdaza,
Ələsgər meylini bağlayır saza.
Qatıb öz ömrünü sazın ömrünə,
Dərdini tellərə danışır yenə.

– Açdım ürəyimi ürəksizlərə,
Qoydular söhbətə, sözə dərdimi.
Daddım ləzzətini, gördüm xeyrini,
Heç kimə demədim təzə dərdimi.

Haqsız bir cəzadan qaraldı qanım,
Gülmədi üzümə axşamım, danım.
Gördüm, söyləməsəm yanacaq canım,
Söylədim ocağa, közə dərdimi.

Bilmədim fürsətin, çəmin qədrini,
Söhbətin qədrini, dəmin qədrini.
Nainsaf çox bildi qəmin qədrini,
Gətirib çatdırdı yüzə dərdimi.

Həsrət qaldı Ələsgər sevdasına, yarına,
Nəğməsini, şeirini bu həsrətdən yaratdı.
Dar ayaqda yenə də saz yetişdi karına,
Dünyasını sevgidən, məhəbbətdən yaratdı!
Yaxşını yaxşı gördü, pisə elə pis dedi,
Hər gözəlin hüsnünə bir gözəl təcnis dedi.
Aşıq cavan, saz tavar, söhbət şirin, söz təzə,
Sehrlədi dünyanı tutdu “Dodaqdəyməz”ə.
Aşıqsansa aləmi diyar-diyar gəz, – dedi,
Dərdi böyük olanın alovu sönməz, – dedi.
Gur çaylara bənzədi havalanıb coşması,
Axdı elin qəlbinə bayatısı, qoşması.
Dünən bir dərd varıydı Ağkilsənin içində,
Bu gün onu başabaş bütün Göyçə bilirdi.
Hamı ondan deyirdi hər əkində, biçində,
Ələsgər öz dərdini yercə, göycə bilirdi.
İlhamıydı, ilhamı tanrısı da, dini də,
Sənətində tapırdı
Sevgilisindən ayrı əbədi sevgini də!
Düşüncəsi, xəyalı hey gedirdi dərinə,

Qarışırdı Ələsgər dünyanın işlərinə!
Həyatın iç üzünü görürdü yavaş-yavaş,
Görməsən kor olarsan, görməlisən, a qardaş!
O yaxşı bilirdi ki, görməsə duya bilməz,
Ürəkləri kitabtək açıb oxuya bilməz!
Olmasa da dəftəri, olmasa da qələmi,
O, kitab eləmişdi özünə bu aləmi.
Oxuyurdu...
Dünyanın eh, nə qədər dərdi var,
Yaxşı bir mərdi varsa, min bir də namərdi var.
Pristavı dolanır harın, çılğın, əsəbi,
Yoxsullara dağ çəkir bəyin, xanın qəzəbi.
Nökər olan ağanın heç üzünə ağ olmaz,
Bu koxadı, bu katda, buna toxunmaq olmaz!
Hər yerdə harınların damağı çağ olurdu,
Elin mərd oğulları dönüb qaçaq olurdu.
Biri namus ucundan, biri qeyrət ucundan,
Biri boğaza çıxan zülüm, zillət ucundan.
Gözü yaxşı görənin tökürdülər gözünü,
Sözü yaxşı kəsənin kəsirdilər sözünü.
Onda beləydi dünya,
Dünyanın özü boyda ürəyi olanların
Xətrinə dəydi dünya!
Ələsgər də belə bir dünyanın övladıydı,
Təkcə Alməmmədin yox, zamanın övladıydı!
Zamandan zülüm görən zamana şöhrət oldu,
Oxuduğu həqiqət, dediyi hikmət oldu.
Sazın xoşbəxtliyindən sinəsi meydan idi,
Boyunun ucalığı dağlardan nişan idi.
Qüvvət, qüdrət sarıdan yox idi bir kəmliyi,
Qayadan qalmaz idi sərtliyi, möhkəmliyi.
Dağ ensəydi üstünə əyilməzdi qaməti,
Öpürəm belə yerdə anamız təbiəti!
Onu uca yaratdı, nəsillərin gözündə
Özü ucalmaq üçün!

Onu kövrək yaratdı,
Ürəklərin telini
Ürəklə çalmaq üçün!
Gəlişi bu dünyaya
Qəm, kədər gətirmədi.
O, dərd dağıdan oldu!
Şeirin üfüqlərində al şəfəqli dan oldu!
Onu uzun yaşatdı,
Ömrü gödək olanın,
Qisməti kəm olanın,
Sevinci yasa dönüb
Toyu matəm olanın
Ahını, fəryadını ellərə yaymaq üçün!
Söhbəti loğman oldu xəstə üçün, sağ üçün,
Sözü quşqanad oldu, yayıldı uzaqlara,
Səsi zildən zil oldu, tez çatdı qulaqlara!
Qara bir daşa baxsa onun sərraf gözləri,
Orda incilər görər, bir xəzinə tapardı.
Bu qüdrəti, bu eşqi
Onun səs-sorağını eldən-elə apardı!
Gözləri tərəziydi,
Hər günahı, savabı,
Hər sevinci, əzabı zərrə-zərrə çəkməyə,
Tərəzi olmayan göz
Dünya boyda od olsa, nəyə gərəkdir, nəyə!
Toxunsaydı əlləri,
Torpağın bir neməti dönüb min bir olardı.
Bekar olmazdı qəti,
Canda təpər, əldə iş, başda fikir olardı!
Daşda gül bitirərdi ayağının sayası,
Dil açardı önündə dağların lal qayası.
Düşmənin dost olmağı gəlişinə bənd idi,
Yasın yoxa çıxması gülüşünə bənd idi.
Onu belə ucaldan ürəyiydi, ürəyi,
O hamının gücüydü, o hamının gərəyi.

Göz də, əl də, ayaq da,
Ürək adlı günəşin başına hərlənirdi.
Onun böyük ürəyi
Təpədən-dırnağadək hərarətdi, hənirdi,
Orda nələr varıydı,
Aylı, ulduzlu axşam,
Nurlu səhər varıydı!
Dünyanın gərdişində
Nəyi bilmək istəsən,
Orda xəbər varıydı!
Gecə-gündüz "saattək meyli haqqa dolanan",
Dərdin, qəmin əlində hey çapılan, talanan,
Bir ürəkdi bu ürək!
Ondan söz açmaq üçün
Hələ çox şairlərin qəlbi cuşa gələcək!
Mənsə o ürəkdəki məhəbbətdən yazıram,
Yadımızdan çıxmayan bir həsrətdən yazıram!
Ələsgəri əymədi,
Ələsgəri ucaltdı Səhnəbanı həsrəti,
Öpürəm belə yerdə anamız təbiəti!!!

USTADLA GÖRÜŞ

Gözümə işıq ver, qəlbimə güc ver,
Qoy yenə hər döşdə qaynasın bulaq.
Qızılvəng, Alının doğulduğu yer,
Qızılvəng, Alının yatdığı torpaq!

Yenə toy libası geyib gəlmişəm,
Bahar yollarıma xalı çəkibdi.
Göyçə mahalını deyib gəlmişəm,
Bu dəfə meylimi Alı çəkibdi.

Hər kim öz vaxtında görsə işini,
El onu gözünün üstündə saxlar.

Axtara bildisə öz keçmişini,
Onu da bir zaman axtaracaqlar.

Məni qovuşdurdu arzuya, kama,
Odur axtardığım, soraqladığım.
“Divani”, “Müxəmməs”, “Təcnis”, “Bağlama”,
Göyçədir kitabtək varaqladığım.

Bu nadir kitabı oxuyanda mən,
Özümü dünyanın xoşbəxti saydım.
Açmazdı könlümü nə çöl, nə çəmən,
Alı hikmətinə qovuşmasaydım!

Qırıb amanını dumanın, çənin,
Səcdəyə gəlməmək günahdır, günah.
Şagirdi Ələsgər olan bəndənin
Özündə nə varmış, görəsən, Allah!

Ellərin sərvəti yatıb canında,
Silahı açılmaz qıfılbənd olub.
Bircə gün kim qalsa onun yanında,
Bütün ömrü boyu saza bənd olub.

Min könül oxşayıb, min ürək açıb,
Elə arxa olub, xalqa yar olub.
Xallar barmağında gül-çiçək açıb,
Şair düşüncəli bəstəkar olub.

O, sazı götürüb söz oxuyanda,
Göylər də məclisə enib deyirlər.
Ürəkdən keçəni gözdən duyanda,
Pirə, peyğəmbərə dönüb deyirlər.

Könlüm, kamilləri gəl, yadına sal,
Elə doğrudan da piriymiş Alı!

Döyüş meydanında Koroğlu misal,
Deyiş meydanında şiriymiş Alı!

...Aşığın söhbəti, qışın gecəsi,
Yenə Tanrısıdır Alı məclisin.
Göydə buludları titrədir səsi,
Tufandı, dalğadı halı məclisin.

Elə vurulub ki, saza, söhbətə,
Adam var, soruşsan adını bilməz.
Alı bərəkətdi, dönüb nemətə,
Kim belə nemətin dadını bilməz?!

Çoxları ustadı görmək istəyir,
Pərvanə can atar işığa doğru.
El, sözü gül kimi dərmək istəyir,
Baxışlar zillənib aşığa doğru.

Dincəlir dayazda, üzür dərində,
Coşdurur aşığı söhbətin dadı.
Bir el bir ustadın həndəvərində,
Bir kənd bir ocağın ətrafındadı!

Nur yayılır, göz dəmlənir,
Alı yanır ocaq kimi.
Baş endirir telli saza,
Bar gətirən budaq kimi.
O budağın meyvəsinə,
O meyvənin dadına bax!
Necə yanıb şölə çəkir,
Bir ürəyin oduna bax.
Eşidənlər deyir, Allah,
Açılmasın hələ sabah!
Kərəm hələ kül olmasın,
Əsli hələ çəkməsin ah!

Yol uzansın, aşıq Qərib
Yetişməsin Şahsənəmə.
Hələ qalaq intizarda,
Gün doğmasın bəxti kəmə.
Koroğlu da qoy uduzsun
Həmzə adlı bir keçələ.
Yeddi canı olsa belə,
Biri gəlib düşər ələ.
Məclis elə sehrlənib,
Bircə kəlmə dinən yoxdu.
Od götürüb ürəkləri,
Alışan var, sönən yoxdu.
Alı gördü belə getsə
Bəsti deyən olmayacaq.
Kim istər ki, belə yerdə
İstisini kəssin ocaq.
Dünyagörmüş kamil ustad
Cilovladı həvəsini.
Sazı qoyub bir tərəfə
Bir az dərdi nəfəsini.
Elə bu vaxt izin alıb söz istədi bir nəfər:
Dedi: "Ustad, məclisdədi öz balamız Ələsgər.
Neçə vaxtdı ellər gəzir onun sözü, söhbəti,
Gənc olsa da gözü görüb ayrılığı, həsrəti.
Neçə vaxtdır eşqə gəlib saz eşidir, saz deyir,
Axşam çalır, sabah çalır yenə azdı, az deyir.
Öz-özünə havalanıb gecə-gündüz oxuyur,
Yoxdu durub dincəlməyi, bir çalır, yüz oxuyur.
Bələd olsan sinəsinin sərvətinə, varına,
Bağban olub dad verərsən bağçasına, barına.
Bu dünyanın hər sifəti ona yaxşı tanışdır,
İmkan olsa oğlun kimi onu dindir, danışdır".
Bu xəbərdən, bu söhbətdən Alı xeyli şad oldu,
Yorulmuşdu, birdən-birə elə bil Fərhad oldu!
Yeddi nərin gücü gəldi biləyinə, qoluna,
Xoş arzular işıq saldı sabahına, yoluna.

Gülər üzlə, xoş sifətlə Ələsgərə gəl dedi,
Yaxşı-yaxşı tanış olaq hər şeydən əvvəl dedi.
Nə utanma, nə çəkinmə, sən Ələsgər, mən Alı,
Söz oxuyaq, söhbət açaq, olsun şirin, mənalı.
Xəzinəm var, toplamışam, sünbülümdən dən götür,
Bir saz mənim sinəmdədir, birini də sən götür!

Ustad öz-özünə fikirləşirdi –
Qartalı uçuşda tanımaq gərək.
Görüm nə hikmətdi, görüm nə sirdi,
Köhləni qaçışda tanımaq gərək.

Görüm bir nəyədi meyli, istəyi,
Ürəyi baxışdan duya bilirmi?
Sönəndə bir kəsin eşqi, diləyi,
Yaşı yanağını yuya bilirmi?!

Suallar önündə tutulsa əgər,
Ağrısı sinəmdən getməz ah olar.
Cavan bir oğlandı, xətrinə dəyər,
Belə tez imtahan min günah olar!

ALI

Belə ki, sənətə vurğunluğun var,
De görüm hardandı səndə bu həvəs?
Cavan ürəyini, ay eşqi bahar!
Yolların yoxuşu qorxutmurmu bəs?

ƏLƏSGƏR

Ustad! Mən gələndə dünya üzünə,
Evdə saz adlanan qüdrət görmüşəm.
Baxıb çeşmələrin qaynar gözünə,
Könlümdə varlığa heyrət görmüşəm.
Öyrənən, öyrədən, anlayan, duyan,
Hikmətə başını əyən görmüşəm.

Atamı saz çalan, şeir oxuyan,
Anamı bayatı deyən görmüşəm.
Belə bir ocaqda pərvazlanan kəs,
Müqəddəs sənətə yad ola bilməz!

ALI

Əhsən, kamalına, ehtiramına,
Səndə ki, bu ağıl, bu ucalıq var,
Çatarsan ən böyük arzu-kamına!
Mənim alqışımı eşidər göylər,
Üzünə xeyirlə açılar səhər!

ƏLƏSGƏR

Hikmətlər, kəlamlar nurlu səhərim,
Hər ustad dünyası ölməz əsərim.
Nağıllar, dastanlar varım, xəzinəm,
Dolub-boşaldıqca qaynayır sinəm,
Mənim də sevdiyim sözdü, şeirdi,
Bir isti nəfəsəm, bir sözəm belə.
Onunla ucalır, gözəlləşirəm,
Könüllər açanda sözüm, söhbətim,
Elə bilirəm ki, ocağam, pirəm.

ALI

Mən də bir hikməti fikirləşirəm,
Köz varsa, ocağa çevrilməlidir.
Dolu ürəklərdə doğulan eşqin
Damlası bulağa çevrilməlidir.
İndidən görürəm o bulağı mən,
Nəsillər su içər hər qətrəsindən!

ƏLƏSGƏR

Heç vaxt unutmaram bu əziz günü,
Bu axşam dünyaya gələn günümdü.
Ulu bir ustadla göz-gözə durub,
Şirin sevincimi bölən günümdü.

Təklifim olsaydı ürəyinizdən,
Sizə tapşırardım taleyimi mən!

ALI

O haqda düşünüb darılma qəti,
Əlimdən vermərəm mən bu fürsəti.
Sən mənim bəxtimə çıxan səadət,
Ustad şagirdinə atalıq eylər,
Dədə-babalardan belədir adət.
Olursan bu gündən oğlum, övladım,
Adımla yanaşı yaşasın adın!

Gör-götür dünyası çağırır səni,
Baxışdan söz anla, söz götür, oğlum.
İncilər tükənməz, ümmanlar dərin,
Dolan bu aləmi, göz götür, oğlum.

Oxu nəğməsini təmizin, xasın,
Yarat dastanını bayramın, yasın.
Ellərin hikməti unudulmasın,
Sabahı gözləmə, tez götür, oğlum.

Öyünsün adınla bu yurd, bu torpaq,
Bəzənsin sözünlə hər dil, hər dodaq.
Təkcə mən deyiləm gur yanan ocaq,
Hər oddan, ocaqdan köz götür, oğlum.

ƏLƏSGƏR

Qədim bir mahaldı laylamı çalan,
Bu layla üstündə dil açan ollam.
Yollara çıxaram xeyir-duanla,
Uzaq mənzillərə yol açan ollam!

Şirin bir avazla ucalanda səs,
Gətirər dünyaya yeni bir nəfəs.

“Divani”, “Gəraylı”, “Təcnis”, “Müxəmməs”,
Şeirin süfrəsini bol açan ollam!

Öyrənən, öyrədən, görən, götürən,
Sorağı hər yana şadlıq yetirən,
Torpağın bağrında çiçək bitirən,
Ellərin qəlbində gül açan ollam!

Alı ustalıqla izləyir onu,
Gördüyü nə varsa, ulu görürdü.
Qarşıda dayanan hikmət oğlunu,
Mərifət elmində dolu görürdü.

Bu necə möcüzə, bu necə sirdi,
Sərvətlə nə qədər dolarmış sinə.
Alı ürəyində baş endirirdi,
Xalqın ürəyinin genişliyinə!

Ustad xəyalından nələr keçirdi:
Dahilər, ölməzlər yetirəndi xalq.
Çağlayar canında çaylar, dənizlər,
Sənətə Allahlıq gətirəndi xalq.

Adını quyladı sağkən ölənin,
Başına tac qoydu qədirbilənin.
Üzdən ağlayanın, üzdən gülənin
İzini, tozunu itirəndi xalq.

Nəğmə də ondadır, bulaq da onda,
İşıq da ondadır, ocaq da onda.
Toxum da ondadır, torpaq da onda,
Göyərdən, becərən, bitirəndi xalq.

Ustad da, şagird də yüksələn dağı,
Millətin şərəfi, ucalığıydı.

Biri cavanlığı, coşub-daşmağı,
Biri müdrikliyi, qocalığıydı.

Ustadın, şagirdin sözü bir oldu,
Bir arzu, bir əməl, bir fikir oldu.
Qoca cavanlaşdı, cavan pir oldu,
Alı Ələsgərlə görüşən günü.

Ana təbiətin çox olsun payı,
Bəxtə işıq saldı Günəşi, Ayı.
Bir dəniz bağrına basdı bir çayı,
Alı Ələsgərlə görüşən günü.

Toyu, bayramıydı gözəlin, yarın,
Ətəkdə çiçəyin, zirvədə qarın.
Açması başlandı bağlamaların,
Alı Ələsgərlə görüşən günü.

Yerləşdi ağlına, düşdü zəndinə,
Yaydı mahalına, yaydı kəndinə.
Dünya açar tapdı qıfılbəndinə
Alı Ələsgərlə görüşən günü.

Çoxaldı sənətin nuru, ziyası,
Qazandı ilhamın, sözün mayası.
Gül açdı Göyçənin daşı, qayası,
Alı Ələsgərlə görüşən günü.

SAVAD

Çox eşitdim, çox dinlədim,
El içində bir sualı.
Bu sualın cavabından
Kim bixəbər, kimi halı.
Söhbət gedir hər oymaqda,
Bir söz gəzir hər dodaqda.
Kaş biləydik bu bəxtəvər,
Savadlıymış, ya savadsız?
Sözü yoxdu müəmmasız,
Fikri yoxdu qol-qanadsız!
Necə görüb bu gərdişin
Ovandını, tərsini o!
Kimlər olub müəllimi,
Kimdən alıb dərdini o!
Elə düzüb kəlmələri,
Elə deyib haçabeyti,
Ağıl, kamal istəyirəm
Duya sirri, açа beyti.
Yeri göyə bağlayıbdı
"Qıfılbənd"i, bağlaması.
Şirin sözü, axar təbi
Dağ çayının çağlaması.
Zirvələrdən uca gördüm,
Boylananda dünyasına.
Əl-ayaqlı itib-batdım
Baş vuranda dəryasına.
O dəryanın qucağında
Qulağıma dəydi bir səs,
O, savadsız ola bilməz!

Bir insan ki, ustad olub
Kainatın ahəngini
Öz sazıyla birləşdirə,
Sevinci də, əzabı da

Doqquz teldə yerləşdirə,
Zərrə qədər yayınmaya
Nəzərindən nə zil, nə pəs,
O, savadsız ola bilməz!
Bir qozqara kötüyünü,
Sözə tutub deyişməyin.
Alim ilə kəlmələşib,
Cahil ilə döyüşməyin
Özü savad deyilmi bəs?
Yer də, göy də dilə gəldi –
O, savadsız ola bilməz!

Bir insan ki, daşı belə
Dirdirməyin ustadır,
Əyriləri doğru yola,
Doğru yola
Döndərməyin ustadıdır,
Avazıyla quşu göydən
Endirməyin ustadıdır –
Söhbət yersiz, sual əbəs,
O, savadsız ola bilməz!
Bir insan ki, öz fikrini
Beyinlərə möhürlədi,
Hikmətiylə nəsillərin
Ürəyini sehrlədi,
Parça-parça doğra məni,
Qıyma-qıyma dilimi kəs –
"Savadsızdır" deyəmmərəm,
O, savadsız ola bilməz!

On beş ildə dərs oxuyub,
Yazmaq hələ savad deyil.
Yazdığını dönə-dönə
Pozmaq hələ savad deyil.
Xahiş ilə, minnət ilə
Qiymət almaq savad deyil.

Bu hörmətsiz qiymət ilə
Alim olmaq savad deyil.
Beş il təhsil alan gördüm,
Bircə yerdə deyiləsi
Beşcə kəlmə sözü yoxdur.
Əmisi var, dayısı var,
Dayıların kölgəsində
Yoxa çıxıb, özü yoxdur.
Savad odur tanıyasan
Öz kökünü, zatını sən.
Oxumağı bacarasan
Göyün yeddi qatını sən.
Ağıl yetməz, xəyal çatmaz
Mənzillərə, məkanlara
Çapırdasan atını sən!
Anlayasan, nələr yatır
Bu torpağın ürəyində,
Kimlər ona şöhrət olub,
Kimlər yatıb bələyində.
Anlayasan, səndən ötrü
Təbriz nədir, Bakı nədir?
Arzuların müqəddəsi,
Duyğuların pakı nədir?
Düşünəsən, nə deməkdir
Qurbaninin "Bənövşə"si.
Eşidəsən, hardan gəlir
Xətainin məğrur səsi!
Neçə-neçə dil içində
Yaşadasan öz dilini.
Danışasan həqiqəti,
Yandırsa da köz dilini.
Lap zülmətə düşsən belə,
Öyrən, axtar, gəz dilini.
Savad odur!
Vurğunsansa sən bu dilin

Təcnisinə, cinasına,
Gedib çıxa bilirsənsə
Özülünə, binasına,
Savad odur!
Bayat köklü bayatıda
Hansı yurdun adı yaşar?
Həzin səsli oxşamada
Hansı sehrin dadı yaşar?
Qoşmalarda hansı xalqın
Ürəyinin odu yaşar?
Bilirsənsə, savad odur!
Hikmətini duyursansa
Bu sinəsi dolu sazın,
Hardan gəlib, hardan keçib,
Hara gedir yolu sazın,
Nədən olur qabırğası,
Nədən olur qolu sazın?
İlk ustadı kim sayılır
Ulu səsin, ulu sazın?
Bilirsənsə, savad odur!
Tut ağacı növ-növ olur,
Dil-dil ötən bu telli saz
Hansı tutun parasıdır.
Hansı hava dərdli qəlbin
Məlhəmidir, havasıdır?
Bilirsənsə, savad odur!
Bir savadlı oğul gərək
Ömür qoya, baş sındıra,
İnadıyla, dözümüylə
Düyün açа, daş sındıra!
Tapa bilə "Səngi-siyah
İçindəki dürdanəni",
Öyrənə bu "bisavad"ı!
Axır bilə, hardan alıb
Qul Ələsgər bu savadı!

Onda duya həqiqəti,
Onda deyə öz-özünə
Kitabıydı gen dərələr,
Dağı-daşı oxuyurdu.
Bir baxışla hər ürəyi,
Hər yaddaşı oxuyurdu.
Qışda yaza şagird olur,
Yazda qışı oxuyurdu!
Öyrənirdi, öyrədirdi
Zirvələri qaya-qaya,
Cığırları sətir-sətir.
Süzülürdü ürəyinə
Yerdən işıq, göydən ətir!
İmtahanlar görə-görə
Suallarda sınanırdı.
Ürəyindən gələn səsin
Bir həqiqət olduğuna,
Haqdan qismət olduğuna
Varlığıyla inanırdı!
Deyişmələr meydanında
Dil büdrəmir, ağıl çaşmır.
Kəlmələrdə sığala bax,
Dodağında söz dolaşmır!
Yayınmağı ola bilməz,
Yaxşı seçir hədəfini.
Seçir əlvan fikirlərin
İncisini, sədəfini.
Ömrü boyu ömür sürdü
Ürək dolu, sinə dolu.
Naxış vurdu, naxışladı
"Divani"dən "müxəmməs"ə,
Bəmdən zilə gedən yolu!
Hər təcnisin öz cinası,
Hər havanın öz sığalı,
Hər kökün öz zərifliyi,

Hər pərdənin şirin xalı,
Sərvətiydi Ələsgərin!
“Əsli Kərəm” dastanını
Beş gecəyə danışmağı,
Şeir sənət dünyasına
Hörmətiydi Ələsgərin!
Ürəyində qala qurdu
Xəstə Qasım Tikmədaşlı,
Öz dərdini ona dedi
Divarqanlı gözü yaşlı!
Hərflərin mənasını
Duya-duya, açа-açа
Bircə nöqtə qoymadı ki,
Yaddan çıxa, gözdən qaça!
Toxunduğu hər mətləbin
Ağıl, hikmət olduğunu,
Varlığında, cövhərində
Nadir qüdrət olduğunu
Yavaş-yavaş duydu hamı.
Elə məclis olmadı ki,
Oxunmasın Ələsgərin
Qıfılbəndi, “Əliflam”ı!
Kimi dedi, – haqq vergisi,
Kimi dedi, – haqq aşığı.
Onun sözü, söhbətiydi
Məclislərin yaraşığı!

Böyü, ey ürəyim, dünyalar qədər,
Sönməz bir ocağın odunda qızın.
Ömrünü, gününü keçirmə hədər,
Öyrən savadını bu savadsızın!

Duyğular qaynasın qaynar sinədə,
Sənə uğur desin qəlbindəki səs.
Nə desən taparsan bu xəzinədə,
Doymağa tələsmə, duymağa tələs!

Düşün, bu aləmdə nələr var, nələr,
Sən də bu ellərin yazan əlisən.
Dünənin sözünü deyib dədələr,
Bu günün sözünü sən deməlisən.

Düşünmək özü də bir qələbədir,
Zərif düşüncələr gəlsin karına.
Öyrən, bu həyatda güc verən nədir
Ələsgər fikrinin qanadlarına.

Ustad sualına cavab ver, cavab,
Yeddi qara nədir, yeddi ağ nədir?
Kitab oxumusan, nə qədər kitab,
Yeddi yağ, yeddi bağ, yeddi tağ nədir?

Aşıq hardan alıb bu şeiriyyəti,
Hikmət dünyasına bu səfər nədir?
Nələrə toxunur fikri, niyyəti,
Beş bəndin içində yeddilər nədir?

Duyub mənasını yerli-yataqlı,
Əvvəlin, axırın, əzəlin, sonun.
Bir ömür yaşayıb köklü, budaqlı,
Heç nə nəzərindən qaçmayıb onun.

Hər şeyi düz görüb ağlının gözü,
Fikri haqdan gələn həqiqət imiş.
Onun nəzərində bilmirəm sözü
Aşıqçün ən böyük cinayət imiş.

Ancaq həqiqətə bağlıymış canı,
Cahilə deyərmiş danışma əbəs.
Heyrətə gətirib qoca dünyanı,
Bir hərfi yazmağı bacarmayan kəs!

Baş vurub sirrinə bu kainatın,
Yerə də, göyə də əl aparıb, əl.
Yönünü, səmtini görüb həyatın,
Duyub zamananı hamıdan əvvəl!

“Füzuli”, “Firdovsi”, “Hafiz”, “Nəsimi”,
Hərə biri çay olub axıb qanında.
Coşanda dənizlər, dəryalar kimi,
Tufanlar yaşadıb həyəcanında!

Min dəfə oxuyan bir də oxudu,
Kamalı dərs verdi dərsi azlara.
Sözdən xana qurdu, xalı toxudu,
Dərinlik öyrətdi çox dayazlara!

Sazı bu dünyaya şöhrət elədi,
Dünyanı sazının telində tapdı.
Eşidən vuruldu, heyrət elədi,
Hikməti ustadın dilində tapdı.

Bircə gün görmədi məktəb, mədrəsə,
Oxu kəlmə-kəlmə, savadına bax!
Təbiət güc verir yaradan kəsə,
Sənətin dağ yaran Fərhadına bax!

Qapanıb qalmadı öz aləmində,
Coşan ilham oldu, daşan təb oldu.
Hikmət dünyasında, söz aləmində
Ələsgər, savadlı bir məktəb oldu!

Unudulmaz el bəzəyi, el oğlu,
Hər gün onu saz dinlədi, söz andı.
Yaratdığı gəraylıda, qoşmada
Yüz il, min il şair ömrü uzandı!

Var oynayan, dümbək çalan, var aşıq,
Ustad aşıq hər məclisə yaraşıq.
Saz əhlinə, söz əhlinə yar aşıq
Müqəddəsdi, ağsaqqaldı, ozandı!

Ömür verib divarına, daşına,
Yaş artırıb sözümüzün yaşına,
Nanəcibin, müxənnətin başına,
Bircə sözü min bir qaynar qazandı!

El zərgərdi, zəri seçdi, bəyəndi,
Eldən gəlsə, şöhrət göyə dəyəndi.
Dedilər ki, sinəsindən deyəndi,
Demədilər hecalayıb yazandı!

Qonaq oldu hər yurda, hər oymağa,
Tərif dedi Güləndama, Qaymağa.
Sənətində balı qatdı qaymağa,
El aşığı Əbədiyyət qazandı!

QURBAN BULAĞI

Kəlbəcərdə bir bulaq var, adı Qurban bulağıdı,
Ağdabanda bir ocaq var, adı "Qurban bulağıdı".
Kimlər qoşub dastanı, kimlər çalıb laylasını,
Məclislərin söz-söhbəti, dadı Qurban bulağıdı!
Ətəyində göy çəmənin min naxışı, min arğacı,
Başı üstə zaman-zaman ətir saçan bar ağacı.
Hey süzülər fəsil-fəsil, həyat verər dağa, düzə,
Bu torpağın eşqi kimi dərinlərdən çıxar üzə!
Ağdabanda bir bulaq var, əfsanəli, rəvayətli,
Yeri tanış, yurdu bəlli, aşıq Qurban həqiqətli!

Bir şair dodağında
Çəkilən kimi adı,
Dil açdı insan kimi,
Bulaq sözə başladı.
– Yerim yox, yatağım yox,
Hardan gəldi axırdım.
Yığnaqlı bulaqlara
Həsrət ilə baxırdım.
Deyirdim nolaydı kaş,
Mən də yada düşəydim.
Oğullarla görüşüb,
Qızlarla öpüşəydim!
Bir gün gecədən keçib
Dan yeri söküləndə,
Səhər müjdəsi gəlib,
Dünya üzə güləndə,
Qoşa əllər uzandı
Tutqun gözümə sarı.
Barmaqlar sağa-sola
Daradı palçıqları.
Təmizlədi gözümün
Torpağını, daşını.
Mən bulağa dönəndə
Sevindi uşaq kimi.
O da bulaq elədi
Gözlərinin yaşını!
Mən o gündən hər səhər
Saflığıma baş əyən
Aşıq Qurbanı gördüm.
Nəğməyə, təmizliyə
Bağlanan canı gördüm.
Mənə həyat verənin
Qeyrətinin eşqinə
Axdım, axdım, duruldum.
Aşıq mənə vuruldu,

Mən aşığa vuruldum.
Yaddaşımda aşığın
Səsi, sorağı qaldı.
O gündən mənim adım
Qurban bulağı qaldı!

Bir də gördüm tutaşıb Ağdabanın yolları,
Açılıb yola sarı anaların qolları,
Təbiət sığallayıb yamacları, yalları.
Duydum, bu gəlhagəldə xeyir bir xəbər gəlir,
Dedilər Ağdabana aşıq Ələsgər gəlir!

Çayqovuşan sevindi, su bayrama can atdı,
El döndü pərvanəyə, yanan şama can atdı,
Göz görüb götürməyə, əl salama can atdı.
Sanki, elin üstünə gün doğur, səhər gəlir,
Dedilər Ağdabana aşıq Ələsgər gəlir!

Yeddi qardaş dağında yeddi ceyran mələdi,
Bir kəndi bir dünyanın sevincinə bələdi,
Göylər yağış yerinə nəğmə, hikmət ələdi.
Ustad yanına ustad, ər yanına ər gəlir,
Dedilər Ağdabana aşıq Ələsgər gəlir!

Xoşgəldin elədi, qabağa çıxdı,
Miskin Abdalımın nəvəsi Qurban.
Dodağı kəlamlı, əli kitablı,
Aqil babaların əvəzi Qurban!

Baxdı ki, hər yanı çiçəkdi, güldü,
Ürəyi atlandı, gözləri güldü.
Çağlar çeşmələrtək axdı, süzüldü,
Dağlardan almışdı həvəsi Qurban!

Başladı ömrünün söhbəti, dəmi,
Unutdu həsrəti, itirdi qəmi.

Aşıq Ələsgərin dostu, həmdəmi,
Aşıq Ələsgərin nəfəsi Qurban!

İki sənət dağı, sənət zirvəsi,
Öpüb bir-birini bağrına basdı.
Götürdü dünyanı şadlığın səsi,
Ustad kəlamına el qulaq asdı.

Bəzəndi hər yanım, doldu bir anda,
Döşəndi, sərildi xalı, xalçalar.
Sazlar qoşalaşıb, meydan qızanda
Yer bayram eləyər, göylər əl çalar!

Dağlar qoşa dursa,
Qoşalaşar şöhrəti.
İki çay birləşirsə
Min qat artır qüvvəti.
İgidlər cüt gələndə
Yenilmir qətiyyəti.
İki ustad görüşü
İki göz kimi əziz,
Eşqi pak, ağlı dərin,
Qəlbi müqəddəs, təmiz!
İki dost görüşəndə
Yoxa çıxır kədər, qəm,
İnsanın gözlərində
Gülür başqa bir aləm.
Sevgidən od götürüb
Gözlər alışıb-yanır.
Xatirələr kitabı
Yenidən varaqlanır!

Ələsgər məclisin görən gözüydü,
Qurban Ağdabanlı vuran ürəyi.
Həvəsə gətirən xalqın özüydü,
Baxışda arzunu, gözdə diləyi.

Birinci, ikinci yox idi burda,
Elə ikisi də birinci idi!
Qoşma qoşulurdu torpağa, yurda,
Hər kəlmə bir gövhər, bir inci idi.

Gedirdi meydanda dərindən-dərin,
Cinas imtahanı, cinas yarışı.
Zərif duyğuların, kövrək hislərin
Bir təcnis olurdu hər axtarışı.

Varlığın çox sirri açılmır niyə,
Torpaqmı qədimdi, sumu əzəldi.
Dünya necə çatdı bu gözəlliyə,
Kainat nizama necə düzəldi?

Hardadı zamanın əvvəli, sonu,
Tarixin yaşından söhbət gedirdi.
Dünya binadırsa, kim qurub onu,
Bünövrə daşından söhbət gedirdi.

Qurban bulağında məclis başladı,
Qurban məktəbinə dönənə kimi.
Nəydi o məclisin ləzzəti, dadı,
Şəmşir danışırdı dünənə kimi!

Olub bir torpağın əkiz övladı,
Olub bir qartalın qoşa qanadı,
Olub bir sənətin iki Fərhadı.
Sazı da, sözü də dillərdə əzbər,
Aşıq Qurban ilə aşıq Ələsgər!

LƏYAQƏT

İki bəyin adamı,
Eyni saatda gəldi
Ələsgərin yanına!
Çağırırdı ustadı
Hərə öz ünvanına.
Toy üst-üstə düşürdü –
Eyni gün, eyni saat.
İşin toqquşmasına
Qul Ələsgər qaldı mat!
Fikirləşdi sənətkar:
Aran dağa daşındı,
Dağ arana daşındı.
Yenə fikir yük oldu,
Neçə yana daşındı.
Çağıran iki nəfər,
Çağrılan bir, gedən bir,
İki məclis, iki bağ,
Bülbül olub ötən bir.
Hansı məclisdə çalsın
Ürəyini, sazını.
Kimə bildirsin ustad,
Görən etirazını!
Birində olsa əgər,
İnciməzmi o biri.
Necə görsün işini,
Necə qılsın tədbiri?
Düşündü ürəyində:
Gəl denən ki, xəstəyəm.
Başqa sənətkar tapın,
Heç kəs müşkül olmasın,
Müşkülə açar tapın!
Azdımı bu Göyçədə
Sözü mənim sözümdən

Təravətli, ətirli,
Adı mənim adımdan
Məhəbbətli, xətirli,
Dünyagörmüş sənətkar!
Hər çiçəyin öz ətri,
Hər gülün öz dadı var.
Bu dəm bir səs ucaldı
Elə bil yerdən göyə.
Dirilik çeşməsidir
Sən çaldığın saz, – dedi.
Sən getməsən məclisə,
Ələsgərin adına
Heç bu yaraşmaz, – dedi.
Birdən görün nə düşdü
Ələsgərin yadına:
Onun böyük ürəyi,
Onun loğman kamalı,
Çatdı, vaxtında çatdı
Ələsgərin dadına.
Gələnləri yenidən
Tutdu sorğu-suala.
Bir danışın, bəylərin
Oğul-uşaq sarıdan
Kimləri var, ay bala!
Biri dedi: bəyimin
Yeddi oğlu var, ustad!
Mən də ki, qardaşıyam.
Onun sevincini də,
Onun kədərini də
Mən gərək ömrüm boyu
Öz çiynimdə daşıyam!
Sizi dəvət edirəm
İlk oğlunun toyuna.
Sizsiz keçən məclisin
Şadlığı nə, toyu nə?!

Biri dedi: bəyimin
Bircə oğlu var, ustad!
O da qarşınızdadır!
Ağlım kəsənnən bəri
Mənim fikrim, xəyalım
Dediyiniz kəlamda,
Çaldığınız sazdadır!
Çoxdan arzulamışam,
Nola mənim toyumda
Aşıq Ələsgər ola!
Eşidən əhsən deyə,
Duyan bəxtəvər ola!
Ustad dedi: ay bala,
Həqiqət atadırsa,
Yeddi oğlu olan kəs,
Bircə oğul toyuna
Getsəm, məndən inciməz!
Bir oğul bu dünyada
Ocağın tək kösöyü,
Təknənin tək əppəyi.
Yeddi oğlu olanın
Nəyi çatışmır, nəyi?!
Sizin qalan toyları
Yenə özüm olaram
Yaraşığa mindirən.
Yenə bu sazım olar
Könüllər isindirən!
Gülləndirər nəfəsim
Altı igid toyunu.
Saz ilə, söhbət ilə
Oxşaram, əzizlərəm
Hər birinin boyunu.
Təki mənnən inciyən
Məndən küsən olmasın.
İstəyini azaldan,
Ara kəsən olmasın.

Əgər toxunmuş olsam
Bircə kəsin xətrinə,
Onda mənim sözümün
Qiyməti nə, qədri nə?!
Sözü haqdan güc alar
Aşıq olan kəslərin.
İsindirər yurdunu
Ən soyuq nəfəslərin.
Dağlar ensə üstünə,
Dizlərini bükməz o.
El dərdini daşıyar,
Öz dərdini çəkməz o!
Aşıqsız məclis keçər,
Toymu, yasmı – bilinməz.
Aşıqlı məclis keçər,
Xatirədən silinməz.
Məndən inciməsin bəy,
Ürəyini şad elə.
Başqa bir usta apar,
Evini abad elə.
Birinci saf ürəklə
Yetir xoş salamımı.
De ki, Ələsgər dedi:
İnanıram sabaha,
İnandığım həqiqət
Yerdə qoymaz kamımı!
Altı gəlin köçürrəm
Bir atanın evinə,
Yığışar o toylara
El sevinə-sevinə.
Onda bir-birimizi
Yaxşı başa düşərik.
İndi isə yaxşı yol,
Toylarda görüşərik!
Görüşüb ayrıldılar,

Qayıtdı bir xəbərlə
Hərə öz evlərinə.
Biri uçdu göylərə,
Biri cumdu dərinə.
Biri ata evinə
Qanadlanıb şən gəlir,
Biri qardaş evinə
Başında çiskin, duman,
Gözlərində çən gəlir.
Biri çatır qəlbində
Çoxdan doğan arzuya.
Birini Allah bilir
Kim duymaya, kim duya.
Xəbər çatdı yerlərə,
Hər kəs bildi işini.
Yeddi oğul atası
Xeyli getdi xəyala,
İşin belə gəlməyi
Düşündürdü kişini.
Dedi: – Onda durmayın,
Ay mənim balalarım.
Bəy oğlumdan savayı
Altınız da atlanın,
Toy günü, toy vədəsi
O şadlığın üstünə,
O sevincin üstünə
Yel kimi qanadlanın!
Yox həyatda kimsədən
Bir qorxumuz, pəkimiz.
Gedin, gedin o toya,
Ömrünün əziz günü
Sizin birliyinizlə
Yeddiləşsin təkimiz!
O da bu xoş günündə
Qoy yeddi qardaş olsun!

Elə məclis keçirin,
Məclislərin içində
Hamısından baş olsun!
Səsiniz qanad olsun
Qoy aşıq Ələsgərə!
Sığışmasın söhbəti
Bir kitaba, dəftərə.
Qonşu toyda vurhavur,
Qonşu toyda çalhaçal.
Hər ürəkdə xoş arzu,
Hər başda şirin xəyal.
Xalı-xalça döşənib
Ustadın ayağına.
İndi bu məclis düşüb
Taleyin xoş çağına!
Məclis qoşun kimidir,
O da bir sərkər kimi.
Hamı onu dinləyir
Aşıq Ələsgər kimi.
Hikmət dalınca hikmət,
Səs dalınca səs gəlir.
Bu səsdən, bu avazdan
Sanki dağlar tərpənir,
Daş da nəfəsə gəlir.
Havalardan güc alır,
Qollara qüvvət gəlir.
Ələsgəri dinləyən
Elə bilir qəlbinə
Tanrıdan qüvvət gəlir.
Aşıq yad elədikcə
Qurbanini, Abbası,
Açılır ayna kimi,
Tutulur qəlbin pası.
Yanır sənət çırağı,
Az qalır ki, şam kimi
Gilə-gilə əriyə.

Elə şaddı sənətkar,
Elə bil qovuşdurur
Qurbanini Pəriyə!
Şənlik elə yüksəlir,
Bir məclisin sevinci
Yüz zirvəyə tən gəlir.
Bu səsin sorağına
Qərib Şahsənəm deyib,
Yenə qürbətdən gəlir!

Doymaq olmur zilindən,
Doymaq olmur bəmindən.
Heç kəs ayrıla bilmir
Sazın xoş aləmindən.
Yenə ellərin gözü
Bu şadlığın üstədi.
El anası, el oğlu
Ələsgər məclisdədir!
Qoşmaları tumarlı,
Təcnisləri cığalı.
Ütü çəkir ruhlara
Fikrin səmti, sığalı.
Söz dönüb çiçəklərə,
Yenə dəstə-dəstədir.
Ətri tutub dünyanı,
Ələsgər məclisdədir!
O gün külək əsmədi,
O gün şimşək çaxmadı.
Təbiət lal dayandı,
Onu dinləmək üçün
Fürsəti buraxmadı.
Üfüqlərdən Günəş də
Enib gəlmək istədi,
Saz yenə öz işində
Ələsgər məclisdədir!

Sözün şirin yerində,
Söhbətin xoş çağında,
Altı oğul dayandı
Məclisin qənşərində,
Ustadın qabağında!
Bir-bir bəy oğulları,
Nəğməkarın önündə
Əl sinədə baş əydi.
Bu səhnədən, görüşdən
Yenə qul Ələsgərin
Başı göylərə dəydi!
Bildirdilər məclisə,
Çatdırdılar ustada
Atanın mətləbini.
Silkələdi bu xəbər
Ələsgərin təbini.
Hikmətlər dedi xalqın
Adətindən, dəbindən.
İncilər üzə çıxdı
Dəryaların dibindən.
Nə zaman ki, insanın
Əməli, söz-söhbəti
Xalqın ürəyindəki
Duyğularla səsləşir,
Sənətkar ölməz olur,
Sənət müqəddəsləşir!
Ayrılmır, haçalanmır,
Elin sözü bir olur.
Sənətkar da, sənət də
Ocaq olur, pir olur.
Xalq ucalda bilirsə
Əsl sənətkarını,
Dərməyi bacarırsa
O sənətin barını,
Duyursa bir ürəyin

Ən böyük hikmətini,
Vaxtında, vədəsində
Verirsə qiymətini,
Arzuları ən uzaq
Mənzillərə varırsa,
Şeirin qanadlarında
Uçmağı bacarırsa,
Xına kimi yaraşır,
Ölməzlik o millətə!
Sinəsi sazlıları,
Əli qələmliləri
Yorulub yolda qalmır,
Gedir əbədiyyətə!
O xalqın arasında
Təklər yeddiyə dönür,
Yeddilər yetmiş olur.
Övlad da ata kimi
Kamala yetmiş olur!
Sənətkar da güc alır bu birliyin səsindən,
Daş üstə güllər bitir eşqindən, həvəsindən!

SON GÖRÜŞ

İnsan gəlir dünyaya, bu dünyayla görüşür,
Od da görür, şaxta da, qışla, yayla görüşür.
Görməyə, götürməyə qisməti var hər kəsin,
Hərə öz qismətinə düşən payla görüşür.
Xoşdu şirin görüşlər min olsa, milyon olsa,
Çəkilməzdi, ağırdı axır olsa, son olsa.
İlk görüşdə arzular qönçələnir, ey könül!
Son görüşdə ürəyə qan çilənir, ey könül!
İlk görüş bahar günü, yazın oğlan çağıdı,
Son görüş olanları vurur, yıxır, dağıdır.
Dünyanın sahibidir ilk görüşə gələnlər,
Sözünü, sevincini həmdəmiylə bölənlər!

Onların görüşündə söhbət Günəşdən düşür,
Ürəkləri qızdıran oddan, atəşdən düşür.
Aydan, ulduzdan gəlir diləklərin sorağı,
Nə dağlara çən, duman, nə saçlara dən düşür.
Neçə-neçə görüşlə şirin dostam, tanışam,
Elə görüş də var ki,
Dilim gəlmir mən onun
Ağrısından söz açam, əzabından danışam.
Yüz beş il ömür sürüb dünya görən Ələsgər,
Dövrün hər sitəminə sinə gərən Ələsgər,
Bu gün köç vədəsində, ölüm yatağındadır,
Oğulları, qızları solunda, sağındadır.
Şagirdləri kəsdirib balıncının yanını,
Təbiət alıb daha
Nəğməkarın əlindən yaşamaq imkanını.
Karvan-karvan baş alıb qəm keçir, kədər keçir,
Ələsgərin qəlbindən bir görün nələr keçir.

Yolların yoxuşu nə sərt olurmuş,
Bir yalı aşırsan, min bir yal qalır.
Bir arzun yetişdi, dəydi, dərirsən,
Min arzun budaqda hələ kal qalır.

İllərin ağrısı çoxalır canda,
Ağarır bəniz də, qaralır qan da.
Əllərin dünyadan boşa çıxanda,
Qəmdən ürəyində qara xal qalır.

Hardadır əbədi alışan ocaq?
Solan bir ömürdü hər sarı yarpaq.
Vuruşur, əlləşir, insana ancaq
Bir quru xatirə, bir xəyal qalır.

Xəyal onu aparır şirin xatirələrə,
Ömrünün kitabını varaqlayır son kərə.
Birinci səhifədə – südəmər uşaqlığı,
Dünya qayğılarından fikrinin uzaqlığı.

Taxtın qaşından tutub astadan yeriməyi,
Acanda ağlamağı, doyanda kiriməyi.
Anası Pərizadın ətəyindən tutmağı,
Atası saz çalanda özünü unutmağı.
Yavaş-yavaş dil açıb danışmağı, dinməyi,
Qonşu uşaqlarına öyrəşib isinməyi.
Göy çəməni görəndə gülə heyran olmağı,
Öz-özündən xəbərsiz
Dünyasına, qəlbinə
Sözlərin süzülməyi, nəğmələrin dolmağı.
Axar suya baxanda axmağı, durulmağı,
Həyatı duya-duya həyata vurulmağı!
İkinci səhifədə – dəliqanlı gəncliyi,
Kükrəməyi, coşmağı, yorulmağı, dincliyi.
Ehtiyacla dostluğu, dərd ilə tanışlığı,
Ev-eşiyin qayğısı, payızlığı, qışlığı.
Bəylərə nökər olan,
Hər gün əlində qabar, yanağında tər olan,
O sitəmli çağları!
Sinəsində zamanın çalın-çarpaz dağları,
Göyçə çəmənlərində yarına gül verməyi,
Eşqə düşüb, söz deyib, yara könül verməyi.
Pul zoruna əlindən alınan səadəti,
İliyində, qanında
Səhnəbanı sevgisi, Səhnəbanı həsrəti!
Üçüncü səhifədə – şan-şöhrət, şərəfli ad,
Sözü peyğəmbər sözü, adı ən kamil ustad!
Dünya dərdi daşıyan el oğlu, el anası,
Xalq içində həyatı, həyatının mənası.
Məclislərin bəzəyi, ürəklərin işığı,
Müqəddəs bir sənətin ən gözəl yaraşığı,
Xalqın böyük şairi, elin böyük aşığı.
Ətrafında bir qoşun oğlu, qızı, nəvəsi,
Ürəyində dünyanın tükənməyən həvəsi.
Başdan-başa Qafqaza yayılan məğrur səsi,
Sinəsində, dilində incilər xəzinəsi!

Bir də ki, qocalığı!
Yaşanılmış bir ömrün
Beş-on illik qalığı!

Qocalıq gəldimi, əriyər insan,
Ruhu axşam-səhər bacalar gəzər.
Gözü yaşamaqda, özü yataqda,
Eşqi dağlar deyər, ucalar gəzər.

Ayların, illərin keçər başından,
Qəlbi soyuq olar divar daşından.
Evin ortasında taxta qaşından
Körpə uşaq kimi güc alar gəzər.

Yersizdi dərmanı, dəvanı neylər,
Lap dərman olsa da, havanı neylər.
Cavanlıq itirən cavanı neylər,
Gözü hara baxsa qocalar gəzər.

Dördüncü səhifədir –
Ömür adlı kitabın
Axırı da, sonu da!
Təbiətin hökmüdür,
Bir gün oxumalısan
Əzəl-axır onu da!
Kitabın lap sonunda,
O ölüm rəngindədir,
O əzrayıl yolunda.
Yox, hələ ustadımız
Bu yeri varaqlamaz.
O, həyat aşiqidir,
Bizi yasda saxlamaz!
O, hamının hikməti,
O, hamının sərvəti,
Doğmanındı, yadındı.

Gəlin, onu dinləyək,
Söz yenə ustadındı!

– Yaşadıq, gördük dadını,
Dünya buydumu, budumu?
Çox çağırdıq ustadını,
Dünya buydumu, budumu?

Fəsil-fəsil təzələnən,
Günəşindən köz ələnən,
Toyu, yası çözələnən
Dünya buydumu, budumu?

Alveri bol, bazarı çox,
Daşımağa azarı çox.
Beşiyi çox, məzarı çox,
Dünya buydumu, budumu?

Qaldıranda var eləyən,
Endirəndə xar eləyən,
Ömrü tezbazar eləyən,
Dünya buydumu, budumu?

Kül elədi ocağına,
Toz elədi torpağına.
Qoydu bizi tapdağına,
Dünya buydumu, budumu?

Yenə dağlar düzə qaldı,
Sular axdı, təzə qaldı.
Quru baxmaq bizə qaldı,
Dünya buydumu, budumu?
Dərk elədim hikmətini,
Vüsalını, həsrətini.
Tanıdım hər sifətini,
Dünya buydumu, budumu?

Ayrılığın çağı gəldi,
Salamat qal, qoca dünya!
Əcəl ömrə yağı gəldi,
Salamat qal, qoca dünya!

Ağırdı çiynimin yükü,
Dərindi dərdimin kökü.
Gəldim bir, gedirəm iki,
Salamat qal, qoca dünya!

Demədiyim nələr qaldı,
Sinəmdə nəğmələr qaldı.
Neçə arzum mələr qaldı,
Salamat qal, qoca dünya!

Əməlimi sal yadına,
İstəyimin çat dadına.
Halallıq ver övladına,
Salamat qal, qoca dünya!

Dürlü-dürlü halın olsun,
Daha xoş əhvalın olsun.
Hər sözüm halalın olsun,
Salamat qal, qoca dünya!

Oğlu Talıb soruşur:
– Ata, nədir istəyin,
Nə istəyir ürəyin?
Meylin nə çəkir, buyur!
Fikrini Ələsgərin
Gözlərindən oxuyur!
– Oğul, son nəfəsdə
Onu görmək bəsimdir.
Səhnəbanı həsrəti
Məndən sonra dünyaya
Haray salan səsimdir!

Oğul dedi: – Ay ata,
Nə deyim bu həyata!
Axı Səhnəbanının
Yatağından durmağa
Yox taqəti, imkanı.
İncəlib, ipə dönüb,
Nazilib, sapa dönüb.
Onda elə cəsarət,
Onda o qüvvət hanı?!
Ata dedi: ləngimə,
Diqqət elə, fikir ver,
Sözümə, ahəngimə!
Ona Ələsgər baxıb,
Min il keçsə qocalmaz.
O, illərdən bac alar,
İllər ondan bac almaz.
Yolda qoyma gözümü,
Çatdır ona sözümü.
Məni eşqə salan gün
Geyindiyi paltarı
Yenə geysin əyninə.
Cilvələnsin qız kimi,
Qocalığı, ağrını
Heç almasın eyninə.
Eşitsə xəbərimi,
Yolunu dağ kəssə də,
Dağlar aşıb gələcək.
Yüz ilin həsrətlisi
Dönüb şux gözəllərə,
Cavanlaşıb gələcək!
Oğul dedi: – Ay ata!
Sultan ata, bəy ata!
Axı, doxsan il keçir,
O vaxtdan bu zamana,
Nahaq düşmə gümana.

Doxsan il əriməmiş
Zirvədə qarmı qalar?
Doxsan il dərilməmiş
Bağçada barmı qalar?
İndi çürüyüb gedib,
Bu gün Səhnəbanıda
Elə paltarmı qalar?
Ata dedi: – İtirmə
Həyata inamını,
Söndürəmməz bu dünya
Gözəllərin şamını.
Əgər Ələsgər gözü
O paltara baxıbsa,
O paltara yaraşan
Gül bədənin eşqinə
Sinəsindən nəğmələr
Könüllərə axıbsa,
O ipəyin, atlazın
Bircə ilməsi belə
Min il keçsə çürüməz!
Nə duman, nə də çiskin
İlahi gözəlliyin
Varlığını bürüməz!
Son tapşırığı ustad
Xoş bir avazla dedi.
Sözlə dedi, doymadı,
Üstəlik sazla dedi.
“Gedin deyin o gəlinə
Ölürəm, yanıma gəlsin.
Gəlsə, bəlkə, tapam şəfa,
Batmasın qanıma, gəlsin.
Dəryada çox olar balıq,
Mətləbini versin xalıq.
Çit tuman, atlaz arxalıq,
Yar geysin, yanıma gəlsin.

Dəryaların adası var,
Ələsgərin sədası var.
Mərdin nə ki, qadası var
Namərdin canına gəlsin.”

Atanın söhbətindən oğul heyrətə gəldi,
Quştək sıçradı yerdən, gücə, qüvvətə gəldi.
Çıxdı ildırım kimi qapıdan çölə sarı,
Sürdü qara köhləni Mustafanın evinə,
Gah ağlaya-ağlaya, gah sevinə-sevinə.
İstədi haraylasın, gördü görünmür qarı,
Xeyli nigaran oldu, çoxaldı intizarı.
Baxdı bir qız dayanıb evin astanasında,
Sanki daranıb çıxıb gözəlliyin tasında!
Paltarı görən kimi Talıb dəhşətə gəldi,
Özü də bilmədiyi
Bir duyğu ürəyini dəldi!
Gördü elə bu paltar
Atasının dediyi o atlazdı, o ipək!
Bu paltar deyirdi ki,
Zamandan zülüm görən yoxdu Səhnəbanıtək!
Dilləndi Səhnəbanı:
Bilirdim gələcəksən, xoş gəlibsən, ay Talıb.
Ələsgər can üstədi,
Bir son görüşdən ötrü ümid tək sənə qalıb!
Sənə nə tapşırıbsa
Hamısını yuxuda öz gözümlə görmüşəm,
Onun dediyi kimi,
Saçıma sığal vurub, tellərimi hörmüşəm.
Geyinmişəm doxsan il saxladığım donumu,
Qoca dünya mənim də çatdıranda sonumu.
Bu paltarın içində tapşıracam canımı,
Yandırdı zalım fələk dinimi, imanımı!
Bu paltara Ələsgər əlini vurub deyə,
Bu paltar xəyalını quştək uçurub deyə,

Yayda tozdan gizlədim, qışda nəmdən qorudum,
Mənə yüz yerdən baxan bu aləmdən qorudum!
Di durma, Ələsgəri intizardan qurtaraq,
Tamamlanıb o kitab, qalıb sonuncu varaq!
Gördülər yaxalayıb Səhnəbanı yaxını,
Yarıldı yarğan kimi
Baş əydi, yol elədi ona insan axını!
Ələsgər yol gözləyir, könlü həsrət içində,
Səhnəbanı gəncləşib,
Bu səhnəni görənlər qalıb heyrət içində!
Nəğməkarın yarını apardılar içəri,
Səhnəbanı, Ələsgər
Birinci dəfəydi ki,
Belə yaxın olurdu neçə illərdən bəri.
Müqəddəsdir əzəldən el adəti, el dəbi.
Səhnəbanı apardı
Özünü ana kimi,
Özünü qadın kimi,
Baxışıyla danışdı hər mənanı, mətləbi.
Ələsgər istədi ki,
Ona doyunca baxsın, ancaq baxa bilmədi.
Əcəlin pəncəsindən
Xilas olmaq istədi, ancaq çıxa bilmədi.
Ayaqlaşmaq istədi, dizə gücü çatmadı,
Nəsə demək istədi, sözə gücü çatmadı!
Necə oldu bayaqkı qız,
Ələsgər baxanda
Elə yandı, yaxıldı, gördülər ki, qarıdı.
Yarımaz, bu dünyadan bax beləcə yarıdı.
Ustad yumdu gözünü, tərk etdi nəfəs canı,
Dünyanı silkələdi ellərin həyəcanı!
Bir anda Ələsgərin can evi, can sarayı,
Kərpic-kərpic söküldü!
Ələsgərin üstünə
Birinci göz yaşları
Yenə Səhnəbanının gözlərindən töküldü!!!

ŞAİR HARAYI

Dayanmışam bir dağın qartallı zirvəsində,
Səsim elə gurdu ki,
İtmir, batmır, ərimir, çayların gur səsində,
Mən sizi çağırıram!
Gözünü yaş yandırıb, qəlbini qəm tutanlar,
Ayağı yer, dili söz, əli qələm tutanlar!
Ağsaqqallar, qocalar, sərkərdələr, ozanlar,
Azərbaycan xalqının bugünkü tarixini
Qan içində yaradıb, qan üstündə yazanlar!
Mən sizi çağırıram!
Əri şəhid olanlar,
Oğul məzarı üstə saçlarını yolanlar!
Yarına qucaq açıb, murazına yetməmiş,
Şana barmaqlarından toy xınası getməmiş
Toyu yasa dönənlər,
Alışmamış sönənlər,
Mən sizi çağırıram!
Milyonu ola-ola qəpik üstə əsənlər,
Rüşvətxorlar, oğrular, alçaqlar, başkəsənlər,
Atasından bezikib, anasından küsənlər,
Mən sizi çağırıram!
Bir fürsət düşən kimi aradan əkilənlər,
Qorxaqlar, fərarilər, kənara çəkilənlər,
Mən sizi çağırıram!
Başdan-ayağa kimi,
Saçdan dırnağa kimi,
Kökdən budağa kimi
Qeyrətdən yoğrulanlar,
Vətən adı gələndə
Arzuları çin olub, ümidi doğrulanlar,
Mən sizi çağırıram!

Millətə vəkil olub,
Millətin bir sözünü yerinə yetirməyən,
Arzular çəmənində bircə gül bitirməyən,
Hər gün bir az dirçəlib, hər gün bir az dikələn,
Milləti arıqlayıb, gündən-günə kökələn,
Bir nöqtəyə, vergülə,
Bir həftə gecə-gündüz başları qarışanlar,
İşi ancaq söz olub, söz üstə yarışanlar,
Kürsüdə görkəmini pələngə döndərənlər,
Vətənin dar günündə
Övladını, nəslini xaricə göndərənlər,
Mən sizi çağırıram!
Qaçqın, köçkün, didərgin, evsiz-eşiksiz qalan,
Dili sözsüz, laylasız, əli beşiksiz qalan,
Boyun bükən sonalar,
Yazıq olan analar,
Mən sizi çağırıram!
Partiyalar, dəstələr, dəstəbazlar, qurumlar,
Daha bəsdi arada açılan uçurumlar,
Mən sizi çağırıram!
Həyasız alverçilər, halal ticarətçilər,
Min dəfə soyulanı
Bir də üstəlik soyub, kef çəkən qarətçilər,
Dünya malından ötrü
Öz doğma qardaşına daldan güllə atdıran,
Qaçqın yardımlarını
Dədəsinin malıtək bazarlarda satdıran,
Min dəfə əziləni yenidən əzdirənlər,
Vətəni qəlbində yox, cibində gəzdirənlər,
Mən sizi çağırıram!
Mən niyə çağırıram?
Bu çağırış, bu nida, bu səs nə deyir sizə?
Ürəyimi göynədən,
Dodağımı yandıran nəfəs nə deyir sizə?
Düşünün, fikirləşin!

Yumruğa dönmək üçün yumruq kimi birləşin!
Yolda, izdə, həyətdə, dağda, daşda birləşin,
İmtahanda, sınaqda, bərkdə, boşda birləşin!
Görmüşük naşıların qazancını, xeyrini,
Vətənə dayaq olan Vətəndaşda birləşin!
Əqidəni, inamı, amalı birləşdirin,
Ağlı, səbri, dözümü, kamalı birləşdirin,
Kimdə dedi-qodu var, kimdə umu-küsü var,
Hər kimin tayfasında hər kimin tüstüsü var,
Qoyun qalsın kölgədə,
Dava gedir ölkədə!
Alçaq düşmənə qarşı zor savaşda birləşin,
Çevik əldə, ayaqda, ayıq başda birləşin!
Düzləri qarsaladı, dağları ətəklədi,
Tapdı zəif damarı, düşmən bizi təklədi.
Səngərdə qoşun kimi, silah kimi birləşin,
Yeri qorumaq üçün peyğəmbərə çevrilin,
Göyü saxlamaq üçün Allah kimi birləşin!
Birləşin süfrələrin ləzzətində, tamında,
Birləşin anaların Allaha inamında!
Birləşin şəhidlərin yerə hopmuş qanında,
Birləşin dinimizin oxunan Quranında!
Bu birliyi yaratmağa bir nəfərin gücü çatmaz,
Sən özünü polad elə, dəmir elə!
Yağıları külə döndər, kömür elə!
Səfərbər ol, Xalqım mənim!

Dərdli-dərdli sinələrin min dağı var,
min düyünü,
Ürəkləri oydu-tökdü nifrət dağı, kin düyünü.
Açа bilən əllər gərək, bəxtin düşüb cin düyünü,
Səfərbər ol, Xalqım mənim!

Zaman-zaman gurultulu alqış gördük,
çəpik gördük,

Gur alqışlar axarında
Siyasətin endirdiyi yumruq gördük,
təpik gördük.
Milyardımız yadın oldu, özümüzsə
qəpik gördük.
Torpağın da xəzinətək talan olmaq qorxusu var,
Dağlar boyda həqiqətin yalan olmaq
qorxusu var!
Səfərbər ol, Xalqım mənim!

Sərhədlərdə səngərini öz əlimlə qazan olum,
Qələbələr tarixini kitab-kitab yazan olum.
Gözündəki bu yaş nədir?
Qəlbindəki təlaş nədir?
Başın çəkən müsibəti
Allah ilə danışmağa haqqı çatan ozan olum.
Səfərbər ol, Xalqım mənim!
Qurşun elə ürəyini,
Qoşun elə kürəyini,
Bayraq elə biləyini,
Səfərbər ol, Xalqım mənim!

Bu torpağın, bu millətin bundan
ağır günü yoxdur,
Ancaq ölü demək olar,
Belə gündə hər kimin ki, səsi yoxdur,
ünü yoxdur.
Səfərbər ol, Xalqım mənim!
Sən səfərbər olmadıqca
Gündən-günə qarı düşmən üstümüzə ayaq alır,
Uğurumuz, qələbəmiz ilə qalır, aya qalır.
Sən səfərbər olmadıqca qismətimiz döyülməkdi!
Ona-buna ağız açıb, ona-buna əyilməkdi!
Parça-parça, tikə-tikə, loxma-loxma yeyilməkdi!
Sən səfərbər olmadıqca
Məqsədi bir, mətləbi bir arzuların

Haçalanmaq qorxusu var!
Ana deyib andığımız,
Sevgisiylə yandığımız,
Ana qoynu sandığımız
Sevgi dolu bu torpağın
Mahal-mahal, məhlə-məhlə parçalanmaq
qorxusu var.
Səfərbər ol, Xalqım mənim!

Arxamızın dağı uçur, dağı gedir,
Qılınc enir, qolumuzun sağı gedir.
Saat-saat gözümüzün yağı gedir,
Gözdə işıq, damarda qan əldən gedir,
Parça-parça Azərbaycan əldən gedir!

Bir düşünün bir günlüyə, bir anlığa,
Başdan-başa Vətən dönür viranlığa.
Qara əllər çəkir bizi qaranlığa –
Nurlu axşam, işıqlı dan əldən gedir,
Parça-parça Azərbaycan əldən gedir!

Zaman bizi sovuracaq, süpürəcək,
Nifrət, qəzəb dəniz kimi köpürəcək,
Ayılmasaq, üzümüzə tüpürəcək.
Fürsət adlı qiymətli an əldən gedir,
Parça-parça Azərbaycan əldən gedir!

Yox, yox! Təkcə əldən getmir,
Başdan gedir, beldən gedir,
Xalqdan gedir, eldən gedir Azərbaycan!
Təbiətdən ayrı düşür,
Cığır, çəhlim, yol itirir.
Hər igidin ölümüylə qoşa vuran qol itirir!
Gözlərimiz baxa-baxa gözdən olur Azərbaycan!
Gücü çatmır öz yükünü qaldırmağa,
Qüvvət gedir, dizdən olur Azərbaycan!

Şuşa gedir, Ağdam gedir, Laçın gedir,
Yavaş-yavaş bizdən olur Azərbaycan!
Neçə-neçə qarlı dağa əli çatmır,
Neçə-neçə düzdən olur Azərbaycan!
Yavaş-yavaş bizdən olur Azərbaycan!
Axar suya həsrət qalıb,
Dodağımız çat-çat olub cırılmamış,
Belimizin şah damarı
Bu dəhşətli zərbələrdən birdəfəlik qırılmamış,
Gəlin, şöhrət havasını dayandıraq,
Gəlin, stol davasını dayandıraq.
Bizim üçün bircə dava meydanı var,
QARABAĞDIR!
Bizim üçün torpaq, hava meydanı var,
QARABAĞDIR!
Nə qədər ki, tufanlara sinəmizi gərməmişik,
Nə qədər ki, yağıların cavabını verməmişik,
Nə qədər ki, Vurğun, Şəmşir gəzən yerdə
Süfrəmizi sərməmişik,
Nə qədər ki, Şuşa murdar əllərdədir,
Nə qədər ki, göz yaşımız çaylardadır, sellərdədir,
Nə qədər ki, İstisuyun harayına yetməmişik,
Nə qədər ki, Kəlbəcərdə palıd olub bitməmişik,
Gözün rahat uyumağa haqqı yoxdur!
Əlin işdən soyumağa haqqı yoxdur!
Vaxtın hədər əriməyə haqqı yoxdur!
Xalqın susub, kiriməyə haqqı yoxdur!
Haqqımızı dərk etməyin vaxtı çatıb,
Biganəlik duyğusunu
Tərk etməyin vaxtı çatıb!
Sən başsansa, bədən olmaq mənim haqqım!
Sən gülsənsə, çəmən olmaq mənim haqqım!
Döyüş varsa, əsgər olmaq mənim haqqım!
Vuruş varsa, səngər olmaq mənim haqqım!

Vətən əgər dardadırsa,
Mənim haqqım kaman kimi gərilməkdi.
Ölünün də haqqı yoxdu məzarında rahat yata,
Onun haqqı dirilməkdi!!!
Vətən əldən gedən günü
Vətəndaşın qalır bircə vəzifəsi –
Bir kəndirdir, yağlı kəndir,
Bir boğazdı, bir ilməkdi!
Şəhid oğlu, şəhid ata
Necə şərəf gətirirsə bu həyata,
Bu millətə hər birimiz
Bax, beləcə şöhrət, şərəf olmalıyıq!
Tərəfimiz, hədəfimiz birdi bizim,
Nə o tərəf, nə bu tərəf olmalıyıq!
İnsan kimi qeyrət ilə öləmməsək,
Heyvan kimi ancaq tələf olmalıyıq!

Deməyin ki, indi sözün vaxtı deyil,
Ey ölülər, ey dirilər,
Səbrinizi bir az basın.
Ürəyindən qanlar axan,
Baxışında şimşək çaxan,
Yaralanmış bir şairin
Naləsinə, fəryadına, gileyinə qulaq asın!
"Şuşanı verdilər!" – deyəndə, qardaş,
İşıqdan zülmətə, dumana düşdüm.
Suallar, cavablar yordu beynimi,
Min dəfə gümandan-gümana düşdüm.

Bəlkə, ataların qırılıb beli,
Oğul əkə bilmir, ər verə bilmir!
Çatdırıb Vətəni müqəddəsliyə,
Torpağa qan töküb, tər verə bilmir!

Bəlkə, anaları gözdən salmışıq,
Oğul doğa bilmir, qız doğa bilmir.

Sözə hamiləlik dövrü qurtarıb,
Milləti ayağa qaldırmaq üçün
Şairlər ilahi söz deyə bilmir?!

Bəlkə, haqqımız yox ata olmağa,
Bəlkə də körpələr hədər böyüyür?!
Hər evin nə qədər uşağı varsa,
Hər evdə o qədər kədər böyüyür?!

Niyə keçmişimiz it-bata düşdü,
Niyə tariximiz düz yazılmadı?!
Yalanla, nalanla dolu kitablar,
Niyə bir həqiqi söz yazılmadı?!

Köksünü ötürmə əlin çənəndə,
Bu Vətən həmişə daşlanıb, babam!
Bu günün dözülməz məğlubiyyəti
Üç yüz il əvvəldən başlanıb, babam!

Pyotrun tarixi vəsiyyəti də,
Leninin sərtliyi, qətiyyəti də,
Çevrilib gülləyə, dönüb mərmiyə,
Bizim sinəmizi alıb nişana,
Bizim qəlbimizə tuşlanıb, babam!

Köksüz doğuluruq, bəlkə, həyatda,
Burundan uzağı görə bilmirik?!
Qalxıb otururuq yeddinci qatda,
Xalqın ürəyinə girə bilmirik.

Allah ucalığı el içindədi,
Allahın yanına enə bilmirik.
Haqqın dərgahından uzaqlaşırıq,
Haqqın dərgahına dönə bilmirik.

Allah da bildirib allahlığını,
Günahın yerinə cəzadı, verir.
Uçurur, dağıdır, yandırır, tökür,
Zülümdü, zillətdi, qəzadı, verir.

Torpaq nə, Vətən nə, millət nə, yurd nə,
Dərk edə bilmirik, kal böyüyürük.
Dilimiz yük olur dodağımıza,
Him-cimlə danışır, lal böyüyürük.

Sabahdan üzülər keçmişdən qopan,
Hədəfik zamanın gədələrinə.
Südü də, qanı da qarışdırıblar,
Körpələr oxşamır dədələrinə!

Qanı qarışıqlar, südü haramlar,
Vətəni nə yaman günlərə qoydu.
Öküz buraxdılar göy çəmənliyə,
Çəməni nə yaman günlərə qoydu.

Vətəni çıxardıb Vətənliyindən,
Neçə əraziyə, neçə quruma,
Neçə tamahkara bölmək olarmış.
Ayaqlar altına salıb milləti,
Dağlarda, bağlarda, meyxanalarda
Yenə də şadlanıb, gülmək olarmış!

Düşməndən min dəfə rəzil, qorxulu,
Kəmsavad, nadanla döyüşməliyik.
Bizim bəxtimizə heyvanlar çıxıb,
Nə qədər heyvanla döyüşməliyik!

Kişilər belindən oğullar gələr,
Qaytarar millətin mətinliyini.
Şuşanı verənlər bilirmi görən,
Şuşanı almağın çətinliyini?!

Haqdan qulağıma sədalar gəlir,
Yuva belə qalmaz, yurd belə qalmaz.
Haqqı öz yerinə qaytaran kişi,
Tapar dərmanını, dərd belə qalmaz!

Ağır suallardan yaxa qurtarıb,
Acı xəyallardan ayrılmaq gərək.
Qılınc öz qınından sıyrılan kimi,
Şübhədən, gümandan sıyrılmaq gərək!

İribuynuzlular cumdu üstünə,
Ot kimi yedilər Azərbaycanı.
Yağlı quyruq kimi hey əritdilər,
Ət kimi yedilər Azərbaycanı.

Bir gün torpağını siyasət yedi,
Bir gün bayrağını cinayət yedi.
Hər gün bu milləti oydu içindən,
Hər gün bu milləti xəyanət yedi!

Nə qədər yadlara yem oldu, bəsdi,
Nə qədər qisməti kəm oldu, bəsdi.
Nə qədər ağladı, göz yaşı tökdü,
Nə qədər yanağı nəm oldu, bəsdi!

Haqdan qulağıma sədalar gəlir,
Bir də Azərbaycan yeyilməyəcək!
Müqəddəs adına bir də heç zaman,
Kölə, müstəmləkə deyilməyəcək!!!

Haqdan qulağıma sədalar gəlir,
Yer haqqı, göy haqqı, kainat haqqı,
Bu ulu məmləkət, bu həyat haqqı,
Nə qədər əyməyə çalışsalar da,
Yenə Azərbaycan əyilməyəcək!

Nəsimi inadı bir toxum kimi,
Yurdun hər yerində cücərməlidir!
Sağlam toxumları sulayıb, səpib,
Xalq öz torpağını becərməlidir!

Heç ola bilərmi, haqq unudula,
Bizim olan Şuşa bizim olmaya.
Heç ola bilərmi, tarix yaradam,
Tarixə deməyə sözüm olmaya?!

İnana bilmirəm, mənim millətim
Tərtərsiz, Qarqarsız, Xaçınsız qala.
İnana bilmirəm, Sultan bəy susa,
Laçın oğulları Laçınsız qala!

Bizikmi bu qədər aciz görünən?
İnana bilmirəm, yox, inanmıram.
Dəysə də alnıma düşmən gülləsi,
Batsa da gözümə ox, inanmıram!

İnana bilmirəm, arxayınlaşa,
Baxmaq vərdiş ola qəbrə, tabuta.
Hər gün basdırıla, hər gün qırıla,
Keylik xəstəliyi bu xalqı tuta!

Yüz dəfə gözümü cəllad oysa da,
Yüz dəfə dərimi düşmən soysa da,
Lap fələk qarnını yerə qoysa da,
Həqiqət boğazdan asılmayacaq!

Dərmanı tapacaq dərdin sahibi,
Hər iman sahibi, hər din sahibi.
Meydana çıxacaq yurdun sahibi,
Bir küncə-bucağa qısılmayacaq!

Haqdı, həqiqətdi gözünün nuru,
Allahın yanında vicdanı duru.
Halal qələbəni, halal uğuru,
Qoç ilə, qurbanla qarşılayacaq,
Bu ulu məmləkət basılmayacaq!

Nurlu axşam düşər, qızıl dan olar,
Qızıl sünbül bitər, qızıl dən olar,
Millətin dirəyi qızıldan olar,
Daşlar gül bitirər, qayalar çiçək,
Bu gün yumruq kimi birləşə bilsək!

Bizə nə lazımdı?
Ağız birliyi,
Ağ bəxtə yol açan ağ üz birliyi,
Qıpçaq qıvraqlığı, oğuz birliyi!
Olsaydı Xətai – Yavuz birliyi,
Axmazdı ildırım, çaxmazdı şimşək,
Bu gün yumruq kimi birləşə bilsək!

Özü bir ziyarət, evi Hac olar,
Ağıllı başçılar başda tac olar.
Bir dərdə min dərman, min əlac olar,
Yaddaşdan silinən ehtiyac olar,
"Bir canda döyünər neçə min ürək!"
Bu gün yumruq kimi birləşə bilsək!

Torpağa kimi qan, kimi tər verər,
Ana oğul verər, qadın ər verər,
Bu xalqın gücünə bələdəm, Allah,
Təzədən dünyaya peyğəmbər verər!
Könül bulandırmaz arada milçək,
Bu gün yumruq kimi birləşə bilsək!

Dağı qan götürər, düzü qan tutar,
Yaranı göynədən buzu qan tutar,
Günah çoxaldıqca bizi qan tutar,
Çatmaz hayımıza nə duz, nə çörək,
Bu gün yumruq kimi biz birləşməsək!

Torpağın dalınca torpaq gedəcək,
Ağacın dalınca yarpaq gedəcək,
Qanımız getdisə, canımız gedib,
Baş getdi, dalınca papaq gedəcək.
Dünya şirinlikdən, daddan çıxacaq,
Papaq unudulub yaddan çıxacaq,
Ləçək bağlanacaq başlara, ləçək,
Bu gün yumruq kimi biz birləşməsək!

Göydə tutulsa da gün ahımızdan,
Tarix keçməyəcək günahımızdan.
Nigaran qalmışıq bu günümüzdən,
Bizim arxamızca gələn nəsillər,
Nigaran qalacaq sabahımızdan.
Çıxdı cızığından bəndələrimiz,
Əlimiz üzüldü Allahımızdan.
Yağsın üstümüzə lənət daşları,
Yağsın başımıza göydən daş-kəsək,
Bu gün yumruq kimi biz birləşməsək!!!

SƏSLƏRİN GÖRÜŞÜ

Şairin səsi

Bir şəhid apardılar torpağa tapşırmağa,
Birdən-birə elə bil baharım qışa döndü.
Baxdım qara tabutda qızıl qərənfillərə,
Çiçəklər gözlərimdə qanlı yağışa döndü.

Tər gəncliyin təzəcə barını dərən oğul,
Amansız döyüşlərə köksünü gərən oğul,
Bu torpağın yolunda ömrünü verən oğul,
Budaqdan uçub gedən yaralı quşa döndü.

Boylandım dünənimə, boylandım sabahıma,
Heç özüm də bilmədim nə deyim Allahıma.
Göydə nə ki bulud var fəryadıma, ahıma,
Göydə nə ki yağış var gözümdə yaşa döndü.

Kimə ağız açım, kimi çağırım,
Şirin arzularım puç olub, Allah!
Gec başa düşmüşəm kor olduğumu,
Gör məndə nə qədər suç olub, Allah!

Vətəndi, millətdi qəddi bükülən,
Atadı, anadı bağrı sökülən.
Şəhid qardaşımın üstə tökülən,
Anamın yolduğu saç olub, Allah!

Özümü döymüşəm səbrim daşanda,
Yada dost demişəm ağlım çaşanda.
Hər dəfə Qurana yaxınlaşanda,
Hər dəfə qənimim xaç olub, Allah!

Ananın səsi

Şəhid anası nalə çəkirdi. Oxşama deyə-deyə qol götürüb oynayırdı. Oğul toyunda oynamaq arzusu gözündə qaldığına görə son dəfə doyunca oynamaq, odunu söndürmək istəyirdi. Ancaq odu sönmürdü. Bayatı dilini, ağı dodağını yandırırdı. Ayağı yerdən üzülmüşdü. Əllərini buludlara qaldırıb göylərdən imdad diləyirdi. Saçını süpürgə edib yollara sərirdi. Ona baxdıqca qanlı üzündən, yorğun baxışlarından bu fikirləri oxuyurdum:

Sahibim yox, yiyəm yoxdu,
Yeyəm yoxdu, geyəm yoxdu.
Sökülməmiş dəyəm yoxdu,
Köçümün yaman günüdü!

Bu dağa bir hücum vardı,
Dağ oynadan gücüm vardı.
Dopdolu bir içim vardı,
İçimin yaman günüdü!

Ölüm ucuz, həyat baha,
Ümid qalıb bir Allaha.
Başıma qar yağıb daha,
Saçımın yaman günüdü!

Açıb başına oyunu,
Tutmuşam haqqın toyunu.
Qabağa verdim qoyunu,
Qoçumun yaman günüdü!

Yerdən axır, göydən damır,
Sağım lildi, solum çamır.
Allah məni bağışlamır,
Suçumun yaman günüdü!

Şairin səsi

Sən haqlısan, ay ana,
Yaman günün başında
Palıd ağacı olmur,
Yaman gün çox görmüşük,
Oğul itkisi qədər
Heç biri acı olmur.
Şəhid qəbiristanında,
Tale hər gün artırır
Qəbirlərin sayını.
Eşitmək çətin olur
Atanın fəryadını,
Ananın harayını!
Güllənin qəlbi yoxdu,
Duya xalqın qəmini.
Güllənin gözü yoxdu,
Görə gözün yaşını,
Kirpiklərin nəmini,
Tuşlanan silahların,
Allahı, vallahı yox!
Güllənin nə vecinə,
Kimlərin günahı var,
Kimlərin günahı yox!
Tətiyi çək bir anda,
Canavartək ulasın.
Götürdüyü hədəfi
Al-qanına bulasın!
Qurşuna bax, qurşuna,
Dəmirə bax, dəmirə!
Bircə anın içində
Nöqtə qoyur ömürə!
Alışan bir ocağın
Közü dönür kömürə!
Baha oturur bizə
Yağıların hədəsi.

Bir milləti göynədir
Bir güllənin zədəsi!
Özünü tox tut, ana,
Qatillərin önündə
Qamətini əymə, gəl!
Düşməni sevindirib,
Qara paltar geymə, gəl!
Qoy, sənin şax qəddini
Bükənlər qara geysin.
Mərmini yağış kimi,
Bu torpağın üstünə
Tökənlər qara geysin!

Ana qəmli-qəmli şairə baxdı. Baxışlardan yenə ağrılı-acılı duyğular süzülürdü. Ananın gözləri dil açıb deyirdi ki:

Hələ ki, düşmənin bəxti yetirir,
Hələ ki, qaralar geyinən mənəm.
Dizim meydan oldu yumruqlarıma,
Əzilən, döyülən, döyünən mənəm.

Çökən bulud olar, enən çən olar,
Üzdə qırış olar, saçda dən olar.
Dərdlilər həmişə deyinən olar,
Allaha üz tutub deyinən mənəm.

Nə günah tutmuşam haqqın yanında,
Əllərim qızardı övlad qanında.
Dərdin daş əridən dəyirmanında,
Un kimi, dən kimi üyünən mənəm!

Şairin səsi

Ana, şəhid qanıdı,
Bu qan adi qan deyil!

Bu qan təkcə yaradan,
Damardan axan deyil!
Göyün üzündən axıb,
Qızardır üfüqləri.
Dan yerinə can verib,
Yandırır şəfəqləri.
Bəzən yüz sərkərdənin
Bir xalqa, bir millətə
Verə bilmədiyini
Bircə damla qan verir!
Oğulların qəlbinə
Təpər, həyəcan verir!
Min il sonra dünyaya
Gələn nəsillərə də
Kimliyini bildirir,
Özünü nişan verir.
Oğlun özgənin deyil,
Öz ulu babasının
Torpağını qorudu.
Kökünə arxalandı,
Budağını qorudu.
Məsləkini, andını,
Bayrağını qorudu.
Vətənin ömür yolu
Ərəndən, ərdən keçir.
Əsgərin ömür yolu,
Nəmli səngərdən keçir.
Şəhidin son qisməti –
Gülləyə hədəf olmaq!
Şəhidin xoşbəxtliyi –
Tarixə şərəf olmaq!
Şəhidin yaratdığı –
Qanla yazılan kitab!
Tarixdən nə soruşsan,
Orda taparsan cavab!

Harda şəhid məzarı,
Harda şəhid qəbri var,
Orda ana dözümü,
Orda ata səbri var.
Harda şəhid ünvanı,
Harda şəhid adı var,
Orda xalqın, millətin
Əbədi məşəl kimi
Yanmaq istedadı var!
Sən dindirmək istəsən,
Qaya dinər, daş dinər.
Sən ağlamaq istəsən,
Gözümüzdə yaş dinər.
Dağların əsən yeli,
Məlhəm qoyar yarana,
Əlac olar ağrına.
Vətən öz anasıtək
Basar səni bağrına.
Ziyarətə çevrilər,
Şəhidlərin qanıyla
Qıpqırmızı geyən yer.
Ziyarətə çevrilər,
Şəhid analarının
Qədəmləri dəyən yer!
Sənin bircə harayın
Cəbhələr yarmaq üçün
Min orduya bəs olar.
Hara dəysə ayağın,
O yer müqəddəs olar!
Heç kəsin daşımağa
Hünəri çatmadığı
Yük sənin çiynindədi!
Dərd çəkən çox olsa da,
Dərdin ağır tərəfi
Tək sənin çiynindədi!

Bilirəm dərdin ağır, bilirəm işin çətin
Ancaq həqiqət budur,
Əbədi sakinidir
Oğlun əbədiyyətin!
Qoy onun sevgilisi
Şəhid olmuş ərini
Heç vaxt ölmüş sanmasın.
Torpağa tapşırdığı
Ömür-gün yoldaşını
Torpağa qısqanmasın!
Onun sevgilisidi,
Hər dəfə yaz gələndə
Təzə açan çiçəklər.
Onun sevgilisidi,
Yer üzündə nəğmələr,
Göy üzündə mələklər!
Şəhid – öz imzasını
Yaddaşlara həkk edib,
Könüllərə yazandı!
O, şəhid olan günü
Əbədi dünyasını
Bu dünyada qazandı!

Ananın səsi

Qınama göz yaşımı,
Mən anayam, ay oğul!
Qəm üstündə yapılmış,
Qəmxanayam, ay oğul!

Selə dönüm bu məzarın başında,
Qoy ağlayım, ürəyimi boşaldım.
Mən ölməklə dolu dünya boşalmaz,
Qoy ağlayım, ürəyimi boşaldım!

Bal da yesəm zəhərlənmiş aş olsun,
Ağlamaqdan qara bağrım daş olsun.

Gözüm olsun, yaylıq olsun, yaş olsun,
Qoy ağlayım, ürəyimi boşaldım!

Oğul qeyrət, oğul namus, oğul ar,
Oğul olan Vətən üçün doğular.
O ki, məni ağlar qoydu yağılar,
Qoy ağlayım, ürəyimi boşaldım!

Xocalı mən, xocasız mən, xoca mən,
Tüstülənən, dumanlanan baca mən.
Bu məzarla qovuşmuşam haca mən,
Qoy ağlayım, ürəyimi boşaldım!

Olan olub, dolan dolub dünyada,
Açan açıb, solan solub dünyada,
Saçlarımı yolan yolub dünyada,
Qoy ağlayım, ürəyimi boşaldım!

Heç bilmirəm insafına nə deyim,
Bağrımıza buz basdıran Allahın!
Nə məlhəmi, nə dərmanı tapıldı,
Yaramıza duz basdıran Allahın!

Qara xətlə yazmadığı yazı yox,
Qəm üstündə çalınmamış sazı yox.
Elə bil ki, oğlu yoxdu, qızı yox,
Oğul alıb, qız basdıran Allahın!

Dərd dənizdi, mən dənizin adası,
Mən bu zəhri dadasıyam dadası.
Başımızdan əskik olmur qadası,
Sinəmizə köz basdıran Allahın!

Əzizlərim, şəhidlərim,
Boyunuza qurban olum!

Qan naxışlı yerinizə,
Göyünüzə qurban olum!

İnsafdımı dillər susa,
Mərd asıla, namərd asa.
Niyə birdən döndü yasa,
Toyunuza qurban olum!

Pərdə sınıb, sim nə çəkib,
Kim nə bilir kim nə çəkib.
O baxışlar kimə çəkib,
Suyunuza qurban olum!

Başından düşüb cunası,
Qəmlidi sular sonası.
Əllərində toy xınası,
Bəyinizə qurban olum!

Tökülən qan çıxdı dizə,
Tanrı yaman qıydı bizə.
Əsil olan əslinizə,
Soyunuza qurban olum!
Palıd köklü, çinar boylu,
Boyunuza qurban olum!

Şəhidin səsi

Anam, məni ölmüş bilib, ağlama,
Ölməmişəm, dirilərdən diriyəm!
Son cərgədə qazılsa da məzarım,
Ön cərgədə döyüşənin biriyəm!

Kim Vətəni bütöv görsə, baxtı var,
Haqq yanında mərtəbəsi, taxtı var!
Ölməyin də vədəsi var, vaxtı var,
Anam, məni ölmüş bilib, ağlama!

Hər gün ayır qismətimi, payımı,
İsti saxla çörəyimi, çayımı.
Qarı düşmən qoy görməsin vayımı,
Anam, məni ölmüş bilib, ağlama!

Kimə qəmnən, kimə dəmnən toxuyar,
Arğacı var, ərişi var dünyanın.
Tanıyardıq, əgər üzü bir olsa,
Hər üzü var, hər işi var dünyanın.

Bilmək olmur mətləbi nə, sözü nə,
Dinən kimi kül üfürür gözünə.
Min qapısı bağlansa da üzünə,
Bir qapıdan girişi var dünyanın.

Bu oyunda kim uduza, kim uda,
Bu gedişdə kim bəndədi, kim xuda.
Şuşa görrəm, Laçın görrəm yuxuda,
Nə amansız duruşu var dünyanın.

Ölməmişəm, qeyrətim var, ay ana,
Qeyrətsizə heyrətim var, ay ana.
Hələ onnan söhbətim var, ay ana,
Hələ mənnən görüşü var dünyanın.

Nə sudan çəkinib geri durası,
Nə oddan yayınıb qorxasıyam mən.
Bütün döyüşlərin dayaq nöqtəsi,
Bütün orduların arxasıyam mən.

Üfüqlər ardında bata bilmərəm,
Boş yerə ölümə vermərəm canı.
Rahatca uyuyub yata bilmərəm,
Qalib görməyincə Azərbaycanı!

Əlin göydən üzülməsin,
Dizin heydən üzülməsin.
Əlin göydən üzüləndə,
Dizin heydən üzüləndə
Arzu göynər, inam sızlar, ay ana!
Yazıq olar inamsızlar, ay ana!
Yazıq olduq, Allah yaddan çıxan günü,
Yazıq olduq, məscidləri yıxan günü,
Yazıq olduq,
Halalımız haramlara qatılanda,
Yazıq olduq,
Torpağımız ona-buna satılanda,
Yazıq olduq,
Quranımız oda-közə atılanda,
Yazıq olduq, çəkəmmədik yükümüzü,
Yazıq olduq, baltaladıq kökümüzü!
Mənim doğma, şirin anam,
Ahı uca zirvələrdən uca duran,
Dərdi dərin dəryalardan dərin anam!
Təkcə mənim anam olma!
Bir əliylə yaraq tutan,
Bir əliylə bayraq tutan,
Ürəyinin işığıyla
Qaranlığa çıraq tutan
İgidlərin anası ol!
Bir şəhidə ana olmaq asan işdi,
Şəhidlərin anası ol!
Sən bu xalqı ən birinci imanına qaytar, ana!
İnancının ən qüvvətli zamanına qaytar, ana!

Ananın səsi

Hər şəhidin anası var,
Səninki də mənəm, oğul!
İstəyirəm qəbrin üstə
Başdaşına dönəm, oğul!

Döyülmüşəm, daş yemiyəm,
Çürümüşəm, yaş yemiyəm.
Səpələnmiş quş yemiyəm,
Dimdiklərdə dənəm, oğul!

Duydum ağrının dadını,
Gördüm elin fəryadını.
Çəkə bilmirəm adını,
Dağ-dağ olur sinəm, oğul!

Gələcəyəm yanına
son nəfəsimə qədər,
Sonuncu addımıma,
sonuncu səsimə qədər.
Yanından ayağım kəsilməyəcək,
Nəfəsim kəsilənə qədər!
Sənin yatdığın yer –
Mənim su kimi axdığım,
Ot kimi göyərdiyim,
Ağactək bitdiyim yer olacaq!
Sənin yatdığın yer –
Mənim öldüyüm yer,
Dünyadan getdiyim yer olacaq!
Sənin üz qoyduğun bu qara torpaq,
Dərmanım olacaq, dərdim olacaq.
Pozulan naxışım, dağılan yuvam,
Çiçəyi saralmış yurdum olacaq.
Bu yurdun daşına dönəcəyəm mən,
Hər axşam döşənib ayaqlarına,
Hər səhər başına dönəcəyəm mən!

İçimdə şəhidlər xiyabanı var,
Göynədir ruhumu dərd, mənim balam.
Yanında dincimi almaq istərəm,
Üstümü əlinlə ört, mənim balam!

Bir azca uyuyum, bir azca yatım,
Sabah gələnləri ağlamaq üçün.
Gözümün yaşıdı mənim həyatım,
Yaranıb, sel kimi çağlamaq üçün.

Burda kimlər yatır, kimlər uyuyur,
Oğlumdu, qızımdı, körpəmdi mənim.
Tufanlar içində dalğalanıram,
Dənizəm, qəbirlər ləpəmdi mənim.

Bütün şəhidlərin anası mənəm,
Bütün yaralılar balamdı mənim.
Qocalı-cavanlı, oğul-uşaqlı,
Hamısı fəryadım, naləmdi mənim.

İçimdə şəhidlər xiyabanı var,
Onun torpağından, daşından özgə
Daha gözlərimə heç nə görünməz.
Kim aldı, kim satdı, kim nə qazandı,
Karvan nə, köçən nə, köç nə, görünməz!

Şəhidin yaxını, yadı, doğması,
Şəhidin cavanı, qocası yoxdu.
Qarlı zirvələri çoxdu dünyanın,
Şəhiddən hündürü, ucası yoxdu!

Hamı doğmasıdı Azərbaycanın,
Burda "haralısan?" – sualı yoxdu.
Hamı qurbanıdır Azərbaycanın,
Özgə bir arzusu, xəyalı yoxdu!

Şairin səsi

Daha bəsdi, ay ana,
Nə ki ağladın yetər.
İncəldin ipə döndün,
Nazildin sapa döndün.

Qurudun çöpə döndün
Yandın ocaqdan betər!
Təsəllim budur ancaq,
Ayağın hara dəysə,
O yerin torpağında
Qeyrət göyərər, bitər!
Sən bu dövrün, zamanın,
Şirinin unudub,
Acısını dadansan.
Sən tarixi yazan yox,
Tarixi yaradansan!
Sənin ahını görüb
Qayaların, dağların,
Dağ-dağ olub sinəsi.
Sənin oğlun yatan yer,
Oldu mənim yurdumun
Məkkəsi, Mədinəsi!
Neçə oğula ana,
Neçə qardaşa bacı,
Dərdimizin əlacı.
Sən sarsılma, büdrəmə,
Səni sarsılan görüb,
Bütün cahan sarsılar!
Səni sarsılan görüb,
Azərbaycan sarsılar!
Önündə şəhid qəbri,
Arxanda bir ordu var.
Bu yenilməz ordunun
Azərbaycan adlanan
Müqəddəs bir Vətəni,
Müqəddəs bir yurdu var!
Şəhid adı gələndə
İmanımız, eşqimiz
Dərədən dağa qalxar.
Şəhid adı gələndə

Şahdağı baş endirər,
Qoşqar ayağa qalxar!
Şəhid adı gələndə
Kür coşar, ləngərlənər,
Dağıdar öz səddini,
Haqqa qənim olana
Tanıdar öz gücünü,
Tanıdar öz həddini!
Bu ulu şəhidliyin
Mayası Nəsimidən,
Kökü Babəkdən gəlir.
Şəhidliyin şöhrəti
Dünyanın ən vüqarlı
Dağlarıyla tən gəlir!
Şəhidlik toxum kimi
Səpilir bu torpağa,
Göz açanda görürsən
Sünbül gəlir, dən gəlir!
Zatı qırıq olandan
Şəhid olmaz, ay ana!
Gözü qıpıq olandan
Şəhid olmaz, ay ana!
Hər kəs öz atasını,
Kişi bilir, ər bilir.
Hər kəs öz babasını,
İmam, peyğəmbər bilir,
Hər kəs öz anasını,
Gözünün nuru bilir.
Hər kəs sevgilisinin
Təmiz məhəbbətini
Çeşmədən duru bilir,
Ancaq o şəhid olur
Ömrün çətin yolunda.
Göy türklü, göy oğuzlu
Bir millətin yolunda!

Şəhid olmaq – Allahın
Dərgahına varmaqdı!
Ölümdən sonra da
Cəbhələri yarmaqdı!
Ruhumuza can verən
Ruhdu, qandı, ilikdi!
Bu ölümlü dünyada
Əbədi dirilikdi!
Tarixin xalısında
Rəngi solmaz ilmədi!
Narahat dünyamızda
Qabarma, çəkilmədi!
Təmizliyə çağırır
Günaha batanları.
Qoymaz mürgüləməyə,
Ayıldar yatanları!
Duyğuların tufanı,
Ruhun zəlzələsidi!
Heç bir zaman batmayan
Həqiqətin səsidi!
Beş yaşında şəhid də
Beş min il qalacaq
Tarixin yaddaşında!
Ölçü yoxdu, rəqəm yox,
Şəhidliyin yaşında!
Şəhidlik bu vətənə,
Xoşbəxtlik aramaqdı!
Lap min ildən sonra da
Millətə yaramaqdı!

Şəhidin səsi

İlk şəhidi mən olmadım dünyanın,
Son şəhidi mən olası deyiləm.
Qəbirdə də rahat yata bilmərəm,
Qovğalardan gen olası deyiləm.

Uğurundan qüsuru çox olarsa,
Azadından əsiri çox olarsa,
Bütövündən kəsiri çox olarsa,
Mən sevinib şən olası deyiləm.

Yağıları yurda qoysa bu millət,
Torpağını darda qoysa bu millət,
Andımızı yerdə qoysa bu millət,
Mən bu xalqa yön olası deyiləm.

Dəyib toxunmasın ürəyinizə,
Bir az bu söhbətim yekə düşməsin.
Biz şəhid olduq ki, yatan ayılsın,
Xalqın tarixinə ləkə düşməsin.

Oğullar səngərə dönə bilməsə,
Analar ovunan, uyuyan deyil.
Dərmanı, məlhəmi biz olammasaq,
Bu yara köhnələn, soyuyan deyil!
Hər yanda üstümə dişlər qıcandı,
Qıcanan dişlərdən qoruyun məni!
Niyyəti min dəfə özündən qara,
Qara Keşişlərdən qoruyun məni!
Şər-böhtan yağdıran, yalan danışan,
Zəhərli dillərdən qoruyun məni!
Bazara çəkməsin məni hər yetən,
Ləkəli əllərdən qoruyun məni!
Talandı sərvətim, qızılım, zərim,
Daşındı maşınla, qatarla, atla.
Yenə də üz-üzə, göz-gözəyəm mən,
Ən acı, ən qanlı bir xatiratla!
Yenə də düşmənin tapdağındayam,
Yenə qələbənin sorağındayam.
Mənim gözlədiyim xəbər gecikir,
Vaxtında açılmır, səhər gecikir.

Başınız qarışıb çəkişmələrə,
Bir zaman Dərbəndi yada vermisiz.
Tez yatıb, gec qalxıb, gec ayılanda
O boyda Təbrizi bada vermisiz.
Növbə bizə çatır deyəsən indi,
İndi biz gedirik əlli-ayaqlı.
Çəmənli, çeşməli, çaylı, bulaqlı,
Yoxmu məmləkətdə əli silahlı?
Yoxmu məmləkətdə başı papaqlı?
Hələ ölməmişəm, hələ sağam mən,
Qara bir dövranam, qara çağam mən!
Qara gün, qara baxt, Qarabağam mən!
Bakıdan aralı, Gəncədən uzaq,
Başdan ayrı düşən bir bədənəm mən!
Min yerə bölünmüş bir Vətənəm mən!
Qaytarın, bədəni başa qaytarın,
Torpağı torpağa, daşa qaytarın!
Şəhidin səsini eşitmirsiniz,
Şairin səsini eşitmirsiniz,
Ananın səsini eşitmirsiniz,
Torpağın səsini eşidin barı,
Qaytarın geriyə o torpaqları!

1992

SİZİ QINAMIRAM

Bu əsəri mənə Xocalı dərdi,
Şuşa əzabı, Laçın ağrıları yazdırıb

Sizi qınamıram, ay xocalılar,
Sizin başınızda şimşək oynadı,
Sizin başınızda dumanlar oldu.
Millətin dağ boyda fəlakətinə,
Gözünün ucuyla dönüb baxmayan,
Nazlanıb gözünü yumanlar oldu!

Mən qurban görmüşdüm qoçdan, quzudan,
Mən qurban görmüşdüm, qoyun qurbanı.
Bir belə milləti, bir belə xalqı,
Gör kimlər elədi oyun qurbanı.
Ay Laçın! Yaralı canına qurban,
Ay Şuşa! Ağlama, boyuna qurban!

Namussuz olanın nə vecinədir,
Harda namus gedir, harda ar gedir.
Hələ tapammırıq oyunçuları,
Ortada şıdırğı bir qumar gedir.

Laçın qayıtmasa Laçınlığına,
Şuşa qayıtmasa Şuşalığına,
Min dəfə şübhəm var, tərəddüdüm var
Bugünkü bəylərin bəy olmağına!
Bu gün paşaların paşalığına!

Vaxtında yumasaq günahımızı,
Goru çatlayacaq babalarımın,
Sultan bəy Laçından baş qaldıracaq!

Pənah xan, Şuşanın qalası boyda
Bizim başımıza yağdırmaq üçün
Qaya uçuracaq, daş qaldıracaq!
Yerin ağırlığı, göyün ləngəri,
Sıxıb xıncım-xıncım əzəcək bizi.
Çox əllər tutacaq çox yaxalardan,
Ruhlar addım-addım gəzəcək bizi!
Ruhlar deməyəcək günah kimdədi,
Hakimdə, şairdə, ya həkimdədi.
Ruhlar deyəcək ki, düşünəcək ki,
Dünyanın düz vaxtı bu yer üzündə
Xocalı adlanan qırğın olubsa,
Bir nəsli qırıbsa oğul-uşaqlı,
Qıranlar özünə vurğun olubsa,
Cavanlar yollarda pələsəng olub,
Qocalar çöllərdə yorğun olubsa,
Tək bircə nəfərin bu xalq içində,
İsməti, namusu ləkələnibsə,
Bir Vətən övladı, bir Vətən qızı
Ağrılar əlində yeddi qat olub,
Düşmən sevincindən yekələnibsə,
Məğrur bir dədəni kimsəsiz görüb,
Bir gədə üstünə kəkələnibsə,
Belə bir Vətənin vətəndaşları,
Yersizdi üstündə yaraq gəzdirə!
Artıqdı başında papaq gəzdirə!
Belə bir torpağın adamlarına,
Yüz dəfə, min dəfə haqlıdı düşmən,
İt kimi yal tökə, yalaq gəzdirə!

Allah! Görünməmiş möcüzə göstər,
Qaldır bir anlığa Xanı məzardan.
Diriynən ölünü üz-üzə göstər,
Qurtarsın yatanın canı məzardan.
İxtiyar vaxtında, qoca yaşında,

Qəlyan damağında, papaq başında,
Qoy görsün Şuşası nə günə düşüb!
Ellər tamaşası nə günə düşüb!
“Qırmızı qoftalı, yaşıl tumanlı,
Şuşanın dağları başı dumanlı”,
Bu ulu mahnını mənim Xan babam,
Oxumaq istəsə oxuya bilməz!
Ancaq qan qoxuyar onun nəfəsi,
Yəqin ki, gül-çiçək qoxuya bilməz!
Oxumaz, qavalı daşlara çırpar!
Oxumaz, başını daşlara çırpar!
Səni and verirəm qadir Allaha,
Oxuma, ay Qədir, oxuma daha!
Cabbardan ayıbdı, Xandan ayıbdı,
Natəvan ağlayıb göz yaşı tökür,
Şəhəri dağılıb, ondan ayıbdı!
Tanrı soraqlasa, Allah çağırsa,
Səni oxumağa, məni yazmağa,
Sən qavalı tulla, mən də qələmi,
Gedək özümüzə qəbir qazmağa!
Hələ qan axıdır İsa bulağı,
Hələ Cıdır düzü cıdırsız qalıb.
Qayalar nəğməsiz, daşlar laylasız,
Dağlar alaçıqsız, çadırsız qalıb.
İllərdi Qarabağ alışıb-yanır,
İllərdi burnunun ucu göynəyir,
Qənirsiz Qarabağ Qədirsiz qalıb!

Sizi qınamıram, ay şuşalılar!
Sizin taleyiniz, sizin bəxtiniz,
Zamanın səsinə, küyünə düşüb.
Qırx arşın quyunun dibi görünür,
Beş ildi işiniz düyünə düşüb.
Açar əlindədi, qıfıl əlində,
Açmaq istəyənlər açmağa qorxur.

Bilir ki, üstünə dağ yeriyəcək,
Qaçmamağa qorxur, qaçmağa qorxur.
Xocalı dağıldı... istintaq gedir!
Şuşa bir nağıldı... istintaq gedir!
İgidlər oylağı Laçın dağları,
Qanında boğuldu... istintaq gedir!
Təyyarə alışdı göyün üzündə,
Oğullar kül oldu... istintaq gedir!
Hər şey sirrə döndü sandıq içində,
Hər şey müşkül oldu... istintaq gedir!
Bəsdirin,
Bəsdirin,
Bəsdirin daha,
Bir az fikirləşin, bəsdirin daha!
Bəsdir, az danışın ağ yalanları,
Yığmayın dağ üstə dağ yalanları.
Gözü yaxşı görür xalqın, millətin,
Torpaq sata-sata dikəlirsiniz!
Yığmayın dağ üstə dağ yalanları,
Qarabağ bir yağlı quyruğa dönüb,
Torpaq yeyə-yeyə kökəlirsiniz!!!
Əgər belə getsə, bizdən ötəri
Göy göyə çəkilər, yerdə yer olmaz?!
Bir az xatırlayın Allahınızı,
Bir az cilovlayın tamahınızı,
Torpaqla bu qədər sərt alver olmaz!
Elə bu ağılla, elə bu başla,
O boyda Təbrizi bada vermişik!
Keçi qiymətinə, su qiymətinə,
Dərbəndi götürüb yada vermişik!
Bu gün əllərindən torpaq gedirsə,
Sabah gözlərindən yanan nur gedir.
Gözünü yumanda Göyçə mahalı,
Gözünü açanda Zəngəzur gedir!
Ağbaba talanıb, Çəmbərək yanıb,
Qafanımız gedib, Mehrimiz gedib.

Nəcəfin belində qaynar samovar,
Sənətimiz gedib, sehrimiz gedib.
Vaqifə məqbərə tikib Qarabağ,
Məzarı düşmənin tapdağındadı!
Qan düşüb Nəvvabın naxışlarına,
Gözü xilaskarın sorağındadı!
Birdi, qaytarsaq da, qaytarmasaq da,
Şuşa əlimizdən gedibsə əgər,
Şuşa qızlarının düşmən əlində,
Bağrını şübhələr didibsə əgər,
Tarixin önündə deməli, qardaş,
Aldıq boynumuza nanəcibliyi,
Aldıq boynumuza nakişiliyi.
Sel kimi yeriyib, su kimi axıb,
Nə rus götürəydi, nə çar alaydı.
Allah insaf versin İbrahim xana,
Bu gün ermənilər alan Şuşanı,
Kaş elə o zaman Qacar alaydı!
Dini dinimdəndi, donu donumdan,
İlki ilkimdəndi, sonu sonumdan.
O, bizə nə qədər yüngül olardı,
Bu, bizə nə qədər ağır olubdu.
İgid məmləkətin, məğrur millətin,
Dönüb birdən-birə fağır olubdu.
Məni bağışlasın Xətai babam,
Yandıran özgələr, yanan biz olduq.
Vətən deyə-deyə vətənsizləşib,
Qeyrət deyə-deyə qeyrətsiz olduq!
Biri öz-özünə bəy oldu getdi,
Biri öz-özünə xan oldu getdi.
Yekəlik meydana çıxandan bəri
Millətin qazancı qan oldu getdi!
Çəkdi Çələbi xan Şəkiyə sarı,
Çəkdi Mustafa xan Talışa sarı,
Çəkdi Fətəli xan Qubaya sarı.

Hərə bir tərəfə, bir yana baxdı,
Nə günə qoydular bu məmləkəti?
Nə günə saldılar bu torpaqları?!
Evimiz nə zaman yıxıldı, babam?
Cavad xan meydanda təklənən günü!
Qızıl xəzinəsi qızıl Gəncənin,
Dəvələr belinə yüklənən günü!
Günahı bizdədi "Türkmənçay"ın da,
Günahı bizdədi "Gülüstan"ın da!
Bir yana baxanda hərənin ağzı,
Düşmən nəslimizi boğdu qanında!
Bizim gözümüzün qabağındaca
Yağılar taladı, çapdı Gəncəni.
Biz ki, kef çəkmişik ağıl ucundan,
Gönü qalınlara, beyni kütlərə
Tarix yaxşı verir bu əzabları,
Allah yaxşı verir bu işgəncəni!
Yerin bərəkəti çəkilib göyə,
Coşmur Araz indi, daşmır Kür indi.
Dünən xanlıqlara bölünən Vətən,
Xırda bəyliklərə bölünür indi!

Sərvəti talanıb əlindən gedən,
Sonası ovlanıb gölündən gedən,
Kəməri açılıb belindən gedən,
Elə bil heç zaman biz olmamışıq!

Alovlar içində yanan, qovrulan,
Torpağı kül olub göyə sovrulan,
Yeri tüstülənən, yurdu qıvrılan,
Elə bil heç zaman biz olmamışıq!

Qanadı qırılan, qolu bağlanan,
Arandan yaylağa yolu bağlanan,
Dodağı tikilən, dili bağlanan,
Elə bil heç zaman biz olmamışıq!

Alanlar yenə də almağındadı,
Satanlar yenə də satmağındadı.
Yenə mürgüdədi mürgü deyənlər,
Yatanlar yenə də yatmağındadı!

Bizdə ki, bu qədər biganəlik var,
Bizdə ki, bu qədər divanəlik var,
İlahi, min şükür məsləhətinə,
Nə yaxşı çəkirik nəfəsimizi,
Nə yaxşı çevrilib buz olmamışıq!!!

Bəlkə, buz olmuşuq, xəbərimiz yox,
Bəlkə də çevrilib buz olmuşuq biz!
Qulağı eşitməz, gözləri görməz,
Daş olub daşlara qoşulmuşuq biz!
Bəlkə, meyitlərik bu yer üzündə,
Yerin üstü deyil, yerin altıyıq.
Vətən nə, millət nə, başa düşməyən,
Gərəksiz, quruca boş qaraltıyıq!

Kimin ətəyindən tutmağı bilmir,
Kimin əllərini sıxmağı bilmir.
Məqamı gələndə şilləyə dönüb,
Barmağı gözlərə soxmağı bilmir,
Bəlkə də əlimiz əl deyil hələ?!

Əvvəli hardadı, sonu hardadı,
Biz tapa bilmirik onu, hardadı,
Bəlkə də qolumuz qol deyil hələ?!
Bəlkə də əlimiz əl deyil hələ?!

Ən uca xitabət kürsülərinə,
Arzu olunantək yol açа bilmir.
İtir dalğasında farsın, ərəbin,
Dillərin içində dil açа bilmir,
Bəlkə də dilimiz dil deyil hələ?!

Nə bilim, bəlkə də adam deyilik,
Biz adam olsaydıq, başdan-ayağa
Vətəndaş olardıq, Vətən olardıq.
Görən göz olardıq, eşidən qulaq,
Yurda baş olardıq, bədən olardıq!

Nə bilim, bəlkə də millət deyilik,
Biz millət olsaydıq, bəlkə, dünyada
Astar bir olardıq, üz bir olardıq!
Əməl bir olardıq, söz bir olardıq!
Hiyləli dillərlə haçalı dillər,
Ayıra bilməzdi bir-birimizdən,
Bütün keçidlərdə biz bir olardıq!
Məhlə havasından yuxarı qalxar,
Tayfa havasından yuxarı qalxır,
Dilin dediyini əl yaradardı,
Əlin yapdığını dil yaradardı!
Birləşə bilsəydi xalqın qüdrəti,
Qızıldan olardı damı, dirəyi,
Hamı qızıl tapar, ləl yaradardı!

Biz dövlət olsaydıq, bəlkə, dünyada
İyirmi üç aylıq dövlətin ömrü,
Bütün ömürlərdən uzun olardı!
Oynada bilməzdi qılıncını şər,
Meydan həqiqətin, düzün olardı!
Biz dövlət olsaydıq, qamaşardılar,
Bizi parça-parça qoparmazdılar!
Qızılı, gümüşü, pulu, axçanı,
Apara bildikcə aparmazdılar!
Zaman yaxşı bilir, biz biz olanda
Erməni kimiydi, gürcü kimiydi.
Tarixdən soruşun, min illər boyu
Qafqazın qalası, bürcü kimiydi.
Yersizlər çıxanda yer davasına,
Qalanı dandılar, bürcü dandılar!

Haqqı itirdilər, borcu dandılar!
Tarixi fürsəti əldən verməsək,
Mənim mən olmağım danılardımı?
Ağır həqiqətlər, acı xəyallar,
Nifrətlə, qəzəblə anılardımı?
Laçında oğullar tanıyıram mən,
Erməni qarışıq Ermənistanı,
Tutub qayalardan ata bilərdi!
Şuşada oğullar tanıyıram mən,
Nərəsi, harayı Bakıdan ötüb,
Gedib fələklərə çata bilərdi!
Kaş ki, kar olaydım, eşitməyəydim,
İlahi, Laçın da basılardımı?!
Yetimtək dərdini içinə qısıb,
Şuşa bir tərəfə qısılardımı?!
Oğuldan uşağa güllədən keçib,
Xocalı boğazdan asılardımı?!
Heç nə özbaşına olmur dünyada,
Asan arxasında bir asdıran var!
Yerin sinəsini dağ-dağ eyləyib,
Göyün sinəsinə dağ basdıran var!
Arxayın olmasın qan udduranlar,
Qan qusan bilir ki, qan qusduran var!
Bir gün haqqın özü ayağa qalxar,
Nahaqqı əbədi bir susduran var!

Sizi qınamıram, ay laçınlılar,
Mənim qınadığım, gileyləndiyim,
Qardaşdan qardaşa biganəlikdir!
Məndən ötdü deyib yana çəkilmək,
Ağıllılıq deyil, divanəlikdir!
Sizi qınayıram, ağlı dayazlar,
Sizi qınayıram, çənəsi sazlar!
Sizi qınayıram, başı pozuqlar,
Sizi qınayıram, diri yazıqlar,

Sizi qınayıram, canlı meyitlər,
Sizi qınayıram, barsız söyüdlər!
Sizi qınayıram, qəlbi kirlilər,
Sizi qınayıram, boş fikirlilər!

Kimi eşşək gəzir hərifləməyə,
Kimi yəhərlənmiş hazır at gəzir.
Şuşa əllərindən gedəsi olsa,
Çoxu kəlləsinə güllə sıxırdı,
Maşallah! Hələ də salamat gəzir!
Tutaq ki, qaytardıq Şuşanı, qardaş,
Talanan namusu, tökülən gözü,
Tapdanan isməti kim qaytaracaq?!
Anadan, bacıdan, qızdan, gəlindən,
Alınan isməti kim qaytaracaq?!
Doğranan qisməti, donan qıçları,
Kəsilən başları kim qaytaracaq?!
Ana gözlərindən bala köksünə,
Tökülən yaşları kim qaytaracaq?!
Qarabağ davası çıxıb ortadan,
Nə torpaq, nə millət davası gedir.
Meydanda şan-şöhrət davası gedir!
Meydanda pul-rüşvət davası gedir!
Kim kimi aldatdı, kim kimi satdı,
Badalaq, xəyanət davası gedir!
Ayaqda çığnandı ayaqdakılar,
Başda ayazımır başın davası.
Hərə bir katibə eşqinə düşüb,
Vəzifə davası, maşın davası!
Gözüm yox heç kimin vəzifəsində,
Kimin halalıdı, qoy halal olsun!
Kimin haramıdı, qoy haram olsun!
Gərək el yolunda yanan ürəklər,
Doğan Günəş olsun, yanan şam olsun!
Yeri unutmasın göynən gedənlər,

Yerini, yurdunu unudanları,
Tutub bircə-bircə endirəcəklər!
Yəhərdən üzülüb yıxılanları,
Palanın üstünə mindirəcəklər!
Hər kəs öz yerini tanımalıdı,
Xalqın sözü birdi, fikri qətidi.
Qəbul etsəniz də, etməsəniz də,
Yazdığım zamanın həqiqətidi!
Eşidin səsimi aşağılardan,
Haqlı olduğumçün mənə haqq verin.
Gözucu baxmayın sətirlərimə,
Dediyim zamanın həqiqətidi!
Şairin səsini eşitməyən kəs,
Xalqın səsini də eşidə bilməz!!!

1993, yanvar

OXU, MİKAYIL, OXU

Şairlərimizin könül dostu
Mikayıl Mirzənin teatrı üçün monoloq

Gəl, niyə ləngiyirsən, gəl, Mikayıl, ləngimə,
Öncül sən olmalısan döyüşümə, cəngimə,
Səsini eşitməsəm duman çökər rəngimə,
Döyüş elə, cəng elə, oxu, Mikayıl, oxu!
Eşqini çələng elə, oxu, Mikayıl, oxu!

Dilində şairlərin dərdini görmüşəm mən,
Gözündə qaçqınların yurdunu görmüşəm mən.
Ruhunda oğuz adlı ordunu görmüşəm mən,
Dağım, daşım, yurdum ol, oxu, Mikayıl, oxu!
Basılmaz bir ordum ol, oxu, Mikayıl, oxu!

Qaldır Məmməd Arazı min illərin yaşına,
Qaldır Xəlil Rzanı üfüqlərin qaşına.
Yaz əlindən gələni zamanın yaddaşına,
Hakim kəsil hislərə, oxu, Mikayıl, oxu!
Od ələ məclislərə, oxu, Mikayıl, oxu!

Daraldıb yerimizi hər gün dar edir zaman,
Gözü kor, beyni iflic, qəlbi kar edir zaman.
Nə ölür, nə utanır, nə də ar edir zaman,
Çək alçağa şilləni, oxu, Mikayıl, oxu!
Vur satqına gülləni, oxu, Mikayıl, oxu!

Azalmayan ağrıya, çəkilməyən dərdə bax,
Əl çəkmir yaxamızdan, dərd adlı namərdə bax.
Uduzan ancaq mənəm, şahmata bax, nərdə bax,

Tükənmir bu oyunlar, oxu, Mikayıl, oxu!
Qurda döndü qoyunlar, oxu, Mikayıl, oxu!

Kələf kimi dolaşdı, kəndir kimi eşildi,
Oğulların yarası göz-göz oldu, deşildi.
Açılmır qanadlarım, üzüm gülmür beş ildi.
Yağış gəldi, qar gəldi, oxu, Mikayıl, oxu!
20-si yanvar gəldi, oxu, Mikayıl, oxu!

Üşüdür bu dünyanı buz baxışlar, buz əllər,
Yetim-yetim saralır yar bağında xəzəllər.
Daşqın oldu qəzəblər, çaşqın oldu gözəllər,
Dözmə bu müsibətə, oxu, Mikayıl, oxu!
Nə deyim bu qismətə, oxu, Mikayıl, oxu!

Gözümüzün önündə qara-qara pərdələr,
Tanrı başımız üstdə qəm səpələr, dərd ələr.
Satqın çıxdı dalbadal atılmış sərkərdələr,
Qoy dağılsın o pərdə, oxu, Mikayıl, oxu!
Dərman elə bu dərdə, oxu, Mikayıl, oxu!

Bəlkə, sən oxuyanda məlhəm ola ağrıya,
Dönə kəskin qılınca, düz yalanı doğruya.
Döndərdilər milləti dilənçiyə, oğruya,
Qurban olum ağrına, oxu, Mikayıl, oxu!
Bas torpağı bağrına, oxu, Mikayıl, oxu!

Orta yol yoxdu səndə, yanırsan, ya donursan,
Ürəklərə baş vurub, dodaqlara qonursan.
Ayla, ulduzla birgə göydən gələn o nursan,
Oxu Allah eşqinə, oxu, Mikayıl, oxu!
Gələn sabah eşqinə, oxu, Mikayıl, oxu!

Dərdin əlində qalıb, qəmə əsir olardım,
Sən mənim tamlığımsan, sənsiz kəsir olardım.

Bəlkə də çoxlarına açılmaz sirr olardım,
Səs ver mənim səsimə, oxu, Mikayıl, oxu!
Qanad ol nəfəsimə, oxu, Mikayıl, oxu!

Saçımızı ağardır bəxtimizin qarası,
Günü-gündən çoxalır könlümüzün yarası.
Təbriz, Dərbənd, Borçalı, Bakı, Göyçə arası,
Birləşdir bu yolları, oxu, Mikayıl, oxu!
Aç Tanrıya qolları, oxu, Mikayıl, oxu!

Dərdimizi deməyə bu kamandı, bu neydi,
Səsimizi yaymağa bulaq sazdı, su neydi.
Azərbaycan nə quzey, nə də təkcə güneydi,
Tut üzünü dünyaya, oxu, Mikayıl, oxu!
Hər çeşməyə, hər çaya, oxu, Mikayıl, oxu!

Alsın gərək millətim halal haqqı-sayını,
Qisas, intiqam gərək, ver düşmənin payını.
Yetir bütün millətə halal haqqı-sayını,
Hay elə, haray elə, oxu, Mikayıl, oxu!
Göz yaşını çay elə, oxu, Mikayıl, oxu!

Nə qədər dadmaq olar dərdin, qəmin dadından,
Qoy bu tarix çıxmasın tarixlərin yadından.
Üç yüz milyonu keçmiş türk ulusu adından
Dərdimizi ərz elə, oxu, Mikayıl, oxu!
Sözümüzü gürz elə, oxu, Mikayıl, oxu!

Çatdır, Allaha çatdır ağrıları, ünləri,
Bəlkə, açа bizimçün açılmaz düyünləri.
Azərbaycan xalqının bu dəhşətli günləri
Getsin, bir də gəlməsin, oxu, Mikayıl, oxu!
Nalələr yüksəlməsin, oxu, Mikayıl, oxu!

Arzuların ən uca zirvəsinə varmamış,
Ulu məslək yolunda sərt qayalar yarmamış,

Laçını, Kəlbəcəri, Şuşanı qaytarmamış
Getməsin gözlərinə heç zaman şirin yuxu!
Dön anadil quşuna, oxu, Mikayıl, oxu!

Dünyanın ləzzətini alçaq, namərdlər çəkib,
Cəmiyyətin yükünü həmişə mərdlər çəkib.
Söz oğlu, sənət oğlu çəkilməz dərdlər çəkib,
Bizim çiynimizdədir dərdin, həsrətin çoxu!
Cavab ver bu tələbə, oxu, Mikayıl, oxu!
Haqqındı son qələbə, oxu, Mikayıl, oxu!

20.11.1995

AÇIN ÜRƏYİMİ, HƏKİMLƏR, AÇIN

Sabah İstanbulda Cərrahpaşa xəstəxanasında şair qardaşım Xəlil Rzanın ürəyində cərrahiyyə əməliyyatı aparacaqlar. Aktyor dostum Mikayıl Mirzə bu xəbəri mənə çatdıranda bərk sarsıldım. Əməliyyat qabağı Xəlil Rzanın ürəyindən, görəsən, nələr keçib. Bu şeirin mövzusunu Mikayıl verdi, adını mən verirəm.

Altmış yaşı da qoydum arxada,
Altmış ilimin qırxı döyüşdə!
Dən yox, dərd üyüdən bir dəyirmanam,
Dəhnəsi döyüşdə, çarxı döyüşdə!
Qorxaqsan, döyüşdə mübarizəsiz,
Girdinsə, yox olar qorxu döyüşdə!
Heç bir xəstəliyə baş əyməsəm də,
Xəstəsi olmuşam arzularımın,
Xəstəsi olmuşam diləklərimin.
Bugünkü müstəqil Azərbaycana,
Nurunu vermişəm baxışlarımın,
Gücünü vermişəm biləklərimin!
Bütün arzuların zirvəsindədi,
Məni İstanbula yetirən arzu!
Könüllər fatehi Xəlil Rzanı
Fateh şəhərinə gətirən arzu!
Qoy mənim sinəmi Türk eli yarsın!
Qoy mənim sinəmi Türk əli yarsın!
Sarğını, məlhəmi bir kənara qoy,
Dərdimin dərmanı Turandı, qardaş!
Turan mənim üçün yerdən çıxan od,
Göydən nazil olan "Quran"dı, qardaş!

Tibetdən Altaya, Anadoluya,
Təbrizə, Bakıya, Qarsa, Boluya,
Mənim ürəyimin nurunu saçın,
Açın ürəyimi, həkimlər, açın!

Siz mənim sinəmi yara bilsəniz,
Siz mənim ruhumu duya bilsəniz,
Şairi yaranda şairə dönüb,
Duymaq imkanını qıya bilsəniz,
Könül sarayımda, can otağımda,
İyirmi yanvarda qana bələnmiş
Yaralı çiçəklər görəcəksiniz!
Qalxan qasırğalar, qopan tufanlar,
Sayrışan şimşəklər görəcəksiniz!
Zəncanlı, Mərəndli, Gəncəli, Xoylu,
Arxalı, dayaqlı, əsilli, soylu,
Həsrətli, görüşlü, matəmli, toylu,
Sarsılmaz bir cahan görəcəksiniz!
Hələ bölünməmiş, paralanmamış,
Bütöv Azərbaycan görəcəksiniz!
Bir az yanağımı solğun görsəniz,
Bir az xəyalımı dalğın görsəniz,
Bir az varlığımı çılğın görsəniz,
İş nə gecikməsin, nə tələsməsin,
Barmaq titrəməsin, əllər əsməsin.
Qorxunu unudun, qorxudan qaçın,
Bir şair qəlbində görün nələr var,
Açın ürəyimi, həkimlər, açın!

Siz mənim sinəmi yara bilsəniz,
Yarılan dözsə də, yaran qan ağlar.
Hər daşın fəryadı ərşə dayanar,
Hər dağın başında bir duman ağlar.
Məni yandırmazdı qışın sərtliyi,
Yağılar əlində yumağa dönmüş
Əsirim, girovum yandırır məni.

Qanımda çovğunum, canımda odum,
Saçımda qırovum yandırır məni.
Qolumda qurumuş iki damar var,
Birisi Qarqardı, birisi Xaçın.
Qarabağ qəlbimin şah damarıdı,
Açın ürəyimi, həkimlər, açın!

Dünyada elə bir qaya yoxdu ki,
Mənim sinəm kimi çapıla bilsin.
Ərəstun dirilə, Əflatun gələ,
İnana bilmirəm bu yer üzündə
Dərdimin dərmanı tapıla bilsin!
Vaxtında hayına çatammamışam,
Borçalı yaş tökür, Dərbəndim ağlar.
Hər dəfə dillənib Göyçə deyəndə
Hər sözüm, hər misram, hər bəndim ağlar.
Harda öyündüyüm bir parça varsa,
Alov içindədi, od içindədi.
Vaqif məqbərəsi dururmu görən?
Ələsgər məzarı yad əlindədi.
Hökmünə nə deyim vaxtın, zamanın,
Yüz günü qəmliyəm, bir günü şadam.
Dırnağım qanlıdı, təpəm tüstülü,
Təpədən-dırnağa dərdəm, fəryadam.
Əlimdən o boyda şəhərim gedib,
Dağılan Şuşayam, talanan Laçın,
Yerin tufanıyam, göyün dumanı,
Açın ürəyimi, həkimlər, açın!

Mənim torpağımda şəhid qanı var,
Torpağım qırmızı, daşım qırmızı.
Gülsəm, gülüşüm də qan rəngindədir,
Ağlasam, gözümdə yaşım qırmızı.
Şəhid atasıyam, şəhid oğlumun,
Ölü də, diri də mənimdir elə.

Xətrinə dəyməsin Təbriz balamın,
Sağında, solunda çoxdu qəbirlər,
O qəbrin biri də mənimdir elə.
Adını nə qoyum, bilə bilmirəm,
Ata barmağında yanan qələmin,
Ana əllərində yolunan saçın.
Görmək istəyirəm nəvələrimi,
Təbrizsiz, Xəlilsiz darıxar onlar,
Açın ürəyimi, həkimlər açın!

Məni yaşamağa qoymadı dünya,
Vaxtım qanda keçdi, qadada keçdi.
Ömrüm vəhşilərlə baş-başa vermiş
Bir daşlı, çınqıllı adada keçdi.
Əqrəb əllərimi çaldı, dişlədi,
İlanlar dolaşdı ayaqlarıma.
Qanqal gözlərimin içinə girdi,
Tikanlar sancıldı barmaqlarıma!
Pələnglə, aslanla döş-döşə gəldim,
Yenə bükülmədi dizlərim mənim.
Çaqqalın, tülkünün bezdim əlindən,
Nələrə şahiddi gözlərim mənim.
Biri yeyən olub, mini yeyilən,
Quzu dərdim də var, qurd dərdim də var.
Biri döyən olub, mini döyülən,
Torpaq əzabım da, yurd dərdim də var.
Onsuz da sayını itirmişəm mən,
Saymaqla tükənməz min dərdim də var.
Dilimin dərdləri hələ bir yana,
Mənim bir qovğalı din dərdim də var.
Dövlət də, sərhəd də bir bəhanədir,
Bugünkü davalar din davasıdı!
Oyanan islama, türkə, ərəbə,
Nifrət davasıdı, kin davasıdı!
Bu gün nə fikrimdən gəzmək, dolanmaq,
Nə də xəyalımdan kef-damaq keçir.

Bu din davasında əsgər olmağa,
Bu dil savaşında səngər olmağa
Könlümdən bir dəli yaşamaq keçir.
İsa “İncil”ini qoysun ortaya,
Musa “Tövrat”ını qoysun ortaya,
Məhəmməd nurundan alım eşqimi,
Mən də “Quran”ımı gətirim gəlim!
Çəksin haqqımızı haqq tərəzisi,
Dişimdə canımı gətirim gəlim!
Dirçəlir xaçpərəst, oyanır islam,
Döyüşü başlanır “Quran”la xaçın.
Görək bu meydanda kim itirəcək,
Görək bu meydanda kim qazanacaq.
Açın ürəyimi, həkimlər, açın!
Açın ürəyimi, həkimlər, açın!!!

HAQQ-ƏDALƏT

Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni təşkilatları Dağlıq Qarabağ məsələsi ilə bağlı ABŞ-ın prezidenti Bill Klintona məktub yazıb, haqq-ədalət tələb etmişlər.

Yox, bu düşmən elə-belə düşmən deyil,
Tutduğundan xəcil deyil, peşman deyil.
Bir balaca üz verirsən, astar gəzir,
Dost itirib, təzə-təzə dostlar gəzir.
Əməlindən heç utanıb, ar eləmir,
Yer üzünün millətləri dilə gəlib,
Yenə ona kar eləmir!
Zor deyir ki, ədalətəm!
Şər deyir ki, həqiqətəm!
Kin deyir ki, məhəbbətəm!
Şər axtaran, böhtan gəzən.
Qolu qıran, başı kəsən,
Addımbaşı haqqı əzən,
Haqq-ədalət tələb edir!

Ömrü boyu güvəndiyi bir ölkədən kömək umur,
Həm işıqdan, həm kölgədən kömək umur,
Hər niyədən, hər bəlkədən kömək umur.
Ürəyinə damıb nəsə,
Daha möhkəm haray salır,
Daha möhkəm düşür səsə!
Həqiqəti başa düşən
Ətəyini kəsib atır, əllər daha boşa çıxır,
Yollar daha daşa çıxır.
Yetmişillik, səksənillik,

Qəzəb dolu, nifrət dolu,
Məkr dolu, hiddət dolu,
Şişirdilmiş təbliğatın,
Qan üstündə çalxalanan bir həyatın,
Axır yolu başa çıxır!
Həqiqətlər dalğalanır dəniz kimi,
Dalğaların dimdiyində uydurmalar saman çöpü.
Zəhərlənmiş beyinlərin,
Şişmanların, harınların,
Üfürülmüş qarınların yavaş-yavaş yatır köpü!
Zaman-zaman kürəyimə bıçaq olan,
Beyni-başı xəstə olan, naçaq olan,
Düşmən kimi alçaqdan da alçaq olan,
Dalaşanda barışmağa üz qoymayan,
Xeyirxahlıq meydanında
Bircə addım, bircə qarış,
Addımını düz atmayan,
ayağını düz qoymayan,
Yersiz gəlib, yer istəyən,
Göysüz gəlib, göy istəyən,
"Bəsdir" – demək ləyaqəti çatışmayan,
İstədikcə, hey istəyən
Baxıb sağa, baxıb sola –
Özü haqsız ola-ola,
Haqq-ədalət tələb edir!

Bu tərəfdən Qarabağa dikib gözün,
O tərəfdən qədim Qarsa.
Özündə bir qeyrət yoxdur,
Hey yalmanır, yaltaqlanır,
Bir gün rusa, bir gün farsa.
Allah mənə qənim olsun,
Bu millətdə ağıl adlı bir nemətdən
Zərrə qədər əsər varsa!
Torpağımın hesabına torpaq olan,

Dövlətimin hesabına dövlət olan,
Nə ruhunda yaxşılığa hörmət-izzət,
Nə qəlbində insaf olan, mürvət olan,
Axır gəlib, bizdən ötrü dəhşət olan,
Arxalanıb tülküsünə, ayısına,
Arxalanıb əmisinə, dayısına,
İndi gəlib üstümüzə şeşələnir.
Yalan kitab, yalan tarix yazmaq üçün,
Yazılanı öz xeyrinə yozmaq üçün,
Qələm ilə qəbrimizi qazmaq üçün,
Gecə-gündüz arxivlərdə qurdalanır, eşələnir!
Düzü tərsə yaza-yaza,
Bizə quyu qaza-qaza,
O millətdən, bu millətdən,
O dövlətdən, bu dövlətdən
Haqq-ədalət tələb edir!

Pərpətöyün toxumudur,
Səhra bilməz, çəmən bilməz,
Qürbət bilməz, vətən bilməz,
Hara atsan, orda bitər!
Ona-buna tor toxuyar,
Toxuduğu torda bitər!
İnsanları qəbirdə də rahat qoymaz,
Xortdan olar, gorda bitər!
Yüngülcə bas ayağını,
Hay-həşiri göyə çıxsın.
İkicə gün qonaq saxla,
Ev-eşiyə yiyə çıxsın.
Qəlbimizə yol axtarar,
Qarmağını atmaq üçün.
Qapımızda köpək olar,
Məqsədinə çatmaq üçün.
Səhl-Sumbat basmadımı duz-çörəyi,
Ulu Babək Xürrəmini
Mötəsimə satmaq üçün?!

O zamandan sata-sata gəlir elə!
Günahlara bata-bata gəlir elə!
Şər bayrağı, böhtan andı,
Yeri-göyü bir-birinə
qata-qata gəlir elə!
Səhl-Sumbat dönüb bu gün
Lalayana, Balayana, Petrosyana.
Dünya deyir sən haqsızsan,
Yenə çəkir Petros yana,
Haqq-ədalət tələb edir!

Nə zamandır ara vermir
qanıma susayan cəllad,
Özünü bir qalib sayır
qanımı su sayan cəllad!
Elə bilir mən balığam,
o da tordu,
Məndən ötrü tor toxuyan
kəmfürsətdi, gorbagordu.
Elə bilir o bir ovçu, mən də ovam,
O, iştahdı, o, tamahdı, mən plovam.
Nə istəsə, yeyə bilər!
Nə istəsə, deyə bilər!
Dünya onun nazı ilə
oturmalı, durmalıdır,
O da gəlib qan üstündə
Dənizlərdən-dənizlərə Ermənistan qurmalıdır!
Sui-qəsddən, təxribatdan ləzzət alan,
Üzdə gülüb, altdan-altdan quyu qazan,
Yer üzünün neçə-neçə ölkəsində
pusqu quran,
Şəhərində, bölgəsində
pusqu quran,
İşığında, kölgəsində
pusqu quran,

Nifaq salan, ara vuran,
Qafqaz adlı bir cənnətin
Neçə yerdən ürəyinə, kürəyinə,
zərbə vuran, yara vuran,
Nə qocaya, nə uşağa,
nə qadına rəhm etməyən,
Gəlinlərin naləsinə,
Körpələrin fəryadına rəhm etməyən,
Ona-buna məndən yaman qandıranlar,
Məni kənd-kənd, şəhər-şəhər yandıranlar,
Həqiqəti boğazından asdıranlar,
Qocaları, uşaqları diri-diri basdıranlar,
Düz Bakının ortasında
Bir həftədə otuz mini qırdıranlar,
İkicanlı qadınların
Qarnındakı körpələri xəncər ilə yardıranlar,
Qundaqları cidaların şiş ucunda oynadanlar,
İnsanların boğazına tökmək üçün
Qır qazanı qaynadanlar,
Əsirləri daş-divara mıxlayanlar,
Girovları
Zirzəmilər zülmətində saxlayanlar,
Paris deyib uça-uça,
Moskvaya, Nyu-Yorka qaça-qaça
Xəyanətlər, cinayətlər meydanında
İstəyir ki,
Daha geniş əl-qol aça.
Daha geniş əl-qol üçün,
Ən məkrli bir yol üçün
Haqq-ədalət tələb edir!

İrəvanı Yerevana,
Qızılqoçu Qukasyana çevirənlər,
Hamamlını Spitaka,
Düzkəndini Axuryana çevirənlər,

Həqiqəti öz himindən uçuranlar, devirənlər,
Basarkeçər mahalını Vardenisə döndərənlər,
Zəngəzurun, Ağbabanın ocağını söndürənlər,
Üçkilsəni Eçmiadzin,
Şəmşəddini Berd edənlər,
Hər allahsız dəyişməni
Azərbaycan xalqı üçün bir çəkilməz dərd edənlər,
Neçə-neçə ad dəyişən,
Hər dəyişən adımızla tam dəyişən, dad dəyişən,
Nəsil-nəsil, tayfa-tayfa,
Soy adıma, yer adıma, göy adıma,
Xan adıma, bəy adıma,
Tariximə, soyadıma
Tez-tez qılınc endirənlər,
Bizə xain gözlə baxıb
Düşmən kimi dindirənlər,
Millətimə qənim olub,
Xalqıma qan udduranlar,
Cavidimi, Cavadımı,
Müşfiqimi tutduranlar,
Qarlı Sibir şaxtasında
Əsim-əsim əsdirənlər,
Üzümüzə gülə-gülə
Başımızı kəsdirənlər,
Stalinə, Beriyaya güvənənlər,
Şaumyandan, Mikoyandan güc alanlar,
Özgəsinin nəzərində alçaldıqca
Öz gözündə ucalanlar,
Fəlakəti üstümüzə qoşun kimi yeridənlər,
Düz deyəni düzdə qoyub
Haqq deyəni kiridənlər,
Gözlərimiz baxa-baxa –
Bizə qara yaxa-yaxa
Haqq-ədalət tələb edir!
Ey Əhrimən, Ərməniyyə,
ən nəhayət, Ermənistan!

Sənin əlinlə yazılıb
Mənim qəmli tariximə neçə-neçə qanlı dastan!
Kül üfürmə gözümüzə,
Eçmiadzin din mərkəzi deyil bu gün,
Od üstündə sursat, silah mərkəzidir!
Gödən yırtan artıq tamah mərkəzidir!
Bağışlanmaz ağır günah mərkəzidir!
Şeytanların, iblislərin yuvasıdır!
Naqislərin, xəbislərin yuvasıdır!
Eçmiadzin din mərkəzi sayılsaydı,
Haqqın adı gələn zaman ayılsaydı,
Eçmiadzin bilsəydi ki, Allah nədir,
Taqsır nədir, günah nədir,
Onda mənim məscidimi,
Quranımı, kitabımı yandırmazdı!
Könül adlı rübabımı sındırmazdı!
Nə evimi, nə damımı yandırmazdı!
Məscidlərə saman təpib,
Mənim min-min adamımı yandırmazdı!
Neçə konsul, neçə səfir,
Neçə paşa öldürənlər,
Silahları olmayanda basıb daşa, öldürənlər,
Tez-tez gedir səfərlərə.
Ağız açır hər dövlətin rəhbərinə,
Ağız açır səfirlərə,
Xeyrimizə danış deyib,
Haqq-ədalət tələb edir!

Haqq-ədalət tələb elə, qarı düşmən,
Ala düşmən, sarı düşmən!
Haqq-ədalət tələb elə, onu-bunu şərləməyə!
Kimlərisə çərlətməyə, kimlərisə çərləməyə!
Dola bizi barmağına!
Keçir bizi qarmağına!
Əyriyə düz, düzə tərs de!

Qarabağın tarixindən bizə dərs de!
De ki, burda yerli-dibli
Pənah adlı xan olmayıb!
İbrahim xan rəvayətdi, əfsanədi,
De ki, burda Seyid, Cabbar, Üzeyir bəy,
Zülfü, Bülbül, Xan olmayıb!
Bəlkə, elə sən vermisən
Şuşadakı bulaqların adını da!
Sən vermisən bulaqların dadını da!
Saxsı bulaq, Yastı bulaq, Çarıq bulaq,
Bu gün hamısı sənə yaxın, səndən uzaq!
Sən çəkmisən, bəlkə, İsa bulağını,
O zəhmətə sən açmısan qucağını?!
Qırxpilləkən, bəlkə, sənin dilindədir?
Sarıbaba dağları da, Alagöllər yaylağı da,
Qırxqızdakı o ilahi mənzərə də,
Laçındakı dağ-dərə də,
Yağlı bulaq, Keçili dağ, Novlu bulaq,
Bəlkə, sənin dilindədir!
Bəlkə, elə Xan qızının xanlığına şəkk edəsən?!
Saxta-saxta tarix yazıb,
Qara-qara daşlar üstə həkk edəsən?!
Həqiqəti susdurasan,
O daşları yer altında basdırasan?
On il sonra haray-həşir salmaq üçün,
On il sonra yeni qisas almaq üçün,
Tarix mənəm, kitab mənəm demək üçün,
Hər suala cavab mənəm demək üçün,
Yer altında batıb qalmış
Sərvət mənəm demək üçün,
Millət mənəm demək üçün!!!

Bu ağılla, bu əməllə,
Qanlı başla, qanlı əllə,
Haqq-ədalət tələb elə!

Dayan bir az, yaman qonşu,
Hər niyyəti zülmət qonşu, duman qonşu!
Mərə kafir, qəddar düşmən, ayaq saxla,
Mürgüləmə, şüurunu oyaq saxla!
Dediyimi yaxşı eşit, yaxşı anla,
Bəsdir daha, gəl oynama nahaq qanla!
Yüz ildir ki, tarix sözü sənə verib,
Yüz ildir ki, şər qüvvəti sənə verib,
Ələ düşən hər fürsəti sənə verib.
SSRİ adında bir bəla vardı,
SSRİ adında bir qala vardı.
Kəsmişdilər dörd yanımı
hasar ilə, çəpər ilə,
Kəsmişdilər ətrafımı süngü ilə,
sipər ilə.
Ürəklərdə 37 vahiməsi,
Batırırdı qəlbimizdən gələn səsi.
O da elə bir dövrandı,
o da elə bir gün idi,
Kim ucadan danışdısa,
yeri ancaq sürgün idi.
Aşağı da, yuxarı da sənin idi,
Zəmanənin axarı da sənin idi.
Yapışmışdın üstümüzə şirə kimi,
Daraşmışdın gövdəmizə birə kimi.
Özün üçün bir tələb də yaratmışdın,
"Geri çəkil, yer mənimdi Kürə kimi!"
Neçə-neçə gizli plan sənin idi,
Neçə-neçə qızıl yalan sənin idi.
Boğulurduq – dərya bizi eşitmirdi,
Çağırırdıq – dünya bizi eşitmirdi,
Qovrulurduq – səhra bizi eşitmirdi.
Mənliyimi əzə-əzə, sıxa-sıxa,
Zindan, ölüm qoymurdu ki, səsim çıxa.
Eşitmirdi lopabığın qulaqları,

Millətimin hesabına çoxalırdı,
Qanlı Sibir zindanları!
Qanlı Sibir dustaqları!
Bu gün daha dünən deyil,
MÜSTƏQİLDİ AZƏRBAYCAN!
ÖZ YOLUNDAN DÖNƏN DEYİL!
Daha bizim dalğamızı yatırmağa,
Sənin gücün çatmayacaq!
Öz haqqını qaytarmasa,
Azərbaycan yatmayacaq!
Düz bir əsr tarix sözü sənə verdi,
Bu gün daha söz mənimdir!
Təbiətin üç rəngiylə naxışlanmış
Qaldırdığım qanlı bayraq
Xilaskarım, yelkənimdir!
Lap allahlıq eləsə də, tez tükənir şərin gücü,
Həqiqətə söykənəndə
Qar içində donmaz olur,
Buz içində sınmaz olur,
Od içində yanmaz olur eşqin gücü, ərin gücü!
Şər oğlu şər, lənət sənə!
Səksən ildə istəyindən, tələbindən bezdi bəşər,
lənət sənə!
Sənə nifrət, sənə lənət mənəm bu gün!
Sən gəzdiyin haqq-ədalət
Sən deyilsən, mənəm bu gün!
Dünən bizi yazıq görüb,
Başımızı pozuq görüb,
Moskvanın əli ilə
Başsızları bu millətə baş qoydunuz!
Bağrımıza köz basdınız, gözümüzə
yaş qoydunuz!
Evimizin içindəcə yerimizi boş qoydunuz!
Vətən nədir, millət nədir, torpaq nədir?
Namus nədir, əsgər nədir, bayraq nədir?

Bu ilahi duyğulardan çox-çox uzaq olanları,
Siyasətdə körpə uşaq olanları,
Təntənəylə, dəbdəbəylə gəlib taxta çıxartdınız!
Həqiqət biz ola-ola
Bizi yalan çıxartdınız, bizi saxta çıxartdınız!
Yuxarıdan gələn rəhbər
Aşağıdan xəbərsizdi.
Öz haqqını dərk etməyən
Qeyrətsizdi, təpərsizdi!
Eşit məni, ürəyi dar,
Eşit məni, qulağı kar!
Bil ki, daha bu millətin, bu dövlətin
sahibi var!
Yer üzünün aliməqam məclisində
Ermənistan təkləndisə,
Siyasətin meydanında töhmət ilə yükləndisə,
Bu gün sənə boyun əyən olmadısa,
Bu gün sənə haqlı deyən olmadısa,
Güvəndiyin o dağlara qar yağdısa,
Yaxınlara, uzaqlara qar yağdısa,
Bu, yüzillik günahların cavabıdır!
Gödən yırtan iştahların cavabıdır!
Əvvəl-əvvəl boşqabımı yalamağın cavabıdır!
Sonra məni quduz kimi dalamağın cavabıdır!

Şamaxıda, Lənkəranda, Naxçıvanda,
Axıtdığın al-qanların cavabıdır!
Bakı, Göyçay, Gəncə boyu
Qaldırdığın tufanların cavabıdır!
Quba, Şəki, Şirvan boyu
Nalələrin, üsyanların cavabıdır!
Qəsbkarlıq, xilaskarlıq donu geyib,
Dalğa-dalğa üstümüzə axın olub.
On səkkizlə otuz səkkiz arasında
İtkilərim bir milyona yaxın olub.

Bu, adicə itki deyil,
Gen yaddaşı, qan yaddaşı məhv edilmiş
Neçə nəsil, neçə insan itirmişik!
Qansız düşmən qan-qan deyib,
Nə qədər qan itirmişik!
Hər ölənlə, hər itənlə
Parça-parça, hissə-hissə,
AZƏRBAYCAN İTİRMİŞİK!
Yada saldım keçmişləri,
Oda döndü sinəm bu gün.
Göydə Allah, Yerdə bəndə bilməlidir,
Haqq-ədalət mənəm bu gün!

Xocalıdan sonra yenə sən haqq tələb edirsənsə,
Şər üstündə addım atıb, qana doğru gedirsənsə,
Bağrımızı quduz kimi sökürsənsə, didirsənsə,
Tərəzini zor gücünə öz xeyrinə əyirsənsə,
Ağ yalanı bayraq edib böhtan donu geyirsənsə,
Üzün gəlib, dilin tutub yenə haqdan deyirsənsə,
Haqqın əli çənəsində baxa-baxa qalırsa mat,
Çaxnaşmalar caynağında
Ürəyimiz parçalanıb yeddi yerdən verirsə çat,
Öz gücünü göstərmirsə
Çərxi-gərdiş, Tanrı, həyat,
İçərimdən haray qalxır,
Ürəyimdən gəlir bir səs:
Mənim haqqım necolsun bəs?!

Belə getməz, yavaş-yavaş qanlı sular durulacaq,
Nə zamansa sənin üçün
Bir Nürnberq məhkəməsi qurulacaq!
Nə günahın sahibisən,
Bir-bir səndən sorulacaq!
Zaman yerdə qoymayacaq bu ahları,
Tanıdacaq bədxahlığı, bədxahları!

Həqiqət öz qılıncını sıyıracaq,
Günahı da, savabı da,
Sualı da, cavabı da
Bir-bir seçib ayıracaq!
Cəlladı da, qəssabı da, qatili də göstərəcək!
Doğrunu da, ağrını da, əzabı da göstərəcək!
Zaman özü ayırd edir yaxşı-pisi,
Ortalıqda bir qaranlıq pərdə qalmır.
Tarix verir hər sualın cavabını,
Heç bir xalqın nahaq qanı yerdə qalmır!
Şər allahı allahsızlıq eləsə də,
Heç bir zaman xeyrin haqqı şərdə qalmır!
Yer üzünün fövqəlbəşər dövlətindən
Haqq-ədalət istəyən kəs –
Ver sualın cavabını,
Mənim haqqım necolsun bəs?!

Əlin batıb millətimin al-qanına,
Gələcəksən sorğu-sual meydanına,
Gəlməsən də, axıtdığın
nahaq qanlar gətirəcək!
Sərt hakimlər, haqq divanlar gətirəcək!
Anaların ahı səni
duman kimi bürüyəcək!
Körpələrin ruhu səni
arxasınca sürüyəcək!
İlan kimi dolanacaq boğazına,
Törətdiyin bəd əməllər!
Boğazından yapışacaq qanlı əllər!
Yatan kimi yuxuda qan görəcəksən!
Qalxan kimi qan içində Ermənistan görəcəksən!
Kəsiləcək ümidlərin, kəsdirdiyin qollar kimi!
Bağlanacaq qapıların, bağladığın yollar kimi!
Bir Daşaltı harayına kar olacaq qulaqların!
Orda ölən oğulların haqq-hesabı sorulanda
quruyacaq dodaqların!

Sındırdığın könüllərin,
Soldurduğun tər güllərin,
Saraltdığın çiçəklərin,
Sındırdığın beşiklərin,
Yandırdığın bələklərin,
Öldürdüyün qocaların,
Kor qoyduğun bacaların,
Ola bilməz sözü hədər,
Ola bilməz cəhdi əbəs.
Bir-bir səndən soruşacaq:
Mənim haqqım necolsun bəs!

Haqq-ədalət yerdən dərin, göydən uca,
Bu sözlərin özü qədim, yaşı qoca,
Haqqın yolu hamar olmur,
Dağa düşür, daşa düşür.
Heyif, onu olduğutək dərk eləmir,
Öz xeyrinə yozmaq üçün
Hərə bir cür başa düşür!
Haqq yolunda zaman-zaman
Döyüş olur, savaş olur.
Ona çatmaq qəfil olmur,
Gediş yavaş-yavaş olur.
Əzənin yox, əzilənin,
Kəsənin yox, kəsilənin,
Yıxanın yox, yıxılanın,
Əsarətin pəncəsində sıxılanın,
Nizələrə, süngülərə, cidalara taxılanın,
Tərəfində dayananda
Məcrasından aşıb-daşır,
Haqqın gücü allahlaşır!
Nə zaman ki, səs qaldırır,
Dünya haqqa tərəf olur,
Millət onda millət olur,
Şərəf onda şərəf olur!

Nə zaman ki, şərəfsizi
Çəkir məhşər ayağına,
Haqq çevrilir dayaqsızın,
Arxasına, dayağına!
Kütlə xalqa, xalq millətə, millət bəşərə çevrilir!
Həqiqətdən qüvvət alıb,
Hər oğul bir sərkərdəyə, hər igid ərə çevrilir!
Bayaq sənə nifrət dedim yaman qonşu,
Yandırmısan, yandım dedim,
vallah, məndə günah yoxdur!
Yetim qalmış körpələri,
üzüntülü duruşları,
Ağrı ilə, əzab ilə,
tale ilə vuruşları,
Doxsan yaşlı bir qarının
alnındakı açılmayan qırışları,
Umuları, küsüləri, savaşları, barışları,
Bircə-bircə andım dedim,
vallah, məndə nifrət yoxdur!
Paralanmış beyin gördüm,
qan içində ilik gördüm,
Baş-bədəni parça-parça,
qolu çilik-çilik gördüm.
Yer üzündə görünməmiş
amansız vəhşilik gördüm,
Heyrətimdən dondum, dedim,
vallah, məndə nifrət yoxdur!

Millətimi Tanrı belə xəlq eləyib,
Sevgi adlı zirvələrə qalxa bilir,
Nifrət adlı uçrumlara düşə bilmir.
Dərd əlindən eşim-eşim eşilsə də,
Quyu qazıb, ayaq altı eşə bilmir!
Alçaqlığı, rəzilliyi, bədxahlığı
Öz ömrünə sənət bilmir, peşə bilmir!

Dünya hərdən qarışanda,
Zəmanənin üzü dönüb,
Vaxtın alnı qırışanda,
Qoymamışıq qonşulara xətər dəyə.
Gizləmişik evin xəlvət bucağında,
İsitmişik qəlbimizin ocağında,
Sonra gedib iş-gücünə
Varımızın hesabına qonşu evi abad olub!
Qonşu yenə rahat gəzib, azad olub!
Ara bir az qarışantək
Dönüb yenə bizdən ötrü
baş kəsdirən cəllad olub!
Pis qonşudan qazancımız
Nalə olub, üsyan olub, fəryad olub!
Yüz illərlə tikdiyimiz, qurduğumuz,
Hər daşına, kərpicinə,
özümüzü yorduğumuz,
Yurd-yuvamız, el-obamız
Xilaskarı olduğumuz
qonşuların əlləriylə
Yana-yana külə dönüb,
itib-batıb, bərbad olub!
Biz yenə də üz tutmuşuq
sevgi adlı ibadətə,
Biz yenə də üz tutmuşuq
uca duran məhəbbətə.
Allah kimi səcdə qılıb əl açmışıq
İnsanlığa, ləyaqətə!

Bayaq sənə nifrət dedim, yaman qonşu,
Sanma meylim sənə qarşı nifrətdədir!
Nifrət ilə heç kəs şərəf qazanmayıb,
Şərəf ancaq sevgi adlı qüdrətdədir!

Artıq tamah baş sındırar, bədən yırtar,
Qol qırdırar, göz tökdürər, gödən yırtar.

Heç bilmirəm şər özünü nədən yırtar,
Xeyirxahlıq insanlığa xidmətdədir!

Dərk eləsən insaf ilə, vicdan ilə,
İnsan ancaq xoşbəxt olur insan ilə.
Sənin qəlbin him-cimdədir şeytan ilə,
Mənim qəlbim Allah ilə vəhdətdədir!

Sevgi uçar, qanadlanar ər dilində,
O, işıqdı insanlığın hər dilində.
Heç bir kəsə xeyir gəlməz şər dilində,
Şər axtaran ömrü boyu zillətdədir!

Düzə haqdan yol verilir, izin olur,
Son söz yenə həqiqətin, düzün olur.
Məhəbbətin ömrü çox-çox uzun olur,
Elə bilmə hünər zorda, qüvvətdədir!

Aralığa rəzil düşüb, alçaq düşüb,
Vallah, bu qan ortalığa nahaq düşüb.
Yurd yiyəsi öz yurdundan uzaq düşüb,
Ev yiyəsi öz evinə həsrətdədir!

Səbəb nədir, niyə çıxır, niyə çıxır,
Könül ahı tüstülənib göyə çıxır.
Tarix qanı tökülənə yiyə çıxır,
Qan tökənin adı daim lənətdədir!

Sağlam fikir sal daşları çapır bu gün,
Çürük yalan öz kökündən qopur bu gün.
Azərbaycan öz haqqını tapır bu gün,
Bütün dünya ona qarşı diqqətdədir!!!

1997, 1-11 fevral

YURD AĞRISI

"Xəzər" jurnalının 2-ci sayında (1977) sevimli yazıçımız Mövlud Süleymanlının "Ev ruhları" əsərini göz yaşı içində oxudum. Didərginlik, qaçqınlıq, köçkünlük dərdi qızıl ilana dönüb içimi yandırdı, ruhumu çaldı, bağrımı köz-köz elədi. "Köç" romanındakı ağrılı-acılı talelər, hadisələr, Qarakəllələr nəslinin başına gələn üç yüz illik faciələr, İmirin, Bəkirin, Alayın, Göyüşün boyu-buxunu, səsi, yerişi yenidən xəyalımda canlandı, ürəyimdə odlu duyğular baş qaldırdı. Dünyanın düz vaxtında o köç yenə davam edir, daha faciəlidi, daha ağrılı. Qurtan ağalar bu gün yaman çoxalıb.

O zaman Qarakəllələrin yurduna-yuvasına, aranına, yaylağına sahib çıxmaq istəyən, təbiətin ucalığına topla-tüfənglə gələn Qurtan ağa Qarakəllələrin qəzəbindən qorxub gecələrin birində səssizcə aradan çıxmışdı. İndiki Qurtanlar daha bizim qəzəbimizdən qorxmur, ac qurda dönüb bizi loxma-loxma yeməklə məşğuldu. Yavaş-yavaş onlar yeməyə alışır, biz də yeyilməyə. Arxasından Allah saxlasın.

"Ev ruhları"nda deyilir: – "Aparın, heyvanxanada köpəklərin qabağına atın, çox aslan, aslan deyir. Atın, deyin Tanrı dağları köpəklərin qarnındadı, köpəklər yeyib Tanrı dağlarını, get axtar"!

Tarixdə belə kinayələri çox eşitmişik, dərddən dərd götürüb, oddan od salıb "Yurd ağrısı" adıyla dünyaya gələn duyğularımı qələmə pıçıldayıb, vərəqlərə köçürməkdən başqa gücüm heç nəyə çatmadı.

Dərdinə həmdərd olub, bu yazını qələm qardaşım, ruh və könül adamı Mövlud Süleymanlının adına bağışlayıram.

Oxudum ağlayan misralarını,
Niyə ağlayırsan, Mövludum mənim.
Buludu, dənizi, çayı, bulağı,
Niyə ağladırsan, Mövludum mənim.
Elə sızlayırsan, elə sızlamaz
Nə sazım, kamanım, nə udum mənim.
Səni dırnaq boyda sevindirməyə
Ocağın bir çınqı atəşi yoxmu?

Göylərin bir parça Günəşi yoxmu?
Çəmənin bir dəstə gülü-çiçəyi,
Zəminin bir çəngə küləşi yoxmu?
Nərə sükutdumu səndən ötəri?
Hava buluddumu səndən ötəri?
Dərə qəbirdimi, daş səbirdimi,
Qaya tabutdumu səndən ötəri?
Aranda tutdan olanım,
Dağda qurutdan olanım,
Yerə-yurda sığışmayıb,
Axırda yurddan olanım.
Baxıram, o yurddan bir oğlan gəlir,
Yanağı yaşlıdır, gözləri nəmli.
Keçdiyi yerlərə dönüb baxıram,
Sanki yağış yağır baxışlarından,
Dillənir, dilində sözləri nəmli.
Divarı nəm yıxar – dedi babalar,
İnsanı qəm yıxar – dedi babalar.
Toxum çürüyəcək, dən çürüyəcək,
Ömür çürüyəcək, gün çürüyəcək,
Bu qədər yağışın, nəmin içində.
Gülüş dalğalanmaz, sevinc oynamaz,
Bu qədər həsrətin, qəmin içində.
Səni bir tərəfə çıxarmaq üçün
Cığır vermədisə, yol vermədisə,
Sənin nisgilini azaldıb bir az,
Sənin sevincini bol vermədisə,
Hüdudsuz göyləri qucaqlamağa
Qanad vermədisə, qol vermədisə,
Allah qarşısında diz çökmə qardaş,
Gətir qəzəbinlə dizə Allahı.
Dişinin dibindən çıxanı yağdır,
Küçə söyüşüylə bəzə Allahı.
Qoy Allah görsün ki, Tanrı dağını
Aslanlar ağzına atmaq necədir.

Bəndələr yanında günahkar olub,
Ağır günahlara batmaq necədir.
Bəlkə bir balaca insafa gələ,
Bəlkə bir balaca halı dəyişə.
Yenidən yerbəyer edə dünyanı,
Fikri təzələyə, valı dəyişə.
Axı, dəyirmanda dən üyüdəllər,
Fələk sənin üçün dərd üyütdürür.
Arxalı dağları arxasız qoyub,
Torpaq üyütdürür, yurd üyütdürür.
Qəlbində o qədər yurd həsrəti var,
Çöküb gözlərinə kədər dumanı.
Kəndin dumanından əllərin çıxıb,
Dumana oxşamır şəhər dumanı.
Sənin bir davan var, yurd davasıdı,
Sənin bir havan var, yurd havasıdı.
Min hava çalınır toyda-mağarda,
Səni bir havaya oynatmaq olmur.
Başında qaynayıb qaynar qazanlar,
Səni bir söz ilə ağlatmaq olur,
Səni min söz ilə güldürmək olmur.
Həsrət yeddibaşlı bir əjdahadı,
Bir başı kəsməklə öldürmək olmur.
Ağlama deməyə gəlmir ürəyim,
Sənin ağlamağın gülməkdi, bəlkə?
Gözdən yaş çıxanda can rahatlanır,
Ağlaya bilməmək ölməkdi, bəlkə?
Boyuna boz ipi tutmağa qoyma,
Hələ düşmən ilə qisasımız var.
Heç kimi, heç kəsi yatmağa qoyma,
Bizim yaşamağa əsasımız var.
Qara dağı yıxılan qardaşım,
Qara dağı yıxılanda
Ürəyi sıxılan qardaşım,
Ürəyi sıxılanda
Göz yaşı içinə yığılan qardaşım.

Ayları, illəri, günləri,
Toyları, düyünləri,
Qara zurnanın səsini,
Gözəllərin dəstəsini,
Nələr... nələri... nələri...
Ömür-gün yollarında, bir-bir əlindən salıb,
Qara pul kimi itirən qardaşım.
Əlindən çıxanların hamısını
Çiçək kimi, ağac kimi, gül kimi,
Toxum kimi, sünbül kimi,
Arzusunda, xəyalında,
Yenidən su verib
Bir-bir bitirən QARDAŞIM!!!
Yeri-göyü bir-birinə qarışan,
Tanrı dağları əlindən gedəli
Tanrısıyla gah küsən, gah barışan,
Ağlayanda yazıq, güləndə pərişan,
Ayağının altından yeri,
Başının üstündən göyü qaçan,
Eli-obası,
Yurdu, yuvası
Ruhunu göynədəndə
Səhəri dirigözlü açan,
Dağılmış evləriylə qol-qola verən,
İnsan kimi yaşamağı əlindən alınan,
Ömrünü birtəhər yola verən,
Qəlbində həsrətin dağı bitən,
Ruhunda oxşama, layla,
Dilində bayatı, ağı bitən,
Yurd adı gələndə,
Dərd adı gələndə,
İp kimi əyrilən, kəndirtək eşilən qardaşım,
Gözündən sel gedən, yarası deşilən
QARDAŞIM!!!

Oyundan qaçsaq da, bu qoca dünya
Bizi zaman-zaman oyuna çəkir.
Həyatla döyüşdə, mübarizədə,
Adam var pələngə, adam var şirə,
Adam var quzuya, qoyuna çəkir.
Hər kəs öz nəslinin üstünə qalxır,
Hər kəs öz nəslinə, soyuna çəkir.
Ömür-gün yollarında
Mən bilirəm nə çəkdin.
Sən Qarakəllə nəslisən,
Elə nəslinə çəkdin!
Öz əcəliylə ölmür bu nəsil,
Güllə ilə vurdururlar!
Zərbə ilə susdururlar!
Halalını haram edib,
Yediyini qusdururlar!
Sənin nəslin,
Yağıların qamətini bükən nəsil!
Nərəsiylə qara damnan
Qara torpaq tökən nəsil!
Qəzəbini ildırıma,
Nifrətini şimşəyə,
Sevincini bulağa,
Sevgisini gülə-çiçəyə döndərə bilir.
Sinəsini qaya kimi,
Tufanlara gərə bilir.
Güllə üstə gedə bilir,
Qarakəllə Göyüş kimi!
Qarakəllə Alay kimi!
Nərəsini çəkə bilir,
Nərə kimi, haray kimi!
Oğuz nərəli!
Qopuz haraylı!
Toppuz zərbəli!
Yüz illərdi

Qandan, qırğından göz açmır,
Yaşayır
Davalı-şavalı, müharibəli!
Atdan düşən kimi qocalan,
Ata minən kimi
Dirilən nəsildi bu nəsil!
Qan adı gələndə
Ox kimi süzüb,
Yay kimi gərilən nəsildi bu nəsil!
Bizimki belə gəldi, qardaşım,
Atın ağzından yüyən düşdü, qardaşım!
Xalqa aftafa-ləyən,
Bizə də sarımsaqdöyən düşdü, qardaşım!
Ay yurdu itmişin oğlu,
Ay evi dağılmışın,
Ay çardağı yatmışın oğlu,
Ay ocağı sönmüşün,
Ay gəmisi batmışın oğlu!
Mən səni qığılcım-qığılcım qopanda,
Kösey-kösey tüstüləşəndə,
Korun-korun yananda,
Ovuc-ovuc sovrulanda görmüşəm.
Mən səni damar-damar göynəyəndə,
Qəzəbini, nifrətini
Dəmir kimi çeynəyəndə,
Parça-parça söküləndə,
Yeddi qat olub büküləndə,
Buğum-buğum sızlayıb,
İçin-için qovrulanda görmüşəm!

Hanı o yurdun, hanı?
Hanı o kəndin, hanı?
Barlı bağın-bağatın,
İşıqlı aynabəndin hanı?

Nur içində açılan
İşıqlı səhərin hanı?
Şahə qalxan köhlənin,
Qızıl üzəngin,
Gümüşdən yəhərin hanı?
Aslanlar ağzı cıran
Ər oğlu ərin hanı?
Niyə gücsüz görünürsən,
Gücün, təpərin hanı?

Səsimiz qaranlığın bağrını yaranda,
Arandan yaylağa,
Bağ Borçalıdan
Dağ Borçalıya mal aparanda,
İlxı, sürü, naxır
Bir-birinə qarışanda,
Eşqimiz, həvəsimiz,
Gücümüz, nəfəsimiz
Uçan quşlarla,
Axan sularla,
Bal kimi şirin arzularla yarışanda,
Çox keçmişəm Cücəkənddən,
Çox keçmişəm kəndinizin içindən,
Başınız açılmır əkindən, biçindən.
Əkin əkənə bax, toxum səpənə bax.
Çörəyi gözünün üstünə qoyub,
Buğdanı ovcuna alıb öpənə bax!
Əmcək eydirənə,
Oxşama deyənə,
İnəyi sağana bax!
Səhər-səhər sığal verib özünə,
Ay kimi batıb, gün kimi doğana bax!
Ot daşıyanda,
Taya quranda,
Gün tumoyu olmasın deyə

Yaylığı dördkünc bağlayıb
Başına qoyana bax!
Məclis qurana,
Erkək kəsənə,
Heyvan soyana bax!
Yerişindən yer titrəyən,
At ağızlı, köhlən yerişli,
Qaya duruşlu,
Daş təmkinli,
Mamır möhürlü,
Qurd ürəkli,
Şir biləkli,
Pələng pəncəli,
Qılınca, qamçıya, ata,
Yerə, göyə, dağa, daşa,
Suya, oda, yağışa, qara,
Şaxtaya, sazağa öyrəncəli
Nağıldan gələn,
Əfsanədən qopan,
Alatoranın sazağı,
Dan yerinin işığı,
Çiçəklərin ətri,
Güllərin təravəti,
Canına, qanına hopan,
Tanrıtanımaz, yolasığmaz,
Ölçüyəgəlməz,
Bulud papaqlı, qaya sinəli,
Aranlı-yaylaqlı, dağlı-binəli
OĞUZLAR,
QOPUZLAR,
TOPPUZLAR HANI?!
Hanı o kişilər, hanı?
Şimşək olub çaxanlar,
Göy olub gurlayanlar,
Yel olub əsənlər hanı?

Qoç Koroğlular,
Xan Eyvazlar,
Dəli Həsənlər hanı?!
Birdən-birə nə oldu bizə –
Kim əzdi, kim şumladı,
Üstümüzdən zamanın
Kotanımı adladı, xışımı keçdi?
Bizə Allahın qəzəbi,
Tanrının qarğışımı keçdi?
Birdən-birə nə oldu bizə –
Təndirimiz istisiz,
Ocağımız tüstüsüz,
Kündəmiz urvasız,
Yurdumuz yuvasız,
Çörəyimiz ətirsiz,
Sacımız fəsəlisiz, fətirsiz,
Dəyirmanımız dənsiz,
Başımız bədənsiz,
Dirimiz cansız, ölümüz kəfənsizmi qaldı?
Belə vaxtda, belə gündə,
Yaxşı ki, sən varsan, qardaşım!
Axtar o yurd yerlərini,
Axtarsan taparsan, qardaşım!
Mən sənə baxanda elə bilirəm,
Qaraxaç yaylağına,
Noyçalı bulağına,
Hacıxəlil ocağına,
Oy dərəsinə baxıram.
Tərlanların qıyına,
Qartalların səsinə baxıram.
Kəndinizdə bir cüt hacıleylək var idi,
O leyləklərin yuvasına baxıram.
Mən sənə baxanda,
Dəlidağın gündə neçə dəfə,
Açılan-tutulan havasına baxıram.

Mən sənə baxanda,
Dünyanın o başından,
Min illərdi yol gələn,
"KÖÇ"ə baxıram, KÖÇƏ.
O günlər-güzəranlar,
Yaddan çıxası deyil,
Min illər gəlib-keçə!
Qurban olum səni doğan anaya,
Nə yaxşı qəmxar oldun,
Bu boyda qəmxanaya!
Daha çox itirərdik,
Duymasaydı ürəyin, işləməsəydi başın,
Yazmasaydı qələmin, olmasaydı yaddaşın!
Olmaz ki, heç olmasın dərd verənin dərmanı,
Yəqin ki, belə imiş ilahinin fərmanı.

Yalvarıb yoncusaq da,
ALLAHA,
PEYĞƏMBƏRƏ,
İMAMA,
MÜRİDƏ,
MÜRŞÜDƏ
Hünər bizdən olmasa,
İnanmıram ki, onlar,
Haqqımızı qaytara,
Səsimizi eşidə!
Hələlik hünərimiz,
Ruhları silkələyən,
Yaddaşları oyadan,
Yaralar üstündəki qaysaqları qoparan,
Haqsızlıqlar içində bizi haqqa aparan,
Sən yazdığın yazıdı.
Bir qələm adamının,
Zülmə, şərə, böhtana, haqqa ETİRAZIDI!!!

20.11.1997

VƏTƏN YARALARI

Dedilər ki, bu axşam Kəlbəcər də verildi,
Bəd xəbər ürəyimdə açıldı şırım kimi!
Yer üzü başdan-başa alova-oda döndü,
Bu dünya gözlərimdə çaxdı ildırım kimi!
Kəlbəcər də verildi...
Bu dəhşətli xəbərdən
Eşildim kəndir kimi, qıvrıldım ilan kimi!
Heç özüm də bilmədim
Bu sözə, bu söhbətə
Həqiqət kimi baxım, ya bir ağ yalan kimi!
Kəlbəcər də verildi...
Birdən-birə elə bil
Duyğularım, hislərim kaman kimi gərildi!
Söhbətə bax, sözə bax!
Kəlbəcər də verildi...
Elə bildim bir anda
Alçaldı uca dağlar,
Düşmənin qədəminə palaz kimi sərildi!

Talan olur Kəlbəcər!
Düşmən gəlir soymağa, talamağa, qarətə,
Yer-göy uça, dağıla,
Dünyanın həqiqəti
Çevrilsə də nağıla,
Yer üzü başdan-başa qan gölündə boğula,
Mən inana bilmərəm bu boyda həqarətə!
Düzü sındırmaq olar, dağ məğlub ola bilməz,
İlkimdi, əzəlimdi,
Gözəllər gözəlimdi,
Mənim bakirəliyim
Düşmənin tapdağında saralıb-sola bilməz!

Baharda coşub-daşan sellər azadlıq sevir,
Pardaqlanıb açılan güllər azadlıq sevir.
Enişlər enəndə də, yoxuşlar çıxanda da
İzə, cığıra sığmır, yollar azadlıq sevir.
Təbiət azadlığın müqəddəs anasıdı,
Dağ da, daş da, çiçək də,
Uçan quş da, böcək də,
Axıb gedən bulud da, əsib keçən külək də,
Azadlığın eşqinə hər zaman yanasıdı!
Mənim azadlığımdı Taxtadüzün görüşü,
Mənim azadlığımdı Dəlidağın duruşu.
Mənim azadlığımdı qartalların yuvası,
Mənim azadlığımdı İstisuyun havası.
Kim gəldi birdən-birə bu boyda cəsarətə,
Mənim azadlığımı kim saldı əsarətə?!
Ağıllımı, dəlimi?
Qan soran bir zəlimi?
Mənim qanıma batmış daşnakların əlimi?
Saman altdan su kimi,
Siyasət çirkabını
Ruhumuza yeridən, qanımıza axıdan
Moskvanın, Beyrutun, Parisin əməlimi?
Allah! Özün şahid ol,
Bir millətin başına
Bu qədər də bəlalar, müsibətlər gəlirmi?!

Kimdi məni ölümə bu qədər sürükləyən,
Kimdi mənim qanıma bu qədər yerikləyən?
Necə ola bilər ki,
Bircə günün içində məğlub olsun Kəlbəcər,
Bir daşı, bir qayası tərpənməsin tük qədər?!
Mən buna inanmıram,
Mən bu məğrur dağları
məğlub olmuş sanmıram!

Düşmən gəlir deyəndə,
Tərtər dönüb geriyə, tərsinə axmadımı?
Daşdan torpağa qədər,
Otdan yarpağa qədər,
Dişdən dırnağa qədər
Bir orduya çevrilib ayağa qalxmadımı?
Nə oldu birdən-birə hamı qaçqına döndü,
Bircə dəfə çevrilib geriyə baxmadımı?
Bakirə çəmənlərə murdar əllər dəyəndə,
Allahını unudub, nahaq haqqı döyəndə,
Güllərin ləçəkləri gülləyə dönmədimi?
Zirvələrin qəzəbi
Qaniçən yağıların başında sönmədimi?
Biz vaxtında bilmədik düşmənin hesabını,
Biz vaxtında vermədik düşmənin cavabını.
İllərlə hazırlaşan nizami bir ordunu
Gülüşdük, lağa qoyduq.
On minlərin adını beş-altı dığa qoyduq.
Vəzifə davasında keçirib günümüzü,
Bığdan saqqala verdik, saqqaldan bığa qoyduq.
Nəzərə almadıq ki,
Arxasında ayı var qurdbasan köpəklərin,
Qəlbi natəmizlərin, ürəyi napakların!

Qəlbində min illərin yamanlığı, pisliyi,
Gözlərinin içində hiyləsi, xəbisliyi,
Boynunda bu dünyanın dağlar boyda günahı,
Əlində qan qoxuyan, qan axıdan silahı,
Axdı neçə şəhərə, yeridi kəndə düşmən,
Arxasında güc görüb
Harınlaşdı, böyüdü arxada, öndə düşmən.
Çevirsək keçmişlərin tək bircə varağını,
Onda aydın görərik düşmənin alçağını.
Səhl–Sumbat Babəki satdı dünya malına,
Nə kəsdiyi duz-çörək,

Nə illərin dostluğu gəlmədi xəyalına.
Dünən Babəki satan
Fırıldaqçı, şarlatan,
Hər gün su bulandırıb,
Hər gün aranı qatan,
Bu gün zühur eləyir,
Gah Petrosyan donunda, gah Balayan donunda,
Neçə-neçə yanların tökdüyü qan donunda!
Şər-böhtan girdabında gözünə qədər batan,
Dünən Babəki satan
Bu gün satmaq istəyir bütöv Azərbaycanı.
Nə böyükdü iştahı,
Nə qədimdi niyyəti,
Qulağında sırğadı
Pyotrun vəsiyyəti!
Kiçik Ermənistanı
Özgələr hesabına böyütmək istəyənlər,
Böyüdə bilməzsiniz!
Böyük Azərbaycanı
Üyütmək istəyənlər, üyüdə bilməzsiniz!
Məğlub olan sizsiniz, Laçın, Kəlbəcər deyil!
Şuşanın susmağı da mənimçün kədər deyil!
Sükutunda tufan var, birdən-birə qalxacaq,
Dönüb qoca pələngə, dönüb şirə, qalxacaq!
Cabbarın zənguləsi qalxacaq qoşun kimi,
Seyidin zənguləsi dəyəcək qurşun kimi!
Üzünü gələcəyə, sabaha döndərənlər,
Xanın şikəstəsini silaha döndərənlər,
Qalxacaq öz yerindən kişi kimi, ər kimi,
Qalxacaq öz yerindən hamı bir nəfər kimi!
O mənim tanıdığım Laçın, Kəlbəcərdisə,
Hər oğlu bir sal qaya, hər qızı Həcərdisə,
Unudub bir anlığa kədərini, yasını,
Xırda düşmənlərindən,
Böyük düşmənlərindən alacaq qisasını!

Ön cərgəyə çıxardıb
Kişilərin mərdini, oğulların xasını,
Alacaq qisasını!
Biganə ötməyəcək heç bir kəsin yanından,
Bu yaralı torpağa can verəcək canından.
Odlu bir qılınc kimi sıyrılacaq qınından,
Düşmən qanı yuyacaq qılıncının pasını,
Alacaq qisasını!
Silaha döndərəcək
Şəhidlərin üstündə
Oxuduğu Quranı, oxuduğu Yasini,
Alacaq qisasını!!!
Çalınan sazımız da,
Oxunan sözümüz də,
Bu yaralı Vətənin məlhəminə dönəcək!
Bu Vətən düzlərinin quruca çöpü belə
İlhamlı şairlərin qələminə dönəcək!
Yayacaq yer üzünə həqiqətin səsini,
Əlli milyon dodaqda
Eşidəcək bu dünya qələbənin səsini!
Min illərin tarixi dürüst öyrədib bizə,
Haqqın tərəfindədi uğurlu mübarizə.

Çəkil, ey qarı düşmən,
Uda bilməzsən məni!
Yağlı tikə deyiləm,
Yağlı təkə deyiləm,
Yağlı kökə deyiləm,
Uda bilməzsən məni!

Aş deyiləm yeyəsən,
Daş deyiləm döyəsən.
Leş deyiləm söyəsən,
Uda bilməzsən məni!

Buz olub donduraram,
Köz olub yandıraram.
Dişini sındıraram,
Uda bilməzsən məni!

Sən bu gözəl Qafqazın,
Ürəyinin, beyninin xərçəngi, vərəmisən,
Neçə min ailənin
Gözlərinin yaşısan, kirpiyinin nəmisən,
Sən ey bədbəxt erməni,
Axtarmaqla tapılmır xərçəngin də dərmanı!
Ən mahir ovçuların ovsunlanmış ovusan,
Moskvanın Bakıya atılmış tilovusan.
Onun-bunun əlində oyuncaqsan, oyuncaq,
Satqının aqibəti rüsvay olmaqdır ancaq!
İşıqlı arzuların dumanısan, çənisən,
"Sən qulsan, sən köləsən, çünki sən ermənisən!"
İlahinin özüydü
Bu sözləri dedirdən Puşkin kimi dahiyə!
Haqqı nahaqqa vermir, min şükür İlahiyə!
Qroznı siyasəti,
Pyotrun vəsiyyəti,
Lenin "xilaskar"lığı,
Qorbaçovun varlığı,
Öz xalqına nə verdi, gəlib sənə nə verə,
Bəlkə də ümidin var,
Özü acından ölən
Sənə pul bağışlaya, saysız xəzinə verə!
Allah özü göz qoyur hər kəsin əməlinə,
Mahir bir dilənçisən,
Ömrün boyu baxmısan onun-bunun əlinə.
Allah dağına baxıb verir onun qarını,
Sən Tanrının yanında
Ömürlük itirmisən namusunu, arını.

Səni saxlamaq üçün
Axır belədən-belə Amerika dolları.
Yardım gətirənlərin
Əlləri, ayaqları yağır edib yolları.
Amerika qışqırır:
“Ermənistana yardım!”
Fransa hay-küy salır:
“Ermənistana yardım!”
Rusiyanın diliylə
“Vesti” yalan qışqırır:
“Ermənistana yardım!”
Beyrut ayağa qalxır:
“Ermənistana yardım!”
Bir görün kim sığınıb kimlərin kölgəsinə,
Hamı nəzir göndərir
Erməni millətinin dilənən ölkəsinə.
Mən heç bir məmləkətdə
Bu cür riyakarlığı, bu vərdişi görmədim,
Özünün sərvətinə,
Özünün zəhmətinə,
Güvənməyən bir kəsi heç vaxt kişi görmədim!
“Acından öldüm” – deyib hay-həşir salana bax,
Üzə durub dediyi qırmızı yalana bax!
Ölürsənsə acından,
Hər gün söz açırsansa xalqın ehtiyacından,
Bu qədər tankın, topun,
Saysız yalanın, gopun,
Hansı vardan güc alıb hər gün axır üstümə,
Baxıb-baxıb sevinir dumanıma, tüstümə.
“Acından öldüm” – deyib nahaq yerə salma səs,
Kəlbəcərdən, Laçından
Daşıyıb apardığın min il sənə bəsdi, bəs!

Evimdən cehiz gedib,
Toyumdan nəmər gedib.

Telimdən daraq düşüb,
Belimdən kəmər gedib.
Qızım muraz üstündə,
Oğlum südəmər gedib,
Kəlbəcər talanında!

Neçə dəfə baxmışam,
Kəlbəcər muzeyinə,
Nurlu işıq salırdı
Gözə, ağla, beyinə.
Dostum Şamil Əsgərin
Gözlərinin nuruydu,
Azərbaycan xalqının
Ən böyük uğuruydu!

Xanadan xalım gedib,
Pətəkdən balım gedib,
Dənliyimdən dən gedib,
Unluğumdan un gedib,
Yorğanım üzsüz qalıb,
Döşəyimdən yun gedib,
Kəlbəcər talanında!

Oyan, ey qarı düşmən!
Təbiətin, torpağın birinci zəlzələsi
Allahın tərəfindən sənin xəbərdarlığın!
Çəkilməsən içinə, yığılmasan özünə,
İkinci zəlzələdə yox olacaq varlığın!
Bax, onda biləcəksən din nədi, Allah nədi!
Bax, onda biləcəksən tutduğun günah nədi!
Bax, onda biləcəksən
Özgənin torpağına göz dikməyin xeyrini,
Bax, onda biləcəksən
Ölkələri dağıdan, ev yıxan tamah nədi!

Yox, yox, yanılıram mən,
Zəlzələ min yol qopa, sizə dərs olan deyil,
Ən böyük faciələr
Gəlib sizləri tapa, sizə dərs olan deyil.
Haqq sizə qənim olur, haqq yolu tutmursunuz,
Sizə dəyən bir daşı,
Aradan min il keçə, heç vaxt unutmursunuz.
Bizsə unutqanlıqda birinciyik, birinci!
Unutmuşuq həmişə unudulmaz dərdləri,
Ermənini seçmişik ən layiqli yerlərə.
Böyük vəzifələrə
Özümüz qaldırmışıq ən böyük namərdləri!
Dərmana zəhər qatan həkimimiz erməni,
Müşfiqi güllələdən hakimimiz erməni!
Cavidə qan qusduran,
Əhməd Cavadımızı bircə anda susduran,
Katibimiz, sədrimiz, nazirimiz erməni!
De, kimimiz olmayıb, de, kimimiz erməni?!
Bizim qulağımız kar, gözümüz də kor olub,
Bakının ortasında
Neçə erməni nəsli bizə prokuror olub!
Şillələnən biz olduq, şillələyən erməni!
Güllələnən biz olduq, güllələyən erməni!
Ev yıxanlar erməni, ev tikənlər erməni!
Daşın, divarın üstə xaç çəkənlər erməni!
Elə bil bizdən ötrü
18-ci ilin mart qırğını yoxuymuş,
Elə bil bizdən ötrü
30-cu illərin sərt qırğını yoxuymuş!
Həm sənindi, həm mənim,
bu torpaq, bu daş dedik,
O bizə düşmən dedi, biz ona qardaş dedik!
O bizə təpik atdı, biz onu qucaqladıq,
O gedəndə biz ona getmə deyib ağladıq!
Körpələrin əzilən başını unutmuşuq!

Anaların kəsilən döşünü unutmuşuq!
Yanan aynabəndləri,
Tüstülənən kəndləri,
Tökülən göz yaşını,
Əzilən başdaşını,
Pozulan gülüstanı,
Şumlanan qəbiristanı,
Kəsilən yolumuzu,
Bağlanın qolumuzu,
Bizə qarşı sərtliyi,
Ən böyük alçaqlığı,
Ən böyük namərdliyi,
Unutmuşuq, qardaşım, həmişə unutmuşuq!!!

Ölmüş Xocalı da, solmuş Laçın da,
Yaralı Şuşa da, Kərkicahan da,
Təzə yaralardı, təzə yaralar.
Birdən beşə çatdı, beşdən əlliyə,
Ehtiyac qalmadı bir təsəlliyə,
Çatdı yavaş-yavaş yüzə yaralar!

Nurlu baxışlarla qışa döndü yaz,
Gözümüz od gördü, başımız qapaz.
Duz səpən çox oldu, məlhəm qoyan az,
Döndü bağrımızda közə, yaralar!

Hərə yaxamızı bir yana dartdı,
Dərman tapılmadı, dərdimiz artdı.
Köhnə yaraları yaddan çıxartdı,
Təzə müsibətlər, təzə yaralar!

Biz bu yaraların altını çəkib,
Biz bu ağrıları dərk eləməsək,
Gönüqalınlığı, biganəliyi,
Başısoyuqluğu tərk eləməsək,

Hər gün seyrələcək sıralarımız!
Hər gün göynəyəcək yaralarımız!
Dərdimiz çəkilməz, yaramız dərin,
Sayı çoxalacaq fərarilərin!
Sayı azalacaq döyüşənlərin,
Sayı çoxalacaq xalqın, millətin,
Bir daraq gülləyə, bir avtomata,
Beş-altı manata dəyişənlərin!

Ən ciddi, ən ali vəzifələrə,
Lağlağı adamlar seçilir indi.
Baxan yox Vətənin bütövlüyünə,
Torpaq yavaş-yavaş kiçilir indi.

Ədamız dünyaya sığışmasa da,
Boyumuz görünmür boylar yanında.
Biz ki, nə yağanıq, nə guruldayan,
Xırda bulaqlarıq çaylar yanında.

Elə bil bir anda göyə çəkildi,
Ucaboy kişilər, hündür adamlar.
Kəsir yavaş-yavaş nəfəsimizi,
Keçib boynumuza kəndir adamlar.
Kimi dindirirsən vəd verir sənə,
Şübhələr, gümanlar yalan üyüdür.
Unluğun unu yox, ənliyin dəni,
İndi dəyirmanlar yalan üyüdür.

Tənə yarasından, söz gülləsindən,
Bağrımız, sinəmiz dəlik-dəlikdi.
Xalqın taleyini hərraca qoymaq,
Ən böyük siyasi fahişəlikdi!

Biz öz vaxtımızı vermişik hədər,
Düşmən özü boyda nifrət, kin olub.

Əsrin əvvəlindən bu günə qədər,
İki milyonumuz didərgin olub!

Çox meydan oxudu dinsiz dinliyə,
Quranın qənimi min yol xaç oldu.
Milləti öyrətdik didərginliyə,
Həmişə payımız qaçaqaç oldu.

Həkimsiz, dərmansız dərdi min olan,
Talanan sərvətik bu yer üzündə.
Evinin içində didərgin olan,
Yeganə millətik bu yer üzündə!

Zəngəzur qaçqını, Göyçə qaçqını.
Xocalı qaçqını, Şuşa qaçqını,
Qaçqınlıq peşəyə çevrilir indi,
Olmuşuq hamımız peşə qaçqını.

Elin arxasından qaçmaq azıymış,
Sözün arxasından qaçırıq indi.
Millətin gözünə görünəmmirik,
Toyundan, yasından qaçırıq indi.

Elə bil bu torpaq bizimki deyil,
Dağından, düzündən qaçırıq indi.
Özgələr daraldır meydanımızı,
Vətənin özündən qaçırıq indi.

Ayaq saxlamasaq bu qaçaqaçda,
Qoruya bilməsək qalan yerləri,
Vətən başdan-başa talana gedib,
Olacaq düşmənin talan yerləri.

Oğuz xan çıxacaq qənşərimizə,
“Saxla ayağını, dayan!” – deyəcək.

Atilla çıxacaq qənşərimizə,
“Arxaya çəkilmə bir addım belə,
Şəhid ol, qanına, boyan!” – deyəcək.
Xətai çıxacaq qənşərimizə,
“Vətən torpağıdır əldən verdiyin,
Yatmısan yuxudan oyan!” – deyəcək.
Ən ulu kəlməni, ən böyük sözü
Vətəni yadların əlindən alıb,
Ömrünü Vətənə qıyan deyəcək!

Dedilər ki, bu axşam Kəlbəcər də verildi,
Dəlidağın gülləri
Düşmənin əlləriylə dəstələndi, dərildi.
Verən kimdi, alan kim?
Doğru kimdi, yalan kim?
Satan kim, satdıran kim?
Bizim bu dərdimizi
Ört-basdır eləyən kim,
Dünyaya çatdıran kim?
Kökəlmələr, şişmələr düşmənin qələbəsi,
Daxili didişmələr düşməni qələbəsi.
Laçın əldən gedirsə, laçınlılar qorusun,
Şuşa əldən gedirsə, şuşalılar qorusun.
Lənkəran batalyonu Lənkəranı qorusun,
Naxçıvan batalyonu Naxçıvanı qorusun.
Kim başdı, başda dursun, kim ayaqdı ayaqda,
Kimi başı qorusun, kimi canı qorusun.
Kim saldı ortalığa belə murdar adəti,
Ayrı-seçkilik oldu millətin fəlakəti!
Düşmən kimdi, mən özüm!
Özümə düşmən özüm!
Göyçə də, Zəngəzur da,
Dərbənd də, Borçalı da,
Mənimdi, mənim olub!

Zəngəzur söküləndə hayına yetməmişik,
Göyçə bircə gecədə çöllərə töküləndə
Qaçqına dönənlərin yanına getməmişik!
Görüb bu soyuqluğu,
Haqq bizə cəza verib,
Haqq bizə qənim olub!
Bizdən gələcək nəsil haqq-hesab istəyəcək,
Hər ağrılı suala bir cavab istəyəcək.
Niyə verdin Şuşanı?
O da Təbriziydimi? O da Dərbəndiydimi?
Niyə getdi Kəlbəcər?
Dəlidağ sənin üçün xırda bir kəndiydimi?
Niyə verdin Laçını?
O dağlar səndən ötrü qumarmı, fəndiydimi?
Ciblәriniz varıymış Vətəndən min qat baha,
Dşləriniz varıymış gödənsökən, əjdaha!
Ciblərinə güc verən Vətəni qoruyammaz,
Vətən nədir bilməyən,
Bu vətənin yolunda
Ağac olub bitəmməz, daş olub quruyammaz!
İşləriniz varıymış, kirli, murdar, ləkəli,
Dişləriniz varıymış,
Canavarın dişindən min dəfə təhlükəli!
Meyit alverçiləri,
Cavab verəcəksiniz!
Cənazə hərisləri,
Cavab verəcəksiniz!
Ölü həvəskarları,
Cavab verəcəksiniz!
Baxmayıb ürəklərin kədərinə, yasına,
Neçə minə satdınız
Şəhidi atasına,
Övladı anasına!
Bu millətin qanıyla zarafat eləyənlər,
Bu milləti gah eşşək, gah da at eləyənlər,

Lay divar oğullara
Arxadan atəş açıb, yeddi qat eləyənlər,
Cavab verəcəksiniz!
Minləri, milyonları
Qəpik-qəpik qaytarıb
Nəsillər qarşısında hesab verəcəksiniz!
Nə qədər bu torpağı sata-sata yaşayıb,
Nə qədər bu millətə əzab verəcəksiniz!
Cəbhədə yaralılar "torpaq" deyib can verir,
Arxada xəstəxana – xalq qan növbəsindədi,
Yaralı oğullara damarından qan verir!
Kimi qanından keçir!
Kimi canından keçir!
Kimi də saymazyana
Xalqın yanından keçir!
Çibinlər vızıldaşır qulağının dibində,
Dünya vecinə deyil, gəzir əli cibində!
Düşmən təslim olacaq, onun geci-tezi var,
Allah! Sən bu milləti biganələrdən qoru!
Özü özünə düşmən divanələrdən qoru!
Biganə olanların vecinə olan deyil,
Ürəyin sızlaması, beyinin gərginliyi,
Millətin bədbəxtliyi, xalqın didərginliyi!

Kim nə bilir, bu dartışma
Aymı çəkər, ilmi çəkər.
Müxənnətlər tutduğundan
Asan yolla əlmi çəkər.
Dağ əriyər, daş qum olar,
Göz yaşımın axarından
Təbiətdə daşqın olar,
Mən çəkəni filmi çəkər.
Qışlamağa qışlası yox,
Yaylamağa yaylası yox,
Dağı uçub arxasından,
Ellər bu gün elsiz qalıb.

Süd qoxulu körpələrin
Oxşaması, laylası yox,
Dillər bu gün dilsiz qalıb!
Aşıq Şəmşir məzarından
Ayrı düşüb, aralanıb.
Güllü nənə gülsüz qalıb.
Doğru yollar əyri çıxıb,
Yol sahibi yolsuz qalıb.
Bu nə gündü düşdük, Allah!
Yas keçirən ağlayammır,
Toy eləyən gülə bilmir.
Evsizə bax, öz evinə
Gedə bilmir, gələ bilmir.
Bu nə gündü düşdük, Allah!
Öz kəndində doğulanlar
Öz kəndində ölə bilmir!

Bu dərdlərin, bu qəmlərin önündə, qardaş,
Heç bilmirəm ağıllıyam, yoxsa dəliyəm.
Canımda od, qanımda buz, gözlərimdə yaş,
Tarixi bir səhifəni çevirməliyəm!

İbrahim xan bir qız aldı, erməni qızı,
Elə bildi yetişəcək qəhrəmanlığa.
Bu əməli özü üçün şərəf sayanda,
Bilmədi ki, zərbə vurdu böyük xanlığa!

Qız atası Cümşüd Məlik əl-ayaq açdı,
Bu qohumluq ondan ötrü yağlı aş oldu.
Gecə-gündüz qılığına girdi xanlığın,
Satqınlıqda görünməmiş bir oğraş oldu!

“O farsların sədaqətli dostudur”, – deyib,
Bir gecədə İbrahimi satdı ruslara.
Bir xanlığın sarayını uçurmaq üçün,
Bu xəbər də bəs elədi o dəyyuslara!

Ermənilər at oynatdı belədən-belə,
Xəyanətin küləkləri əsdikcə əsdi.
Rus əsgəri cəllad oldu İbrahim xana,
Oğlunun da, qızının da, arvadının da,
Özünün də bir gecədə başını kəsdi!

Bu tarixi istəsək də, istəməsək də,
Bu, tarixin ən dəhşətli həqiqətidir.
Biz dostluğun şərəfinə şüar deyirik,
Düşməninsə düşmənlikdə fikri qətidir!

Kəndir lazım olacaq, neçə sabunlu kəndir,
Qaniçənə, zalıma, cəllada, günahkara.
Millətin qabağında tutub onları bir-bir,
Asacaq hülqumundan, zaman çəkəcək dara!

Öz xalqının qanıyla hər gün alver edənlər,
Şan-şöhrət pilləsində özünə yer edənlər,
Yada xoş gəlmək üçün özünə şər edənlər,
Cilddən-cildə girsə də,
Dondan-dona düşsə də,
Zaman söküb-tökəcək maskaları, donları,
Sabunlu kəndir tapıb xalq asacaq onları!

Xalqın cibindən girib ürəyindən çıxanlar,
Xalqın gözündən girib kürəyindən çıxanlar,
Cəmiyyətin min cürə kələyindən çıxanlar,
Yığsa da sandıqlara minləri, milyonları,
Xalq asacaq onları!
Kəndir lazım olacaq, neçə sabunlu kəndir,
Öz yurdunu unudub, özgə yurd gəzənlərə,
Həm manqurt olanlara, həm manqurt gəzənlərə!
Dar gündə, dar ayaqda aradan çıxanlara,
Xalqı satıb, millətin evini yıxanlara,
Başsız baş olanlara!

Yeri çaş olanlara!
Qəlbi daş olanlara!
Oğruya, rüşvətxora
Məsləkdaş olanlara!
Cibdən ötrü harda aş – orda baş olanlara!
Zaman özü quracaq bir gün dar ağacını!
Saymayacaq heç kəsin
Nə qızıldan taxtını, nə yaqutdan tacını!
Kimlər ki, heç duymadı xalqın ehtiyacını,
Çəkdirdi bu millətə hər ağrını, acını,
Lap lüm-lüm udsalar da neçə-neçə tonları,
Xalq asacaq onları!
O gün nə vaxt gələcək?
Qoy heç kəs darıxmasın,
Heç kəs o gündən ötrü ürəyini sıxmasın!
Hər bir kəslə ayrıca hesabı var, işi var,
Mıxı mismar eləyən yaradan bir kişi var!
O da xalqa güvənir, yerdəki qüdrətdi xalq!
Tələtümdü, dalğadı, coşan hərəkətdi xalq!
Tük qədər incəlik gözlərindən yayınmaz,
Ulu sevgi qaynağı, sönməz məhəbbətdi xalq!
Qibləsini unudub, yolunu azanlara,
Tarixi həqiqəti tərsinə yazanlara,
Qanını yad millətin qanına qatanlara,
Şöhrətin kölgəsində məst olub yatanlara,
Təpədən-dırnağadək qəzəbdi, nifrətdi xalq!
Aramızda nə qədər alçaq var, başkəsən var,
Atasından inciyib, anasından küsən var,
O nifrətin odunda yetişəcək sonları,
Xalq asacaq onları!
Zaman susdura bilir,
Ən vəhşi, ən yırtıcı pələngləri, şirləri!
Yuyar zamanın seli paxırları, kirləri!
Qoy heç kəs unutmasın
Tarixin əlindəki sabunlu kəndirləri!!!

GÖYÇƏ DƏRDİ

Göyçə dərdi – göyüm-göyüm göynəyən,
Sızım-sızım sızıldayan yaramdı.
İnnən belə kirpik çalmaz gözlərim,
Bundan sonra yuxu mənə haramdı!

Göyçə dərdi döndü coşqun sellərə,
Bilən bilir kim axıtdı, kim axdı.
Hey fikirləş, sonu yoxdu bu dərdin,
Zaman-zaman çözələnən yumaqdı!

Göyçə dərdi – talan olan varımız,
İlxı yoxdu, sürü yoxdu, naxır yox!
Bu torpağın yaddaşında, yadında,
Bizdən ötrü əvvəl vardı, axır yox!

Göyçə dərdi aşıq Abbas dərdidi,
"Yaylaq yeri çəmən olmuş, ay olmuş.
İnnən belə mən sağlığı neylərəm,
Yar ləbini əmən olmuş, ay olmuş!"

Göyçə dərdi – köç-köç olan bir elin,
Yerə-göyə sığışmayan harayı.
Neçə qəlbin daşa dəyən arzusu,
Neçə ömrün dağıdılan sarayı!

Göyçə dərdi – dilimizin ağısı,
Ölən aşıq, sınan pərdə, susan saz.
Göyçə desəm, göz yaşımın önündə
Dağlar belə bənd almağı bacarmaz!

Göyçə dərdi – bu dərdlərin yanında,
Qalan dərdlər yalan oldu, ay haray!
“Göyçə gülü” havasına od düşüb,
Xallar, güllər talan oldu, ay haray!

GÖYÇƏ – GÖYÇƏYİM LAYLA

Qızılı əlimizdən külçə-külçə aldılar,
Torpağı əlimizdən ölçə-ölçə aldılar.
Kəhrizimiz soğuldu, bulağımız qurudu,
Qurtum-qurtum içdilər, dolça-dolça aldılar.

Göyçə – Göyçəyim layla,
Solan çiçəyim layla.
Ah çəkən ağsaqqalım,
Qarabirçəyim layla!

Gözü qanlı cəllada bax,
Qan tökər, silah götürər.
Anaların fəryadından
Yer üzünü ah götürər.

İstəyirsən başını əz,
İstəyirsən dilini kəs.
Günahkar geri çəkilməz,
Gündə min günah götürər.

Yağar gözdən gur yağışlar,
Qanla dolanda baxışlar.
Bunu nə bəndə bağışlar,
Nə göydə Allah götürər.

Allah götürərdimi dünyanın düz vaxtında,
Göy yaylağın başında, ucalığın taxtında,

"Çıx" – deyənin əlindən qulağımız dəng ola!
Dağda, daşda, qayada millət pələsəng ola!
Allah götürərdimi,
İnsan isti yuvasız, doğma beşiksiz qala!
Nəyi var əldən çıxa, evsiz-eşiksiz qala!
Günahsız körpələrin boynu bükülü qala!
Alışan ocaqların yerində külü qala!

Ət dırnaqdan ayrıla,
Kök budaqdan ayrıla,
Külü göyə sovrula,
Köz ocaqdan ayrıla!

Ağacını sulayıb, torpağını əkdiyin,
İstəkli bala kimi qayğısını çəkdiyin,
Kərpicini, daşını göz bəbəyi sandığın,
Bir gündə min bir dəfə başına dolandığın,
Malın, mülkün, sarayın, xanimanın dağıla,
Həqiqətin çevrilə əfsanəyə, nağıla!
Düşməndə sənə qarşı dağlar boyda kin ola,
Rahat durduğun yerdə adın didərgin ola!
Daşınmaz qayğıların, çəkilməz dərdin ola,
Mərdi qaçaq salalar, dünya namərdin ola!
Öz evinin içində səni qonaq sayalar,
Bu ahdan, bu ağrıdan,
Sarsılmazmı zirvələr, yarılmazmı qayalar!
Adı qaçqın olanlar,
Danışır yana-yana zülmünü, sitəmini.
Sakit dinləmək olmur,
Elindən ayrılanın həsrətini, qəmini,
O zamandan özümə gələ bilmirəm qəti,
Sinəmə dağlar çəkib bir qaçqının söhbəti.
Danışdıqca elə bil,
Öz içini yeyirdi,
Qaçqın belə deyirdi:

Qaçdıq, qaçqın dedilər!
Köçdük, köçkün dedilər!
Küsdük, küskün dedilər!
Susduq, miskin dedilər!
Hamı ağ günə çıxdı,
Bizə pis gün dedilər!
Hər nəyi dedilərsə,
Yaman kəskin dedilər!
Bizə gəlmə dedilər,
Bizə yamaq dedilər!
Evimizin içində,
Bizə qonaq dedilər!
Dindik, qapaz qazandıq,
Fağır, maymaq dedilər!
Hər nəyi dedilərsə,
Qardaş, nahaq dedilər!
Vallah, nahaq dedilər!

Bizi üzdən saldılar,
Bizi gözdən saldılar.
Yurda talan gələndə,
Yolu bizdən saldılar.

Azaldıqca azaldıq,
Milyon idik, min olduq,
Dada çatan olmadı,
Axır didərgin olduq.

Dözəmmirəm bu söhbətə, dedim bəsdir,
dayan, qardaş,
Bu gün sənin həsrətindir ürəyimi oyan, qardaş!
Qazancımız böhtanla şər,
Möhürümüz didərginlər!

Yaş gəzdirər giləsində,
Ev daşıyar şələsində.

Tapa bilməz dayağını,
Daşlar döyər ayağını.
Həsrət yükü ürəyində,
Kəndir izi kürəyində.
Bağrı olar dəlik-dəlik,
Sınan qəlbi neytək inlər.
Ömrü boyu yol yeriyər,
Yolda qalar didərginlər!

Durub insanın qəsdinə,
Dünya dönüb Fələstinə.
Dizlərini daş aparan,
Gözlərini yaş aparan,
Qovana bax, qaçana bax,
Dağdan-daşdan uçana bax!
Ha çağırsan haya gəlməz,
Nə tanrılar, nə də dinlər.
Allahından üz döndərib,
Dinsiz olar didərginlər!
Su tökdülər ocağına,
Od vurdular torpağına.
Bələk yandı, beşik yandı,
Ev alışdı, eşik yandı.
Ürəyini aman-zaman,
Sıxar qəmlər, didər kinlər,
Qisas qalmaz qiyamətə,
Fürsət gəzər didərginlər!

Ünü çatar fələklərə,
Əli çatmaz ətəklərə.
Külək keçirər odunu,
Tarix itirər adını.
Qayğılar qatar başını,
Zaman pozar yaddaşını.
Bir xoş günə həsrət qalar

Neçə yüzlər, neçə minlər.
Gözü göydə, ağzı haqda,
Ömür sürər didərginlər!

Ölüsü kəfənsiz qalar,
Dirisi vətənsiz qalar.
Əli budaqdan üzülər,
Kökü torpaqdan üzülər.
Taleyini döyər, söyər,
Göy bürünər, qara geyər.
Gözlərində yuva salar,
Qəbrə kimi gedər kinlər.
Tək qəbirdə sakit yatıb,
Rahat olar didərginlər!

YETİM MƏZAR

Qəbir dedim, qədim Göyçə, Ələsgərim
yada düşdü,
Başdan-başa, dolub daşan dərdim-sərim
yada düşdü.

Gözləri yol çəkən Ələsgər dədə,
Dağlarda təklənən qəbrinə qurban!
Bəd gəldi bizlərə bu vaxt, bu vədə,
Döz, bu da zamandı, səbrinə qurban!

Heç xeyir taparmı sənə taxınan,
Ara qarışdıran, pəl vuran olub.
Deyirlər ruhuna dəyən, toxunan,
Deyirlər qəbrinə əl vuran olub.

Sənsən haqq vergisi, Allah adamı,
Gözünə baxdığın bulağa qurban.

Haqqın əllərindən içdiyin camı,
Dastana döndərən torpağa qurban!

Getdim neçə dəfə ziyarətinə,
Məzar heykəlindən öpdüm, qayıtdım.
Güvəndim gücünə, məhəbbətinə,
Odunu qəlbimə səpdim, qayıtdım.

Bilmirəm kim olsun dərdimdən halı,
Burda əllərimi sıxan əl hanı?
Üstünə yığışan Göyçə mahalı,
Qəbrinə yaraşan o heykəl hanı?

Mənim taleyimi, mənim eşqimi,
Döyən çox olsa da, duyan az oldu.
Nəsimi, Füzuli məzarı kimi,
Sənin də məzarın əlçatmaz oldu!

Gedərəm Hələbə, gedərəm, ustad,
Gedərəm Bağdada, gedərəm, ustad.
Üz tutub Göyçəyə gedə bilməsəm,
Dağları, daşları didərəm, ustad!

Tutsalar cığırı, kəssələr yolu,
Yerin damarını qırıb gedərəm.
İldırımlar taxıb qanadı, qolu,
Göyün yaxasını cırıb gedərəm!

Elə ki, qatığa dedilər qara,
Elə ki, azğınlar həddini aşdı,
Allah adamına sataşanlara
Allah yaman dəydi, yaman sataşdı!

Yalan danışsa da xeyrini güdən,
Həqiqət yenə də şahıydı, ustad!

Zəlzələ deyildi yeri tərpədən,
O sənin çəkdiyin ahıydı, ustad!

Bir xalqın, bir elin qəlbinə dəyən,
Savabı tanımaz, günahı bilməz.
Ayağı altında yeri görməyən,
Başının üstündə Allahı görməz!

Qəlbim səksəkədə, qulağım səsdə,
Duamız dünyaya sığası deyil.
Bir qarış ot qalxa qəbrimin üstə,
Bu dəhşət yadımdan çıxası deyil!

Kim olub bu qədər qudurmuş, harın,
Görəsən, kim salıb bunu ağıla.
Peyğəmbər nəfəsli bir sənətkarın,
Məzarı sökülə, qəbri dağıla!

Min dağın tufanı, min qışın qarı,
Ört-basdır edəmməz bu zülmü qəti.
Dünyanın ən qanlı cinayətkarı,
Vallah, törətməzdi bu xəyanəti!

Gör yağı nə qədər qurğular qurub,
Fəndi baş tutanda əl çalıb, Allah!
Gör ustad nə qədər ucada durub,
Gör düşmən nə qədər alçalıb, Allah!

Qalmışıq əlində kədərin, yasın,
Çəkilmir nə dərdi, nə dağı belə.
“Fələk Ələsgərtək oda salmasın,
Nə xəstəni belə, nə sağı belə”!

Haqsızlıq odunda sızlayan nə çox,
Nə qədər gör ölüm-itim olarmış.

Təkcə körpələr yox, balacalar yox,
Qəbirlər özü də yetim olarmış!

Qulağı kar olub nəğmənin, səsin,
Yaralı könlümün duyanı yoxdur.
Səsinə bir mahal yığılan kəsin,
Yanında bir nəfər həyanı yoxdur!

Qınama bizləri, ustad,
Zaman bəd gəldi, bəd gəldi.
Göz açmağa vaxt olmadı,
Duman bəd gəldi, bəd gəldi.

Axdı seli, yağdı qarı.
Səmti döndü bizə sarı.
Zülümkəsin zülümkarı,
Yaman bəd gəldi, bəd gəldi.

Ölüm oldu, itim oldu,
Atalılar yetim oldu.
Müxənnətdən bir him oldu,
Tufan bəd gəldi, bəd gəldi.

NƏĞMƏ DODAQDA QALDI

Allah bir də heç kəsə bu dağı göstərməsin,
Qar-boranı, şaxtanı, sazağı göstərməsin.
Səhənglər suda sındı, dolça bulaqda qaldı,
Söz ürəkdə qırıldı, nəğmə dodaqda qaldı.
Bu ütüdən qurtarıb bir yana çıxmaq üçün,
Gözlər göyə dikildi, ağızlar haqda qaldı.
Bizi öz bəxtimizə biganələr üşütdü,
Boran, qar üşütmədi.
Göyə çıxan vayları,

Daş dələn harayları,
Kar qayalar eşitdi,
İnsanlar eşitmədi!
Biri öy tikdirirdi, öyü qaldı yarımçıq,
Biri öz balasını təzə nişanlamışdı,
Toyu qaldı yarımçıq!
Alışmadı şamları, gülmədi axşamları,
Qaldı, gözündə qaldı
Neçə-neçə insanın arzuları, kamları.
Taleyin qəsdinə bax!
Əziyyət verə-verə öldürür adamları!
Duyğular kövrəkləşir, könüllər sızlar olur,
Saçı yolan gəlinlər, ağlayan qızlar olur.
Qara gəlmiş dövranın ili ildən pis gəlir,
Qəddimizi əyməyə,
Qapımızı döyməyə,
Gündə bir alçaq gəlir, gündə bir xəbis gəlir!
Fərman verən kəslərin,
Qəlbi, hissi, niyyəti daş olur, dəmir olur,
Puç olan – saf arzular, çürüyən – ömür olur!
Verilən fərmanların hamısı boş, yalançı,
Fərman alan köməksiz, fərman verən talançı!
Gəl indi baş tap görüm,
Min sifət adamların əməlindən, işindən.
Qurtar öz taleyini,
Oyunbaz siyasətin caynağından, dişindən.

Zorla, güclə, kələklə,
Əllərindən alalar dağını, aranını,
Əzələr mənliyini, qaraldalar qanını.
Qayaların döşündən pozalar naxışını,
Yaman günə qoyalar baharını, qışını.
Qoymayalar qalmağa daş üstündə daşını,
Silələr tarixini, alalar yaddaşını.

Torpağına göz dikib yurduna qəsd edələr,
Yeridiyin yerdəcə səni şikəst edələr.
Danışmaq istəyəndə dilini bağlayalar,
Yerimək istəyəndə yolunu bağlayalar.
Özünü xilas üçün,
Əl-qol atmaq istəsən qolunu bağlayalar!
Onda qalxır şikayət,
Onda qopur qiyamət.
Onda çəkilir göyə,
Gözdə nur, dizdə taqət!
Nə zaman ki, böhtan gülür,
Şər yeriyir, ayaq tutur,
Nə zaman ki, başa keçib,
Haqq yerini nahaq tutur,
Nə zaman ki, əyri düzlə,
Yaxşı pislə calaq tutur,
Bax, o zaman Lələ köçür,
Kərəmi ağlamaq tutur!

İLLƏR YAMAN DƏYİŞDİ

Bir vaxt gözəl Göyçənin gözəl günləri vardı,
Çal-çağırı, şadlığı, toy-düyünləri vardı.
Dəliqanlı igidlər köhlənlər çapardılar,
Qayalar sinəsində xəzinə tapardılar.
Çinarboylu oğullar gözəllər seçərdilər,
könüllər yapardılar!
Ürək təmiz, könül saf, baxış büllur olardı,
Təbiət başdan-başa alışan nur olardı.
Çalınardı zurnalar, səslənərdi "cəngi"lər,
Səslənərdi ayaqda gümüşü üzəngilər!
Kişilər bir-birinin əlini sıxardılar,
Gümüş qaşlı yəhərdə,
Qızıl yallı kəhərdə,

Sərin mehli səhərdə,
Düzləri meydan seçib yarışa çıxardılar!
Yarışda bilinərdi,
Kiminki Qırat oldu,
Kiminki Dürat oldu.
Kiminki mağmın, fağır,
Kiminki kür at oldu.
Mənzilə tez çatanın yetişərdi nəməri,
Bağlanardı belinə xoşbəxtliyin kəməri!
Məclislərin sirdaşı "İrəvan çuxuru"ydu,
"Göyçə gülü" havası baxışların nuruydu!
Göyçənin öz nağılı, öz dastanı varıydı,
Hər havanın ruhunda elin canı varıydı.
Göyçənin öz havası, öz laylası varıydı,
Xeyri, şəri, bayramı, toyu, yası varıydı!
Obaların hamısı doğma, yaxın, dost, tanış,
Zod, Ağkilsə, Ağbulaq, Cil, Babacan, Ardanış!
Neçə-neçə kənd adı – saymağa yox ehtiyac,
Sazlı-sözlü bir diyar, şöhrətdən başında tac!
Burda meydan açanın gücü torpaqdan gəlib,
Sazını çalanın da,
Sözünü qoşanın da,
Döyüşlər meydanında qaynayıb coşanın da,
Səsi, eşqi, vergisi taledən, haqdan gəlib!
Bir vaxt gözəl Göyçənin gözəl də günü vardı,
Çal-çağırı, şadlığı, toyu, düyünü vardı.
Onda bulanmamışdı, sular hələ duruydu,
Göz yaşı tanımırdı, yanaqlar qupquruydu.
Saçlara sığal çəkən xoşbəxtliyin əliydi,
Könüllər havalıydı, dodaqlar nəğməliydi!
Hələ çevrilməmişdi İrəvan Yerevana,
Hələ çevrilməmişdi Göyçə gölü Sevana!
Hələ ki, Basarkeçər Vardenis olmamışdı,
Düz tərsinə çevrilib, yaxşı pis olmamışdı!

Torpağın halal qızı, halal oğlu varıydı,
Onda Gümrü varıydı, Calaloğlu varıydı!
Neçə kəndin, şəhərin,
Neçə çayın, çeşmənin,
Sehrli mənzərənin adı dəyişməmişdi,
Ətri, rəngi, şirəsi, dadı dəyişməmişdi.
Zaman verdi hökmünü, illər yaman dəyişdi,
Sözünü, söhbətini dillər yaman dəyişdi.
Döndü kin yuvasına, gözlər yaman dəyişdi,
Dişlər yaman qıcandı, üzlər yaman dəyişdi!
Adam vaxtı dəyişdi, vaxt adamı dəyişdi,
Kəsilən çörəklərin dadı-tamı dəyişdi.
Ürəklərdə sevgilər nifrətə, kinə döndü,
Çevirdilər taxtını, dünya tərsinə döndü!
Yandıranlar sevinib, yananlar ah çəkirdi,
Qonşu öz qonşusunun üstə silah çəkirdi.
Soyuqlaşdı salamlar, əllər yaman dəyişdi,
Dəyişdi öz səmtini, sellər yaman dəyişdi.
Pay verib pay alanlar sanki peşman oldu,
Aralığa qan düşdü, ortalıqda qan oldu.
Eşidənlər çox olub fəryadını, səsini,
Zodlu usta Abdulla,
Bəlkə, o zaman qoşub bu qəmli nəğməsini:

“Yandım, yetirən olmadı,
Mətləb bitirən olmadı.
Öldüm, götürən olmadı,
Qaldım ağlar arasında!”

Bu ahı, bu naləni,
Əsən qəmli küləklər dağa-daşa çatdırıb.
Yazıq kişi ağlayıb,
Bu dərdlərin içində ömrü başa çatdırıb!

QANLI TARİX

Durdu gözüm önündə
Yenə qanlı tarixin qanlı faciələri.
Arxaya boylananda xatırladım nələri...
Unudarmı nəsillər,
18-ci ilin qar-boranlı qışını,
Məkrli düşmənlərin kin dolu baxışını.
Göyçəli Səməd ağa, yanında aşıq Nəcəf,
Qanı dayandırmağı özünə sayıb şərəf.
Qışın oğlan çağında,
Dostun da, düşmənin də gözünün qabağında,
Barışmağa gedirlər,
Erməni Ağacanın qan çanağı evinə.
Gərək elə çıxalar bu söhbətin içindən,
Nə dostlar qan ağlaya, nə düşmənlər sevinə!
Arxadan səslər gəlir,
Getmə ay Səməd ağa, səni öldürəcəklər!
Getmə Ay aşıq Nəcəf, səni öldürəcəklər!
Ürəkləri göynədir sızıltılar, ağılar,
Getmə deyir analar, getmə deyir bacılar.
Sizsiz nə qiyməti var bu obanın, bu elin,
Getmə deyir oğullar, getmə deyir qız, gəlin.
Yurdunun, yuvasının sitəmini görən kəs,
Ölümün üstə belə "getmirəm" deyə bilməz!
Getməmək olardımı el güdaza gedəndə,
Doğmaların qəlbini qasırğalar didəndə!
Ona qıymaq olarmı, haşa, ölümdən haşa,
Gedirdi aşıq Nəcəf, boy-buxunu tamaşa.
Heç ölüm gələrdimi xəyalına, ağlına,
Heç qıymaq olardımı elin gözəl oğluna.
Səs Allah vergisiydi, avaz Allah vergisi,
Yazılmışdı bəxtinə Allahın şah vergisi!
Yerişi yerə şöhrət, baxışı göyə şöhrət,
Gedirdi aşıq Nəcəf! Göyçənin göyçək oğlu,
Çal-çağırı, çalğısı kamana, neyə şöhrət!

Təzətər çiçək oğlu!
Ocaq oğlu, pir oğlu!
Məclislərin şir oğlu!
Arxadan səs gəlirdi – səni öldürəcəklər!
Yoldan, izdən, cığırdan,
Qayadan səs gəlirdi – səni öldürəcəklər!
Səslərin vahiməsi ona əzab verirdi,
Pıçıltıyla dillənib səsə cavab verirdi.
Yox! Məni öldürməyə heç kəsin əli gəlməz,
Sənətkarı susdurub, sənəti öldürələr,
Heç bir zaman dünyaya belə bir dəli gəlməz!
Ancaq o bilmirdi ki,
Heç kəsi bağışlamır düşmən qəddar olanda,
Nalələr eşidilmir, qulaqlar kar olanda!
Görən gözü kor olur,
İnsanların çəkdiyi amana, aha baxmır,
Başının üstündəki böyük Allaha baxmır!
Elə bilir dünyada,
Yaradan da özüdür, öldürən də özüdür,
Ağladan da özüdür, güldürən də özüdür.
Öz gözündə fil olur, özgəni milçək sanır,
Özünü Allah bilir, yer üzündə tək sanır.
Düşünür öz-özünə:
Məndən sonra da mənəm, məndən
əvvəl də mənəm,
Düşünən baş-beyin də, yaradan əl də mənəm!
Dil yoxdu bu dünyada, mənim dilimdən özgə,
El yoxdu bu dünyada, mənim elimdən özgə!
Adəm mənim yanımda lap dünənki uşaqdır,
Həvva qədimliyindən danışmasa nahaqdır!
Qəlbindən keçənlərə,
Şübhə də var, inam da,
Öz-özünə düşünür: mən nə dedimsə haqdır!

“Yan!” – deyib yandırdılar,
“Sın!” – deyib sındırdılar,

Samovar bağladılar Nəcəfin kürəyinə,
Dağ çəkdilər bülbülün ruhuna, ürəyinə!
Şırıl-şırıl axdı su,
Yandırdı su, yaxdı su!
Samovar cızıldadı köz üstə kabab kimi,
Dünya əzab görməyib,
Mənim xalqım çəkdiyi dərd kimi, əzab kimi!
Bu qaynar sudan betər,
Düşmənin baxışları aşığı yandırırdı,
Rəzilliyin dəhşəti ağanı dondurubdu.

Ovu vaxtında vurdu, keçirmədi bərədən,
Yağılar ləzzət aldı bu qanlı mənzərədən.
Yandıran şirin-şirin,
Yanana baxa-baxa aşıq, oxu deyirdi,
Sənin payına düşsün dərdin çoxu, deyirdi.
İliyinə, qanına od yeriyə-yeriyə,
Qan tökülə-tökülə, piy əriyə-əriyə.
Oxudu aşıq Nəcəf!
Amma yaman oxudu!
Yaralı durna kimi,
Dağda duman oxudu!
Oxudu aşıq Nəcəf, oddan, közdən oxudu,
Hər nəyi oxudusa, ancaq bizdən oxudu!
Yerə-göyə sığmayan dərdimizdən oxudu!

Ay amandı,
Xalların nə yamandı.
Namərd mərdə güc gəlir,
Qoymayın, ay amandı!

Nə bağışlar,
Dost dosta nə bağışlar.
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar.

Məni bu dərddə qoyma,
Yurdu namərdə qoyma,
Varsansa ulu Tanrı,
Qanımı yerdə qoyma!

Əzizinəm, odumu?
Dağdan gələn odumu?
Su od söndürən olur,
Su yandırdı odumu.

Əzizinəm, yüz yalvar,
Əlli bələn, yüz yal var.
Namərd imdada yetməz,
Tut ətəyin, yüz yalvar!

Qala yerdə,
Bürc yerdə, qala yerdə.
Qorxuram qərib öləm,
Cənazəm qala yerdə.

Göyçəli Səməd ağa,
Dözəmmədi bu zülmə, dözəmmədi bu dağa!
Dözəmmədi aşığın bu yanıqlı səsinə,
Dözəmmədi düşmənin bu qəfil zərbəsinə.
Ağa heç gözləmirdi,
Qarşısında dayanan bu qədər qansız ola,
Allahını unuda, dinsiz, imansız ola.
Ağanı da vurdular,
Ruhunu təhqir edib, qəlbini susdurdular!
Axır ki, üzə çıxdı müxənnətin paxırı,
Bu da barışıq günü, bu da işin axırı!
O zamandan Göyçənin dərdi birə on oldu,
Axırına çıxdılar, axır oldu, son oldu!

Qaya-qaya yardılar!
Damar-damar qırdılar!

Qurtum-qurtum sordular!
Yorta-yorta yordular!
Xıncım-xıncım əzdilər!
Qıyma-qıyma kəsdilər!
Loxma-loxma uddular!
Qarış-qarış tutdular!

ÇƏKİLMƏZ DƏRD

Qazan altda köz qoydular, ocaq çatdılar,
Bu qazanı qaynatdılar daşana qədər.
Qovan qovdu, öz işindən əl götürmədi,
Qaçan qaçdı, yeddi bələn aşana qədər.

Düşmən deyən doğru çıxdı, yalan olmadı,
Heç bir şəhər könlüm kimi talan olmadı.
Bu daşqının qarşısını alan olmadı,
Bir çay kimi havalanıb daşana qədər.

Bu meydanda duruş tapıb durmaq olardı,
Xəyanətin sədlərini yarmaq olardı,
İnadkarın inadını qırmaq olardı,
Düz yolunu əyri gedib çaşana qədər.

Soyuq-soyuq baxışları görənlər,
Yavaş-yavaş əkilməyə başladı.
Rahatlığı əlimizdən aldılar,
Yuxu gözdən çəkilməyə başladı.

Göz oxşayan yaşılıydı, alıydı,
Bərəkəti – pətəyiydi, balıydı.
Gözəl Göyçə min naxışlı xalıydı,
İlmə-ilmə sökülməyə başladı.

Qara gəldi hər həftəsi, hər ayı,
Yer titrətdi könüllərin harayı.
Rahatlığın, xoşbəxtliyin sarayı,
Kərpic-kərpic sökülməyə başladı.

Köç yolunda oğul itdi, ər itdi,
Zaman çox-çox ağlayanı kiritdi.
Qara tale insanları əritdi,
Palıd qəddi bükülməyə başladı.

Al yanağın alı getdi,
Bal dodağın balı getdi,
Qaçaqaçda, köçəköçdə,
Köhlənlərin nalı getdi.

Bəxtimizə gör nə düşüb gözümüzü açanda,
Sərt yoxuşlar, sərt döngələr, aşırımlar, bələnlər.
Öz evindən ayrı düşmək ölümdən də betərmiş,
Duyar məni doğma yurdun qiymətini bilənlər.

Ələ fürsət keçən kimi düşmən qansız olurmuş,
İtirib insafı, dini lap imansız olurmuş.
Birdən-birə qalxan tufan çox amansız olurmuş,
Ağlımıza heç gəlməzdi başımıza gələnlər.

Ayrılanda nalə qopdu neçə qızdan, qadından,
Hamı daddı ayrılığın ləzzətindən, dadından.
Zaman-zaman çıxan deyil heç bir kəsin yadından,
Oğul, uşaq, qoca, cavan, yarıyolda ölənlər.

Dərk edəndə dərdlərimi, gördüm dağdan yekəymiş,
Fil dərdini insanlar yox, gərək fillər çəkəymiş,
Aman Allah! Mənim yurdum gör nə yağlı tikəymiş,
Baxıb-baxıb ləzzət alır böldürənlər, bölənlər.
Qaynar bulaq, sularından içərlər,
içəni biz olmarıq!

Qədim körpü, sinən üstdən keçərlər,
keçəni biz olmarıq!
Göy biçənək, payız səni biçərlər,
biçəni biz olmarıq!
Yay gələndə göy yaylağa köçərlər,
köçəni biz olmarıq!
Dağ ətəyi, səndə süfrə sərərlər,
sərəni biz olmarıq!
Yaşıl çəmən, səndə çiçək dərərlər,
dərəni biz olmarıq!
Çeşmə başı, sənə könül verərlər,
veräni biz olmarıq!
Ulu Göyçə! Səndə ömür sürərlər,
sürəni biz olmarıq!

Dünyaya tufan gələr,
Yandıran kim olsa da,
Yananı biz olarıq!
Dünyaya hicran gələr,
Donduran kim olsa da,
Donanı biz olarıq!
Dünyaya vulkan gələr,
Odunda, alovunda
Qaynayan biz olarıq!
Dünyaya heyvan gələr,
Buynuzunun ucunda,
Oynayan biz olarıq!

Heç bilmədik yerdən gəldi, göydən gəldi,
Qardaş, tufan birdən gəldi.
Dünya xeyrə qurşananda,
Bizimki də şərdən gəldi!
Müxənnətlər, qəlbidarlar,
Yeridilər, yüyürdülər, tərlədilər,
Göydəndüşmə tarixləri, saxta-saxta kağızları,
O tərəfə, bu tərəfə çevirdilər, hərlədilər.

Axır bizi tora salıb,
Axır bizi şərə salıb şərlədilər!
Mənim zəif damarımı tapdı düşmən,
Azərbaycan torpağını,
Parça-parça qazdı, tökdü,
Qaya-qaya çapdı düşmən!
Eraların arxasından,
Baş qaldıran mənəm! – dedi.
Torpaq əkən, saray tikən,
Daş qaldıran mənəm! – dedi.
Yer üzündə ən birinci dövlət mənim dövlətimdi,
Bu dənizdən o dənizə şöhrət mənim şöhrətimdi.
Onun-bunun tarixini oğurladı oğru kimi,
Yalanları daşa yazdı,
Gerçək kimi, doğru kimi!
Gündə bir əl pəhləvanı,
Gündə bir dil pəhləvanı,
Başa keçdi, taxta çıxdı.
Hər gələnin havasıyla,
Təzə tarix yazdırdılar,
Ancaq yenə saxta çıxdı!
Bu bədxahlar bilmədi ki,
Bəmi çəkib zil eləmək tarix deyil!
Onun-bunun gözlərinə kül ələmək tarix deyil!

Tarix – xalqın kökündədir, zatındadır,
Tarix – xalqın açılmamış neçə-neçə qatındadır!
Tarix – xalqın yaşatdığı həqiqətdə, doğrudadır!
Tarix – xalqın yaşatdığı əzabdadır, ağrıdadır!
Yaman qonşu!
Ayağımın altını qaz,
Tariximi tərsinə yaz!
Ancaq bil ki, bizə doğru tuşladığın silahları,
Tarix sənə bağışlamaz!
Əl sınanda əlacı var,

Qol sınanda, bel sınanda əlacı var,
Vay o gündən ürək sına,
Qəlbi, ruhu kövrək sına!
Qəlbimizi yaman qırdın.
Daş sevərik, quş sevərik,
İt sevərik, qurd sevərik,
Yer sevərik, yurd sevərik,
Sənə sevgi bəsləmərik!
Xeyrə, şərə, toya, yasa bir gedərik,
Daha səni çağırmarıq, daha səni səsləmərik.
Daha bizi çağırmağa üzün gəlməz,
Daha bizi səsləməyə dilin yoxdu.
Şər ocağı qalamısan,
Xeyir işdə izin yoxdu, əlin yoxdu!
Qocaları, uşaqları,
Yaşadığı doğma yurddan birdəfəlik ayıranda,
Allahını unudanda, qılıncını sıyıranda,
Bilmədinmi səni tutar xalqın ahı?
İnnən belə dağ çayları min il axa,
Bulud dola, şimşək çaxa,
Gümüş göllər dalğalana, ləpələnə,
Gur yağışlar gen düzlərə səpələnə,
Yuya bilməz sən tutduğun bu günahı!

DOĞMA YURDDAN BİRDƏFƏLİK AYRILANDA

Ürəyinə bir xal düşür, ləkə düşür,
Baxışına bulud enir, kölgə düşür.
İnsan olan bir görün nə kökə düşür,
Doğma yurddan birdəfəlik ayrılanda.

Odda yanar, suda batar, sel aparar,
İnsan saman çöpünə də əl aparar,

Bərəkəti dolu döyər, yel aparar,
Doğma yurddan birdəfəlik ayrılanda.

Yuvasından perik düşən quşa dönər,
Kədər gözdə bir qurumaz yaşa dönər,
İnsan dərdi çəkə-çəkə daşa dönər,
Doğma yurddan birdəfəlik ayrılanda!

Ayrı düşdük isti-isti yuvalardan,
Ayrı düşdük sərin-sərin havalardan,
Ayrı düşdük ocaqların istisindən,
Ayrı düşdük bacaların tüstüsündən.

Doğma yurddan ayrı düşmək –
Hər gün göydən asılmaqdı!
Yetim kimi, yesir kimi,
Bir tərəfə qısılmaqdı!
Dağ başından zil qaranlıq,
Dərələrə sürünməkdi!
Addımbaşı əcəl ilə,
Ölüm ilə görüşməkdi!
Damla-damla, gilə-gilə,
Zərrə-zərrə əriməkdi!
Parça-parça, damar-damar,
Buğum-buğum çürüməkdi!
Pencər kimi sıxılmaqdı,
İçəridən oyulmaqdı!
Diri-diri, qarış-qarış,
Təpə-dırnaq soyulmaqdı!
Şüşə kimi pul-pul olub tökülməkdi!
Əzilməkdi, əyilməkdi, bükülməkdi!
Doğma yurddan ayrı düşdün,
Gör arxanda nələr qaldı!
Neçə zirvə, neçə dərə,
Neçə yaylaq mələr qaldı!

Neçə-neçə külə dönmüş,
Bir də heç vaxt alışmayan ocaq qaldı!
Ürəyində yaşayanlar gözlərindən uzaq qaldı!
Sinəsində yeridiyin çəhlim qaldı, cığır qaldı!

Şahin öldü, qartal susdu,
Geriyə boylanıb baxan,
Ürəyindən qanlar axan,
Neçə-neçə yazıq qaldı, neçə-neçə fağır qaldı!
Doğma yurddan ayrılanın əli işə-gücə yatmaz,
Gündüz səbri-qərarı yox, kirpik çalıb gecə yatmaz!
Əli işdən soyuyar, işi əlindən soyuyar,
Baxışından nur azalar, sözü dilindən soyuyar.
Əl uzatsa yurda sarı, barmaq donar, əl üşüyər,
"Elim" desə, "obam" desə dodaq göynər, dil üşüyər.
Qürbət eldə xəzinə tap, doğma yurda əvəz deyil,
Hər şəhərdə bir qala yap, doğma yurda əvəz deyil!
Süd arxı çəkdir evinə, doğma yurda əvəz deyil!
Aləm gülə, el sevinə, doğma yurda əvəz deyil!
Yeddi yerdən qulluğuna yeddi gözəl pay gətirə,
Yeddi yerdən mələkələr sənə ulduz, ay gətirə,
Şahlar kimi taxtın ola,
Taxtın kimi baxtın ola,
Doğma yurda əvəz deyil!

Doğma yurdun həsrəti var,
Hey incəldər, üzər səni.
Bu həsrətin zilləti var,
Basar, sıxar, əzər səni.

Bu xiffətin zilləti var,
Bu zillətin xiffəti var,

Kinli-kinli süzər səni,
Əjdahatək ağız açıb,
Qucaqlayar məzar səni.

Yel əsəndə yellənərdik,
Sel gələndə sellənərdik,
Süzülərdik, göllənərdik,
Havamızı, suyumuzu,
Bizə haram elədilər!

Bozatımız çullanardı,
Qıratımız nallanardı,
Şux gözəllər ballanardı,
Yasımızı, toyumuzu
Bizə haram elədilər!

Arzu sonsuz, ömür qısa,
Neçə toylar döndü yasa,
Başımızdan basa-basa,
Çinar kimi boyumuzu
Bizə haram elədilər!

Alovlanan, çıraqlanan,
Hay deyəndə yaraqlanan,
Kitab kimi varaqlanan,
Əslimizi, soyumuzu
Bizə haram elədilər!

Qaçaq Kərəm!
Sən düşdüyün Soyuqbulaq yaylağına,
İndi gəlib yağı düşüb.
Düşmən vurub qılıncını, qolumuzun sağı düşüb.
Nənələrin dillərinə,
Təzə-təzə layla düşüb, təzə-təzə ağı düşüb.
Gözəldərə yaylağına Tovuz eli çıxmır daha,

Biz dağlara çox baxırıq, dağlar bizə baxmır
daha!
Dürlü bulağın başına Bozalqanlı getmir daha,
Qara-qara qayaların ətəyində,
Qara sazlar ötmür daha!
Fikir-xəyal qanadlanıb Topaşandan aşmır daha,
Nisgilimiz aşıb-daşır, sevincimiz daşmır daha!
Toğlucalı cığal Həsən! Toğluca sən görən deyil,
İnnən belə o dağlardan əsən yellər,
Azərbaycan qızlarının saçlarını hörən deyil!

Sən Göyçənin loğmanıydın, Hacı Nağı,
Sən dərdlərin dərmanıydın, Hacı Nağı!
Ağrıların yarasıydın,
Yaraların məlhəmiydin, könüllərin
həmdəmiydin.
Min bir dərdə əlac olub, min bir dərman
tapasıydın,
Sınıq əli, sınıq qolu, sınıq könlü yapasıydın!
Hacı Nağı... Hacı Nağı...
Sağalası deyil daha sinəmizin Göyçə dağı!
Ulu loğman yerdən qalxa, məzarından baş
qaldıra,
"Zülmün ağır zəncirini gözdən axan yaş
qaldıra".
Unudula, yaddan çıxa bütün dərdlər, bütün
qəmlər,
Yadımızdan çıxan deyil gördüyümüz bu
sitəmlər.

Göyçə, səndən ayrı düşdüm,
"Mənim səndə nəyim qaldı!"
Qayaların qucağında,
Səsim qaldı, küyüm qaldı.

Yazı, yayı qarlı, buzlu,
Hər neməti dadlı, duzlu,
Gül-çiçəkli, ay-ulduzlu,
Yerim qaldı, göyüm qaldı.

Qara geysin bəduğuru,
Oddan, sudan çıxdı quru.
Nə gözümdə həyat nuru,
Nə dizimdə heyim qaldı.

Gərək daş olasan ki, duymayasan həsrəti,
Gərək kar olasan ki,
Eşidə bilməyəsən yer titrədən dəhşəti.
Gərək kor olasan ki,
Görməyəsən gözünə dolan acı tüstünü.
Gərək dağ olasan ki,
Dayanasan yerində sel kəsəndə üstünü.

Soruşma kiməm, nəçiyəm,
Dərdli sözündən tanınar.
Xəbər verər baxışları,
Yetim gözündən tanınar.

Sinəsini oxlar deşən,
Qürbət eldə bağrı bişən,
Torpağından ayrı düşən,
Solan üzündən tanınar.

Hey yandırar gözünü yaş,
Gözümdə yaş, başımda daş.
Közərirəm yavaş-yavaş,
Ocaq közündən tanınar.

Hansı ocağın közüyəm,
Hansı nəğmənin sözüyəm,

Hansı bulağın gözüyəm,
Mən bilmirəm, ellər desin!

Oldum zədən-zədən, yandım,
Külə döndü bədən, yandım,
Niyə yandım, nədən yandım,
Qoy yanıqlı tellər desin.

Göydən zülüm yağa-yağa,
Keçdim sola, qaçdım sağa,
Niyə düşdüm dağdan-dağa,
Məcnun gəzən çöllər desin!

CİLLİ AŞIQ MÜSEYİB

Cilli aşıq Müseyib!
Sənin sazın dil açıb Cildən oxumaz daha,
Bəmdə dinər, danışar, zildən oxumaz daha!
Bülbül kimi ötərdin, dilliydin, dilsiz oldun,
Köç-köç oldu barxanan, elliydin, elsiz oldun.
Coşub-daşan bir eşqin seli dağlarda qaldı,
Çaldığın havaların gülü dağlarda qaldı.
Hanı o qumrovlu səs, hanı o şirin avaz,
Telləri kökləməyə nə güc qalıb, nə həvəs.
Dindi aşıq Müseyib, dindi, amma nə indi,
Neçə əsr dil açdı, neçə qərinə dindi.

Danış deyirsən, oğul,
Pozdular pərənimi, elimdən nə danışım?
Nə danışsam ağırdı,
Nə danışsam ölümdü, ölümdən nə danışım?
İçim məni yandırır,
Görən yoxdu tüstümü, çölümdən nə danışım?
Heç yadımdan çıxarmı,

Evimdən, eşiyimdən son dəfə çıxdığım gün,
Göz açdığım torpağa son dəfə baxdığım gün!
Boylananda dağlara kimlər yadıma düşdü,
Neçə bəxti, taleyi kəmlər yadıma düşdü.
Qayalar titrədərdi aşıq Əsədin səsi,
Qulaqlardan gedərmi Nəcəfin zənguləsi!
Yeddi dildə danışan Mirzə Bəylər varıydı,
Neçə qılınc oynadan ər oğlu ər varıydı.
Yatır Miskin Abdalım, Məmmədsöyün
oyanmaz,
Bu ağrıya hər ürək tab gətirib dayanmaz!
Ucuz ölüm olmadı, ölüb orda qalaydım,
Payımı, qismətimi bölüb orda qalaydım.
O yerdə qazılmasa od tutar qəbrim yanar,
Dözməyi bacarmaram, dözümüm, səbrim yanar!
Uşaqlıq orda qaldı, cavanlıq orda qaldı,
Ömrə, günə həyata heyranlıq orda qaldı!
Hardan-hara gətirdim gərəksiz qocalığı,
Qalıb ancaq ömrümün beş-on illik qalığı!

Ha çağırdım, oyanmadı,
Qalxan bəxtim yatan oldu.
Tale qoydu sapandına,
Eldən-elə atan oldu.

Tapılarmı itən səsim,
Hər diyara yetən səsim,
Qumru kimi ötən səsim,
Birdən-birə batan oldu.

Sənətin xan aşığıydım,
İşıqlı dan aşığıydım,
Mən gündoğan aşığıydım,
Qismətim günbatan oldu.

Get, mənsiz o dağların,
Sağalmaz dağına bax!
Qışda qışlağını gör,
Yayda yaylağına bax!

Üstümə gün doğardı,
Bəxtimə nur yağardı,
Bir gecədə ağardı,
Saçımın ağına bax!

Gəl qaçqının yanına,
Qorxu hopup anına,
Saralmış bostanına,
Üzülmüş tağına bax!

Eşqini çəkib zilə,
Dərdini salıb zilə,
Qəribin gilə-gilə
Əriyən yağına bax!

Üzü gülməz baxtımın,
Yazı gəlməz vaxtımın.
Şahlığımın, taxtımın,
Çevrilən çağına bax!

Tez-tez gözlərin dolur, əl atırsan yaylığa,
Qoca dünya çox belə getməz, aşıq Müseyib!
Yenə bülbüllər gələr, öz yerinə, yurduna,
Bayquşlar baş kimi ötməz, aşıq Müseyib!

Az özünü darıxdır, az qəlbini əz daha,
Sazla gəzdiyin yeri xəyalınla gəz daha.
Yüz fikir bircə borcu ödəyə bilməz daha,
Bu elə nisgildi ki, bitməz, aşıq Müseyib!

Avazdan mayalanıb, nəfəsdən mehrlənib,
Sənətin qüdrətiylə könüllər sehrlənib.
Ələsgərlə, Alıyla bərkiyib, möhürlənib,
İzimiz o torpaqdan itməz, aşıq Müseyib!

Dahi Füzuli kimi neçə bəxti kəm olsa,
Qurbani, Abbas, Kərəm bir məclisə cəm olsa,
Göydə süzən quşların lələyi qələm olsa,
Bu dərdi yazmaq üçün yetməz, aşıq Müseyib!

Göyçə dərdi – heç vaxt yaddan çıxmayan,
Zaman-zaman qarşımıza çıxan dərd!
Qəlbimizi kaman kimi inlədən,
Ruhumuzu bir yay kimi sıxan dərd!

Qaranəfəs qasırğanı andıran,
Bizə çox-çox mətləbləri qandıran.
Üzümüzü şillə kimi yandıran,
Başımızda şimşək kimi çaxan dərd!

Bir mahalı bir gecədə kürüdən,
Ömrümüzü gilə-gilə əridən,
Oğulları ağac kimi çürüdən,
Kişiləri qaya kimi yıxan dərd!

Kül içində his bağlamış kömürdü,
Yağış döyən, sel aparan ömürdü.
Daşqın oldu, bizi yıxdı, yömürdü,
Çaylar kimi üstümüzə axan dərd!

Zaman bizə nəs gətirdi, nəsdi, nəs,
Haqq bilir ki, haqqın səsi səsdi, səs!
Min illərin sonrasına bəsdi, bəs,
Min illərin əvvəlindən baxan dərd!

O QIZIN GÖZ YAŞLARI

Xocalı faciəsinin 13-cü ildönümü ilə əlaqədar olaraq yas mərasimi – şəhidləri anma günü keçirilirdi. Hər çıxışda bir üsyan, hər ürəkdə bir tufan, hər baxışda bir leysan var idi. Dərdini dilə gətirənlərə bir-bir söz verilirdi. 21 yaşlı Xocalı qızı Xəzangülə də söz verdilər. Ermənilər onun 36 yaşlı anası Raya xanımı, 5 yaşlı bacısı Yeganəni Əsgəran meşəsində güllə ilə dəlik-deşik eləmişdilər. 38 yaşlı atası Təvəkkülü 8 yaşlı Xəzangülün, körpə qızcığazın gözləri baxa-baxa, diri-diri ağaca sarıyıb yandırmışdılar. Təvəkkülün günahı ondan ibarət olmuşdu ki, ermənilər "Qarabağ erməni torpağıdır" sözünü ona dedirdə bilməmişdilər.

Sual da məndədir, cavab da məndə,
Xocalı ən böyük dərddimi?
Dərddi!

Tərsinə çəkilən düşmən şilləsi,
Dəli tufanlardan sərtdimi?
Sərtdi!

Gözəllər dağına, düzünə gəlmir,
Gözünün işığı gözünə gəlmir,
Bu millət hələ də özünə gəlmir,
Xəcalət hissindən pərtdimi?
Pərtdi!

Tarix bağışlamaz bizə bu işi,
Qırmasaq vaxtında qıcanan dişi,
Meydandan qaçanlar nankor, nakişi,
Meydanda qalanlar mərddimi?
Mərddi!

Nə ölən dirilər, nə solan bitər,
Axdı göz yaşımız sellərdən betər.
Yetər seyrçilik, şahidlik yetər,
Şəhidə çevrilmək şərtdimi?
Şərtdi!

* * *

Dərd var, bir çiyində daşımaq olar,
Dərd var, milyon dağdı milyon çiyində.
Ey cərrah bıçağı, gəl sinəmi yar,
Gör nə var qəlbimin dərinliyində.

Diqqətlə boylansan o dərinliyə,
Təmiz havamızı zəhər görərsən.
Hamının qəlbində torpaq nisgili,
Hamının gözündə kədər görərsən.

Tökülüb, gözünün yaşı qalmayıb,
Sökülüb, bağrının başı qalmayıb.
Dağılıb, daş üstə daşı qalmayıb,
Varından yox olmuş şəhər görərsən.

Baş-ayaq çevrildi hər gün, hər saat,
Bizi dəniz kimi çalxadı həyat.
Qarabağ tarixi açılsa qat-qat,
Tarixə sığmayan kədər görərsən.

* * *

O gün qan üstündə açıldı səhər,
O gün Xocalıda yer qırmızıydı.
Qırmızı-qırmızı üzümə durdu,
İblis görkəmində şər qırmızıydı.

Doğrandı dayağı, kəsildi soyu,
Qan oldu bayramı, yas oldu toyu.

Qarı ağ görmüşdük ömrümüz boyu,
O gün Xocalıda qar qırmızıydı.

Çırpınırdı qan gölündə batanlar,
Cığır qanlı, keçid qanlı, iz qanlı.
Xına yaxır qayalara, daşlara,
Dirsək qanlı, topuq qanlı, diz qanlı.

Qılıncda dərd, qırğında dərd, qında dərd,
Çətin çıxar, yuva salıb qanda dərd.
Üzdə heyrət, gözdə dəhşət, canda dərd,
Dırnaq qanlı, yanaq qanlı, üz qanlı.

Baş açılmır dərddən, yasdan, ələmdən,
Dağ əyilir dağdan ağır şələmdən.
Yazmaq olmur, qan fışqırır qələmdən,
Yazı qanlı, varaq qanlı, söz qanlı.

* * *

Məni susdurammaz bu qan, bu qada,
Mələk qanadında uçar bu millət.
Ən gözəl dərdi də bir içim sutək,
Başına qaldırıb içər bu millət.

Namusu papaqtək başından uca,
Tarixi zamanın yaşından qoca.
Dönər ziyarətə, çevrilər haca,
Andını torpağa içər bu millət.

Qanında qeyrət var, canında təpər,
Sinəsi sipərdi, kirpiyi çəpər.
Günahsız alnından mələklər öpər,
Qəmi tapdalayıb keçər bu millət.

Dərd ilə susdurmaq olmaz,
Dərdindən uca milləti.
İçindəki Haqq işığı,
Bənzədər taca milləti.

Özü özünün arxası,
Nə sınası, nə qorxası.
Qüvvət verər toyu-yası,
Gətirər gücə milləti.

Külə dönməz zəmiləri,
Suda batmaz gəmiləri.
Yüz erməni kimiləri,
Qorxutmaz qoca milləti.

Güvənəndə oğullara, qızlara,
Ömrün gücü, yaşın gücü tükənməz.
Səsinə səs verən olsa basılmaz,
Dağın gücü, daşın gücü tükənməz.

Nə mizrabdı, nə pərdədi, nə simdi,
Coşan mənim hayqırtımdı, səsimdi.
Tək o qızın göz yaşları bəsimdi,
O gözdəki yaşın gücü tükənməz.

* * *

Xocalıdan danışır,
Qarşımda bir qız ağlar.
Bu canlının halına,
Dil açar, cansız ağlar.

Könlü qırılmış şüşə,
Qanlı çöl, yanmış meşə.
Kol dibində bənövşə,
Bulaqda yarpız ağlar.

Küsüb elin sonası,
Gedib əlin xınası.
Ölüb ata-anası,
Tək ağlar, yalqız ağlar.

* * *

İnsanlıqdan uzaqmış
insan qanı tökənlər,
Əldən dırnaq çıxarıb,
ağızdan diş sökənlər.
Sinələrə dağ basıb,
ürəyə dağ çəkənlər,
Necə qırıb qolları,
necə kəsib başları, –
Bir-bir yada salırdı
o qızın göz yaşları.
Çiliklənmiş kaman nə,
daşa dəymiş tar nədir,
Birdən-birə başlara
qəfil yağan qar nədir?
Nədir bu fevral günü,
20 Yanvar nədir?
Vətənin təqvimində
qara rəqəmlər nədir?
Bu çəkilməz ağrılar,
daşınmaz qəmlər nədir?
Azərbaycan xalqının
Nə qədər dərdləri var,
nə qədər tələşları,
Bir-bir xatırladırdı
o qızın göz yaşları.
Arzuları puç olub,
ümidləri qırılmaz,
Qeyrəti tapdalanıb,
vüqarı sındırılmaz,

Daş-qayalar yansa da,
əqidə yandırılmaz,
Yerlə-göylə danışan
körpə qız ürəyini
Sındırmaq asan deyil.
Su dayanar, çay susar,
o ürək susan deyil.
Xocalı adlı eldən,
Tək bircə qız qalıbsa,
o, bir qoşun deməkdi.
Güllə, atəş, ildırım,
mərmi, qurşun deməkdi.
Hər düşmən ürəyinə
bir qurğuşun deməkdi.
Tökülən hər damla yaş
Günəş boyda nurdusa,
Dənizlər qədər diri,
çaylar qədər gurdusa,
Canındakı əzabı,
Qəlbindəki qəzəbi,
Çevirirsə silaha,
Ümidlə boylanırsa
hər açılan sabaha,
Körpə qız ürəyinə
sığışmırsa inadı,
Buludları qucursa
onun qolu-qanadı,
Sağlam toxumlar kimi
ümidlər bitəndirsə,
Bir qaya parçası da,
Onun nəzərlərində
dağ boyda Vətəndirsə,
Ruh ölməz, bədən ölməz,
Yurd ölməz, Vətən ölməz.
Oxudar bülbülləri,
susdurar bayquşları,

“Yaşa, millətim!” deyər
o qızın göz yaşları.

Yalançı məktəblərin
yalançı alimləri,
Min-min yalan uydurub,
daş yazdı, taxta yazdı,
Yazdığı hər nə varsa
tərs yazdı, saxta yazdı.
Ölkə adı gələndə,
millət adı gələndə,
Öz adını hamıdan
öndə, qabaqda yazdı.
Vətəni olmayanlar,
ölkəsi olmayanlar,
Həmişə kölgə gəzib,
kölgəsi olmayanlar,
“Vətən də mənəm” – dedi,
“ölkə də mənəm”, – dedi.
“Bu qədim yer üzünün,
Ən birinci milləti
bəlkə də mənəm”, – dedi.
Hey uydura-uydura
bu yersiz yalanları,
Nahaqdan törətdilər
bu boyda talanları.
Nifrətlə suçlayırdı
bu dava-dalaşları.
Yalançı məktəblərə,
Yalançı suallara,
Yalançı cavablara,
İçi nifrətlə dolu.
Yalançı kitablara,
Ən odlu nifrət idi,
O qızın könül ahı,
o qızın göz yaşları.

Dağlara yön çevirib
“dayağım ol” deyirdi,
Küləklərə üz tutub
“bayrağım ol” deyirdi,
Bağrı yanmış laləyə
“çırağım ol” deyirdi,
“Qoymayın, qarı düşmən
Qovdu məni, təklədi,
Ayaqlarım süründü,
dizlərim iməklədi”.
“Sevgilim ol” deyirdi
çiçəklərə, güllərə,
“Həmdəmim ol” deyirdi
sevgili könüllərə.
Xilasa çağırırdı
İmanı Vətən olan
əsl vətəndaşları.
Axan bir dağ seliydi
o qızın göz yaşları.

Onu dinləmək ağır,
onu eşitmək çətin,
Ağzına daş basıblar
dağ boyda həqiqətin.
Hanı səkkiz milyonu
bu boyda məmləkətin?
Qırılan hər sözünə
bütün zal hönkürürdü,
Heç kəs danışa bilmir,
dili lal hönkürürdü,
Ürəyə ləkə kimi
düşən xal hönkürürdü,
Bir salonun içində
yüz mahal hönkürürdü.
Yıxırdı qayaları,
əridirdi daşları, –

Bizə nələr demirdi
o qızın göz yaşları.

Yalvarıb-yaxarırdı,
and-aman eləyirdi,
Yalvarışı, harayı
bağrı qan eləyirdi.
Ona qulaq asanda
Ən qalın adamın da
çatılırdı qaşları.
Daşı mum eləyirdi,
dağı qum eləyirdi
O qızın hıçqırtısı,
o qızın göz yaşları.

* * *

Qəlbi şübhə-gümanda,
dili ahda-amanda,
İniltidə, ağrıda,
səksəkədə, gümanda.
Ən qorxulu saatda,
ən dəhşətli zamanda,
Yerə-göyə yalvarıb,
qayğı-kömək umanda.
O, səni çağırırdı,
o, məni çağırırdı,
Vətənsiz qalan çocuq
Vətəni çağırırdı.

Bir xəbər yox gələndən,
bir xəbər yox gedəndən,
Bükülməyə heç nə yox, –
bezdən, çitdən, kəfəndən.
Yazıq qız kömək umur
başsız qalan bədəndən,

Başı üstə olmayan
bədəni çağırırdı,
Ölüsünü bükməyə
kəfəni çağırırdı,
Sahibləri keyləşən
Vətəni çağırırdı,
O, səni çağırırdı,
o, məni çağırırdı.

* * *

Göz yaşları deyirdi ki,
Eheeeyyy!!!
Alçaq qarı düşmən!
Qara itə qahmar çıxan
ala düşmən, sarı düşmən!
Nə topum var, nə tüfəngim,
nə qalxanım, nə qılıncım,
Doğra məni tikə-tikə,
parça-parça, xıncım-xıncım.
Başımı əz!
Qolumu kəs!
Gözümü oy!
Dərimi soy!
Diri-diri odda yandır bədənimi!
Oda qala torpağımı,
işğal elə Vətənimi!
Şişlə dağla ürəyimi!
Süngüylə deş kürəyimi!
Ağı elə həyatımı,
zəhər elə çörəyimi!
Tırtılların tapdağında
çeynət məni!
Ağrıt məni, ağlat məni!
Cəsədimi at çöllərə,
qəbrimi qazan olmasın,

İtir mənim ünvanımı,
Başdaşıma soyadımı,
adımı yazan olmasın.
Qolbaq çıxmır, qolumu kəs!
Üzük çıxmır, barmağımı,
Əlcək çıxmır, əlimi kəs!
Yeriməyə qoyma məni,
qıçımı kəs!
Gözəlliyə həsrət elə,
Boynumu vur, saçımı kəs!
Danışmağa qoyma məni,
Dişimi qır, dilimi kəs!
Qarnımı cır!
Körpəmi vur!
Nəslimi qır!
Dölümü kəs!

* * *

Eheeeyyy!!!
Alçaq qarı düşmən!
Qara itə qahmar çıxan
ala düşmən, sarı düşmən!
Doğransam da dilim-dilim,
Min bir dəfə gəlsə ölüm,
Elə bilmə öləcəyəm,
itəcəyəm,
Sıx meşədə palıd kimi,
Dağ döşündə qaya kimi
bitəcəyəm!
Göy çəməndə bitəcəyəm
çiçək kimi,
Buludlardan enəcəyəm
mələk kimi,
Birdən-birə dolacağam
nifrət ilə,

Birdən-birə qalxacağam
hiddət ilə.
Mən qalxanda məndən əvvəl
gözümdəki yaş ayağa qalxacaq,
İçimdəki vulkanları
püskürdəcək üstünə.
Dağ yerindən oynayacaq,
daş ayağa qalxacaq,
Nifrətini qaya kimi
yağdıracaq başına!
Dil yerində durmayacaq,
diş ayağa qalxacaq!
Yeriyəcək sənə doğru
sən kəsdiyin ayaqlar,
Neçə-neçə baş ayağa qalxacaq!
Dağ da, daş da, yaş da, baş da,
Öz işini görəcək!
Bu vətən də,
Vətəndaş da öz işini
görəcək!
Bax, o zaman
Çıxacağam qabağına
ən dəhşətli qorxu kimi!
Girəcəyəm yatağına
ən ağrılı yuxu kimi!
“Harda uddu yer atamı,
yer anamı?” deyəcəyəm!
“Ver bacımı, qardaşımı,
ver anamı!" deyəcəyəm!

* * *

Mən oğullar doğacağam,
Boş qalmasın ata yeri,
qardaş yeri.

Boş qalmasın bu Vətəndə
bir qum yeri, bir daş yeri,
Çiçək qızlar doğacağam,
Ana üçün, bacı üçün
həmdəm yeri, sirdaş yeri.
Mən oğullar doğacağam
bu Vətənə əsgər üçün.
Əsgər gərək can tapşıra
torpaq üçün, səngər üçün.
Səngər gərək hazır ola
Döyüş üçün, tufan üçün,
məhşər üçün.
Boy artımı istəmirəm!
Say artımı istəmirəm!
Xeyrə-şərə yaramayan
Key artımı istəmirəm!
Mən oğul yox,
namus, qeyrət doğacağam!
Azərbaycan sevgisini
ürəyinə köçürməyə,
Anaları tufanlardan
sağ-salamat keçirməyə,
Gözlərinin işığını
Xocalıya köçürməyə,
Ulu sevgi,
təmiz niyyət doğacağam!
Nə satqınlar, nə kölələr,
nə də qullar doğacağam,
Mərd oğullar doğacağam!
“Dəliləri dəmir donlu,
Nizəsinin ucu qanlı”
Oğuz nədir,
Toppuz nədir,
Qopuz nədir,
Komuz nədir – dərk eləsin!

Əsarəti, ətaləti, cəhaləti
birdəfəlik tərk eləsin!
Türk sözünü,
Türk ruhunu,
Türk adını
Metelərdən, Bilgələrdən,
Ölkələrdən, bölgələrdən
keçən yolu,
Öz suyunu min illərin
Cövhərindən içən yolu
Qoy göstərsin kişi kimi!
Birdəfəlik bu dünyaya
görk eləsin!!!
Ağciyərdən, fəraridən
oğul olmaz,
Mən basılmaz
bir qətiyyət doğacağam!
Ağlı çaşdan,
Qəlbi daşdan,
Divanədən,
Biganədən,
Harınlanmış qarınlardan,
Qarınlanmış harınlardan,
Başı kütdən,
Beyni lütdən,
Cod tikandan,
Boz söyüddən
Bu Vətənə oğul olmaz!
Oğulları atlanmağa,
Düşmən dizi qatlamağa,
Tanrıya da baş əyməyən
bir cəsarət doğacağam!!!

* * *

Körpəcə qızcığazın
Gözünün qabağında

Ağaca bağladılar
atası Təvəkkülü.
Üç dəfə od vurdular,
Yerə töküldü yağı,
göyə sovruldu külü.
Yanmağı bəs deyilmiş,
Üstəlik də acıqla
ona "yan" deyirdilər.
"Sizin vaxtınız keçib,
Bizimkidir bu tarix,
bu dövran" deyirdilər.
Baxışında nifrəti,
qəlbində qəzəb, kini,
Yanır, bişir, qovrulur,
Xocalının sakini.
Otuz səkkiz yaşında
Qovrulan Təvəkkülün
bədənindən yağ damır,
Yanan təkcə o deyil,
Yanır Təvəkkül kimi
Kəlbəcəri, Şuşası,
Əsgəranı, Ağdamı.
Ruh yanır, bədən yanır,
Torpaqda qəbir yanır.
Çöl yanır, çəmən yanır,
Yanır Təvəkkül kimi,
yurd yanır, Vətən yanır.
Dərə yanır, dağ yanır,
Söndürüb keçirən yox,
Bütün Qarabağ yanır.
Ata baxır qızına,
"vay, əziz balam" deyir.
Qız qışqıra-qışqıra
"vay, əziz atam" deyir.

Bütün sözlər qırılır
körpənin dodağında,
Bircə “ata!” sözünü
bütöv deyir, tam deyir.
Elə bil insanı yox,
yandırırlar ağacı,
tale dönük, bəxt acı.
Elə bil insanı yox,
yandırırlar odunu,
Qız keçirmək istəyir
atasının odunu.
Cəllad sözünə baxmır,
Qatil tutur, buraxmır.
Yağının pəncəsində
qız çırpınır quş kimi,
Ağlı başından çıxır,
yıxılır bihuş kimi.
Göz açanda görür ki,
Atası yoxdur daha.
Ha qışqırmaq istəyir,
Səsi çatmır bəndəyə,
əli çatmır Allaha.
Göz açanda görür ki,
Atanın əvəzinə
Qara bir kömür qalıb,
quru bir ağac qalıb.
Bir də başı bəlalı,
Faciələr şahidi
O yanmış ağac qalıb.

* * *

Sənə elə gəlməsin ki,
mən ölmüşəm, mən yanmışam,
Yana-yana mən
ölməzlik qazanmışam.

Elə bilmə sındırmısan,
mən ki heç vaxt sınmamışam.
Yandırdığın ağac mənəm,
Mən yenə də yamyaşılam,
yanmamışam.
Atalara “ata” dedim,
atam oldu,
Analara “ana” dedim,
anam oldu.
Mən özümü qaçqın kimi
aparmadım,
Ürəyimdə dağlar boyda
inam oldu.
Yanmış, ölmüş bilmə məni,
Rəngi solmuş bilmə məni.
Mən nə küləm,
Nə kömürəm,
Nə xəzələm,
Cavanların ürəyində
ocaq çatan bir gözələm.
Bizə divan tutulanda
səkkiz yaşlı bir uşaqdım,
İndi qızlar bulağından
su içənəm.
Gözdən-gözə od daşıyan,
nur çəkənəm.
Mən qaldığım dar bir otaq
Məndən ötrü bütün cahan.
Hər gün orda çiçəklənir
Ruhumdakı, gözümdəki,
içimdəki Azərbaycan!
Barmağımda yanan üzük –
Göy üzündə yanan Günəş.
Mənim sevgim
susmaz bulaq, sönməz atəş.

Mənə yaxın gələ bilməz
lal bir sükut,
Düşmənimdi qara bulud,
qara umud, qara tabut.
Cehizimə qarışmasın
gözlərimdən axan yaşlar,
Qoy olmasın xörəyim buz,
çörəyim qar.
Qoy olmasın rəfiqəmin
adı kədər,
Nişanlımın adı ağrı.
Qoy bitişsin Xocalının
köz-köz olan qara bağrı.

* * *

Bir-birinə sarılıb
İki igid danışır,
İki şəhid danışır.
Ağac adam dilində,
Adam ağac dilində.
Həyata, insanlığa
bir ehtiyac dilində.
Səs boğazda çırpınır
quşun qanadlarıtək,
Söz dodaqda titrəyir
bağrı yanmış arıtək.
Bu amansız səhnəyə
dağ baxır, düz baxırdı,
Cəllad durub qarşıda
lap üzbəüz baxırdı.
Əli yerə yetişmir,
göydən ulduz baxırdı,
Qayadan çiçək baxır,
zirvədən buz baxırdı.

Yaralı Təvəkkülə
Yaraların üstünə
səpilən duz baxırdı.
Qığılcımın, tüstünün,
odun, külün içində
Bir səs “sınma!” deyirdi,
Təvəkkülün içində.
Ağac da Təvəkkülə
ürək-dirək verirdi,
Odunu söndürməyə
dağlar külək verirdi.
Göydən enir buludlar,
Bu yanğının üstünə
bir qanad gərsin deyə.
Göydə quşlar çırpınır,
Təvəkkül göyə baxsın,
Qarabağ göylərini
yenidən görsün deyə.
İçi sağ-salamatdı,
Yanan əli-ayağı,
qarsan üzü-gözüydü.
Bu qədər inanılmaz
əzabların içində
Mərd durub, sərt dayanmaq
düşmənə son sözüydü.
“De ki, Dağlıq Qarabağ
erməni torpağıdır!” –
Bu sözü almaq üçün
onun dodaqlarından
Qığılcımın, alovun,
odun gücü çatmadı,
Yağının, kəmfürsətin,
yadın gücü çatmadı.
Dalbadal sifətinə neçə
şillə çəkdilər,
şillədən çəkinmədi!

Qovurdular özünü
öz içinin yağında,
Süngülər oynatdılar
gözünün qabağında.
Yenə səbri, dözümü,
inadı qırılmadı,
Əqidənin, məsləkin
qanadı qırılmadı.
Bu adamla bu ağac
Sevginin əfsanəsi,
Yanğının pərvanəsi.
Qoşa alov fışqırır
iki candan, ürəkdən,
Göyə uçmaq istəyir,
qanad alır küləkdən.
Alov gah yaşıl olur,
gah ağ, gah da qırmızı,
Gah açılır, gah solur,
qalxan ah da qırmızı.
Göyərir, yaşıllaşır
tər-təzə pöhrə kimi,
Sarılır bir-birinə
Bu adamla bu ağac
Fərhadla Şirin kimi,
Tahirlə Zöhrə kimi.
Beləcə ömür sürüb
Bu torpaqda can verən
igidlərin eşqinə,
Bu torpaqda uyuyan
şəhidlərin eşqinə
Sonsuzluğa qovuşub,
üfüqlərdən aşdılar,
Bu adamla bu ağac
bax belə sevişdilər,
belə qucaqlaşdılar!!!

* * *

O ağacla o adam
Alışıb-yandığı yer
Məkkən, pirindir, qızım.
Külündən götür bir az,
Yarana məlhəm elə,
Yaran dərindir, qızım.
Bu qədər ağrıların,
Əzabların içində
Yaşamaq istəyirsən,
Həyat şirindir, qızım.
Üzümü daşdan görən,
Ya daşmı üzdür, qızım?
Şair sözlə neyləsin,
Bu dərdləri yazmağa
Qələm gücsüzdür, qızım.
Sənin nə günahın var,
Günahkar mənəm, qızım.
Təpədən-dırnağadək
Dumanam, çənəm, qızım.
Anan güllələnəndə,
atan yandırılanda,
Xocalıtək bir dağın
beli sındırılanda
Mən həyatda var idim,
Var olsam da, gözü kor,
qulaqları kar idim.
Ahın ərşə çıxanda
səsinə səs vermədim,
Nəfəsin kəsiləndə
sənə nəfəs vermədim.
Qardaş ola bilərdim,
qardaşın olammadım,
Sirdaş ola bilərdim,
sirdaşın olammadım.

Nə bələdçim var idi,
nə bir yol göstərənim,
Yox idi tufanlara
sinəsini gərənim.
Haqqa doğru dönüm yox,
mən neyləyə bilərdim?
Öndərim yox, önüm yox,
mən neyləyə bilərdim?
Günah təkcə məndə yox,
Qanı qarışıqların,
dili qarışıqların,
Əqidəsi, məsləki,
yolu qarışıqların
Biganə sifətində,
soyuq üzündə idi,
Günah birində deyil,
bəlkə, minində idi,
bəlkə, yüzündə idi.
Boylanırdı Xocalı
dilsiz göylərə sarı,
Yolçəkən baxışları
Allahın ümidində,
Haqqın gözündə idi.

* * *

Gözüm nuru, başım tacı,
ağlamağın daha bəsdi,
Səni, məni ağlatmaqdı
düşmənlərin işi, qəsdi.
"Vətən" sözü, "torpaq" sözü
Allah qədər müqəddəsdi,
Dərgahların arasında
ən ulu dərgahdı, qızım.
Köç-köç olub dağılmışıq
min illərin köçü kimi,

Didilmişik anaların
qan qarışıq saçı kimi.
Günahkarı tanıyırıq
ovcumuzun içi kimi,
Cəzasını verəmməsək,
ən böyük günahdı, qızım.

Yüz harayla, harayına
atan gəlməz, anan gəlməz,
Çoxu gələr, çoxu gedər,
əhvalına yanan gəlməz.
Səni doğmaların qədər
duyan gəlməz, qanan gəlməz,
Qəmli gözdə sübh açılmaz,
nə tutqun sabahı, qızım.

Bayquşların niyyətini
beşiyində boğmalıyıq,
Arzulara işıq salıb
Günəş kimi doğmalıyıq,
Yağıların təpəsinə
mərmi kimi yağmalıyıq,
Bu gün bizdə olan nifrət
ən güclü silahdı, qızım.

Hər alçağın qarşısında
dizlərini bükməz Vətən,
Yer dağılar, göy alçalar,
heç vaxt yerə çökməz Vətən,
Qarabağın həsrətini
çox da uzun çəkməz Vətən,
Ellər deyər "Gözün aydın
dur oyan, sabahdı", qızım.
Hələ Şuşa qalasının
qapısından girməmişik,

Cücərməli toxumlar var,
bəhrəsini dərməmişik,
Boş göylərə üz tutmağın
bir xeyrini görməmişik,
Kim qaytarsa Qarabağı,
o elə Allahdı, qızım.

* * *

Min bir qəm kitabı var
Bu millətin, bu xalqın
Düyünlənmiş qaşında.
Bu dərdi yazmaq olmur,
Qələm qana bulaşır
Hər misranın başında.
Şair ölür-dirilir,
Gətirdikcə yadına
o qəmli səhnələri,
Gör nələri itirib
Azərbaycan, nələri?
Dərd birdimi, beşdimi,
Oğlu ölmüş anatək
dil deyib ağlayasan?
Yara qurtarandımı,
Məlhəm ilə sağaldıb
sarıqla bağlayasan?

* * *

Qış gecəsi yuxudaydıq,
yoxdu sizdən xəbərimiz,
Yumulmuşdu gözlərimiz,
uyumuşdu təpərimiz.
Saçlarına sığal çəkib
daranırdı rəhbərimiz,
O, canını bəsləyirdi
sən verəndə can, Xocalı.

Bərk yatmışdı, gec ayıldı,
pərt ayıldı ayılanlar,
Boş başını itirmişdi
bizə başçı sayılanlar.
Dedilər ki, uydurmadı,
şayiədir yayılanlar,
Sarayların kül olmuşdu
söküləndə dan, Xocalı.

Ağ qaranı bəyənmədi,
qara ağı tanımadı,
Ayaq başdan ayrı düşdü,
baş ayağı tanımadı.
Yol göstərən çaşbaş oldu,
solu-sağı tanımadı,
Ha vuruşduq, tapammadıq
dərdinə dərman, Xocalı.

Əsirisən cinayətin,
qurbanısan xəyanətin,
Bu Allahsız vəhşiliyə
durub baxmaq xeyli çətin.
Tülkü-ayı dostluğuna
qurban getdi səadətin,
Hamı bilir kimlər verdi
qətlinə fərman, Xocalı.

Min bir ulduz yerindədi,
bircə ulduz axsa nə var,
Bir palıdın başı üstə
bir ildırım çaxsa nə var.
Bir ürəkdən, bir könüldən,
bir yaradan axsa nə var,
Min könüldən, min ürəkdən,
axdı qızıl qan, Xocalı.

Bu faciə düzdə qırğın,
dağda tufan faciəsi,
Oğul-uşaq, tifil-körpə,
qoca-cavan faciəsi.
Qəfil dəyən güllələrin
minlərlə can faciəsi,
Əsir, girov, qaçqın, ölüm,
zülüm, zindan faciəsi,
İnsanlığın tarixində
qanlı dastan faciəsi.
Bir qızın göz yaşlarını
təsbeh kimi dənələdi,
İpə, sapa düzə-düzə
yazdı Zəlimxan, Xocalı.

2005, fevral, may, iyul

KÖKÜNDƏN QOPAN AĞAC

Səs aparır beynimi,
Səs aparır başımı.
Şil-küt edir zərbələr,
Duyğumu, yaddaşımı.
Səs-küydən qulaq batır,
Yaman taqqataraq var.
Meşələri qırmağa,
Yağıda bir maraq var.
Elə bil ki, bu meşə
Qırılıb tükənəndə,
Ağ günə çıxacaqlar.
Daha bilən yoxdu ki,
Qırqovulsuz, turacsız
Necə darıxacaqlar!
Qırılan budaqlara,
Qaralan ocaqlara,
Bir damcı sudan ötrü,
Quruyan dodaqlara,
Həsrət ilə baxanda,
Ağı deyib, ağlayıb,
Göz yaşı sıxacaqlar!
Səs aparır beynimi,
Baltalar işə düşür,
Çökə əsir, titrəyir,
Meşə təşvişə düşür.
Qalıb burda hər ağac
Öz başının hayına.
Necə göz yaşı tökür,
Baxın ağcaqayına!

Aparırlar fıstığı,
Aparırlar vələsi.
Palıdı yıxmaq üçün,
Hər kəsin öz fəndi var,
Hər kəsin öz tələsi.
Çoxunun gözü qalıb,
Minillik bir palıdda.
Kökü dərinlərdədir,
Budaqları buludda.
Biri beldən yapışır,
Torpağı eşmək üçün.
Biri külüng gətirir,
Köklə qolboyun olmuş,
Qayanı deşmək üçün.
Biri balta gətirir,
Gövdəni didir, kəsir.
Biri zəncir gətirib,
Sürüməyə tələsir.
Heç kəsin gücü çatmır,
Bu dağlar nəhəngini
Yerindən oynatmağa!
Görkəmiylə bənzəyir
Dağ döşündə bir dağa!
Nə qədər vuruşurlar,
Nə qədər əlləşirlər,
Nə külüngdən, nə beldən,
Nə baltadan kar aşmır.
Əhsən! Qocaman palıd,
Yollar boyu sürünmək,
Ocaqlara çatılıb,
Tüstülərə bürünmək
Şöhrətinə yaraşmır!
Palıd öz yerindədir,
Mən səni düşünürəm
Kökündən qopan ağac!

Qolunu, budağını,
Yağılar çapan ağac!
Hər kəsilən şah budaq,
Bir quruyan bulaqdır.
Onu kəsən, doğrayan
Bu hisdən, bu duyğudan,
Düşüncədən uzaqdır!
Ağlayıram halına,
Kökündən qopan ağac.
Sən təkcə ağac deyil,
Gözəlliksən, işıqsan,
Yurduma yaraşıqsan.
Nəğmənin şirinisən,
havanın sərinisən,
Köklərin dünənimdi,
Budaqların sabahım!
Səni sındıranların,
Səni yandıranların,
Əməlini görəndə,
Göylərə çıxır ahım!
Kökündən qopan ağac!
Dinlə mənim dərdimi,
Dinlə axıra kimi.
Məni də bir zamanlar
Sənin gününə salıb,
Torpağımdan, daşımdan,
Qoparmaq istədilər.
Sərvətimi, varımı,
Karvan-karvan daşıyıb,
Aparmaq istədilər.

Gördü bizim oğullar,
Gedər-gəlməz yolları!
Gördü bizim analar,
Üzə gülməz yolları!

Hər insan taleyindən
Bir şah əsər yaranar,
Əgər dindirən olsa,
Bu danışmaz, bu dinməz,
Bu dilbilməz yolları!
Qanımızı içənlər,
Şimşək olub çaxdılar,
Doğradılar, kəsdilər!
Bizə də sənin kimi,
Külək olub əsdilər.
Varım-yoxum nə varsa,
Düşmən böldü, payladı.
Özündən çox razıydım,
Payı artıq düşəndə,
Qonşunu da hayladı!
Çox sağ olsun, mənə də,
Mənim öz sərvətimdən,
Dağ böldü, dərə böldü.
Bu müqəddəs Vətəni,
Biz min yerə bölmüşdük,
Yad iki yerə böldü.
Qoy çağırsın nəvələr,
Bu gün babalarını.
Sorğu-sual başlasın,
Kim qoruyub Vətənin
Qeyrətini, arını?
Bu xalqın tarixində
Kim olub qara ləkə?
Hər kəs öz günahını,
Boynuna ala, bəlkə.

Kimlər kimi qırdılar,
Kimlər kimi əydilər?
Nə qırğınlar olardı,
Nə o qanlar düşərdi,

Dünən uzağa baxıb,
Bu günün taleyini
Düşünə bilsəydilər!
Yığılsın bir məclisə
Fətəli xan Qubadan,
İbrahim xan Şuşadan,
Cavad xan da Gəncədən.
Görək nə qazanıblar,
Bir-birinə verilən
Əzabdan, işgəncədən.
Gəlsin Naxçıvan xanı,
Gəlsin Lənkəran xanı.
Dağ xanı, aran xanı,
Baş qaldırsın məzardan,
Qaldıranlar, yıxanlar
Azərbaycan xalqını.
Dilə gəlsin bu xanlar,
Vaqifi də çağırın,
Enib gəlsin Şuşadan.
Görək o nə danışır,
Bu qanlı tamaşadan.
Şairin qəlbindədir,
Sözün doğrusu, düzü,
O desin həqiqəti,
Kim başa töhmət olub,
Xalqın, elin yanında,
Kimin ağ olub üzü!
Əl altından elçilər
Hardan hara gedirdi.
Bir xanı saxlamaqçün,
Bir xanlığın sərvəti
Yüz ölkəyə paylanır,
Min diyara gedirdi.
Pay-pay olan bu sərvət
Babamın alın təri,
Üzüyümün qaşıydı.

Bacımın alın təri,
Anamın yaddaşıydı!
Özümüz dura-dura,
Özgələrdən umurduq
Hər köməyi, arxanı.
Allah da qoruyammaz
Öz-özündən qorxanı!
Nə zaman özümüzdən
Hürküb qorxuya düşdük,
At oynatdı xəyanət.
Kimimiz odda yandıq,
Kimimiz suya düşdük.
Yanmazdıq, yandırdılar,
Donmazdıq, dondurdular.
Savaşlar meydanında
Təklənmək nə deməkdir?
“Mənəm”lik havasıyla
Yüklənmək nə deməkdir?
Öz doğma qardaşından
Şəklənmək nə deməkdir?
Çətin başa düşərdik,
Yaxşıca başa salıb,
Yaxşıca qandırdılar!
Düşmənimin əliylə
Gecə kəsilən zaman
İbrahim xanın başı,
Üzürdü qan gölündə,
Oğlu, qızı, arvadı,
Özü ilə yanaşı!
Baxıram qəmli-qəmli,
Yenə əlim qələmdə,
Yenə gözüm varaqda.
Təbriz yaslı-yaralı,
Dərbənd məndən uzaqda,
Dərbənd məndən aralı.

Borçalı da uzaqda,
Göyçə qarda, sazaqda.
Özgələr ortadadır,
Özümüzsə qıraqda!
Qarşısında diz çöküb,
Ziyarət eləsək də
Babaların qəbrini,
Bu gün yaman çəkirik
O səhvlərin altını,
O günlərin cəbrini.
Deyirəm bir işə bax,
Tüstüsü göz çıxardan
O rəzil keçmişə bax!
Dünyanın düz vaxtında
Kim mənə sahib olub,
Kim mənə yiyə çıxıb.
Mən ki, çağırmamışdım,
Görəsən bu qonşular
Yuyulmamış qaşıqtək
Ortadan niyə çıxıb?!
Gözlərim baxa-baxa
Məzarımı qazanlar,
Tariximi, bəxtimi
Qara xətlə yazanlar,
Görən başa düşmürmü
Doğmaca qardaş nədir?
Qəlbi üzən intizar,
Gözdən axan yaş nədir?!
Təbriz! Təbriz deməkdən
Dillər qabar bağladı,
Həsrət nə qədər olar?!
Gözlə! – deyir gələcək,
Möhlət nə qədər olar?!
Səttarxanı öldürüb,
Təbrizə qan qusduran,

Şəhriyarın dilində
Danışanı susduran
Təhqir nə qədər olar,
Töhmət nə qədər olar?!
Cinayətin köküylə,
Əlbir olub canilər.
Bu günün özündə də
Bir-bir sıradan çıxır
Yeni Pişəvərilər,
Yeni Xiyabanilər!
Nə olsun yaşamışam,
Nə olsun ölməmişəm,
Aradan illər keçib,
Hələ o zərbələrdən
Özümə gəlməmişəm!
Ax dünənim, dünənim,
Od əlində alışıb,
Yad əlində sönənim!
Tarix yazmaq istəyir
Bugünkü tarixçilər.
Gəlsin, köməyə gəlsin,
Yeddi arxa dönənim!
Siz ey tarix yazanlar,
Elə yazın yazanda,
Həqiqətə, doğruya,
Bir sərhəd qoyulmasın.
Nəsiminin dərisi,
Soyulub, tarix olub,
Tariximin dərisi
Yenidən soyulmasın!
Orda düz göstərilsin
Günahımla savabım.
Orda aydın görünsün
Sevincimlə əzabım.
Hər kim düşmək istəsə,

Bu sirrin sorağına,
Düz gəlsin, dolaşmasın,
Sualımla cavabım.
Elə yazın yazanda,
Qoy tanısın yerini
Mənə diş qıcayanlar!
Yaxşıma örtük olub,
Yamanımı yayanlar!
Dalğama ləpə deyən,
Dağıma təpə deyən,
Dənizimə göl deyən,
Ocağıma kül deyən,
Dünyanın harasında
Alçaq var, yaramaz var,
Ağlı, fikri dayaz var,
Bu kitabı görəndə
Qoy utansın özündən.
Azərbaycan söhbəti
Ortaya düşən kimi,
Qara pərdə asmasın
İnsanların gözündən!
Yadınızdan çıxmasın
Kökündən qopan ağac.
O ağac Müşfiqiydi,
Ayırdılar bu gündən!
O ağac Cavidiydi,
Endirdilər baltanı
Gövdəsindən, kökündən!
O ağac Cəfəriydi,
Qəlbini sındırdılar!
Barlı budaqlarını
Şaxladılar, qırdılar!
O ağac Vurğunuydu,
Getdi əlli yaşında!

Xərçəng yuva bağladı
Ürəyinin başında!
Təzələyək söhbəti,
Kökündən qopan ağac.
Elə bilirsən xata
Tək sənin başındadır.
Xata başı bəlalı
Vətənin başındadır!
Mənim doğma Vətənim
Bayaq xatırladığım
O qocaman palıddı!
Bir tərəfi Günəşdi,
Bir tərəfi buluddu.
Bu palıdı kökündən
Qoparmaq istəyənlər
Qopara bilmədilər.
Aparmaq istəyənlər
Apara bilmədilər!
Kökünü də qazdılar,
Qolunu da kəsdilər,
Yerindən tərpətməyə
Nə qədər can atdılar,
Nə qədər tələsdilər,
Bacara bilmədilər!
Böyük həqiqətimdən
Bac ala bilmədilər!
Mənim qoca palıdım!
Başımı kəssələr də,
Mən daha innən belə
Sənin bir budağını
Kəsilməyə qoymaram!
Adını bircə pillə
Əskilməyə qoymaram!
İstər əli baltalı,
Əli zəncirli gəlsin,

İstər başı havalı,
Ürəyi kirli gəlsin.
Hər gələnin əlində,
Külüng olsa, bel olsa,
Hər qızışan siyasət
Tufan olsa, sel olsa,
Qarşısında mən varam!
Sənin bircə tükünü
Əsib keçən yellərə,
Pay olmağa qoymaram!
Yadlar şimşəyə dönsə
Yurdumu çapa bilməz!
Azərbaycan torpağı
Kökünün üstündədir,
Kökündən qopa bilməz!

ZƏLİMXAN QARĞIŞI

Heç vaxt yeriyəndə büdrəməmişdim,
Yeriyə bilmədim, büdrədim indi.
Heç vaxt danışanda titrəməmişdim,
Danışa bilmədim, titrədim indi.
Bəlkə, damarımda qan laxtalandı,
Bəlkə də, ağzımda dilim göyərdi.
Həyat gözlərimdə heçliyə döndü,
Elə bir hər yerdə ölüm göyərdi.
Qaçqına baxıram, üşüyür canım,
Candan can ayrılır, qandan qan qaçır.
Dünyanın ən yazıq qaçqını mənəm,
Torpaq ayağımın altından qaçır!
Qaçqını hələ ki, öz beşiyinə,
İsti yuvasına yetirəmmirik,
Qaçın sərt sözün şapalağından,
Dağların yükünü götürəmmirik.
Kimlərdi qaçıran, kimlərdi qaçan?
Suallar ağırdı, cavablar çətin.
Dünyada nə qədər ağrısı varmış,
Dünyaya Füzuli verən millətin.
“Qürbətdə qərib şadiman olmaz imiş,
Heç kimsə qəribə mehriban olmaz imiş.
Altun qəfəs içrə gər qızıl gül bitsə,
Bülbülə tikantək aşiyan olmaz imiş!”
Bizim başımıza şıdırğı yağan
Zamanın yağışı, vaxtın qarıdı.
Bu gün Azərbaycan başdan-ayağa
Sızlayan Füzuli misralarıdı!
Adı var qürbətdə qərib olmağın,
Vətəndə qəriblik... adı bilinməz.

Yediyin çörəyin, içdiyin suyun,
Udduğun havanın dadı bilinməz!
Axdı göz yaşları töküldü dən-dən,
Dərdimiz yenə də dərman çürütdü.
Bostançı qovuldu öz bostanından,
Xırmansız qalanı xırman çürütdü.
Matəm paltarını geyindi hamı,
Dava paltarını geyinəmmədik,
Torpağın üstündə yumruğa dönüb,
Yurdun sinəsində döyünəmmədik.
Çadırdan alaçıq, çubuqdan dəyə,
Hansına baxırsan deşik-deşikdi.
Ən güclü dərmanı bu qaçqınların,
Həyətdi, bacadı, evdi, eşikdi.
Taxtın üstündədi qocanın yeri,
Körpənin yuvası isti beşikdi.
Bu çadır bu qarın yükünə dözməz,
Daxildə şaxta var, çöldə qar yağır.
Gözündən könlünə sellər ələnir,
Qaçqın taleyinə yağışlar yağır.
“Binələri çadır-çadır,
Çox gəzmişəm özüm, dağlar.
Qüdrətini səndən aldı,
Mənim sazım, sözüm, dağlar!”
Ustad, qüdrətini el hardan alsın?
Əgər söykənməyə dağı yoxdusa.
Üzməyə dənizi, süzməyə gölü,
Gəzməyə bacası, bağı yoxdusa.
Bu dağlar sən gəzən o dağlar deyil,
Dəlidağ Şəmşirsiz ağlar qalıbdı.
Düşmən sinəsinə elə dağ çəkib,
Qəlbində sağalmaz dağlar qalıbdı.
Sən deyən çadıra çatmır əllərim,
Buzunda donuram bu çadırların.

Mənim çəkdiyimi it də çəkməsin,
Odunda yanıram bu çadırların.
Zülmdən danışır, zillət oxuyur,
Bizdəki qeyrətə nifrət oxuyur.
Hərəsi bir cürə lənət oxuyur,
Fikrini qanıram bu çadırların.
Torpaqdan üzülüb qaçqın olannan,
Yer qaçar, göy qaçar, təbiət qaçar.

Sözündən məhəbbət, gözündən işıq,
Saldığı süfrədən səxavət qaçar.
Yağın qazancını, nəfini çəkdin,
Balın təmizini, safını çəkdin,
Torpaqsız günlərdə o ləzzət qaçar.
Yaşardın, öz damın, öz daşın olsa,
Dözərdin, öz ağlın, öz başın olsa.
Dar gündə dost-doğma qardaşın olsa,
Ya aşkar gizlənər, ya xəlvət qaçar.
Bu sözdən kim razı, kimi narazı,
Düşmən hay deməmiş keçdik Arazı.
Nə qədər göynətdi Məmməd Arazı,
“Düşmən qabağından qaçan kişilər!”
Allahsız ovçunun döndük ovuna,
Çətin bu ağrıdan qəlbim ovuna.
Aldandı alçağın qovhaqovuna,
“Düşmən qabağından qaçan kişilər!”
Vaxtın fürsətinə, dəbinə düşdü,
Nə dağda yurd oldu, nə binə düşdü.
Qırx arşın quyunun dibinə düşdü,
“Düşmən qabağından qaçan kişilər!”
İndi oğulsansa, çıx bu quyudan,
Təzədən alışsın hər sönən ocaq,
Torpağı asanca tərk edənlərin,
Torpağa dönməyi çətin olacaq...

Yer qazıb, dən səpib, arx açacaqmı,
Asfaltın üstündə doğulan uşaq?
Ayağı torpaqdan üzülənlərin,
Torpağa dönməyi çətin olacaq...
Nə çiçək açandı, nə bar gətirən,
Gücünü köklərdən almasa budaq.
Havadan asılı qalan kəslərin,
Torpağa dönməyi çətin olacaq...
Qayğıdan kor qalan körpə gözündə
Sevgilər azalır, nifrətlər artır.
Nazını çəkənlər tapılmayanda,
Görüşlər seyrəlir, həsrətlər artır.
Beləcə yaranır ayrı-seçkilik,
Qəzəblər qızışır, hiddətlər artır.
Varlıyla yoxsulun arasındakı,
Uçurumlar çoxalır, sərhədlər artır.
Görə bilmiriksə bu dəhşətləri,
Beyni küt, gözü kor, qəlbi kar bizik.
Düşməni günahkar tutmağa nə var,
Yüz dəfə, min dəfə günahkar bizik.

Biz niyə görmədik boran qalxacaq,
Qəzəblər kükrəsə daşqın olacaq?
Bizim halımıza məəttəl qalıb,
Yerlər də, göylər də çaşqın olacaq.
Sellərə dönəcək yaş belə getsə,
Nəsillər donacaq qış belə getsə,
Biz niyə bilmədik iş belə getsə,
Millətin yarısı qaçqın olacaq?
Yuxarı baxmadı aşağılara,
Aşağı yuxarıdan üzdü əlini.
Beləcə uçurduq şah Xətainin
Polad özülünü, daş təməlini.
Hər gedən yığışdırdı, yığdı, apardı,
Hər qaçan nə qədər sərvət dağıtdı.

Top da dağıtmazdı bu məmləkəti,
Biri-birimizə nifrət dağıtdı.
Bilmədik, canında hər məhəbbətin,
Ruh var, qohumluq var, qan var, ilik var.
Bilmədik, sonunda hər qaçqınlığın,
İnsanı alçaldan dilənçilik var.
Harda yumulmuşdu gözümüz bizim,
Satqınlar yer satan, göy satan oldu.
Evində ərinə naz satan gözəl,
Gəldi küçələrdə göy satan oldu.
Hər şeyi itirib, dolaşıq salıb,
Şəhərdə şəhəri, kənddə kəndi yox.
Bir qonaq gələndə buyur deməyə,
Naxışlı, aynalı aynabəndi yox.
Qaçqının hər şeyi gedib əlindən,
Hər yerdən üzülüb əli, ətəyi.
Dadı, şirinliyi, kefi, ləzzəti,
Südü, dələməsi, balı, pətəyi.
Dəni, dəyirmanı, unu, urvası
Gülü, gülüstanı gedib əlindən.
Ölüb qocaları yolda qalanda,
Nağılı, dastanı gedib əlindən.
Güyümü, səhəngi, teşti, dolçası,
Yumağı, kələfi, yunu, xalçası,
Alması, armudu, tutu, alçası,
Hər bağı, bostanı gedib əlindən.
İnəyi, camışı, iti, pişiyi,
Zəmisi, tarlası, evi, eşiyi,
Çalısı, çardağı, taxtı, beşiyi,
Otağı, eyvanı gedib əlindən.
Enişi, yoxuşu, dağı, dərəsi,
Cığırı, çəhlimi, bəndi, bərəsi,
Qatığı, qaymağı, balı, kərəsi,
Qayıtmaz dövranı gedib əlindən.

Sürüynən qoyunu, ilxıynan atı,
Naxırnan heyvanı gedib əlindən.
Qızıl üzəngisi, gümüş yəhəri,
Dəlisov köhləni, qaşqa kəhəri,
Qazancı, mayası, barı, bəhəri,
Əlinin qabarı gedib əlindən.
Dırmığı, yabası, beli, kürəyi,
Daxması, sarayı, damı, dirəyi,
Ciyəri, nəfəsi, canı, ürəyi,
Könlünün qubarı gedib əlindən.
Ocaq başındakı, yurd yerindəki
Bal kimi bayatı gedib əlindən.
Oğul şəhid olub, qız əsir düşüb,
Qocası, cavanı gedib əlindən.
Alçalıb, ayaqdan ayağa düşüb,
Başabaş həyatı gedib əlindən.
Kimin ki, daş dəlir nəfsi, tamahı,
Nə insana baxır, nə insanlığa.
İlahi, qaçqının rüzgarına bax,
Öləndə qoymurlar qəbristanlığa.
Yuyulmur cənazə milyon verməsən,
Məsciddə molla da yolundan azır.
Qəbir də tapılmır qaçqın ölüyə,
Rüşvət verən kimi yer olur hazır.
Allahdan istəyir elələri var,
Beyin oda dönsün, baş gərgin olsun.
Allahdan istəyir elələri var,
Lap yeddi milyon da didərgin olsun.
Araz aşığından, Kür topuğundan,
Yer-göy dağılsa da, bir yol çaşmır o!
Bəndə onun üçün çibinə dönüb,
Allahın özüylə hesablaşmır o!
Nə gözü torpağın ağırlarında,
Nə qəlbi millətin əzabındadı.
Başının üstündə dollar yağışı,
Hər gün öz haqqında, hesabındadır!

Millətin evini biganəliklər,
Xalqın sarayını harınlar yıxıb.
Nə çoxdur dağ yeyib, daş üyüdənlər,
Allah yıxmayanı qarınlar yıxıb.
Suyun durulmasın, su bulandıran,
Gör ki, gölməçədən su içmək nədir.
İlanlı çöllərdə ölmək fəlakət,
Yaşamaq ən böyük bir faciədir.
Ev yıxan, evini Allah dağıtsın,
Evi dağılanlar gör nələr çəkir,
Bakı öz içində qovrulub yanır,
Min kəndin yükünü bir şəhər çəkir.
Torpağı düşmənə sovqat verən kəs,
Sən gərək boğazdan asdırılasan.
Heç sənə məzar da qismət olmasın,
Ölsən bu torpaqda basdırılasan!
Torpağı düşmənə bəxşiş verən kəs,
Heç vaxt bağışlamaz bu torpaq səni.
Tanrı qəzəbiyəm, Allah xofuyam,
Şairəm, qarğışım tutacaq səni!
Biz ki, arzuları gözlərdə qoyduq,
Biz ki, çox əlləri üzlərdə qoyduq,
Biz ki, bu milləti düzlərdə qoyduq,
Oldu qanadımız nəfs ilə tamah,
Bizi bağışlama, ey qadir Allah!
Beş yerdən yamanmış ağ örpəyə bax,
Şalvarı cırılmış o körpəyə bax,
Tağları tökülmüş bu körpüyə bax,
Əgər dağılıbsa bu ulu dərgah –
Bizi bağışlama, ay qadir Allah!
Saralan yarpaq var, sozalan gül var,
Gül kimi qızların rəngində kül var.
Həsrətdən alışıb-yanan könül var,
Geciksə dan yeri, ləngisə sabah –
Bizi bağışlama, ey qadir Allah!

Cəbhədə bir yerə yığılmaq olmur,
Millət qoşun olub qara bazarda.
Hər kimi istəsən tapa bilərsən,
Hər kimi istəsən, ara bazarda.
Ötər bülbülləri yaşıl bağların,
Bayquşlar ulaşar xarabazarda.
Mənim dediklərim, demədiklərim,
Özünə əyandı, özünə agah –
Bizi bağışlama, ey qadir Allah!
Bu qədər qan görüb, müsibət görüb,
Hələ də bir yola gəlməmişiksə,
Xalqın yanağını yandıran yaşı,
Yaylığa çevrilib silməmişiksə,
Hamının evində son tikəmizi,
Qardaş malı kimi bölməmişiksə,
Vətəndən, torpaqdan, millətdən ötrü,
Ölümdən yayınıb ölməmişiksə,
Nə varsa yaz bizim ayağımıza!
Günah yaz, günah yaz, günah yaz, günah!
BİZİ BAĞIŞLAMA, EY QADİR ALLAH!!!
BİZİ BAĞIŞLAMA, EY QADİR ALLAH!!!

RƏSUL HƏMZƏTOVA MƏKTUB

Xocalı qırğını ilə bağlı Rəsul Həmzətov Azərbaycan Yazıçılar Birliyinə başsağlığı teleqramı göndərib.

Aldıq başsağlığı teleqramını,
Sağ ol Həmzətoğlu, zəhmət çəkmisən.
Nifrətin, qəzəbin görüb tamını,
Görünür bir az da xiffət çəkmisən.
Əyil, həqiqətin önündə əyil,
Qoy bir ibrət olsun bilənlər üçün.
Sənin başsağlığın təsəlli deyil,
Təhqirdi günahsız ölənlər üçün.

Bu gün yaralıdı qardaşım, bacım,
Saysızdı yurdundan perik olanlar.
Sənin kimilərə yox ehtiyacım,
Sağ olsun dərdimə şərik olanlar.

On səkkiz iyulda sən oldun qənim,
Birinci sən tökdün mənim qanımı.
Hirsimdən indi də əsdi bədənim,
Gizlədə bilmədim həyəcanımı!

Sual ver özünə, nə üçün, niyə,
Düzün tərsə döndü, xeyrin şər oldu.
Məktubun gələndə Nəbi Xəzriyə,
Üzrün günahından beşbetər oldu!

Dostluğu döndərib ocağa, pirə,
Qırx il can eşitdin, qırx il can dedin.

Üzün niyə döndü bəs birdən-birə,
Yaxşı əvəzinə sən yaman dedin?!

Özüm də bilmirəm nə imiş adı,
Bu boyda dönüklük nədən olarmış.
Bir dünya şöhrətli sənət övladı,
Bir dünya şöhrətli nadan olarmış!

Gün kimi hamıya aydındır, aydın,
Mənim tariximə böhtan yazdılar.
O gün mənliyimi tapdamasaydın,
Bu gün qeyrətimi tapdamazdılar!

Sırtıq sifətinə imperiyanın,
Tərsinə açılan şillədi xalqım.
Yalanın, böhtanın, şərin, riyanın,
Qəlbinə tuşlanan güllədi xalqım!

Düşmənin əliylə sinib kamana,
Dostun ürəyinə atılan oxsan.
Min dəfə gəlsən də anda-amana,
Daha bizim üçün dünyada yoxsan!

Düşmənin xeyrinə ötəndə dil-dil,
Diddi qəlbimizi şübhələr, şəklər.
Yəqin sən öləndə məsciddən deyil,
Tabutu kilsədən götürəcəklər!

Qafqazı həmişə içindən oymaq –
Düşmənin bu haqda fikri qətidi.
Bizi özümüzlə üz-üzə qoymaq,
Birinci Pyotrun vəsiyyətidi!

Dağılır qəm-qüssə, çəkilir kədər,
Özgələr vuranda ağrı az olur.

Sənin özününkü vurursa əgər,
Ən yüngül yara da sağalmaz olur!

O gün həqiqətin, doğrunun səsi,
Tərsinə fırlandı, çəpinə döndü.
Məşhur bir müsəlman nümayəndəsi,
Məşhur bir erməni tipinə döndü!

Ogünkü çıxışın qan deyirdi, qan,
O gün Həmzətovun yalan günüydü.
Dağlı papağını dağlar başından,
Dərələr dibinə salan günüydü!

Bircə çıxışınla itirdin onda
Dağlı xəncərinin itiliyini.
Heyif, gözləsək də görə bilmədik,
Həqiqət yolunda qətiliyini!

Güllər döşənərdi qədəmlərinə,
Alqışlar içində itərdin, Rəsul!
Hər dəfə kökünü atıb dərinə,
Hamının qəlbində bitərdin, Rəsul!

Duyğular dönərdi coşqun bir selə,
Vurğundan seçməzdi səni bu Vətən.
Bizim gözümüzdə sən innən belə,
Cansız bir ürəksən, başsız bir bədən.

Mənim tariximi bilmə, nə olar,
Barı aç bir oxu öz kitabını.
Vicdan başın üstə yağdıranda qar,
Dediyin sözlərin çək əzabını.

Ay kimi doğulan, Gün kimi batan,
İmamın gücündən dünya halıydı.

Bilməmiş olmazsan, Şamili satan,
Alçaq bir erməni generalıydı!

Namusdu, qeyrətdi, ismətdi ancaq,
Torpaq da, qadın da, papaq da, at da.
Müqəddəs telləri qoruyammasaq,
Yaşamaq nə lazım bizə həyatda.

Qəbrinə, ruhuna dağ çəkilir, dağ,
Ulu Pənah xanın, İbrahim xanın.
Sən hardan biləsən, getsə Qarabağ,
Beyninə qan sızar Azərbaycanın!

Min dəfə bölünsə bu torpaq, bu yer,
Çətin gözün dola, üzün islana.
Külli Dağıstanı Moskvaya ver,
Güllü Qarabağı Ermənistana!

Xəyanət elədin yurda, vətənə,
Nəsə gözləyirsən əvəzində sən.
Lenin mükafatı az olub sənə,
Nobel mükafatı həvəsindəsən!

Sizdədi ən yaxşı zurnaçalanlar,
Züy tut Silvalara, Balayanlara!
Tapılır yenə də heyran qalanlar,
Dəm ver bayquş kimi ulayanlara!

Qəlbimi, ruhumu külə döndərir,
Haqqı tapdayana namərd haqq verir.
Məni öldürənə silah göndərir,
Məni yandırana yanacaq verir.

Beş ildi Qarabağ alışıb-yanır,
Uçulur, dağılır körpülərimiz.

Nalələr od tutub ərşə dayanır,
Süngüyə taxılır körpələrimiz.

Qatiltək qalsa da həyatda adı,
Hitler eləməyib heç bu qələti.
Kənd-kənd, nəsil-nəsil qırdı, taladı,
Sənin qardaşların bu məmləkəti!

Dünənki həqiqət bu gün nağıldı,
Üzeyir beşiyi yandı, kül oldu.
Xocalı şumlandı, Şuşa dağıldı,
Qarabağ yaralı bir bülbül oldu!

Beş ildə bir dəfə yansaydı canın,
Xəbərdar olsaydın bu ahlarımdan,
Böyükdü ürəyi Azərbaycanın,
Bəlkə də keçərdi günahlarından!

Məni doğramağa, məni kəsməyə,
Yad qılınc olanda, sən bir qın oldun.
Söylə, nə ad verim bu tələsməyə?
Özgə adı yoxdu, sən satqın oldun!

Kükrəyib coşanda qəzəb selləri,
Bir dağın yerində bir tikə qaldı.
Dostumuz çevrildi düşmənimizə,
Ürəkdə əbədi səksəkə qaldı!

Təmizsə nəfəsin, halalsa qanın,
Həmişə ağrısın gərək vicdanın.
Dostluq kitabında Azərbaycanın,
"Həmzətov" imzalı bir ləkə qaldı!

İRANIN AZƏRBAYCANDAKI SƏFİRİ ƏFŞAR SÜLEYMANİYƏ AÇIQ MƏKTUB

Gərək sərhəd gözləsin
Bir dövlətin adından
danışanda elçilər.
Ədəb-ərkan naminə
Ölçüb-biçilməlidir
çərçivələr, ölçülər.
Hər yerdə hər bir zaman
elçiyə hörmət olub.
Hörmət bəzən çevrilib
böyük məhəbbət olub,
bəzən də nifrət olub.
Elçi kimdi, nəçidi,
Baxıb qiymət veriblər
Elminə, ədəbinə,
sözünə, mətləbinə.
Nizamiyə fars dedin,
Şəhriyara fars dedin.
Mənə öz millətimin
tarixindən "dərs" dedin.
Doğrunu tərsə yozdun,
dediyini tərs dedin.
Süleyman Ağa Əfşar!
Maşallah göz dəyməsin,
nə böyük istedadın var.
Bu boyda qəbahəti
dilinə gətirəndə,
Sənin türk olmağına
şübhə yarandı məndə.

Heyif sənin adına,
Sən bu adı almısan
Dəsti-qıpçaq sahibi
bir tayfanın adından.
Bəlkə yoxdu xəbərin
Öz əslindən, soyundan,
qolundan, qanadından.
Əfşar qürur mənbəyim,
İşıq və nur mənbəyim.
Ən böyük günahındı,
öz kökünü danmağın.
Ən böyük qüsurundu
Farsların üfürdüyü
yalana inanmağın.

Sən bu fikrə gələndə
özün-özünü dandın.
Düşdün burulğanlara,
suyun gözünü dandın.

Sən bu fikrə gələndə
Baş sənin başın deyil,
özgələrin başıydı.
Fikrin, hissin, xəyalın
şeytanla yoldaşıydı.
Sənin çəkdiyin nəfəs
yadların nəfəsiydi,
Səs sənin səsin deyil,
özgələrin səsiydi.
Sən bu fikrə gələndə
Həqiqətin yolunda
Dara çəkilənləri
asdın ikinci dəfə.
Babəkin qollarını
kəsdin ikinci dəfə.

Mənim yaramın kökü
dərindədi, dərində,
Sən bu sözü deməklə
Tikanlı məftil oldun
sərhəd dirəklərində.
Elçisən bir dövlətə,
səfirsən səfarətə,
Sənə kim izin verib
Türk ruhunu qarətə.
Mənim qan qardaşlarım
Öz yurdunda qəribdi,
öz torpağında əsir.
Düz iki yüz ildi ki,
Farsın qanlı qılıncı
Türkün başını kəsir.

"Mən sənin dilinə dəymirəm, cəllad,
Gəl mənim bu ana dilimə dəymə.
Sənin də bağın var, bağçan var, çəkil,
Bağımda açılan gülümə dəymə".

Bu alovlu misralar
yəqin sizə tanışdır,
Bu farsa qahmar çıxan,
Əgər hünərin çatır
Bu dərdi çəkənləri
bir-bir dindir, danışdır.
Bu şeiri mən yazmadım,
Əlli il məndən əvvəl
Süleyman Rüstəm yazıb.
Bağrındakı qan seli,
qəlbindəki qəm yazıb.
Tarix çox aparacaq
bu sualı, sorğunu,

“Yandırılan kitablar”
Yandırdı, buğum-buğum
böyük Səməd Vurğunu.
Bu ağrılarla yazdı
Bəxtiyar “Gülüstan”ı.
Çalxaladı Arazı,
titrətdi ürəkləri
Xalqımın ən tufanlı,
ən yaralı dastanı!
Düz iki yüz ildi ki,
İran adlı ölkədə
Türkün bağlıdı bəxti.
Nəyi düz danışmadı
Mötəbər bir kürsüdən
Cavad ağa Dirəxti?!
Ağacın da dili var,
yarpağın da, daşın da,
Balığın da dili var,
böcəyin də, quşun da.
Mənim dilim hanı bəs?
Nə qədər qalmalıdır
dəmir zindan, daş qəfəs?
Farsın tərs qanunları
Qandaldı ayağımda,
qıfıldı dodağımda,
Pərdədi gözlərimdə,
pambıqdı qulağımda.
Dünyanın harasında
otuz uşaq olanda
ona məktəb açırlar.
Elm öyrədir, dil verir,
min bir mətləb açırlar.
Bu gün İranda sayı
otuz milyona çatmış,

Tarixin yaddaşında
möcüzələr yaratmış,
Bir xalqın, bir millətin
Bircə doğma məktəbi,
ana dili yoxdusa,
Öz dənizi, dalğası,
öz sahili yoxdusa,
Öz nəfəsi, öz ruhu,
öz kitabı yoxdusa,
Ruhunun fırtınası,
inqilabı yoxdusa,
Demək, heç nəyi yoxdur,
Həqiqəti talanıb,
demək gerçəyi yoxdur.
Süleyman ağa Əfşar!
Fikrimin bir mətləbi,
sözümün bir canı var.
Sədiyə hörmətim var,
Hafizə məhəbbətim,
Xəyyama rəğbətim var,
Firdovsiyə diqqətim.
Mənim davam, tələbim
Fars adlı xalq ilə yox,
şovinist ruhlarladır.
Türk dilinə susayan
qaragüruhlarladır.
Qayıdıram tarixin
qan-qadalı, gününə,
Qanına qəltan olmuş
Şəhid Səttarxan gəlir,
Mərd Xiyabani gəlir,
Tağı Ərani gəlir
gözlərimin önünə.
Mənim sərt mübarizəm
Ölməz oğullarımı
diri-diri basdıran,

Firudin İbrahimi
boğazından asdıran,
Alçaq, rəzil, amansız,
kəmfürsət düşmənlədir.
Bu müqəddəs savaşda
Mən haqqı çağırıram,
haqqın gücü mənlədir.
Mən də diqqət umuram
Saçından dırnağına
Türk övladı Türk olan,
"Xəmsə"si başdan-başa
yeri-göyü dərk olan,
İlk sətirdən son sözə
sevgi olan, ərk olan
Nizaminin ruhuna,
adına, soyadına.
Heç vaxt gərək getməsin
Haqq nahaqqın badına.
Fars olsaydı Nizami,
Gəncənin bağrında yox,
Tehranda, Xorasanda,
Məşhəddə uyuyardı.
Bu müqəddəs türbənin
bizdə nə yeri vardı.
Fars olsaydı Nizami,
Fars ona deyərdimi
"Türk dili yaraşmaz şah nəslimizə,
Türk dili əskiklik gətirir bizə".
Fars olsaydı Nizami,
Qəzəblə deyərdimi
"Qulluq halqasına düşdü qulağım,
Qan vurdu beynimə, əsdi dodağım".
Fars olsaydı Nizami,
Bərdəyə tərif deməz,
Başqa bir məmləkətin
havasıyla coşardı.

Bəlkə, Bərdəyə deyil,
Şiraza söz qoşardı.
Mən də diqqət umuram
Şəhriyarın ruhuna,
Şəhriyarın şeirinə.
Əgər varsa həvəsin
O solmaz gülüstanın
gəl bir çıxaq seyrinə.
Cənab səfir, sən mənə
bir fars şairi göstər,
"Heydər baba" adında
bir möcüzə yaratsın
Azərbaycan dilində,
könül və can dilində.
Dinsin Allah dilində,
yazsın insan dilində.
Farsın dilində yazan
Azərbaycan şairi
nə qədər istəsən var.
Azərbaycan dilində
farsın bircə şairi
çox çətin ki tapılar.
Cənab, möhtərəm səfir!
Qədim fars tarixini
öz əlinlə varaqla.
Səkkizinci əsrdə
Bir az əlini saxla.
Eynəyi gözünə tax,
O dövrə bir yaxşı bax!
Səkkizinci əsrdən
on ikinci əsrədək
Ərəb dilində yazdı
Bütün fars şairləri,
Bütün fars alimləri,
kimləri və kimləri...

Yalan donu geydirək,
yalandan bir don geyək,
Gəl onda onlara da
ərəb şairi deyək,
Gəl onda onlara da
ərəb alimi deyək.
Dünyanın heç yerində
belə qanun, qayda yox,
Yalandan, yalançıdan
heç bir kəsə fayda yox.
Füzuliyə, Sabirə,
Vurğuna bağlı olan,
Dünyaca adı-sanı,
dəryaca ağlı olan,
Süleymana, Rahimə,
Bəxtiyara can deyən,
Söhraba, Kürçaylıya,
Nərimana, Qabilə,
Nəbiyə, Mədinəyə
canını qurban deyən,
Ömrü boyu Bakıya, –
bu taya həsrət qalan,
Canında həsrət adlı
zülüm, məşəqqət qalan,
Qardaş adı gələndə
qan-yaş töküb ağlayan,
Həsrət şeirlərindən
gül dəstəsi bağlayan,
Azərbaycan şairi
Şəhriyardı, Şəhriyar.
Bilir bunu hər ölkə,
bilir bunu hər diyar.
Bu həmin Şəhriyardı,
Nəsimi bayramına
dəvət etmişdik onu,

Acı göz yaşlarıyla
bitdi dəvətin sonu.
Guya ki, çaşbaş düşüb
yolda dəvətnaməsi,
Əl boyda bir kağızı
Elə batırdınız ki,
hələ də çıxmır səsi.
Həsrətli bir şairin
gözü yollarda qaldı.
Çəkdik ürəyimizdə
bu dərdi, bu ələmi,
Baş tutmayan görüşə
Bir qəm dastanı yazdı
Məmməd Araz qələmi.
"Baxışlar asıldı təyyarələrdən,
Ümidlər yollara sərili qaldı.
Bu ağır xəbərdən, bu nəs xəbərdən
Güllər güllüklərdə dərili qaldı.
Şəhriyar getmədi".
Zəhmət çək, cənab səfir!
Oxu Məmməd Arazın
qəmli sətirlərini.
Bəlkə başa düşəsən
Çəkdiyimiz dərdlərin
Yaralı qollarını,
ağrılı sirlərini.
Həsrətin yaratdığı
qar-boranlı qışa bax.
Şəhriyar dilindəki
Dünya boyda həsrətə,
dərdə, yalvarışa bax.
"Qardaşların gözündən öp,
Bəxtiyarın üzündən öp,
Səmədin də sözündən öp.

Mən də təkəm, sizə qurban,
Tək canım hamınıza qurban".
Möhtərəm, cənab səfir!
Başqa misal çəkməyin
yeri, mənası varmı?

Başını əzsələr də,
Qolunu kəssələr də,
Bu istəkdə, bu dadda,
Bu sığalda, bu adda
Fars türkə yalvararmı?!!!
Necə duya bilərsən
Sən qərib Dirəxtini.
Göy əskiyə bükmüsüz
Xalqının, millətinin
taleyini, bəxtini.
Kimdi haqsız dünyadan
öz haqqını istəyən –
Mənim doğma qardaşım.
Onun müsibətləri
gözlərdən axan yaşım.
Ömrü boyu əlləri
Vətənindən üzülən,
Təbriz, Təbriz deyəndə
Qəlbinin axan qanı
yanağına süzülən,
Vətən adı gələndə
yanıb-yanıb qovrulan,
Ah çəkib, of deyəndə
külü göyə sovrulan,
Qürbət eldə arxasız,
elsiz, obasız qərib,
Qəriblərdən Vətən də,
Allah da üz döndərib.

Dirəxtilər bir deyil,
beş deyil, on beş deyil,
Ortalıqda qalan mal,
çöldə qalan leş deyil.
Daş deyil, qaya deyil,
o da insandır axı.
Onu da ana doğub,
o da bir candır axı.
Könlü, gözü sevinmək,
qəlbi şadlıq istəyir.
Paralanmış, bölünmüş
Yurduna, Vətəninə
Bir bütövlük istəyir,
bir azadlıq istəyir.
Əlli ildə bir dəfə
Mötəbər bir kürsüyə
əli çatıbsa əgər,
Haqqını tələb etmək
ona yasaqdır məgər?!
Evi talanan bilər
ev nədir, eşik nədir,
Körpəsi ölən bilər
körpəsiz beşik nədir?
Çöllərə düşən bilər
yaxın nə, uzaq nədir,
Ocağı keçən bilər
şaxta nə, sazaq nədir?
O, səndən nə istəyir,
azad dil, azad Vətən.
Sən ona nə verirsən –
yağlı şallaq, buz bədən.
O, səndən nə istəyir –
Bəzz qalasına yürüş,
Sən ona nə verirsən –
dar ağacında görüş.

O, səndən nə istəyir –
əbədi azadlığı,
Sən ona nə verirsən –
zülümü, işgəncəni,
ölümü, kasadlığı.
Mən bir Zəlimxan kimi
Öz səsimi qatıram
Dirəxtinin səsinə.
Lənət olsun deyirəm
Bizi sıxan dünyanın
Zülmünə, zillətinə,
qəbrinə, qəfəsinə.
Min dəfə lənət olsun
yağlanmış kəndirlərə!
Qollara kündə-kündə
bağlanmış zəncirlərə!
Min dəfə lənət olsun
Ürəyi parça-parça
dağıdan təhqirlərə!
Qaniçən cəlladların
hirsinə, hikkəsinə!
Qan ilə qazanılan
Varına, dövlətinə,
puluna, sikkəsinə!
Möhtərəm cənab səfir!
Sizi dəvət edirəm
Ruhun, qəlbin, işığın,
Məhəbbət adlı taxtın,
Eşq adlı yaraşığın
Evinə, Məkkəsinə!
Ancaq özündən inci,
etmə heç kəsə acıq.

Durur tövbə qapısı,
Hər bir kəsin üzünə
Hər gün açıqdır, açıq!
Qoy qəlbi nə istəyir
el yazsın, oba yazsın,
İstər daşa, yaddaşa,
istər kitaba yazsın.
Bircə "Heydər baba" yox,
min "Heydər baba" yazsın,
Ruhların, qələmlərin,
dillərin azadlığı.

Heç bəndənin balası
ovçuya ov olmasın,
Dildə qıfıl, canda dərd,
qolda buxov olmasın.
Ayaqda qandal, çidar,
ruhda cilov olmasın.
Yeni bir dünya qursun
ellərin azadlığı.
Birdəfəlik son qoyaq
nifrətə də, kinə də,
Eşqə də meydan verək,
insafa da, dinə də.
Tanrıya da xoş gedər,
onun bəndəsinə də,
Allaha qovuşanda
yolların azadlığı!!!

2006

BİR KÖVRƏK HAVADI SAZIMDA KƏRKÜK

Türkiyə qətiyyət göstərməsə, bizi də itirər,
Türk dünyasını da, özünü də.
Güneyt Avcı,
İraq Türkmən
Federasiyasının başqanı.

Mən ahda, sən amanda,
Halın necədi, Kərkük?
Köhlən atın büdrədi,
Halın necədi, Kərkük?

Atılanlar atılmış,
Satılanlar satılmış,
Ağı-zəhər qatılmış
Balın necədi, Kərkük?

Əl verdin, əl kəsdilər,
Yeridin, yol kəsdilər,
Danışdın, dil kəsdilər,
Lalın necədi, Kərkük?

Yamac yandı, yal yandı,
Dilli susdu, lal yandı.
Çay qurudu, sal yandı,
Salın necədi, Kərkük?

Şər uc-uca calandı,
Xəzinələr talandı.
Dəymişin tapdalandı,
Kalın necədi, Kərkük?

Sənə dil uzadanın
Dilinə dil verdilər.
Sənə əl uzadanın
Əlinə bel verdilər.

Bu gün nalə çəkən yox,
Nərə çəkən gərəkdi.
Haqqı göydən endirib,
Yerə çəkən gərəkdi.

Çəkilməz ağrılarım,
Daşınmaz yüküm haray!
Budanan budaqlarım,
Doğranan köküm haray!

Bu dərd məni oyandı,
Yaman günə qoyandı.
Yenə biz-biz dayandı,
Başımda tüküm, haray!

Dön kəsərli qılınca,
Başı qoyma balınca.
Qarabağın dalınca
Gedən Kərküküm haray!

Tüstüylə, dumanla doldu göyləri,
Bilmədi nə acı, nə şirin oldu.
Nə yaman çeynədi oğuz bəyləri,
İşi iş olmadı, qan-irin oldu.

Hanı muraz alıb, muraz verənlər,
Zay oldu sevgilər, butalar, lələ.
Əlləri qoynunda analar qalıb,
Dirsəyi dizində atalar, lələ.

Məhvə gedənlərin sırasındadı,
Bağrımın sağalmaz yarasındadı,
Gör neçə düşmənin arasındadı,
O çapar, dağıdar, bu talar, lələ.

Qürbət qəm gətirən qəmxanə sözdü,
Vətən işıq sözdü, pərvanə sözdü.
İran da, İraq da əfsanə sözdü,
Türkün başındadı xatalar, lələ.

Düşmən bircə addım çəkilmir
geri,
Günbəgün, aybaay aşır
həddini.
Dağıdın torpağı, qazdırın
yeri,
Məzardan qaldırın
Səlahəddini.
Hanı babaların qüdrəti, hanı,
Ucalsın nərələr, kişnəsin atlar.
Yenidən bürüsün düzü-dünyanı
"Türk" deyə çırpınan qollar,
qanadlar.
Timsahlar tamahı, iştahlar
ağzı,
Nə qədər yesə də,
yeyilməzdi Türk.
Ağrısı nə qədər ağır
olsa da,
Ağrı dağı kimi
əyilməzdi Türk.
Çox başsız başları önündə
əydi,
Başı buludların taxtına
dəydi.

Çürük ağızlarda
çeynənməsəydi
Bəlkə də bu qədər
yeyilməzdi Türk.
Nurunu gün kimi
dünyaya yaydı,
Dünyanı ovcunun
içində saydı.
Tanrıyla könüldən
dost olmasaydı
Tarixdə bu qədər
öyülməzdi Türk.

Fatehin qılıncı pas atdı qında,
Cavabı verilmir bu boyda qəsdin.
İslam qan gölündə, qan dəryasında,
Burnu da qanamır bir xaçpərəstin.

Yeri narahatdı Ərtoğrul bəyin,
Yavuz vüqarının sınan əsridi.
Tərsinə işləyir çərxi fələyin,
Ruhların od tutub yanan əsridi.

Deyəsən, bu əsr Türk əsri deyil,
Türkün qan əsridi, qırğın əsridi.
Bütün düşmənlərin, qaniçənlərin
Türkün torpağına vurğun əsridi.

Zaman işimizi döndərdi tərsə,
Yağılar içində yarıyan olmur.
Vətəni qürbətə döndərdilərsə,
Ölsən də, yaranı sarıyan olmur.

Bir kövrək havadı sazımda Kərkük,
Dönüb kövrəkdən də kövrək olubdu.

Nə əlim yetişir, nə ünüm çatır,
Yarası qan verən ürək olubdu.

Yaxın ola-ola uzaqdan uzaq,
Vətən ola-ola qürbət olubdu.
Evinin içində talesiz qonaq,
Ömrü də, günü də həsrət olubdu.

Dillənən mizrabdı, simdi, bilmirəm,
Onu dilləndirən kimdi, bilmirəm,
Haqdan işarədi, himdi, bilmirəm,
Kövrək bir havadı sazımda Kərkük.

Gah gözdə nisgilə, ələmə dönür,
Gah yara üstündə məlhəmə dönür,
Qəmə dastan yazan qələmə dönür,
Kövrək bir havadı sazımda Kərkük.

Bağımda gül kimi bitirəmmirəm,
Qaçıram, hayına yetirəmmirəm,
Sevincin kökünə gətirəmmirəm,
Kövrək bir havadı sazımda Kərkük.

Sorağı Dəclədən, Fəratdan gəlir,
Külüngün səsidi, Fərhaddan gəlir,
Dərdli bir anadı, fəryaddan gəlir,
Kövrək bir havadı sazımda Kərkük.

Ahı dağa qalıb, dumana qalıb,
Səsi neyə qalıb, kamana qalıb,
Üzünün gülməyi gümana qalıb,
Kövrək bir havadı sazımda Kərkük.

Üzünə gülmədi bir qaya, bir daş,
Qəribə həmdəmdi, qürbətə sirdaş.

Atamdı, anamdı, babamdı, qardaş,
Kövrək bir havadı sazımda Kərkük.

Zəhərli bir aşı var, bəlalı başı,
Qurumur, bəslənmir gözümün yaşı.
Qoca Borçalının tale qardaşı,
Kövrək bir havadı sazımda Kərkük.

Hardasan Türk oğlu, harda yatmısan,
Dövlətlər quranda baban yatmadı.
Hər günü bir tarix, bir şanlı dastan,
Türk hansı iqlimdə at oynatmadı?

Keçmişə güvənmək bir təsəllidi,
Yapışma tarixin daş yaxasından.
Türk oğlu, düşmənin bizə bəllidi,
Qurtar Kərkükümü dərdin yasından.

Nə yasına çatdıq, nə də toyuna,
Səni aparırlar qırğına, qana.
Astaca-astaca salıb oyuna,
Səni də udacaq bu qumarxana!

Gecə nigaransan, gündüz narahat,
Sənin də qanına susayır həyat.
Ağlayır Füzuli, ağlayır Bayat,
Övladı bağrına basmasa ana –
Səni də udacaq bu qumarxana!

Qapılar dalında çürüdəcəklər,
Ağlada-ağlada kiridəcəklər,
Yandıra-yandıra əridəcəklər,
Dar gündə üzünü döndərib yana –
Səni də udacaq bu qumarxana!

Mən də sizin kimi yaslı-yaralı,
Mən də sizin kimi yurddan aralı,
Vətəni qürbətə dönənlərdənəm,
Od gözümdən çıxır, tüstü başımdan.

Alışa-alışa sönənlərdənəm,
Kərkük nə deməkdi, Bayat nə demək,
Tərsinə işləyən saat nə demək –
Onu Borçalıda doğulan bilər.
Hər gün yavaş-yavaş solan, sozalan,
Göz yaşı içində boğulan bilər.
Mən yaxşı bilirəm, can yandıran dərd,
Yanaqdan süzülən yaş nə deməkdir.
Günahsız, şahidsiz və məhkəməsiz,
Bədəndən üzülən baş nə deməkdir.
Hər dərd bir qaladı, durub yan-yana,
Çiynimdə gəzdirirəm qalalarını.
Hər dərd bir Kərbala müsibətidi,
Qəlbimdə çəkirəm bəlalarını.
Qırılan, incələn, sınan görürəm,
Vətənin günahsız balalarını.
Ağrılar milləti yığacaq cana –
Əlli tərpənməsən, möhkəm durmasan,
Səni də udacaq bu qumarxana!

Kökündən ayrılan budaq kimisən,
Budaqdan üzülən yarpaq kimisən,
Davası-savaşı kəsmək bilməyən,
Üstündə qan düşən torpaq kimisən.
Döndü qonaqların ev sahibinə,
İndi öz evində qonaq kimisən.
Qisməti atəşə, oda verilən,
İblis fitnəsiylə, şeytan şəriylə
Doğmadan ayrılıb yada verilən,
Atasız, anasız uşaq kimisən.

Dəryada gəmitək batıracaqlar,
Səhrada qum kimi qovuracaqlar,
Sən sahib olmasan od-ocağına,
Külünü göylərə sovuracaqlar.

Dünyanın hər dərdi tanışdır bizə,
Alçağı, namərdi tanışdır bizə,
Əsirlik, əsarət tanışdır bizə,
Xəbislik, xəyanət tanışdır bizə.
Dərd harda başlanıb, harda bitəcək,
Sonu da, ilki də tanışdır bizə.
Pələngi pişiyə döydürür zaman,
Çaqqal da, tülkü də tanışdır bizə.
Türkün talan olmuş yurd-yuvası da,
Dağılan mülkü də tanışdır bizə.

Görmüşük gözləri çıxan qardaşı,
Hökmü, ixtiyarı yadlar əlində.
Bu taydan o taya əli çatmayan,
O taydan bu taya baxan qardaşı.
Yarası qan verən Kərküküm mənim,
Köməyə çağıra bilmirsən bu gün
Nə Sultan qardaşı, nə xan qardaşı.
Arxasız olmağın dərdi böyükdür,
“Ay arxam, ay arxam!” – deyib ağlaram.
Dərd dərdə, qəm qəmə, yaş yaşa yükdü,
“Vay arxam, vay arxam!” – deyib ağlaram.
Sənin dördmisralıq bir xoyratını
Hər səhər, hər axşam deyib ağlaram.

Necə dağlar,
Qarşıda necə dağlar.
Yetim yanağı bilir,
Yaş gözü necə dağlar.

Yox, sənin xeyrinə işləmir zaman,
Tərsinə qurublar saatı, Kərkük.
Sənin müşkülünü düzəldən deyil,
Nə xoryat, nə də ki bayatı, Kərkük.

Taleyi sınaqda, işi dardasan,
Hər gün çəkdiyimiz ahü zardasan,
Dünən harda idin, bu gün hardasan,
Bilmək çətin olur həyatı, Kərkük.

Qarnı ac olanlar, doyar, dincələr,
Doydurmaq çətindi gözü acları.
Sənin ölümünə hazırlıq görür,
Edam kötükləri, dar ağacları.
Ətək də doludu, əl də doludu,
Başına yağmağa daşlar müntəzir.
Qılınclar ağzına zəhər veriblər,
Başını kəsməyə başlar müntəzir.
Dil necə danışsın, göz necə görsün,
Bir başsan, bədəndən ayrı düşmüsən.
Sənə qürbət kimi baxırıq bu gün,
Vətənsən, Vətəndən ayrı düşmüsən.
Hər gün unudulur, qeybə çəkilir,
Kişi oyunları, mərd oyunları.
İndi başqa cürə oynanır, lələ,
Şahmat oyunları, nərd oyunları.
Usta hazırlanıb, asta qurulub,
Quzu oyunları, qurd oyunları.
Nə türkün, nə kürdün günahı yoxdu,
“Ağ ev”dən başlanır, “Ağ ev”dən gəlir
Bu Türk oyunları, kürd oyunları.
Türkün başındadı, Türkün başında,
Ərəb oyunları, fars oyunları.
Tərs oğlu tərslərin meydanı geniş,
Gətirir başına tərs oyunları.

Hər gün sənin taleyini düşünürəm,
Ağır gündə üstünü od alan Kərkük.
Öndə qatil, solda düşmən, sağda yağı,
Yurd-yuvası, el-obası talan Kərkük.

Dərdlərini zirvələrə tən bilirəm,
Əzabını saçlarıma dən bilirəm.
Borçalıyam, nə çəkirəm mən bilirəm,
Borçalıtək könül varı talan Kərkük.
Beş yüz ildi Boyat səndə,
Nəsim səndə,
Məndən qopan ruhum səndə,
səsim səndə.
Gəl qovuşaq, qurbanımı
kəsim səndə,
Bəd xəbərlər yalan olsun,
yalan, Kərkük.

Əvvəlkitək vuran əlim
yoxdu hələ,
Qılınc çəkib, coşan dəlim
yoxdu hələ,
Fateh yoxdu, Sultan Səlim
yoxdu hələ,
Gözlə görək, gözü yolda
qalan Kərkük.

Harda zor var, orda xəbis
barmağı var,
Harda səs var, orda iblis
barmağı var.
Taleyində bir ingilis
barmağı var,
Qızıl ilan qismətini
çalan Kərkük.

Qarabağ da Ərbil, Mosul
talelidi,
Ruhu girov, özü yoxsul
talelidi.
Əzilənin taleyi qul
taleyidi,
Yıxdı səni filan oğlu,
filan, Kərkük.

Dönə-dönə sındırıblar
inadını,
Uça bilmir, tale qırıb
qanadını.
Məkkə bilib öz adını,
soyadını,
Namazını Türkə sarı
qılan Kərkük.
Cəllad deyək, yağı deyək
bəxtimizə,
Ömrün qara çağı deyək
bəxtimizə,
Layla çalaq, ağı deyək
bəxtimizə,
Sən anam ol, mən də sənin
balan, Kərkük.

SÜRGÜNLƏ SÖHBƏT

QÜRBƏTDƏ GÖRÜŞ

1991-ci ilin qış günləri idi. Dostlarım məni Qazaxıstanın Çu vilayətinə görüşlərə dəvət etmişdilər. XX əsrin 30-50-ci illərində Azərbaycanın və Gürcüstanın müxtəlif yerlərindən sürgün olunan soydaşlarımız, əsasən, o yerlərdə məskən salmışdılar. Tale belə gətirdi ki, sürgündə olan əzizlərimizlə aradan 18 il keçəndən sonra yenidən görüşməli oldum. Bu dəfə Qırğızıstanın qəsəbə və kəndlərində.

Uşaqlıqdan böyüklərimdən ən çox eşitdiyim sözlərdən biri də "sürgün" sözü olub. Çünki anamın atası Sərdaroğlu Qurbanı 1937-ci, atamın əmiləri İlyas və Əziz babalarımı isə 1951-ci ildə Orta Asiyaya sürgün eləmişdilər. Sürgündə olanların yarası mənim üçün doğma və tanış yaradı. Şamil babam sürgünlə bağlı nağıl qədər şirin, dastan qədər maraqlı söhbətlərlə qış gecələri mənim körpə xəyalımı o illərə aparar, mən də uşaq marağı ilə sualı sual dalınca yağdırardım. Nə mən sual verməkdən doyar, nə də babam cavab verməkdən yorulardı.

Anam on yaş olub, babam gedəndə,
Düz səksən ildi ki, anam ağlayır.
Qərib də eşitdi, qürbət də duydu,
Vətən də bildi ki, anam ağlayır.

Ağlayan tək mənim anam olmayıb,
Hər kəsi dəhşətli bir gün ağladıb.

Vətəndə qalanı yollara baxmaq,
Vətəndən gedəni sürgün ağladıb.

Sürgün – doğmaların ayrı düşməsi,
Kökün budağından aralanması.
Qumlu səhralarda ağır dərdlərin
Dəvə karvanıtək sıralanması.

Qara mürəkkəblə, qara qələmlə
İqbal kitabının qaralanması.
Padşah fərmanıyla, cəllad əliylə
Millətin əbədi yaralanması.

Eşitdilər ki, Azərbaycandan gələn var. İllərlə Vətən həsrəti ilə qıvrıla-qıvrıla ömür sürən insanlar görüşə can atırdılar: Vətəndən gələnin səsini eşitməyə, hənirini duymağa, nəfəsini ciyərlərinə çəkməyə. Ən azı Vətənin bir parçası kimi məni görmək istəyirdilər. Bu görüş qəmin-həsrətin, ağrı-acıların, göz yaşlarının, hıçqırtıların, tükənmək bilməyən arzuların, xəyalların görüşü idi. Hər gələnlə əl verib görüşürdük. Hər görüşən neçənci ildə, haradan sürgün olunduğunu deyir, özünü təqdim edirdi. Gələnlərin içində gözüm bir nəfərə sataşdı. Uca boylu, ağbəniz, ötkəm yerişli bu adam mənə çox şəstlə yanaşdı. Əllərimi möhkəm sıxıb məni bağrına basdı: – Biz Qaryagin (əsl adı Bayat – indiki Füzuli) rayonundan sürgün olunmuşuq, əzizim. Kərimbəyli kəndindən. Kərim bəy mənim doğma babamdı. Bəy nəsli olduğumuz üçün bizi nəsilliklə sürgün etdilər. Yollarda atam, qardaş və bacılarım aclığa, məşəqqətə dözə bilməyib, hamısı ölüb, cənazələri qurd-quşa yem olub. Təkcə anam sağ qalıb. Qatar bura çatmağa bir həftə qalmış mən anadan olmuşam. Anam adımı Sürgün qoyub. Mən qürbətdə dünyaya göz açmışam. Qürbətdə qərib kimi doğulmuşam.

Talesiz talelər qalmışdı darda,
İnsafdan aralı, mürvətdən uzaq.
Səhralar qoynunda gedən qatarda
Dünya dərd doğurdu, analar uşaq.

Oğrular, əyrilər keşik çəkirdi
Həqiqətlər üstə, doğrular üstə.
Torpağın üstüylə getmirdi qatar,
Yeriyib gedirdi ağrılar üstə.

Harda səhra varsa, orda ilan var,
Harda ilan varsa, orda çalan var.
Harda alçaldanı varsa dünyanın,
Orda bir məhv olan, bir alçalan var.

Təhqirlər eşitdik, tənələr yedik,
Anam xan nəvəsi, atam bəy oğlu.
Kimə ki, "ellərin atası" dedik,
Çıxdı sonumuza bu köpəyoğlu.

Dərdini fil elə, özünü milçək,
İnsanı xırdala, əz böcək kimi.
Milləti top kimi oynat yerindən,
Çax ildırım kimi, yax şimşək kimi.
Bağla qapısını, qır ümidini,
Xalqı evdən elə, eşikdən elə.
Südəmər körpəni ayır döşündən,
Bələkdən ayrı sal, beşikdən elə.
Çırağını söndür, işığını kəs,
Yerini daş elə, yurdunu məhbəs,
Səsində ötkəmdi – cəzası sürgün!
Sözündə möhkəmdi – cəzası sürgün!
Varı-dövləti var – cəzası sürgün!
Şanı-şöhrəti var – cəzası sürgün!

Evi qonaqlıdı – cəzası sürgün!
Başı papaqlıdı – cəzası sürgün!
Buydu mənzərəsi o sərt illərin –
Mərdi qova-qova namərd eləyən
Namərd adamların, namərd illərin...

Qocanı, körpəni almırdı vecə,
Gecə döyülürdü qapılar, gecə.
Qara əllər ilə qara əməllər
Gecənin nurunu itirirdilər,
Qara xəbərləri, bəd xəbərləri
Hara lazımdısa yetirirdilər.
Qoyun sürüsüydü insan elə bil,
Hayana desələr aparırdılar,
Nə vaxt istəsələr başı bədəndən,
Dili dilçəyindən qoparırdılar.
Həqiqət paltarı geydirib şərə,
Ən böyük səhvlərə səhv demirdilər.
Bir nəsil batsa da köklü-köməşli,
Birinə ah çəkib, öf demirdilər.
İnsan üyüdürdü dən əvəzinə,
Dəyirman kimiydi dəmir yolları.
Hər gün yem olurdu buza, şaxtaya,
Hər gün pay olurdu daşa, taxtaya,
Ölümlə bitirdi ömür yolları.

Dünyanın ən böyük bir qatiliylə
Bu dünya üz-üzə, göz-gözə idi.
Mənim kimilərin doğulmağı yox,
Salamat qalmağı möcüzə idi.

Anası ölənlər ana gəzirdi,
Ata itirənlər ata gəzirdi.
Hər addım başında ölüm axtarır,
Hər yerdə insanı xata gəzirdi.

Beş gün ayrılanda öz ocağından
Darıxır, təntiyir, gəzəmmir adam.
Həyət-bacasından, daş-torpağından
Uzağa düşəndə dözəmmir adam.
Yetmiş il qürbətə dözmək olarmı?
Yetmiş il Vətənsiz gəzmək olarmı?
Ayrılıq sahilsiz dənizə bənzər,
Bu qədər qol atıb üzmək olarmı?
Balıqlar içində xırda balıqsan,
Böyük balıqlara yem olacaqsan.
Vətəndə böyüyüb Vətən olarsan,
Qürbətdə böyüyüb kim olacaqsan?
Suallar ağrılı, cavablar çətin,
Gəl tap cavabını bu məşəqqətin.
Qürbətdə doğulan, zillətdə ölən,
Həsrətlə qocalıb, qarıyanım vay.
Yara sağalmırsa həkim neyləsin,
Sağalmaz yaranı sarıyanım vay.
Bizə qara günü bol verdi Allah,
Ağ gündən bir azca pay saxlamadı.
Nə vaxt əl vurursan tökülür qanı,
Heç zaman yaramız qaysaqlamadı.
Bir deyil, beş deyil, on deyil yara,
Köhnə sağalmamış təzəsi gəlir.
Elə bil içərdə duz dağımız var,
Kirpiyə duz dolur, gözə su gəlir.
Oğul istəyirəm bir əsər yaza,
Qoya adını da "Yara tarixi".
Bircə günümüzü ağardammadı
Bu qara dövranın qara tarixi.
Toyda da, yasda da yandırır bizi
Köhnə dəmir kimi qızan yaralar.
Kəsmir ağrısını, sızıltısını
Qanı damla-damla sızan yaralar.

Dəli küləklərin yeminə dönüb,
Qum kimi çöllərə səpələnmişik.
Qanlı sinəmizdən güllələr keçib,
Sökülüb, tökülüb qəlpələnmişik.
Bizi birləşdirin, bütövləşdirin,
Biz ki, parasıyıq Azərbaycanın.
Bir Vətən məlhəmi sağalda bilər,
Duzlu yarasıyıq Azərbaycanın.
Gözüm uzaqdadı, əlim çənəmdə,
Ağrılar içində inləyən mənəm.
Bir dərd dastanıdı – hey varaqlanır,
Danışan Sürgündü, dinləyən mənəm.

SÜRGÜN QATARI

Çiyni tüfənglilər, əli qanlılar,
Allahlıq eləyir, baş aparırdı.
Elə bil sürgünə gedən qatarlar
Özüylə insan yox, daş aparırdı.

Yumağa su yoxdu, bükməyə kəfən,
Ölənin qəbrini qazan kim idi.
Mərhumun adını daşa, taxtaya
Yazdıran kim idi, yazan idi.

Sərçə ölümüydü insan ölümü,
Bir-bir atırdılar qatardan çölə.
Belə olmamışdı tarixlər boyu
Nə əsir, nə nökər, nə qul, nə kölə.

Yeməyə çörək yox, geyməyə paltar,
Yatmağa döşək yox, örtməyə yorğan.
Hər yandan gözünü ağardır ölüm,
Arxada uçrum var, qarşıda yarğan.

Sürgün qatarına yükləmişdilər
Malı da, atı da, qoyunları da.
Qumara qoymuşdu xalqı, milləti
Oyunbaz zamanın oyunları da.

Yardıma gücü yox, köməyə əli,
Yaxının neyləsin, yadın neyləsin.
Atanın, qardaşın, ərin yanında
Xiffətdən ölməsin, qadın neyləsin.

Allaha çatmırdı ahlar, amanlar,
Şeytan öz işində, öz əməlində.
Acından ölmürdü, aclıqdan betər
Həyadan ölürdü qız da, gəlin də.

Qocalar bükülür xəcalətindən,
Bürüşüb bir küncə qısılı qalır.
Heç yana yetişmir hayı-harayı,
Bir ümid telindən asılı qalır.

Utanır qaynından, qaynatasından,
Gəlin körpəsini əmizdirəmmir.
Bala dodağına ana döşündən
Bir damla südünü damızdırammır.

Dağlara, daşlara naz eləyənlər,
Göydəki quşlara naz eləyənlər,
Doğan ulduzlara, batan Aylara,
Yağan yağışlara naz eləyənlər,
Əli telli saza yetişməyəndə
Çöldə çomağını saz eləyənlər,
Bir qız baxışından alışıb-yanıb
Bağrının başını köz eləyənlər,

Baxıb bir-birinə çeşmə başında
İşarə vuranlar, göz eləyənlər,
Gözləri göylərdən yığışmayanlar,
Yerlərə, göylərə sığışmayanlar,
Necə çırmalansın, necə yığışsın,
Bu dar vaqonlara necə sığışsın.
Zirvənin qartalı vaqon içində,
Dağların maralı vaqon içində,
Çöllərin ceyranı vaqon içində,
Ceyranın heyranı vaqon içində.
Sevən oğulların qolları bağlı,
Dünya gözəlləri vaqon içində.

Duyma, fikirləşmə, dön daşa burda,
İndi oğulsansa döz, yaşa burda.
Gözünü kor elə, qulağını kar,
Ver bu alçaqlarla baş-başa burda.
Zamanın ən oğraş oyunu gedir,
Dünyada ən alçaq tamaşa burda.

Siyasət məkriylə, şeytan gücüylə
Böyük bir ölkəni saldı toruna.
Min lənət şərinə 37-nin,
Min lənət o vaxtın gorbagoruna.
Nə ölən dirilər, nə gedən gələr,
İtən oğulları hardan alım mən.
Dağda qaya kimi, şah palıd kimi
Bitən oğulları hardan alım mən.
Millət oğulları, xalq oğulları,
Vətən oğulları hardan alım mən.
“Ağcaqum çölündən qatar düz gedir”,
Mənim taleyimdən xəbərsiz gedir.

Sürgünə qatar gedər,
Dərdə üz tutar gedər.
Bu qatarı sürənlər
Günaha batar gedər.

Canımızdan can gedər,
Bu qatarda qan gedər.
Canilər keşik çəkər,
İçində bəy, xan gedər.

Qatarda gülüm gedər,
Boyu bükülüm gedər.
Qovrulub qora dönnəm,
Sovrulub külüm gedər.

Telləri sonam gedər,
Qatarda anam gedər.
Dərd adlı, qəm nişanlı
Yüküm, barxanam gedər.

Bu qatar ilan qatar,
Qıvrılan, çalan qatar.
Ölümü, yası gerçək,
Sevinci yalan qatar.

Qatarın istisi yox,
Bacası, tüstüsü yox.
Qucaqda körpə donub,
Yumağa isti su yox.

Daş sudu, taxta sudu,
Bu qatar şaxta, sudu.
Gedənləri donduran
Həsrətin şaxtasıdı.

Sibirə varan qatar,
Səhralar yoran qatar,
Belin niyə sınmadı,
Belimi qıran qatar.

Bu qatar dərd qatarı,
Rüzgarın sərt qatarı.
Namərd ağ günə sürməz,
Hardadı mərd qatarı.

Nənələr, babalar, qızlar, oğullar,
Yel kimi sovruldu, küləyə getdi.
Sürgün qatarında kimlər getdisə,
Düşdü təxribata, kələyə getdi.

Heyif boz çöllərə dağılanlara,
Su kimi gözündən soğulanlara.
Heyif doğanlara, doğulanlara,
Zəhməti puç oldu, fələyə getdi.

Qurumaq bilmədi kirpikdə nəmlər,
Oynatdı atını könüldə qəmlər.
Yelləndi ürəkdə dərdlər, ələmlər,
Selləndi belədən beləyə getdi.

Həsrəti dağlardan ağır analar,
Əli işləməkdən yağır analar,
Körpə əvəzinə fağır anlar
Dərdini bələyə-bələyə getdi.

Suçu yox boynunda suç olanların,
Sayı yox yollarda köç olanların.
Ağladı anası qoç olanların,
Quzutək mələyə-mələyə getdi.

SÜRGÜNDƏ CAN VERDİ CAVİD ƏFƏNDİ

Atasının sürgündə faciəli ölümündən danışan bir qadın məni heyrətə gətirdi. İlahi! İnsan insana necə oxşayarmış. Təkcə talecə yox, həm də görkəmcə. Gözümün önündə Turan Cavid idi ki, durmuşdu. Bu gözlənilməz mənzərə məni istər-istəməz bir anlığa Türküstandan Bakıya – Turan xanımla bir söhbətə qaytardı.

...Qışın şaxtalı vaxtlarıydı. Günlərin bir günü Cavid Əfəndinin gözünün nuru, bağrının parası Turan xanımla Cavidin ev-muzeyində söhbət edirdik. Söhbətin elə bir anı gəlib çatdı ki, mən cəsarət edib Turan xanıma belə bir sual verdim: "Turan xanım, siz həyatda çox ağrılı-acılı günlər yaşamısınız. Cavidin sürgünü, Ərtoğrulun vaxtsız ölümü, Mişkinaz xanımın itkisi. Sizin üçün həyatda ən ağır, ən çətin şey nədir?" Turan xanımın cavabını olduğu kimi yazıram: "Zəlimxan, mənim üçün həyatda ən ağır iş, ən çətin şey o oldu ki, ömrüm boyu gözüm yollara baxdı, gözlədiyim gəlib çıxmadı".

Qürbətdə can verdi Cavid Əfəndi,
Qaldı atasından Turan xəbərsiz.
Tayqada təklənən türkün ruhundan,
Türküstan xəbərsiz, Turan xəbərsiz.

Vaxtın sazağıdı qəlbi üşüdən,
Heyif sənə, – dedi, – bilən, eşidən.
"Peyğəmbər" əsəri yazan kişidən
Peyğəmbər xəbərsiz, Quran xəbərsiz.

Min oğul məhv olur bir qəm əlindən,
Toxum bitirmədi yer qəm əlindən.
Ərtoğrul nə çəkdi vərəm əlindən,
Sibirdə at çapan boran xəbərsiz.

Eh, onda kim kimdən xəbər tuturdu,
Maqadan hardadı, Bakı hardadı,
Kim hansı iqlimdən xəbər tuturdu.
Bir oğul dünyadan köçüb gedəndə
Bir ana yas tutub ağlamadısa,
Bir bacı saçını yellərə verib,
Ah çəkib, qaralar bağlamadısa,
Dərdə şərik olub, xalqı, milləti,

Yasın sahibini yoxlamadısa,
Qalan da yazıqdı, gedən də yazıq,
Qürbət də yazıqdı, Vətən də yazıq.
Ruh candan ayrılıb sakit olmasa,
O ruh da yazıqdı, bədən də yazıq.

Bir deyil ki, ürəyini üşüdən,
Qəribləri nələr, nələr üşütdü.
Qış soyutdu, qar keyitdi, buz kəsdi,
Can evini viranələr üşütdü.

Gözündəki eynək oldu şairin,
Qəlbindəki göynək oldu şairin.
Payı qanlı köynək oldu şairin,
Müdrikləri divanələr üşütdü.

Yüz də söylə, dərdi qanan kimdi, kim,
Canın çıxsa canı yanan kimdi, kim.
Nadan üçün Şeyx Sənan kimdi, kim,
Eşq əhlini biganələr üşütdü.

Nə olsun ki, doğdu Günəş, sökdü dan,
Nuru bizə sızmadı ki, sızmadı.
Od tapanda hərdən ocaq qaladıq,
Heç canımız qızmadı ki, qızmadı.

Saldı qanı, verdi yası, ələmi,
Qaranlığa qərq elədi aləmi.
Böhtan yazdı müxənnətin qələmi,
Xeyrimizə yazmadı ki, yazmadı.

Şeytan nəsli bizdə gördü günahı,
Açılmadı ömrümüzün sabahı.
Fərman verdi yer üzünün "allahı",
Yazdığını pozmadı ki, pozmadı.

TURANIN YOLLARA BAXAN GÖZLƏRİ

İtirdi nurunu şair gözləri,
Adına böhtanlar deyildi getdi.
O dərdi yedikcə dərd onu yedi,
Hər gün tikə-tikə yeyildi getdi.

Baxmadı Allaha, Tanrıya, dinə,
İblislər güc verdi nifrətə, kinə.
Nəsimi çox baxdı öz dərisinə,
Cavid içəridən soyuldu getdi.

Min lənət zalıma, min lənət şərə,
O yağı kəsildi külli-bəşərə.
Bir səma şairi enəndə yerə,
Dağlar parça-parça oyuldu getdi.

O gün nalə idi qalxan, yüksələn,
Könül fəryadıydı qulaqlar dələn.
Qədim Naxçıvanda dünyaya gələn,
Sibirdə torpağa qoyuldu getdi.

Heyif, itən səslər, batan soraqlar,
Heyif, solan sözlər, yanan varaqlar,
Heyif, susan dillər, sönən ocaqlar,
Cavidi qoruya bilmədinizmi?

Ürəyi yarpaqdan betər əsənlər,
Zamandan inciyib, vaxtdan küsənlər,
Ey odun doğrayıb, ağac kəsənlər,
Cavidi qoruya bilmədinizmi?

Şairin qəlbində bir kainat var,
Sınmaz iradə var, yanmaz qanad var.
Onun ürəyində gör neçə çat var,
Solğun gözlərindən duymadınızmı?

Namərd mərd olanı satdırar yada,
Çəkər kişiləri min qan, min qada.
Bu boyda şairə böyük dünyada
Bir parça azadlıq qıymadınızmı?

Ey "ellər atası", ellər cəlladı,
Bu qədər sürgünün nə imiş adı.
Nə qədər şirinmiş bu qanın dadı,
Cavidin qanından doymadınızmı?

Vaxtın Mişkinazdan üzü dönəndə,
Cavan Ərtoğrulun ruhu sönəndə,
Turanın tərlanı göydən enəndə
Milləti şairsiz qoymadınızmı?

O dad qayıdacaq, o tam gələcək,
Ya möhlət alacaq, ya tam gələcək.
Gələcək deyərdi, atam gələcək,
Turanın yollara baxan gözləri.

Həsrəti gör neçə qərinə çəkdi,
Dərdi kotan kimi dərinə çəkdi.
Yetmiş il gözlədi, görün nə çəkdi,
Turanın yollara baxan gözləri.

Yaxınları gördü, yadları gördü,
Gördü qəmginləri, şadları gördü.
Hər cür alovları, odları gördü,
Turanın yollara baxan gözləri.

Zaman çalxasa da safı, durunu,
O, uca saxladı öz qürurunu.
Atanın yolunda verdi nurunu,
Turanın yollara baxan gözləri.

Məsum baxışlara dərd necə qıydı,
Ürək ağrısıydı, könül yasıydı.
Bütün qəriblərin qəm yuvasıydı
Turanın yollara baxan gözləri.

QAZAX DEYƏ-DEYƏ AĞLAYAN QADIN

Bənzəyir başına qar yağmış dağa,
Nurani bir ana qalxır ayağa.
Hər damla gülləyə, mərmiyə dönür,
Gözündən od kimi çıxır, ağlayır.
Özüylə, sözüylə bacara bilmir,
Dişi dodağını sıxır, ağlayır.
Dinəndə dilində sözü qırılır,
Sözü qura-qura danışır qadın.
– Ay oğul, Qazaxlı qızıdır anam,
Ələğa nəsliyəm, Şıxlılardanam!

Anam vurğunuydu Səməd Vurğunun,
Əzbər oxuyurdu "Azərbaycan"ı.
Vətən həsrətiylə üzüldü canı,
Payız yarpağıtək saralı getdi.
Elə Qazax dedi, Qazax eşitdi,
Düşdü el-obadan aralı getdi.
Gözündən köksünə yaş dama-dama,
Damcılı bulağın maralı getdi.
Babası Vətənə şöhrət olanın
Nəvəsi qürbətdə yaralı getdi.

...Qadının gözünü yaş tutdu, boğazını qəhər. Söz dilində qırıq-qırıq, cümlə dodağında çilik-çilik oldu. Ölüm ayağında anasının korun-korun yanan ocaq kimi tüstülənə-tüstülənə oxuduğu bayatıları xatirinə gətirib, onları öz diliylə "anam belə deyərdi", – deyib gümüldənə-gümüldənə oxumağa başladı:

Yüz də var,
Doxsan da var, yüz də var.
Demə daş möhkəm olur,
Daşdan möhkəm üz də var.

Ulu dağlar,
Çeşməli, sulu dağlar.
Qərib yerdə ölənin
Üstündə bulud ağlar.

Daşda məni,
Daş götür daşda məni.
Qəmli yerdən kağız var,
Yazıblar başda məni.

Hamı susmuşdu. Sükutu pozan təkcə ananın səsiydi. Gərək daş olasan ki, ürək bu səsin şiddətindən parça-

parça olub yerə tökülməyə. O, bütün sürgün görən anaların gözüylə ağlayır, bütün dərdli anaların diliylə danışırdı. Hamının göz qapaqları enmişdi. Anaya qulaq asa-asa hərə öz içiylə danışırdı. Hər kəsin öz içində gedən danışıqlarını dünyanın heç bir bəstəkarı öz bəstəsiylə, dünyanın heç bir şairi öz şeiriylə ifadə edə bilməzdi. Gözüylə, kirpiyiylə odlar görmüş ananın qürbətdə mələr qalmış elsiz-obasız, arxasız, köməksiz balası danışırdı. Danışırdı ki:

Gözümüz yolda qalıb,
Gələn unudur bizi,
gedən unudur bizi,
Biz Vətənə neylədik,
Vətən unudur bizi.
Niyə yaddan çıxarır,
nədən unudur bizi.
Üzünü mənə tutur,
bəlkə, günahkar mənəm.
Bəlkə, bu məşəqqətə
Qəlbi, ruhu biganə,
qulaqları kar mənəm.
Səslənib – duymamışam,
çağırıb – gəlməmişəm.
Onun haqqı yolunda
vuruşub ölməmişəm.
Adını çəkməmişəm
bir əsərdə, kitabda,
Mənim payım olmayıb
Onun çəkdiyi dərddə,
yaşadığı əzabda.
Vurulanlar vuruldu,
qırılanlar qırıldı,
Ayrılığın, həsrətin,
işgəncənin əlində

Neçə məsum körpənin,
Neçə bədbəxt ananın
yanan bağrı yarıldı.
Sürgün deyilən kimi
Sibir düşür yadıma,
Neçə adıbilinməz
qəbir düşür yadıma.
Neçə ilan mələyən
çöllər düşür yadıma,
Dağdan yox, dərədən yox,
İnsan gözündən axan
sellər düşür yadıma.
Suların məşqinə bax,
Sellərdə daşqına bax.
Dərdimdən oynayıram,
Deyirlər eşqinə bax.

TARİX ALINDAKI QIRIŞLARDADI

Xeyli vaxtdır diqqətlə bir qocaya baxıram. Yaşı olar 70-80 arası. Çox yaraşıqlı, nur parçası kimi bir kişidir. Üzünün qırışları şumlanmış torpağa bənzəyir. İllər o ağ üzdə, açıq alında o qədər xış çəkib ki, qırışları saymaq olmur. Nə bilmək olar, bəlkə də hər qırış bir qara günün, bir qanlı hadisənin, bir faciənin yadigarıdı.

Təmkinlə ayağa durdu. "Mən Fətəli xan Xoyskinin nəslindənəm", – deyib ağır durduğu kimi, ağır-ağır da öz yerində əyləşdi. Hamı donmuşdu. O qocanın dediyi bircə cümlənin zərbəsi hamını sarsıtmışdı. Qoca niyə geniş danışmadı? Bəlkə də işlətdiyi bircə cümlə ilə o, hər şeyi hamıdan daha dərin, daha geniş dedi.

Uzun danışmadı o müdrik qoca,
Hamını sarsıdan xəbəri dedi.

Tarixi dərindən bilənlər bilir,
O bircə cümlədə nələri dedi.

Ən böyük səs-küyün demədiyini
Təbiət çox zaman sükutla deyir.
Qapqara qaralır rəngi, dünyası,
Göylər öz dərdini buludla deyir.

Dəli ildırımlar çaxır çaxmağı,
Fikrini ah ilə, amanla deyir.
Tüstülər burulub başından çıxır,
Dağlar öz dərdini dumanla deyir.

Qayalar nə çəkib sənələr boyu,
Çatılan qaşıyla işarə verir.
Üst-üstə yığılan ağrılarını
Gözünün yaşıyla işarə verir.

Kimlər güllələnib, kimlər asılıb,
Kimlər boğazından çəkilib dara.
Qocanın üzündə dərd kitabı var,
Hamısı yazılıb o qırışlara.

Bir nəslə Tiflisdə dəyən güllənin
Fəryadı hələ də qulaqlardadı.
Kökün ağrısını budaqlar çəkər,
Yaralı meyvələr budaqlardadı.

Kimdi Fətəli xan – millət vəkili,
Kimdi Fətəli xan – dövlət naziri.
Düşmənin hiyləsi gördü işini,
Onu qətl elədi gədənin biri.

Şəkidə doğuldu, Tiflisdə öldü,
Bakıda, Gəncədə gur işıq oldu.

Uca şəxsiyyəti Azərbaycana,
Məzarı Tiflisə yaraşıq oldu.

Müstəqil dövlətə verdi ömrünü,
Çəkdi millət üçün davalarını.
Erməni gülləsi özünü yedi,
Erməni fitvası nəvələrini.

Uca kişilərə bu qədər hücum,
Millətə bu qədər xəyanət nədi.
Özü bir dövlətin başında durdu,
Nəvəsi Türküstan sürgünündədi.

Faciə bitməyib Fətəli xanla,
Oğuldan, uşaqdan qisas alıblar.
Qalxan qasırğayla, qopan tufanla
Bir nəslin kökünə balta çalıblar.

Uzun danışmadı o müdrik qoca,
Hamını sarsıdan xəbəri dedi.
Tarixi dərindən bilənlər bilir,
O bircə cümlədə nələri dedi.

GƏNCƏ ÇİNARINI KƏSƏN BALTALAR

Bu görüşdə iştirak edənlərin hər biri bir canlı tarix idi, Vətənin, həsrətin, qürbətin, sürgünün tarixi. Dəniz insanı öz dibinə çəkib apardığı kimi, burda gedən söhbətlər də hər bir kəsi geriyə doğru – o ağrılı-acılı xatirələrə, o qanlı-qadalı illərə aparıb çıxarırdı.

Söhbətin lap üzüntülü bir yerində ağsaçlı, sarıbənizli, ortaboylu, nurlu simalı bir kişi də ayağa durdu.

“Ay oğul, mən də Gəncədənəm, Rəfibəylilərdənəm. Ələkbər bəyin, Xudadat bəyin nəslindən. Rus bolşeviklərinin, erməni daşnaklarının fitvası, şəri, böhtanıyla Rusiyaya, Türkiyəyə, İrana, Orta Asiya çöllərinə səpələnən, pərən-pərən olan nəslimizin bir qolu da gəlib bura – Qırğızıstan çöllərinə çıxıb. Mən o nəsil şəcərəsinin bir nümayəndəsiyəm. Burda həkim işləyirəm”, – deyib özünü təqdim elədi.

Qədim Gəncə... Ömrü boyu gözü odlar görmüş, zəlzələlər, vəlvələlər, tufanlar, savaşlar, yanğınlar, talanlar görmüş, adı dəfələrlə dəyişdirilən, qapısını yadlar aparan, Nizami təfəkkürlü, Cavad xan qeyrətli, Ələkbər bəy ünvanlı müqəddəs şəhər. Tarixdə başına çox faciələr gəlsə də, ən böyük faciəni XX əsrin əvvəllərində yaşamısan. Xanlara, bəylərə, kişilərə, şəxsiyyətlərə qan ağladan qanlı bir rejimin qurbanına çevrilmisən. Bu quduzlaşmış rejimin qanlı pəncəsi bu nəslin neçə kişisini yaraladı.

Əsir zəmanənin soyuq yelləri,
Üşüyür, sızlayır ruhu Gəncənin.
Yoxdu rahatlığı Ələkbər bəyin,
Odur xilaskarı, Nuhu Gəncənin.

Allahdan səs çıxmır, Allah amandı,
Qədim bir şəhərin halı yamandı.
Kəpəzin başından qalxan dumandı,
Yoxsa tüstülənir ahı Gəncənin?

Ölüm küləkləri əsdikcə əsir,
Zamanın şaxtası qılınctək kəsir.
Sədaqət girovdu, cəsarət əsir,
Bu gün fəlakətdi şahı Gəncənin.

Gəncə ən ağır günlərini yaşayırdı. Nuhun gəmisi kimi tufanlardan onu sağ-salamat çıxarmaq istəyən bir

kişi vardı: Ələkbər bəy Rəfibəyli. “Vətən atası!” Xalq bu adı ona qəlbinin səsi, könlünün arzusu ilə vermişdi. Onun vaxtsız ölümü, Xudadat bəyin ermənilər tərəfindən güllələnməsi bu nəslə dalbadal zərbələr vurmaq istəyən düşmənlərə geniş fürsət verdi. Bu nəslin qara günü belə başladı.

Ölümlər, itimlər belini əydi,
Tapdadı nahaqlar, tapdandı haqlar.
Gəncənin atası nədən biləydi
Nəslini gözündən batıracaqlar.

Nələri görmədi bu nəsil, Allah,
Çarmıx da, zindan da, edam da gördü.
Dırnağı çəkilən, dili doğranan,
Dərisi soyulan adam da gördü.

Buydu hökmdarın, taxtın tələbi,
Bəysənsə bəyliyin əldən gedirdi,
Xansansa xanlığın əldən gedirdi.
Tək bircə gecənin işgəncəsində
Bütün cavanlığın əldən gedirdi.

Xalqın doğmasını, xalqın dostunu,
Xalqın düşməninə çevirirdilər.
Ölüm dəyirmanı işə düşürdü,
İnsanı dəninə çevirirdilər.

Sürgünə bir evi, beş evi deyil,
Bütün bir mahalı götürürdülər.
Bir nəslin gözünü çıxarmaq üçün
Əvvəl ağsaqqalı götürürdülər.

Ocaq keçirənlər, od söndürənlər,
Tüstüsüz qoyurdu bacaları da.

Dilsiz körpələr də sürgün görürdü,
Elin səksən yaşlı qocaları da.

Hər gün saç yolurdu yazıq analar,
Hər gün çırpılırdı əllər dizlərə.
Oğullar nahaqdan güdaza gedir,
Atasını satan şərəfsizlərə.

Qara libas geymiş qara dövranın
Dərdli ürəklərdə qanlı yası var.
Harda Rəfibəyli güllələnibsə,
Harda Rəfibəyli sürgünü varsa,
Altında erməni familyası var.
Rəfibəyliləri nəm divar kimi,
Gah yağış çəkirmiş, gah qar çəkirmiş.
Bu nəslin ən ağır şöhrət yükünü
Adı Suğra olan Nigar1 çəkirmiş.

Danışır bir nəslin həkim övladı,
Narahat danışır, gərgin danışır.
Onun gözlərində, baxışlarında
Sürgün dilə gəlir, sürgün danışır.
Vətənlə dil tapıb danışa bilmir,
Qürbətlə dil tapıb hər gün danışır.

Dil dedim, ağzımda dilim göynədi,
Gör nə günə salıb dilimi qürbət.
Bir təmiz danışan tapa bilmədim,
Dilin ən amansız ölümü – qürbət.
Üç dildən söz alır bir cümlə bəzən,
Bilmirsən danışan qırğızdı, rusdu.
Dil yazıq neyləsin, nədir günahı,
Dili zaman-zaman duru saxlayan
Vətəndi, millətdi, eldi, ulusdu.
Ey qürbət ellərdə qərib olanlar,
Hanı Vaqif dili, Ələsgər dili?

Hanı saz havası yurd yerlərinin,
Necə unutdunuz bal-şəkər dili?
Dil öz saflığını itirən günü
Qafalar qarışır, fikir dolaşır.
Qoruya bilməsə öz qürurunu,
Millət öz boynunu bükür dolaşır.
Düşmənin məkrli hiyləsinə bax,
Sürgünə kim gedib – Xanxoyskilər!
Sürgünə kim gedib – Şıxlinskilər!
Sürgünə kim gedib – Kərimbəylilər!
Sürgünə kim gedib – Rəfibəylilər!
Biri Qarabağdan, biri Qazaxdan,
Biri Xoydan gedib, biri Gəncədən.
Ən böyük əzabı məmləkət çəkib
Millətə verilən bu işgəncədən.
Kimlər çox sevibsə Azərbaycanı –
Dərdi olanlara dərman veribsə,
Kimlər elm öyrədib, savad veribsə,
Nur səpib gəncliyin arzularına
Kimlər uçmaq üçün qanad veribsə,
Onları güdaza verib siyasət,
Onları güdaza verib rəzalət.
İblis libasında, şeytan donunda
Onlara tuşlanıb böhtan, xəyanət!

BORÇALININ BİR TƏRƏFİ AXISKA

Qoca bir Axıska türkünün ayağa durmasıyla ağzını bayatıyla açması bir oldu:

Axıska gül idi, getdi,
Bir əhli dilidi, getdi.
Söyləyin sultan Mahmuda,
İstanbul kilidi getdi.

Yüz səksən il bundan əvvəl yaşamış Axıska şairi Güləli babanın bu şeirini oxuyandan sonra, elə o zamandan, o tarixi dönəmlərdən Axıska türklərinin başına gələn oyunlardan, əldən-ələ keçməyindən, pərən-pərən düşməyindən, sürgünlərdə çürüməyindən yana-yana danışdı.

Son 70 ildə üç dəfə sürgün həyatı yaşayan, 1944-cü ildə rəhbərliyin qəzəbinə tuş gələn, 13 ölkəyə səpələnən, niyə sürgün olunduqları 50 il gizli qalan, Beriyanın təklifi, Stalinin əmrilə bir gecənin içində yerindən-yurdundan oynayan, 250 il Osmanlı dövlətinin sərhəd şəhəri kimi yaşayan, Rusiya-Türkiyə savaşlarında dəfələrlə əldən-ələ keçən, sərhəd zolağında yerləşdiyi üçün başına bəlalar açılan, bugünkü Gürcüstana – öz doğma Vətəninə can atan, ancaq qayıtmağı müşkülə dönən, bütün zülümlərə, faciələrə baxmayaraq hər yerdə Türk adını, Türk dilini şərəflə qoruyub saxlayan soydaşlarının dözülməz taleyindən söhbət açdı bu Axıska türkü.

Qan qardaşımın bu ağrılı söhbəti yaralarımın qaysağını qopartdı. Borçalının çəkdiyi bəlaları daha ağır şəkildə çəkən Axıska, Aspinza, Axırkələk, Abastuman, Adıgün türklərinin taleyini gözümün qabağına gətirdim. Qorqud Dədəm, ozan babam demiş, əcəl alan, yer gizləyən Alp ərənlərin dərdini sazımla, sözümlə dilə gətirdim, boy boyladım, soy soyladım:

Borçalının bir tərəfi Axıska,
Türklüyümün şan-şərəfi Axıska.
Kimlər səni bu qatardan ayırdı,
Kimlər pozdu gör bu səfi, Axıska.

Borçalının qan qardaşı, Axıska,
Könül dostu, can sirdaşı, Axıska.
Göy çəmənlər yaylıq olsa qurutmaz
Gözlərindən axan yaşı, Axıska.

Borçalının bir qanadı, Axıska,
Qaya səbri, daş inadı, Axıska.
Tək qanadla necə uçsun Borçalı,
Zəhər olub tamı, dadı, Axıska.

Bir dağ idin, təpələndin, Axıska,
Dalğa idin, ləpələndin, Axıska.
Sal qayatək dayanmışdın yerində,
Tikə-tikə qəlpələndin, Axıska.

Axşam yatdın, gecə getdin, Axıska,
Cavan gəldin, qoca getdin, Axıska.
Yermi yedi, göymü uddu, bilmədin,
Bir gecədə necə getdin, Axıska.

Yardan oldun, dostdan oldun, Axıska,
Uralanmış bostan oldun, Axıska.
Dərdin yerə, ahın göyə sığmadı,
Qürbət adlı dastan oldun, Axıska.

Arif olan işarədən him anlar,
Mizrab nədi, pərdə duyar, sim anlar.
Kədərini öz kədərim bilmişəm,
Məndən başqa səni özgə kim anlar.

Balıq oldun, qaldın torun əlində,
Gücsüz oldun gücün, zorun əlində.
Zaman səni oyuncağa çevirdi,
Bir bığlının, gorbagorun əlində.

Düşmənini zalım görüb, sərt görüb,
Soydaşını qəmgin görüb, pərt görüb,
Hansı ölkə sənin kimi talanıb,
Hansı millət sənin kimi dərd görüb?!

Çiçək-çiçək körpələrin soldumu?
Gözəllərin saçlarını yoldumu?
Köçürənlər "köçürsünüz" deyəndə,
Mərd analar bulud kimi doldumu?

Biçilmədi yaşıl-yaşıl otların,
Minilmədi bədöy-bədöy atların.
Mərə kafir kəsin dedi kökünü,
Əsli-kökü dürüst olan zatların.

Qışın dərdi yaza gəldi, Axıska,
Kimdən sənə cəza gəldi, Axıska.
Bu zülümdən xəbəri yox Allahın,
Qul başına qəza gəldi, Axıska.

İncidildi qəlbi, ruhu ipəklər,
Çıxarıldı gördüm deyən bəbəklər.
Bu gün yenə dartındıqca dartınır,
Üstünüzə diş qıcayan köpəklər.

Can üşüyüb buzda, qarda qalarmış,
Göz nisgildə, könül darda qalarmış.
Yağı düşmən təntidəndə insanı,
İt zəncirdə, at çidarda qalarmış.

Yağı bilməz xəstə nədi, sağ nədi,
Solan ömür, kökdən qopan tağ nədir.
Biz dağları təbiətdə görmüşük,
Sinələrdə bu çal-çarpaz dağ nədir.

Hər dinəndə danışma, sus, dedilər,
Yediyini qan kimi qus, dedilər.
Sürgün üçün bəhanələr tapıldı,
Sənə "xain", sənə "casus" dedilər.

Əcəl hər gün fərmanında, işində,
Qalan türkdü güllələrin tuşunda.
Axıskanın türküləri, türkləri
Çox çeynəndi canavarın dişində.

Ruhumda ruh, canımda can olmusan,
Şah damarda çağlayan qan olmusan.
Səni sonra Gürcüstana qatıblar,
Sən bir zaman Azərbaycan olmusan.

Savaşlarda ər və ərən millətim,
Sınaqlara sinə gərən millətim,
Böyük düşmən Allahlığa can atdı,
Saldı səni pərən-pərən, millətim.

Sürülərin yad əllərdə sağıldı,
Var-dövlətin karvan-karvan dağıldı.
Dünən olan paşalığın, xanlığın
Bu gün atrıq əfsanədi, nağıldı.

İmtahana zaman çəkdi səbrini,
Gözün gördü cəhənnəmin cəbrini.
Kürəyin yox, külüngün yox, belin yox,
Yad ellərdə kimlər qazdı qəbrini?

Qulaq deşən ahın-ünün başladı,
Qara bəxtin, qara günün başladı.
Sənə kimin gözü dəydi bilmirəm,
Ağır köçün, sərt sürgünün başladı.

Tanrının gücü kimi
yer üzünə enənsən,
Sən ki eradan əvvəl
İsgəndəri yenənsən.

Ən sərt tufanı belə
köhlən kimi minənsən,
Qoy səni qorxutmasın
nə şaxta, nə də bürkü,
Hayqır, Axıska türkü!

Həsrətlərin yükünü silkələ,
çiynindən at,
Qürbətin cənnətindən
Vətən yaxşıdı qat-qat.
Uç arzular dalınca,
sürünmək sevmir həyat,
Qoy dilindən düşməsin
nə şərqi, nə də türkü,
Hayqır, Axıska türkü!

Vətəni dərdlərinə dərman elə,
həb elə,
Azadlığı özünə ən böyük
mətləb elə.
Tapdalanmış haqqını Allahdan
tələb elə,
Vətən yoxsa heç nədir
dünyanın malı-mülkü,
Hayqır, Axıska türkü!

Harda idin bir zaman,
gör bir indi hardasan,
Əlacını özün tap,
çətindəsən, dardasan.
Üç yüz ildən çoxdu ki,
ağır sınaqlardasan,
Basılmaz insanlara
nə qorxu var, nə hürkü,
Hayqır, Axıska türkü!

Qəribliyə nöqtə qoy,
qürbət yaraşmır sənə,
Görüşlərə hazırlaş,
həsrət yaraşmır sənə.
Qayıt peyğəmbər kimi,
hicrət yaraşmır sənə,
Böyük mübarizənin
nə sonu var, nə ilki,
Hayqır, Axıska türkü!!!

SÜRGÜN YERLƏRİNDƏ QALAN QƏBİRLƏR

Tale bəndəsinə qismət yazanda
Qəribin adına qürbəti yazdı.
Zülüm ayrılığı, zalım hicranı,
Qazancı qan olan həsrəti yazdı.

Sürgün ayı kimi, canavar kimi
Didir, parçalayır gül ömürləri.
Yayın qızdırması, qışın şaxtası
Milçəyə döndərdi fil ömürləri.

Bulağı neyləyir, çayı neyləyir,
Göz yaşı qəribin gölü deyilmi?
Qəbri qazılan da, qəbir qazan da –
Elə hər ikisi ölü deyilmi?

Qəribin məzarı çətin qazılır,
Qaytarır ağzını külüngün, belin.
Ağlamaq üstündən ağlamaq gəlir,
Gücü daş əridir daşqının, selin.

Daş yonan nə yazsın başdaşlarına,
Qəribin gördüyü həyatı yazır.
Dilləri göynədən qoşma, bayatı,
Dodaqlar yandıran bayatı yazır.

Qazan ağlar,
Od vurar, qazan ağlar.
Qərib yerdə ölənin
Qəbrini qazan ağlar.

Bizi "yan"lar tutdu, "ov"lar ovladı,
Atını oynatdı aclıq, xəstəlik.
Biri fitva verdi, biri tovladı,
Hər gün cəhənnəmin oduna düşdük.

Yerə endirdilər Göy adımızı,
Qula döndərdilər bəy adımızı.
"Ov"a caladılar soyadımızı,
Ov olduq, özgənin adına düşdük.

Təhqir də, zəncir də, kəndir də gördük,
Yanan canımızda təndir də gördük,
Kəfənsiz ölü də, qəbir də gördük,
Şərin, iftiranın badına düşdük.

Qəribin heç nəyə gücü çatmadı,
Gücü tək ölümə, qəbirə çatdı.
Sürgünün bir ucu Qazaxıstana,
Bir ucu uzandı, Sibirə çatdı.

Yarpağın, torpağın yazığı gəlir,
Yas tutur göylərdə quş, ölənlərə.
Qarı yarmaq olmur, buzu dağıtmaq,
Daşlar da ağlayır qış ölənlərə.

Torpaqda kim yatır nə bilsin naşı,
Göynəməz ürəyi, çatılmaz qaşı.
Gözümün yaşıdı, başımın daşı
Sürgün yerlərində qalan qəbirlər.

Daşı gömgöy olar, mamır bağlayar,
Üstünü lil basar, çamır bağlayar.
Qarala-qarala kömür bağlayar,
Sürgün yerlərində qalan qəbirlər.

Söyər taleyinə, söyər baxtına,
Tüpürər Tiranın qanlı taxtına.
Dönər qəm evinə, dərd paytaxtına,
Sürgün yerlərində qalan qəbirlər.

Dərdin hədəfində, tuşunda qaldı,
Çöllərin qarında, qışında qaldı,
Ana gözlərinin yaşında qaldı
Sürgün yerlərində qalan qəbirlər.

ANAM DANIŞIRDI...

Anamın yanında iki sözü işlətməkdən həmişə çəkinmişik: "sürgün" və "yetim" sözlərini. Bu sözlərdən birini qulağı çaldısa hökmən fikri o qaramat, qarabaxt illərə gedib çıxacaq. Acı xatirələri dilə gətirib ürəyimizi qırmasa da, gözləri uzaq-uzaq yollara boylanacaq. O illərdə atasız, qardaşsız iki bacısı ilə bir damın altında qalan anam ömrü boyu çalışıb ki, övladları onun göz yaşlarını görməsin. Ağlamağını həmişə bizdən gizlədərdi. Orta məktəb illərini xatırlayıram. Məktəbdən gələndə hərdən ağlamağının üstə çıxardım. Nə qədər təkidlə soruşurdum ki, niyə ağlamısan? – deyirdi ağlamamışam, elə bir balaca kövrəlmişdim. Sonradan bilirdim ki, ilin

əziz günlərində, bayramda, qurbanda qonşulardan kiminsə atası qızının yanına, kiminsə qardaşı bacısının yanına bayramlaşmağa gəlib. Onun da ürəyi yanıb, könlü ata istəyib, qardaş istəyib.

Kəndimizin qocaları bizə gələndə həmişə Qurban babamdan – Sərdaroğlu Qurbandan, onun saz çalıb oxumağından, boylu-buxunlu, çox yaraşıqlı, səliqəli bir kişi olmağından, məclislər yaraşığı kimi sözündən, söhbətindən, şeir yazmağından, söz qoşmağından kövrələ-kövrələ danışardılar. Bu şəxsi keyfiyyətləri onu 37-ci ilin günahsız qurbanlarından birinə çevirmişdi.

Anam danışırdı, danışırdı ki,
Beş yaşlı uşağın nə kəsir ağlı,
Ancaq oynamağa tələsir ağlı.
Mən hardan biləydim, neyləyir atam,
İləmi tərpənir, ayamı gedir.
Onu nə gözləyir bu gedişatda,
Sürgünəmi gedir, toyamı gedir.
Ən şirin yuxumu ondan alırdım,
Ətrimi, qoxumu ondan alırdım.
O məni atasız qoyub gedərmi?
Körpə ürəyimi oyub gedərmi?
Yetim dedirtdirib üç balasına,
Körpə çiçəklərə qıyıb gedərmi?
Mən hardan biləydim, kəndə sel gəlib,
Atamı cəngində aparıb gedir.
Yıxılır evimiz, uçur komamız,
Ruhumu canımdan qoparıb gedir.
Elə bil dünəndi ayrılıq günü,
Elə bil aradan illər keçməyib.
Sanki səksən ilin başının üstən
Yellər adlamayıb, sellər keçməyib.
İnsanlar ölsə də, ümidlər ölmür,
Elə bilirəm ki, gələcək yenə.

Ata sevincini, gülüş payını
Bizimlə paylaşıb böləcək yenə.
Qalmazdı avazla oxumağından,
Səsi, zümzüməsi qulağımdadı.
Uca boyu vardı, incə qaməti,
Şəkli gözlərimin qabağındadı.
Atasız yaşadım yetmiş beş ildə,
Yadımda atamın beş ili qaldı.
Həsrətim az qala bir əsrə çatdı,
Qəlbim qəm oxundan deşili qaldı.

Min dəfə dil deyib üstündə ağla,
Min dəfə məlhəm qoy, min dəfə bağla,
Kimi istəyirsən, de kimi, gəlsin,
Lap belə loğmanı qaldır yerindən,
Dünyanın ən böyük həkimi gəlsin,
Yetimlik yarası sağalan deyil.
Yarısı qalıbsa ata yanında,
Ürəyin parası sağalan deyil.
Sanki bir quyuya bir daş atdılar,
Çıxmadı sorağı, gəlmədi səsi.
Öldümü, qaldımı, bilən olmadı,
Kim bilir hayanda çıxdı nəfəsi.
Mən yazıq nə yatdım, nə yuxu görəm,
Payımda beş illik həyatı qaldı.
Üzünü millətə tutub dediyi,
Yadımda dörd misra bayatı qaldı.

Əzizinəm, qalasız,
Şəhər olmaz qalasız.
Mən gedirəm sürgünə,
Siz sağlıqla qalasız.

Son dəfə əlini çəkdi başıma,
Son dəfə saçımdan, telimdən öpdü.

Əlimi ovcunun içinə alıb,
Öpdü dodağımdan, əlimdən öpdü.

Zənd ilə, diqqətlə üzümə baxdı,
Gəzdi yanağımda əli son dəfə.
Ata nəfəsiylə üzümə dəydi,
Əsdi xoşbəxtliyin yeli son dəfə.

– Bu günə də şükür, təki siz sağ olun, balalarımız sağ olsun. Olan olub, gedən gedib, – anam sinədən bir gəraylı deyib hələlik sözünə son verdi:

Kimlər gəldi, kimlər getdi,
Dünyada kimlər böyüdü.
Sevinc itib-batan günü
Yerində qəmlər böyüdü.

Sürgün ağrı, acı, tələş,
Yolları daş, izləri çaş.
Kirpikləri yandırdı yaş,
Yanaqda nəmlər böyüdü.

Qəm boynunu bükür, Allah,
Təmizlənir bu kir, Allah.
Şükür sənə, şükür Allah,
Bütün yetimlər böyüdü.

Sürgünü də daddı, yetimliyi də,
Nə ata qayıtdı, nə ana qaldı.
Bu qoca dünyadan mənim anama
Dərd adlı, qəm yüklü qəmxana qaldı.

Bir işıq dolandı başının üstə,
Beynində işıqlı fikir saxladı.
Bəlkə çoxdan ölüb gedərdi anam,
Onu dilindəki şükür saxladı.

Anam dərd ozanı, qəm aşığıydı,
Elə layla dedi, ağı söylədi.
Çox zaman dilinin demədiyini
Qəlbinə çəkilən dağı söylədi.

Heç nə öz əslini itirən deyil,
Candan can ayrılıb, qandan qan keçib.
Bayatı dilində dərdə söz demək
Anamın ruhuna babamdan keçib.

Əzizim, mən də yetim,
Sən yetim, mən də yetim.
Sən yetdin mətləbinə,
Nəzər qıl, mən də yetim.

Dərvişim, butam layla,
Oğulsuz atam layla.
Aldı sürgün apardı,
Qayıtmaz o tam, layla.

Saray uçub, dam gedib,
Ocaq keçib, şam gedib.
Sürgündə qar yağmasın,
Sürgünə atam gedib.

Məni bayatılar öldürür, ana,
Ağılar öldürür şair oğlunu.
Sürgündü, qürbətdi, həsrətdi adı,
Yağılar öldürür şair oğlunu.

Ana, dərdin məni şair elədi,
Sözdən cərgə-cərgə hörgünü verdi.
Atanı qürbətdə aldı əlindən,
Oğluna vətəndə “Sürgün”ü verdi.

YERİNDƏN OYNADI OĞUZ ELLƏRİ

Yenə biz-biz oldu başımda tüklər,
Sürgünə kim getdi – türk oğlu türklər.
Yerindən oynadı Oğuz elləri,
Obamız, elimiz sürgünə getdi.
İlanlı çöllərdə zəhər qatdılar,
Bal kimi dilimiz sürgünə getdi.
Pas tutdu, korşaldı xarabalarda,
Kəskin yaddaşımız sürgünə getdi.
Ən böyük kişimiz, ən mərd oğlumuz,
Papaqlı başımız sürgünə getdi.
Örüşdən malımız, dağdan ilxımız,
Yaylaqdan sürümüz sürgünə getdi.
Qırıldıq, töküldük, yandıq, yaxıldıq,
Ölümüz, dirimiz sürgünə getdi.

Türk öz torpağını, məmləkətini,
Basır öz bağrına doğma anatək.
Erməni iştahı uzanıb gedir
Vana, Ərzuruma, Ərdahanadək.

Vaxtında dişini qıran olmadı,
Şirə var düşmənin dilində, şirə.
Bu gün də göz dikib quduz köpəklər
İqdıra, Sivasa, Diyarbəkirə.

Gümrü, Cəlaloğlu, Göyçə, Ağbaba,
Yüz ildi sürgünə, talana gedir.
Bulanan suları durultmaq olmur,
Suyumuz bulana-bulana gedir.

Fələk yediyini yedi, neyləsin,
Sürgün dediyini dedi, neyləsin.
Zamanın bu boyda çaxnaşmasında
Zəngəzur neyləsin, Vedi neyləsin.

Boğma boğazından çıxsın düşmənin,
Ələ nə keçdisə boğmaladılar.
Beşikdən bəläyə, iynədən sapa,
Yıxdılar, yaxdılar, yağmaladılar.

Ağrılar verdilər Ağrı dağına,
Elin çəkmədiyi ağrı qalmadı.
Oğulun, uşağın, gəlinin, qızın
Şişə taxılmamış bağrı qalmadı.

Bir durna qatarı yaralı getdi,
Uçdular getdilər Dərələyəzdən.
Keçidlər dar oldu, uçrumlar dərin,
Keçdilər, getdilər Dərələyəzdən.

Millət oğulları millətdən oldu,
Dövlət oğulları dövlətdən oldu.
Bizə nə oldusa həsrətdən oldu,
Köçdülər, getdilər Dərələyəzdən.

Tanrının amansız bəlası gəldi,
Bu yeddi oymağa, yeddi basara.
Allahmı qarğadı, bəndəmi dəydi,
Qafana, Mehriyə, Vedibasara.

Qıvrılır, qovrulur içimiz bizim,
Bu gün də dayanmır köçümüz bizim.
Sizə səslənirəm, haqq şairləri!
Millət şairləri, xalq şairləri!

Vətən şairləri, el şairləri!
Çiçək şairləri, gül şairləri!
Yazın, bu millətin içindən yazın,
Sürgünündən yazın, köçündən yazın.
Uçmuş yuvasından, yurdundan yazın,
Dəvələr çəkməyən dərdindən yazın.
Yurdun sağalmayan ağrılarını
Yurdun torpağına, daşına yazın.
Yazın, kitabların ön sözü kimi,
Yazın, ürəklərin başına yazın.
Şair hayqırmasa millət qaynamaz,
Hayqırın bu dərdi, haqq şairləri!
Tarixdən süpürün, yaddaşdan silin
Hər cürə namərdi, haqq şairləri!

ULUSA SƏSLƏNİŞ

Fərman padşahındı,dağlar bizimdi.
Dadaloğlu
Səni kim göndərdi qürbət ellərə,
Səni kim ağlatdı, ay atam oğlu.
Gözünü qapadı, dilini kəsdi,
Qolunu bağlatdı, ay atam oğlu.
Özülünü oydu, yerini qazdı,
Himini laxlatdı, ay atam oğlu.
Bizim başımızdan gəlib-keçənlər
Demə ki, tək xaçdan, keşişdən keçib.
Sıyır inadını, çək qılıncını,
Heç vaxt söyləmə ki, iş işdən keçib.
Nə qədər sürgünlər gördü gözlərin,
Nəslini yeni bir sürgündən qoru.
Özünü, sözünü, gələcəyini
Bundan da dəhşətli bir gündən qoru.

Ruhunu, dilini, təfəkkürünü
Hiylədən, fitnədən, fəsaddan qoru.
Zatını, kökünü, budaqlarını
Qoru nakişidən, bədzatdan qoru!
Günahı özgədə görməyə nə var,
Ən böyük nöqsanı özündə axtar.
Sultan Səlim ilə Şah Xətainin
Söyüşlə, nifrətlə, təhqirlə dolu
Məktubunda axtar, sözündə axtar.
Millət olmayanı millət elədin,
Dövlət olmayanı dövlət elədin.
Bir gün fransıza, bir gün almana,
Bir gün ingilisə sirrini verdin.
Gəlməni özündən başa keçirdin,
Bütün yersizlərə yerini verdin.
Cümşüd məlikləri taxta çıxardıb,
Məliklik vermisən dığalarına,
Böyüklük vermisən çağalarına.
İldırım da belə, Teymur da belə,
Xaqan da, sultan da, əmir də belə,
Xətai də belə, Səlim də belə.
İçdi al-qanını qardaş qardaşın,
Dərd də belə gəldi, ölüm də belə,
Qan da belə gəldi, zülüm də belə.

Bugünkü Qarabağ faciəsinin
Kökünü özümüz qoymamışıqmı?
Tarixin çiyninə dağ boyda dərdin
Yükünü özümüz qoymamışıqmı?
Dalbadal törənən faciələrdən
Bir ibrət götürüb dərs almadıqsa,
Qatlaşıb millətin əziyyətinə
Alından bir damla tər salmadıqsa,
Dünyanın düz vaxtı əllərimizdən

Qarabağ getdisə, Şuşa getdisə,
Uca Kəlbəcərdə, qoca Laçında
Əhdimiz, cəhdimiz boşa getdisə,
Ayıq ol, sayıq ol, ay atam oğlu,
Ölməyə layiq ol, ay atam oğlu.
Bir də ehtiyatı vermə əlindən,
Qurduğun saraylar dağıla bilər.
Yeni Stalinlər çıxar meydana,
Yeni Bağırovlar doğula bilər.
Səni yağlı vədlər, yalan ümidlər
Tərif xumarında uyuda bilər.
Ayılıb görərsən kəsib qapını,
Qəfil otuz yeddi qayıda bilər.
Yerdən də, göydən də əl-ayağını
Bir anın içində soyuda bilər,
Qəfil bəlalardan özünü gözlə!
Köpək sürüləri yaman çoxalıb,
Tazı-tulalardan özünü gözlə!
Qoru sərvətini, qoru malını,
Qoru dövlətini, istiqlalını!
Şimal şaxtası var, şimal qarı var,
Tayqadan, Uraldan özünü gözlə!
Sibirdən, Araldan özünü gözlə!
Qumlu səhralardan özünü gözlə!
Batan gəmilərin çürüdü getdi,
Qanlı dəryalardan özünü gözlə!
Donu açılmayan, buzu sınmayan
Qarlı Sibirlərdən özünü gözlə!
Taxtası çürüyən, ünvanı itən
Qərib qəbirlərdən özünü gözlə!!!

* * *

Ulu ataların ruhu çağırdı,
Nə yaxşı mən gəldim bu Türküstana.

Aldı salamımı öz övladıtək
Almata, Səmərqənd, Daşkənd, Astana.
Vətən həsrətini, qürbət dərdini
Köçürdüm dəftərə, yazdım dastana.
Bu əsər can aldı canımdan mənim,
Onu ən ağrılı bir gündə yazdım.
Qürbətdə başladı, Vətəndə bitdi,
"Sürgün" dastanını sürgündə yazdım.

Bişkək–Bakı,
2009

OZAN EVİ, SAZ EVİ

Ustadlara, ozanlara "Ozan-aşıq" evinin lazım olduğu haqda həmişə fikirləşmişəm. İndi hansı evi, hansı imarəti, hansı sarayı tapım ki, ora yerləşə bilək. Könlümdə Haqdan qurulmuş "Ozan Evi"ni sözlə belə izhar elədim.

Mən bir ev istəyirəm,
Ozan evi, Saz evi,
Sevənlərin əbədi qış sarayı,
yaz evi.
Buta verilən qızı
murada çatdırmağa –
Aşiqin eşqə doğru
qıldığı namaz evi.

Mən bir ev istəyirəm,
Saz kimi tutdan olsun,
Bər-bəzəyi qopuzdan,
kamandan, uddan olsun.
Qırxların məclisinə
ərənlər özü gəlsin,
İlkin xeyir-duası
Dədə Qorquddan olsun.

Mən bir ev istəyirəm,
bayramına el axsın.
Bu bayramda gözə nur,
qəlbə "Sarıtel" axsın.
Elə qurun, yaradın
bağını, bağçasını,
On bir telli saz kimi
on bir yerdən sel axsın.

Əsən yelim, a layla,
Daşan selim, a layla.
Anama bir layla çal,
“Sarıtel”im, a layla.

Mən bir ev istəyirəm,
yetmiş iki mərtəbə,
Layiq olsun, yaraşsın
hər nizama, hər dəbə.
Yetmiş iki hava var
bu millətin sazında,
Gərək burda dinən saz
yeri-göyü tərpədə.

Mən bir ev istəyirəm,
min illərə bəs olsun,
Onun hər otağında
Haqdan gələn səs olsun.
Dastanlar danışanda
mətləblər qırılmasın,
Açması “Baş Divani”,
sonu “Müxəmməs” olsun.

Meyli sağ-sola salsın,
Qolunu qola salsın.
“Divani” qarşılasın,
“Müxəmməs” yola salsın.

Mən bir ev istəyirəm,
“dayanıbdı dayaqsız”,
Mən bir ev istəyirəm,
“boyanıbdı boyaqsız”.
Əli Allaha çatsın,
ətəyi “Peyğəmbər”ə,
Heç nə yaşaya bilməz
ruhsuz, “əlsiz, ayaqsız”.

Mən bir ev istəyirəm,
Tanrıya vara bilsin,
Dibsiz qaranlıqları
nur kimi yara bilsin.
İtmiş dəfinələri,
batmış xəzinələri
Halal sahibi kimi
mənə qaytara bilsin.

Nə daş-qaşda, qızılda,
nə yaqutda, zərdədi,
O evin yurd-yuvası
uca ürəklərdədi.
İstili ocağı da,
tüstülü bacası da
Ustadda, ozandadı,
ərəndədi, ərdədi.

Nə dəmirdi, nə ağac,
nə daşdı, nə taxtadı,
O bir ürfan evidi,
ruhu, meyli haqdadı.
Mətləbində böyüklük,
məktəbində ucalıq,
Sirri-sehri ürəkdə,
sevgisi dodaqdadı.
Qırx qapıdı, qırx otaq,
qırx qıfıldı, qırx açar,
Çərxi-fələk fırlanar,
o qapını çərx açar.
O evin bir məclisi
ərsiz, ərənsiz olsa,
Göz yaşım selə dönüb
yanağımdan arx açar.

Fürsətdi uçar, gətir,
Dayanma naçar, gətir.
Qırx qapı tilsimlənib,
Açmağa açar gətir.

Yurd-yuvasız, sevgisiz
bülbüllər ötərdimi?
Eşqin səsi-sədası
Tanrıya yetərdimi?
Millətin can evində
bin-bərəkət olmasa,
Duyğular toxum kimi
cücərib bitərdimi?

Aşiqlər cərgəsində
oturdular, durdular,
Könül evi olanlar
ruh məclisi qurdular.
Saz üstə dilləndilər,
səs üstə telləndilər,
Tarixin yaddaşına
sözlə möhür vurdular.

Hava nədi, çalğı nə,
mey nədi, məzə nədi,
Dünyaya xəbər verən
mizrabdı, təzənədi.
Barmaqlarla pərdələr
öpüşəndə bilərsən
Köhnəliyin içində
köhnəlməz təzə nədir?

Haqqın sınağındadı,
Səsin sorağındadı.
Ruhları göydə gəzmə,
Sazın çanağındadı.

Mənim istədiyim ev
ucaların ucası,
Alp ərənlərim olsun
müəllimi, xocası.
O evin “dörd yanına
dörd ulu qapı gərək,
Hayana baxar olsa
gündüz ola gecəsi ”.

Mənim könül evimi
dərk edə bilməyən kəs
Nədən bilsin nədir can,
nədi ruh, nədi nəfəs.
İnsanın ürəyində
Haqq ocağı yanırsa,
Nə var ondan ucada,
nə var ondan müqəddəs?!

Mən bir ev istəyirəm,
ruhları şad eləsin,
Ozan gəlsin bu evi
mübarəkbad eləsin,
Bizdən əvvəlkilərə
burdan salam göndərək,
Bizdən sonra gələnlər
bizləri yad eləsin.

Qığılcımı Günəşə,
ulduzu Aya dönsün,
Damlası bir dəryaya,
çeşməsi çaya dönsün.
Böyüdükcə böyüsün
saz evinin dünyası,
Hər eyvanı, otağı
əlvan saraya dönsün.

Çağıraq o saraya
nəsilləri, soyları,
Xırdalasın ozanlar
dastanları, boyları.
Xoruz banına qədər
əllər çənədə qalsın,
Qırx gün, qırx gecə çəksin
cavanların toyları.

Ozanım hey, ozan hey,
Hər mətləbi yozan hey.
Dədələrdi bu toyun
Dastanını yazan hey.

Şahanə saray qurun,
öz sözünü şah desin,
"Saz evidi bizlərə
ən uca dərgah", – desin.
Xətai çıxsın yenə
sözün şahlıq taxtına,
Bu işi yaradana
Qoy "Bərəkallah!" – desin.

Hər otaq dörd misralıq
şah bir bəndə bənzəsin,
Həm şəhəri bəzəsin,
həmi kəndə bənzəsin.
Əhli-ürfan olmayan
onu açа bilməsin,
Qapısı, pəncərəsi
"Qıfılbənd"ə bənzəsin.

Naxış vurub hər sözə
mirvaridən, incidən,
Duyğular zəmisində
Gəncə toxum, Gəncə dən.

Düzülsün ozanların
durna qatarı kimi,
Gəlsin Dədə Yediyar,
gəlsin qədim Gəncədən.

Bu ev könüldən olsa,
cansız orda can tapar,
Hər söz bir gülə dönər,
hər arı bir şan tapar.
Yüyrək aşıq dilində
Qərib qürbətdən gələr,
Xəstə Qasım sözündə
xəstələr dərman tapar.

Güllərin dəstəsidi,
Sellərin bəstəsidi.
Eşqə düşən kimsələr
Sevginin xəstəsidi.

Yox olsun yoxsulluğu,
var olsun var elləri,
Qoy bu evdə cəm olsun
könlümün yar elləri.
Bu gün fərman da bizim,
padşah da bizimkidir,
Dadaloğlu buyursun,
qalxsın Əfşar elləri.

Dədə kimi böyütsün
qulaq asan hər kəsi,
Heç zaman seyrəlməsin
Dədələrin cərgəsi.
Dərbənddən Dədə Güzgü,
Dədə Qürbət gələndə
Olsun "Ozan evi"ndə
məqamı, düşərgəsi.

Çağıraq, o saraya
Ağ aşıq, Alı gəlsin,
Ələsgər – sözün piri,
şeirin cəlalı gəlsin.
Tovuz, Qazax elləri,
Gəncəbasar torpağı,
Şirvan, Dərbənd, Naxçıvan,
Göyçə, Borçalı gəlsin.

Ey dilimin şirəsi,
pətəyim, balım haray,
Ərdəbildən Göyçəyə
uçan xəyalım haray.
Özünə Miskin demə,
ey varlılar varlısı,
Gəl bu evdə şərəflən,
Məğrur Abdalım haray.

Aşsın aşırımları
Türkün ulu sevgisi,
Bir sərhəd tanımasın
qəlbin dolu sevgisi.
Atlılar asta-asta
Altaydan yola çıxsın,
Öpsün "Ozan evi"ni
Anadolu sevgisi.

Mələklər qol-qanadım,
küləklər atım olsun,
Güləbirddə gül açan
laylam, bayatım olsun.
Gözü üzə qısqanan
Sarı Aşıq hardadı,
Dediyi hər bayatı
ömrüm, həyatım olsun.

Saza sarı,
Yol gedir saza sarı.
Düşsün Yaxşı dalınca,
Sarılsın saza Sarı.

Gəlsin ana Təbrizin,
Ərkin dünyası gəlsin,
Həqiqətin evini
dərkin dünyası gəlsin.
Yəsəvidən, Yunusdan,
Mövlanadan Veysələ
Durmasın, başdan-başa
Türkün dünyası gəlsin.

Burda ucalan səsi
Qars, Ərdəhan dinləsin,
Aşsın Ağrı dağını,
bütün cahan dinləsin.
Yetişsin Ərzurumda
Lələnin harayına,
Dirilsin o pürkamal,
cənnətməkan dinləsin.

Qızılgüllər açılsın,
ruhların yazı gəlsin,
Cununun Çənlibeldən
coşqun avazı gəlsin.
Qələbələr eşqinə
yetişsin qoç Koroğlu,
Belində Misri qılınc,
əlində sazı gəlsin.

Eşq oduna yan, Eyvaz,
Xanlıq elə, xan Eyvaz.
Darıxır xotkar qızı,
Can de ona, can Eyvaz.

Suxaradan tərpənə,
Ağbabadan sallana,
Çıldırın ustad oğlu
birba bura yollana.
Aşıq Şenlik dilində
şair Nəbi dastanı
Məclislər işığında
pətəklənə, ballana.

Bu evin başı üstə
Ulduz olsun, Ay olsun,
Qonağı Məhdimqulu,
Nəvai, Abay olsun.
Keçsin başda otursun
yollar yoran yolçular,
Bu ev Türkün ruhuna
Tanrıdan bir pay olsun.

Təzə nəfəs, təzə ruh,
təzə peşə gətirsin,
Gələnlər qədəmində
sevinc, nəşə gətirsin.
Gülgəz Abbasla gəlsin
Tufarqanın elindən,
Qurbani bu saraya
tər bənövşə gətirsin.

Cığalı təcnis kimi
cığalansın otaqlar,
Öpsün o cığaları
təbəssümlü dodaqlar.
Dağda axan görmüşük
çeşmələri, çayları,
Qoy "Saz evi"ndən axsın
göz-göz olan bulaqlar.

Ruhun sığalı gərək,
Təcnis cığalı gərək.
Sazın, sözün qaymağı,
Söhbətin balı gərək.

Yerdən yeri çağırın,
göydən göyü çağırın,
Sazı, tarı, kamanı,
dəfi, neyi çağırın.
Bəlkə də Tellisini
gəldi bu evdə tapdı,
Şəmkirdə Dilqəm olmuş
Yəhya bəyi çağırın.

Molla Cuma "bir-iki canı
yanan"la gəlsin,
İsmi Pünhan dediyi
zərif bir canla gəlsin.
Saz olsun könülləri
bir məkana bağlayan,
Hərə öz qazandığı
adla, nişanla gəlsin.

Qoy dadsın uca şeirin
ləzzətini, tamını,
Kövrək şair qəlbinin
Haqq yandırsın şamını.
Ömrün ixtiyar çağı
gəlib çıxa bilməsə,
"Durnalar"dan göndərsin
Vidadi salamını.

Sevgi meyvəsi kimi
dərsin Ozan evini,
Eşqin ixtiyarına
versin Ozan evini.

Vaqif Cıdır düzündən
Xarı-bülbül gətirsin,
“Görmədim” deyən ustad
görsün Ozan evini.

Yağsın sevgi yağışı,
gül üstə şeh gətirsin,
Gülablıdan gələnlər
bir əsim meh gətirsin.
Qarabağdan gedən səs
Dağıstana yetişsin,
Zərnigarı bu evə
Aşıq Valeh gətirsin.
Dərmanı ara bağdan,
Əl üzmə Qarabağdan.
Məlhəmi sazdan olsun,
Qurtarsın yara, bağdan.

Bir-bir ulu dədələr
sanansın, sana gəlsin,
Axsın xeyir-dualar
damarda qana gəlsin.
Mirzənin “Kərəmi”si,
Əsədin “Koroğlu”su
Meydanlar almaq üçün
bir də meydana gəlsin.

Cəbrayılın şeirini
aşıq Pəri gətirsin,
Hər gələn min sərvəti,
min bir zəri gətirsin.
Yeddi qardaş dağından
ensin Dədə Şəmşirim,
Səsində, nəfəsində
Kəlbəcəri gətirsin.

Gəlsin qoca Saraçlı –
könüllərin mehmanı,
Məclis yerbəyer olsun,
nizamlansın sahmanı.
Ozanların ozanı
sığal çəksin tellərə,
Sıralansın "Bozuğu",
"Şahsevəni", "Bəhmanı".

Aşıq, sözü qəmə ver,
Söhbətə ver, dəmə ver.
Dilinə qurban olum,
Şeirə yedəkləmə ver.

Xallar, güllər, keçidlər
axşamı dan eləsin,
Heyrətə gələnləri
yenə heyran eləsin.
Aşıq Əmrah ovsunu
sehrləsin dünyanı,
Aşıq Ədalət sazı
qoy yenə qan eləsin.

Gəlsin Xan Kamandarın
söhbəti bal günləri,
Sənətin qızıl çağı,
Sözün halal günləri.
Zirvələrdə Azaflı
dönsün Qoca Qartala,
Şirvanda qanad açsın
Aşıq Bilal günləri.

Ozan dinsin, danışsın,
damarda qan oxusun,
Hər sözünün başında
can desin, can oxusun.

Çiçəklərdən yükünü
tutsun aşıq Şakirim,
“Nə bağ bildi,
nə də bağban” oxusun.

Şirvanşahlar evinin
nəməri şahdan olsun,
Uca səs də, nəfəs də
ulu dərgahdan olsun.
Aşığın avazına
quşlar qanad saxlasın,
“Ana Kür”ün laylası
Aşıq Pənahdan olsun.

Dərələri dərindi,
Çeşmələri sərindi.
Nərə mərd igidlərin,
Cəh-cəh bülbüllərindi.

İnsan bəxtəvər olur
tapanda fərəhini,
Sevgi nuru doldurur
güllərin qədəhini.
Qaytaraq bu sarayın,
divarına, daşına
İmranın nərəsini,
Əkbərin cəh-cəhini.

Həsrət qaldı Təbrizə,
heç vaxt gülmədi eyni,
Alovların içində
yandı ürəyi, beyni.
“İrəvan çuxuru”yla
salsın bizi heyrətə,
O tayın həsrətitək
öpüm Cavan Hüseyni.

Hər insan öz canında
bir şirin bəstə saxlar,
Varlığını nəfəsdə,
ruhunu səsdə saxlar.
Söykənəndə sözünə,
güvənəndə sazına,
Millət öz tarixini
gözünün üstə saxlar.

Yanğılı bir hava var,
canındadı canımız,
Onunla çox alışıb
axşamımız, danımız.
O qədər yana-yana
"Kərəmi" dinlədik ki,
Kül olmaqdan savayı
qalmadı imkanımız.

"Ruhani" ruhumuzdu,
süzülüb ruhdan gəlib,
Keçib Mənsur Həllaca,
Adəmnən, Nuhdan gəlib.
Dərisini soyublar
onu yaradan kəsin,
Bizim də qismətimiz
amandan, ahdan gəlib.

Kaman, ney havasıdı,
Ağa, bəy havasıdı.
Bu, yerin işi deyil,
Xalis göy havasıdı.

Çalın, uca sənətin
yeddi qatı görünsün,
Cıdırda igidlərin
köhlən atı görünsün.

“Cəngi” səf-səf eləsin
kişiləri, bəyləri,
“Misri” elə çalınsın,
silkələsin göyləri.
Sıyrılanda qılınclar,
çəkiləndə nərələr,
“Allah! Allah!”la dolsun
uca dağlar, dərələr.
Saz candı, saz adamdı,
Dərk edən az adamdı.
Zaman-zaman göz yaşım
Süzüldü, saza damdı.

Savaşlar qovğasında əzilsə
də, sınmayan,
Oda atsalar belə,
sağ qurtaran, yanmayan,
Öz eşqinə tapınan,
özgəyə sığınmayan,
Gövdəsi doğransa da,
kökündən yıxılmayan,
Meydanı daralsa da,
mənliyi sıxılmayan,
Öz havası haqq olan,
yad havası çalmayan,
Alçaqlar pəl vursa da,
heç zaman alçalmayan,
Qeyrətinin yolunda
qılınc tutan, ox tutan,
Qarnı ac olanda da
məzəsini tox tutan,
İstedadı, ilhamı,
sevgisi heyrət olan,
Füzulisi möcüzə,
Sabiri qeyrət olan,

Bu millətin hünəri,
təpəri sazdan gəlib,
Sərkərdəsi, silahı,
sipəri sazdan gəlib.
Doqquz oğuzdan çıxıb,
qopuzdan sazdan gəlib,
Südünü sazdan içən
oğuldan, qızdan gəlib.
Çoxların çoxu bizik,
heç vaxt az olmamışıq,
Sazımız saz olanda
biz nasaz olmamışıq.
Hər söz bir ildırıma,
bir qurşuna çevrilib,
Hər oğul bir orduya,
bir qoşuna çevrilib.
O mərmiyə, silaha,
o qurşuna yer verin,
O oğula, orduya,
o qoşuna yer verin.
O ustada, dədəyə,
o ozana yer verin,
Taleyini, bəxtini
Haqq yazana yer verin.
Dənizlərə can atıb
coşan çaya yer verin,
Ruhumda yaratdığım
o saraya yer verin.

Daşımırsa yükünü,
Tanımırsa kökünü,
Zəlzələlər, tufanlar
Tərpətmirsə tükünü,
Millətdən millət olmaz!
Yanğı yoxsa canında,
Sənətdən sənət olmaz!

Könül saraylarına
ziyarəti yoxdusa,
Bu gəncliyin canında
hünər, cəsarət olmaz!
Varlığına, varına
sahib olan millətin
Canında, cövhərində
Heç vaxt köləlik olmaz,
heç vaxt əsarət olmaz!
Can orda, cənnət orda,
Böyük həqiqət orda,
Ruhumun sarayına
çağırıram dünyanı.
Sevgi, məhəbbət orda,
Dərd orda, həsrət orda,
Ahımın sarayına
çağırıram dünyanı.
Saz mənim şahlığımdı,
Şahımın sarayına
çağırıram dünyanı.

O saraydan baxanda
xalqın yaşı görünsün,
Özülü, bünövrəsi,
özül daşı görünsün.
Könül saraylarına
eşqin gözüylə baxaq,
Hər naxışın canında
bir nəqqaşı görünsün.

Duyğular tarlasında
sünbüllənsin zəmilər,
Üzsün söz dənizində
ağır yüklü gəmilər.

Qoy dipdiri saxlasın
qanımızda qeyrəti
"Cəngi"lər, "Gəraylı"lar,
"Misri"lər, "Dilqəmi"lər.

Ün eşidən qulaqlar
qüdrəti ündə tapsın,
Sənətin hünərini
imanda, dində tapsın.
Parıltılar dalınca
dağa-daşa qaçmasın,
Xalq öz böyüklüyünü
sağlam kökündə tapsın.

Axşamın xeyir desin,
sabahın xeyir desin,
Saz üstündə aşıqlar
söz qoşsun, şeir desin.
Gəlsin "Ozan evi"nə
halal haqqı olanlar,
Yenə uca sözünü
Vurğun, Üzeyir desin.

Arı gülə, saz dilə,
pərvanə şama gəlsin,
Bir "Qaraçı" çal aşıq,
ağzımız tama gəlsin.
Osman qağa bu evdə
tapsın Hüseyn Arifi,
Şairlər aşıqları
bir-bir salama gəlsin.

Sazım, sözüm, mənliyim
ən böyük "Mənim" mənim,
Gülzarım, gülüstanım
gülüm, gülşənim mənim.

Sözü elə çağlasın,
səsi elə qaynasın,
“Ozan evi”nə dönsün
böyük Vətənim mənim!

Gəlsin ulu dediyim
öndər “Ozan evi”nə,
Uca Tanrı, nəyin var,
göndər “Ozan evi”nə.
Könlü saray olanlar
saraylara sığışmaz,
Dünyanı başdan-başa
döndər “Ozan evi”nə!

Ürək yansın, alışsın,
ruh sevsin, can qızınsın,
Duyğular coşa gəlsin,
canda cahan qızınsın.
Ey mənim “Ozan evi”m,
Şölələnsin günəşin,
Odunda, atəşində
qoy Zəlimxan qızınsın!
Müqəddəs ocağında
Azərbaycan qızınsın!!!

2009

DƏRDİMİZİN BAYATI DÜZÜMÜ

Nədir bu deyimlər?

Yetimliyin sərt üzünü görən Güllü anamın göynəyən ürəyinin sızıltılarımı, məni sazla yatırdıb, sözlə oyadan Fatma nənəmin zümzümələridimi? Ən böyük sevincimi ən ağır kədərə çevirən körpəlik çağlarımın itirilən dünyasıdımı? Əlimizdən çıxan yaylaq yerləridimi? Yaralanmış və paralanmış Azərbaycan dərdidimi? Əsirə və girova çevrilən Zəngəzurdumu, Dərələyəzdimi, Təbriz yarasıdımı, Borçalı nisgilidimi?

Köhnə dərdlərimizdən daha betər olan Qarabağ harayı, Laçın fəryadı, Şuşa naləsidimi? Ələsgərin kafər tapdağında inləyən məzarıdımı? Sarı Aşığın Güləbirddə, Dədə Şəmşirin Ağdabanda, Vaqifin Cıdır düzündə, Natəvanın Ağdamda bizi çağıran, bizsiz qalan rıuhudumu? Nədirsə bilmirəm! Bildiyim odur ki, özüm öz ömrümü-günümü laylaya tutmuşam. Aylarla, illərlə içimdə nehrə kimi çalxanıb bu qəmli duyğular, həsrətli düşüncələr. "Yağı yağ üstə çıxıb, ayranı ayranlıq olan" fikirlərim bayatı dilində, layla dilində, oxşama dilində, ağı dilində ürəkdən qələmə, qələmdən varağa süzülüb. Bu yaralı duyğular, qoy, torpaq, yurd-yuva həsrəti ilə alışıb-yanan insanların hər birinin ürəyinə toxum kimi səpilsin, etiraz kimi baş qaldırsın, qisasa və intiqama çağırsın. Bu deyimlərdə gözümüzə sataşan hər bir tarixi ad qəlbimizdəki qəzəb qılıncını itiləsin, damarımızdakı qanı qeyrətə və bərəkətə gətirsin.

Dərd bizi dara bağlar,
Yol kəsər, ara bağlar.
QARABAĞI gedənlər,
Meylini hara bağlar?

Şər bizi şərə bağlar,
Cam ağlar, şərab ağlar.
Bülbül susub, gül solub,
Yem olub xara bağlar.

QARABAĞ qara bağlar,
Qismətmiş sara ağlar.
TƏBRİZ göz yaşı tökər,
Dərdimdən SƏRAB ağlar.

ŞUŞADAN LAÇINA bax,
QARABAĞDAN XAÇINA bax.
Yazıq anam saç yolur,
Əlində saçına bax.

AĞDAMIN keşik dağı,
Görünmür BEŞİKDAĞI.
Yüz il getməz ürəkdən,
Ev dağı, eşik dağı.

Yaman gözə ağ dama,
Gül yanaqdan yağ dama.
Açıla bağlı yollar,
El qovuşa AĞDAMA.

Mey içən cama gəlsin,
Pərvanə şama gəlsin.
Qarabağı sevənlər
Dönsün, AĞDAMA gəlsin.

Çiçəyi bal GÜLABLI,
Qayası Sal GÜLABLI.
Yarası ürəyimdə
Bir qara xal GÜLABLI.

Durultmur şeh bulağı,
Küsdürdüm ŞAHBULAĞI.
Dərdi dünyanı tutub,
Götürüb ah bulağı.

QARABAĞ tülü neylər,
Tarla sünbülü neylər.
Mən ki dərə bilmirəm,
GÜLLÜCƏ gülü neylər.

İLXIÇIDA ilxı yox,
Dəyirmanın çarxı yox.
Dağılıb ağ otaqlar
Sahibi yox, xalxı yox.

Bu oba KƏNGƏRLİDİ,
Sipərli, səngərlidi.
Dərdi də özü kimi
Ağırdı, ləngərlidi.

XOCALIDA xoca yox,
Cavan ölüb, qoca yox.
Od içində yandırır,
Tüstüsü var, baca yox.

Düz qandı, doğru qandı,
Dərd qandı, ağrı qandı.
Burda nəslim qırılıb,
Ada bax, BAĞRIQANDI.

Zəhəri aş altıdı,
İnləyən DAŞALTIDI.
Xalqın dərdi bir olar
Mənimki beş-altıdı.

Bu dərə nağıl dərə,
Barını ağıl dərə.
Bakıda mən ağlaram,
LAÇINDA OĞULDƏRƏ.

Nuru dağda yayır dan,
Şad xəbər yox bayırdan.
Qalxaram məzarımdan,
Səs gəlsə ÇALBAYIRDAN.

Dağ başı QUBADLIDI,
Şimşəkdən qanadlıdı.
Hər gün qisas almağa
Oğulları atlıdı.

Əyinli əyin dilər,
Bəysizlər bəyin dilər.
BƏRGÜŞADA boylanan
Görəsən, nəyin dilər.

Mən qəmin təkəriyəm,
Tək dərdin tək əliyəm.
Çırpınan QUBADLIYAM,
Hönkürən HƏKƏRİYƏM.

Haqqa səcdə qılandı,
Bu torpaq ZƏNGİLANDI.
Boynumuza dolanan,
Gör, neçə rəng ilandı.

Zəngilanda qar sızlar,
Qara düşər, yar sızlar.
BAHARLI əldən gedib,
Neyləsin BAHARSIZLAR?

El köçdü, binə daldı,
Çən sinə-sinə daldı.
Sarı Aşıqla görüş
İnsafa, dinə qaldı.

Qiblə döş, qiblə sinə,
Qibləyə qiblə sinə.
Kafər ayağı dəydi
Yaxşının qibləsinə.

Ünüm ərşə yayıla,
Qan coşa, səbr ayıla.
DİRİDAĞA səs düşə,
Qovuşam CƏBRAYILA.

Cəbrayılım CANLIDI,
HACILI, MƏRCANLIDI.
Kəhrizlər qana batıb,
Düşmən əli qanlıdı.

Vətəndə ömür varlı,
Daş varlı, dəmir varlı.
Varı əlindən gedib,
Varsızdı ƏMİRVARLI.

Sev dağı, bəyən düzü,
Al-yaşıl geyən düzü.
Qurbani bir saz çala,
Gül açа GƏYƏN düzü.

Bu qaya QARAQAYA,
Baş əydi sara qaya.
XOCALI kül olandan
Bağrımda yara qaya.

İş gəlib işdən keçib,
ŞİŞQAYA şişdən keçib.
Mənə dəyən yaranın,
Fəndi keşişdən keçib.

Sünbüləm, dəndən uzaq,
Yaylağam, səndən uzaq.
Tanrım, necə dözürəm,
QIRXPİLLƏKƏNDƏN uzaq.

Kəndimız MEŞƏLİDİ,
Qoynu bənövşəlidi.
Həsrətdən sərxoş olub,
Kədərdən nəşəlidi.

Yas yası baxta düzdü,
Zamana, vaxta düzdü.
Göz yaşlarım KƏLBƏCƏR,
Nisgilim TAXTA DÜZDÜ.

Yaman qonşu himlədi,
Yaralarım simlədi.
Qəlbi qəm qıfılladı,
Canı dərd tilsimlədi.

Hamının anası dərd,
Dünyanın mənası dərd,
Heç vaxt tək buraxmadı
Toyu sevinc, yası dərd.

Bəxt yönü bərdən düşə,
İşıq səhərdən düşə.
Sevinc hər axşam gələ,
Dərd bizə hərdən düşə.

Saçda dən doğulmuşam,
Dərdə tən doğulmuşam.
Ana bətnindən əvvəl
Mən dərddən doğulmuşam.

Çöldə yanan zəmidi,
Suda batan gəmidi.
Bu çalxanan dəryalar
Ürəklərin qəmidi.

SOFULU ah-zardadı,
Canım BARXUDARDADl.
BAĞANİS-AYRIM yanıb,
ƏKSİPARA dardadı.

İşlərin tərsinə bax,
Tarixin dərsinə bax.
Düşmənin hikkəsinə,
Tanrının hirsinə bax.

Gözümdən iraq yerlər,
Gözümə çıraq yerlər.
BORÇALITƏK yetimdi
Vətəndən qıraq yerlər.

Hardasan KƏRKÜKÜM, gəl,
Çəkilməzdi yüküm, gəl.
MOSUL dedim, ağladım
Biz-biz oldu tüküm, gəl.

Hər oymaq, hər kənd ağlar,
Dərdimdən DƏRBƏND ağlar.
Dərdə şeir yazaram
Hər misra, hər bənd ağlar.

Əyilən qəddim, haray,
Çağırram, cəddim, haray.
RƏVAN, səsimə səs ver,
Gəl, ÇUXURSƏDDİM, haray.

Evi olmaz abadan,
Gələn yox AĞBABADAN.
Babam dağdan ayrılıb,
İnciyib dağ babadan.

BAŞKEÇİD başdan ağlar,
Kirpikdən, qaşdan ağlar.
Gecələr yuxu yatmaz,
Durar o başdan, ağlar.

XƏTAİ atamızdı,
Sevgisi butamızdı.
Sevinci sevincimiz,
Xatası xatamızdı.

Yol gedəm ƏRDƏBİLƏ,
Dağ çəkəm dərdə, bilə.
Mən çalam, yar oxuya,
Sim bilə, pərdə bilə.

Ərkimdi ƏRK QALASI,
Dünəni dərk qalası.
Tufanlı tarixlərin
Dizləri bərk qalası.

Gözdə bəbək qalası,
Odu BABƏK QALASI.
Səsinə səs verməsək,
Meydanda tək qalası.

Kamanım, neyim ağlar,
Dizimdə heyim ağlar.
Quzeyə qovuşmasa,
Ağlar güneyim, ağlar.

Könlü imanlı gəzir,
Başı tufanlı gəzir.
ÇÖHRƏQANLI dünyanı
Çöhrəsi qanlı gəzir.

Göy ağlar, tavan ağlar,
Gənc ağlar, cavan ağlar.
XANQIZI gözü yolda,
Sızlar, NATƏVAN ağlar.

Gədələrdə hədə var,
Hədələrdə zədə var.
ƏLƏSGƏRSİZ, GÖYÇƏSİZ
Necə deyim dədə var?

Kəklik fərəsiz qalıb,
Ovu bərəsiz qalıb.
Küskündü VURĞUN ruhu,
DİLCAN dərəsiz qalıb.

Qurd yedi kəli dağda,
İtirdi əli dağda.
VURĞUN-ŞƏMŞİR dastanı
Dustaqdı DƏLİDAĞDA.

Bu millət şərə düşdü,
Dağ uçdu, dərə düşdü.
ŞƏMŞİRİM AĞDABANA,
GÜLLÜM TƏRTƏRƏ düşdü.

Yaş gözü yudu getdi,
Qəlbimin odu getdi.
Şəhidlər sıralandı,
Birinci XUDU getdi.

Oğul bizim canımız,
Ata din-imanımız.
XƏLİL-TƏBRİZ dastanı
Şəhidlik dastanımız.

Qeyrət göynər, ar sızlar,
Yarsız qalsa, yar sızlar.
Burda BƏXTİYAR yanar,
Orda ŞƏHRİYAR sızlar.

Sevinci az elədi,
Dərdi taraz elədi.
Həsrətimiz Məmmədi
MƏMMƏD ARAZ elədi.

Göy köhləni, Ay nalı,
Sözü səngər, Aynalı.
Necə yaddan çıxardım
HÜSEYN OĞLU ZEYNALI.

Gözü yolda qız qalar,
Qılıncım qınsız qalar.
MƏMMƏD ASLANSIZ ölər,
AĞA LAÇINSIZ qalar.

Yarsızam, yarım layla,
Layla, ŞAHMARIM layla.
Elə keşik çəkənim,
Yurda qahmarım, layla.

Dilimiz qısa qaldı,
Yasımız yasa qaldı.
Çadırlara dil demək
AQİL ABBASA qaldı.

Arx dərdim, dəhnə dərdim,
Tamaşa, səhnə dərdim,
Ağlar təzə dərdimə,
Dil deyər köhnə dərdim.

ZƏNGƏZUR zəngin, haray,
Döyüşüm, cəngim, haray.
Yurd həsrəti çəkəndən
Açılmır rəngim, haray.

Başım üstən sar keçər,
Sar məni basar keçər.
Müxənnətə yurd olub,
Yasdadı BASARKEÇƏR.

Gül çəmənin mehrimi,
Qaya dağın möhrümü?
MEHRİM uzaqda qalıb
Kimə salım mehrimi?

ÜZ kəndi, ÜZ elləri,
Yanşaq, qopuz elləri.
Hanı bəy babalarım,
Hanı OĞUZ elləri?

Baxdım bağa-bostana,
Həsrət döndü dastana.
Görünmür PALANTÖKƏN,
GÜLLÜ YURD, AĞYASTANA.

Yandıran sənəm ola,
Od tutan sinəm ola.
SARIYAL göy yaylağım,
ÇADIRDAŞ binəm ola.

YAYÇI DÜZÜ yaylamaz,
Könlümə nur paylamaz.
Mən onu çağırmasam
O məni haraylamaz.

KİRS dağa gəl-gəl deyəm,
Boz daşına ləl deyəm.
Şeirimi şirin yazam,
Sözümü gözəl deyəm.

SALVARTI mənim idi,
Sünbülüm, dənim idi.
BƏRK DƏRƏNİN bərkliyi,
Düşmənə qənim idi.

Gur çaylarım gur idi,
Həsrət gördü qurudu.
Göz görmür, əl yetişmir,
Necə gəzim URUDU?

Sellərin səsindəyəm,
Zilində, pəsindəyəm.
Hərdən elə bilirəm
OXÇU dərəsindəyəm.

Canımda bir sazaq var,
Yaxın yoxdu, uzaq var.
Nə NÜVƏDİ, QAÇARAN,
Nə də ki, AĞBULAQ var.

Elim-günüm QƏMƏRLİ,
Gözəlləri nəmərli.
Əli daşdan xınalı,
Beli güldən kəmərli.

Bu bölgə AXTARDIMI,
Gözdən uzaqdadımı?
Ondan ayrı düşənlər,
Daşdırmı, taxtadırmı?

Gözümüzə çən gəlib,
Dərd dağlara tən gəlib.
AŞIQ SADIQ yanğısı
DƏRƏÇİÇƏKDƏN gəlib.

Dərd bizi yedi getdi,
Sözünü dedi getdi.
Göz yumdum ZƏNGİBASAR,
Göz açdım VEDİ getdi.

Ruh uçar, can tapılmaz,
Dərdə dərman tapılmaz.
VEDİDƏ tufan qopub,
Bir də FƏRMAN tapılmaz.

İçən su içməz oldu,
Göz gözü seçməz oldu.
DƏDƏLİ körpüsündən
Dədələr keçməz oldu.

DİKPİLLƏKƏN, MIXTÖKƏN
Oldu yada diz çökən.
SARIYERİN dərdidi
Bağrımı didib sökən.

Tapıb bir bəla göllər,
Qəmginmi ALAGÖLLƏR?
Üstə çən-duman çöküb
Bürünüb şala göllər.

Xeyrimizə şər dəydi,
Qəddimizi dərd əydi.
Əyilməzdi ƏYRİCƏ,
ƏYRİCƏNİ dərd əydi.

QAZAN gölün qazanı,
Qaytara yol azanı.
Yurdu məndən ayıran,
Allah versin cəzanı.

Dağ üstündə dağ idi,
SOĞANLI yaylaq idi.
Gülləri balla, qaymaq,
Çiçəkləri yağ idi.

Dağ kimi duran ola,
Toy-büsat quran ola.
Yayda arxam, həmdəmim
TƏKƏDONDURAN ola.

ARPAÇAY aşıb-daşar,
Bulaqlar sızıldaşar.
DƏRƏLƏYƏZ deyəndə
Huş gedər, ağlım çaşar.

Hanı BAŞGÖZƏLDƏRƏ,
Gözə qaş GÖZƏLDƏRƏ.
VERS dağı kirpikdə nəm,
Gözdə yaş GÖZƏLDƏRƏ.

Dəyişən adlar, haray,
Sınan qanadlar, haray.
Doğmalar yas içində,
Kefdədi yadlar, haray.

Kimdi yağım, kimdi, Allah,
Hardadı səhvim, Allah.
Torpağın itkisidi
Ölümüm, məhvim, Allah.

Nəsil qoru, ad daşı,
Damağında dad daşı.
Torpaq itirən kəsin
İtər ruhu, yaddaşı.

İnsanam, əlim hanı,
Dənizəm, ləlim hanı?
Axrım bu imiş, demək,
Mənim əvvəlim hanı?

Ahımdan duman sızlar,
Din yanar, iman sızlar.
Torpaq imanım idi,
Aldılar imansızlar.

Qovrulan içim, layla,
Günahım, suçum, layla,
Mən nə qədər yol gedim?
Dayanmır köçüm, layla.

Burulğan burdu bizi,
Düşmən uçurdu bizi.
Tapdı zəif damarı,
Arxadan vurdu bizi.

Qovuşmadım haqlara,
Yem oldum balıqlara.
Nə var görüşlərdə var
Lənət ayrılıqlara.

Dad aldılar dadımdan,
Üzdülər əcdadımdan.
Mənə bir toy tutdular
Adım çıxdı yadımdan.

İtənlər ələ gəlməz,
İstərəm gələ, gəlməz.
KƏRƏM yüz yol çağırsa,
Köməyə Lələ gəlməz.

Sordular qanım getdi,
Aldılar canım getdi.
Torpağım gedən günü
Dinim-imanım getdi.

Can bağçalar, can bağlar,
Yaralarım şan bağlar.
Bayatı bir zəmidi,
Dərzi ZƏLİMXAN bağlar.

MÜNDƏRİCAT

Göyçədən gələn səslər 5
Şair harayı 68
Səslərin görüşü 81
Sizi qınamıram 99
Oxu, Mikayıl, oxu 110
Açın ürəyimi, həkimlər, açın 114
Haqq-ədalət 119
Yurd ağrısı 136
Vətən yaraları 146
Göyçə dərdi 164
O qızın göz yaşları 195
Kökündən qopan ağac 221
Zəlimxan qarğışı 232
Rəsul Həmzətova məktub 240
İranın Azərbaycandakı səfiri Əfşar Süleymaniyə açıq məktub 245
Bir kövrək havadı sazımda Kərkük 258
Sürgünlə söhbət 269
Ozan evi, Saz evi 311
Dərdimizin bayatı düzümü 331

Şərq East
Qərb West
1986-cı ildən since 1986

"Şərq-Qərb" Nəşriyyat Evinin məhsuludur.
www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul **SEVİL İSMAYILOVA**
Texniki redaktor **GÜLTƏKİN YUSİFOVA**
Dizayner **ELŞƏN QURBANOV**
Səhifələyici **XƏQANİ FƏRZALIYEV**
Korrektorlar **FƏRİDƏ SƏMƏDOVA**
ELŞAD ÇOBANLI
Nəşriyyat direktoru **RASİM MÜZƏFFƏRLİ**

Çapa imzalanmışdır:28.02.2013. Format 60x90 1/16. Ofset çapı
Fiziki çap vərəqi 22. Sifariş N 12 209. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49



"**Şərq-Qərb**" Nəşriyyat Evinin bütün kitablarının toplusu:
http://www.eastwest.az/az/books/ ünvanda